Xalqın qəzeti!

# Xalq qəzeti

№ 271 (30965) 25 dekabr 2025-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi


# Xankəndi – Qarabağ Zəfərinin baş ünvanı

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Xankəndi və Ağdama səfəri

## Xankəndi şəhərində Zəfər parkının açılışı



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dekabrın 24-də Xankəndi şəhərində Zəfər parkının açılışında iştirak ediblər.**

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Prezidentin xüsusi nümayəndəsi Elçin Yusubov dövlətimizin başçısına və birinci xanıma parkda yaradılmış şərait barədə məlumat verdi.

Ümumi sahəsi 9 hektar olan Zəfər parkının təməli bu ilin fevralında Prezident İlham Əliyev tərəfindən qoyulub. Dövlətimizin başçısı iyulda burada görülən işlərlə tanış olub.

*(ardı 2-ci səhifədə)*

## "Təyyarə olayı"nın 1 ili – hər şey yaxşı olacaqmı?



Səhifə ⇨ 12

## "İtkin düşmüşlər" problemi qloballaşır



Səhifə ⇨ 16

## Milli dövlətçilikdə inanc sərbəstliyi və multikulturalizm




**Bakıda Azərbaycan Din Xadimlərinin II Forumunun işə başlaması ölkəmizin dövlətçilik fəlsəfəsinin ən incə və dayanıqlı sütunlarından biri olan dünyəvilik, vicdan azadlığı və tolerantlıq anlayışlarının yenidən və açıq şəkildə siyasi müzakirə müstəvisinə çıxarılmasıdır. Xüsusilə qlobal miqyasda dinin getdikcə daha çox ideoloji və geosiyasi alətə çevrildiyi bir dövrdə bu mövzunun Bakıda sistemli şəkildə gündəmə gətirilməsi diqqətdən kənarda qalmamalıdır.**

Dünyəvilik və vicdan azadlığının bu mərhələdə siyasi diskursun mərkəzinə çıxarılması strateji zamanlama qərarıdır. Qlobal miqyasda ideoloji sərhədlərin sərtləşdiyi, din faktorunun təhlükəsizlik, identiklik və legitimlik alətinə çevrildiyi bir şəraitdə Azərbaycan mövqeyini qabaqlayıcı şəkildə müəyyənləşdirir. Bütün bunlar risklərin öncədən idarə olunmasına hesablanmış siyasi davranışdır və dövlətin öz dəyərlər sistemini dəyişən beynəlxalq mühitə uyğun olaraq yenidən çərçivələndirdiyini göstərir. Məhz bu mürəkkəb mənzərədə Bakı dünyəvilik və vicdan azadlığını dövlət suverenliyini və sosial sabitliyi qoruyan strateji mexanizm kimi təqdim etməyə çalışır.

*(ardı 15-ci səhifədə)*

## Səmimi təbriklər, xoş arzular

**Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Türkiyə Prezidenti dövlətimizin başçısına ad günü münasibətilə təbriklərini çatdırıb, ona prezidentlik fəaliyyətində uğurlar və möhkəm cansağlığı arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Telefon söhbəti zamanı Azərbaycan Prezidentinin Türkiyəyə, Türkiyə Prezidentinin isə ölkəmizə səfərləri məmnunluqla xatırlanaraq, bütün bunların qardaşlıq, dostluq və strateji müttəfiqlik münasibətlərimizin inkişafında roluna toxunulub.

Rəcəb Tayyib Ərdoğan Türkiyənin vitse-prezidenti Cevdet Yılmazın Azərbaycana səfərini qeyd edərək, Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın Bakıda keçirilmiş 12-ci iclasının uğurlu nəticələrini vurğulayıb.

Telefon danışığı əsnasında dövlət başçıları əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıblar.

***

**Rusiya Federasiyasının Prezidenti Vladimir Putin dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Rusiya Prezidenti dövlətimizin başçısını ad günü münasibətilə təbrik edib, ona prezidentlik fəaliyyətində uğurlar və möhkəm cansağlığı arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Telefon söhbəti zamanı Azərbaycan və Rusiya prezidentlərinin keçirdikləri son görüşdə müzakirə olunmuş məsələlərə toxunulub, ikitərəfli əməkdaşlığın perspektivləri, həmçinin regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***

**Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Şavkat Mirziyoyev dövlətimizin başçısına ad günü münasibətilə təbriklərini çatdıraraq, ona prezidentlik fəaliyyətində yeni uğurlar və möhkəm cansağlığı arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Telefon söhbəti zamanı Azərbaycan Prezidentinin Özbəkistana, Özbəkistan Prezidentinin isə ölkəmizə həyata keçirdikləri səfərlər və aparılmış səmərəli müzakirələr məmnunluqla xatırlanıb.

Dövlət başçıları Azərbaycan–Özbəkistan münasibətlərinin qardaşlıq, dostluq və müttəfiqlik prinsiplərinə əsaslandığını qeyd edərək, gələcəkdə də əlaqələrin bütün sahələr üzrə uğurla inkişaf edəcəyinə əminliklərini bildirib, əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıblar.

***

**Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Qazaxıstan dövlətinin başçısı Prezident İlham Əliyevi ad günü münasibətilə təbrik edib, ona prezidentlik fəaliyyətində uğurlar və cansağlığı arzulayıb.

Azərbaycan Prezidenti göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Telefon danışığı əsnasında ölkələrimiz arasında dostluq və strateji müttəfiqlik münasibətlərinin bütün sahələr üzrə uğurla inkişaf etdiyi vurğulanıb, əlaqələrimizin genişlənməsində yüksəksəviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətinə toxunulub. Bu xüsusda, Azərbaycan Prezidentinin oktyabrda Qazaxıstana dövlət səfəri, həmçinin Kasım-Jomart Tokayevin ölkəmizə səfəri məmnunluqla xatırlanıb.

Dövlət başçıları əməkdaşlığımızın perspektivləri və gələcək təmaslar barədə fikir mübadiləsi aparıblar.

***

**Dekabrın 24-də Gürcüstanın Baş naziri İrakli Kobaxidze Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Gürcüstanın Baş naziri Prezident İlham Əliyevi ad günü münasibətilə təbrik edib, ona prezidentlik fəaliyyətində yeni uğurlar və möhkəm cansağlığı arzulayıb.

Dövlətimizin başçısı göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Söhbət zamanı dostluq və mehriban qonşuluq prinsiplərinə əsaslanan ikitərəfli münasibətlərimizin uğurla inkişaf etdiyi vurğulanıb, əməkdaşlığımızın perspektivləri barədə fikir mübadiləsi aparılıb.

***

**Dekabrın 24-də İsrail Dövlətinin Prezidenti İsxak Hersoq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

İsrail Prezidenti dövlətimizin başçısına ad günü münasibətilə təbriklərini çatdırıb, ona prezidentlik fəaliyyətində yeni uğurlar və möhkəm cansağlığı arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Telefon danışığı zamanı ölkələrimiz arasında əlaqələrin inkişaf etdiyi vurğulanıb, əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

***

**Dekabrın 24-də Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Aleksandar Vuçiç dövlətimizin başçısını ad günü münasibətilə təbrik edərək, ona prezidentlik fəaliyyətində yeni uğurlar və cansağlığı arzulayıb.

Dövlətimizin başçısı göstərilən diqqətə və təbrikə görə minnətdarlığını ifadə edib.

Telefon söhbəti zamanı Prezident İlham Əliyevlə Prezident Aleksandar Vuçiçin görüşləri məmnunluqla xatırlanıb, iki ölkə arasında tərəfdaşlığın müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulanıb.

Dövlət başçıları ikitərəfli əlaqələrin perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlərlə bağlı fikir mübadiləsi aparıblar.

*Prezidentin Mətbuat Xidməti*

# Xankəndi şəhərində Zəfər parkının açılışı







*(əvvəli 1-ci səhifədə)*

Bildirilib ki, parkın girişindən Zəfər tağına doğru 44 pilləkən salınıb. Onların mərkəzi hissəsində quraşdırılmış lövhələr üzərində müharibənin gedişi barədə məlumatlar, o cümlədən azad olunmuş yaşayış məntəqələrinin adları yazılıb. Eyni zamanda, 2023-cü ildə keçirilmiş antiterror əməliyyatının nəticələrini əks etdirən məlumatlar da lövhələrdə qeyd olunub.

Zəfər tağının hündürlüyü Vətən müharibəsi günlərinin sayına görə rəmzi olaraq 44 metr təşkil edir. Bina 10 mərtəbədən və terrasdan ibarətdir. Terrasda Zəfər Günü ilə bağlı 8 rəqəmini simvolizə edən konstruksiya inşa olunub. Doqquzuncu mərtəbədə "Zəfər qalereyası" sərgi-nümayiş zalı yaradılıb.

Parkın ərazisində genişmiqyaslı abadlıq və quruculuq işləri həyata keçirilib, fəvvarələr yaradılıb, işıqlandırma və musiqilərin səsləndirilməsi üçün sistemlər quraşdırılıb. İnşaat işləri zamanı mövcud ağacların qorunmasına xüsusi diqqət yetirilib. Ümumilikdə, parkda 500-dən çox ağac və 11 mindən artıq kol və gül əkilib.

Qeyd edək ki, Xankəndi şəhərində Zəfər parkının yaradılması bir neçə mühüm əhəmiyyət daşıyır. İlk növbədə, bu layihə Azərbaycan xalqının tarixi ədalətin bərpası və ərazi bütövlüyünün qorunması uğrunda göstərdiyi döyüş əzmini, misilsiz qəhrəmanlığını və 44 günlük Vətən müharibəsi zamanı qazandığı möhtəşəm Qələbəni əks etdirir. Eyni zamanda, park Xankəndi sakinlərinin və qonaqların asudə vaxtlarının səmərəli təşkilinə xidmət edəcək. Bundan başqa, belə istirahət məkanlarının yaradılması işğaldan azad olunmuş ərazilərdə görülən genişmiqyaslı bərpa-quruculuq işlərinin uğurla davam etdiyini göstərir.



# Prezident İlham Əliyev Ağdamda 2-ci yaşayış kompleksinin açılışında sakinlərlə görüşüb







**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dekabrın 24-də Ağdam şəhərində 2-ci yaşayış kompleksinin açılışında iştirak edib və buraya köçən sakinlərlə görüşüblər.**

Ağdam, Füzuli və Xocavənd rayonlarında Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına kompleksdə yaradılmış şərait barədə məlumat verdi.

Bildirildi ki, ərazisi 13 hektardan çox olan kompleksdə 11 məhəllə var. Burada 60 bina inşa edilib. Kompleksdə 114-ü birotaqlı, 464-ü ikiotaqlı, 536-sı üçotaqlı, 154-ü dördotaqlı olmaqla, ümumilikdə, 1268 mənzil var. Dekabrda buraya 104 ailənin (426 nəfər) köçürülməsi nəzərdə tutulur. 2026-cı ilin yanvar–fevral aylarında isə daha 1164 ailə (4772 nəfər) köçürüləcək.

Binalar daimi su, elektrik və sürətli internet xətləri, mənzillər isə istilik və isti su ilə təmin edilib. Kompleksin ərazisində genişmiqyaslı abadlıq-quruculuq işləri görülüb, uzunluğu 5 kilometrə yaxın olan daxili yollar çəkilib, idman və uşaq oyun meydançaları, velosiped zolağı, yerüstü və 1218 yerlik yeraltı avtomobil dayanacaqları yaradılıb.

Qeyd edək ki, dövlətimizin başçısı bu kompleksin təməlini 2023-cü ildə qoyub. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bu ilin fevralında kompleksdə görülən tikinti işlərinin gedişi ilə tanış olublar.

Qarabağın və Şərqi Zəngəzurun bərpasında əsas prinsip müasir standartlara uyğun məntəqələrin qurulması ilə keçmiş məcburi köçkünlərin rahat yaşayışını təmin etməkdən ibarətdir. Bununla yanaşı, sosial infrastrukturun yaradılması xüsusilə diqqət mərkəzində saxlanılır. İşğaldan azad edilmiş ərazilərimizdə müasir məktəblər, uşaq bağçaları, tibb müəssisələri tikilir, məşğulluğun təmin olunması üçün sənaye parkları, müxtəlif istehsal müəssisələri, xidmət sahələri yaradılır. Bütün bu tədbirlər Qarabağın və Şərqi Zəngəzurun qısa müddətdə dirçəldilməsinə, əhalinin dayanıqlı məskunlaşmasına və bölgənin sürətli inkişafına xidmət edir.

*

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam şəhərinə köçən sakinlərlə görüşdülər.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

*(ardı 3-cü səhifədə)*



# Prezident İlham Əliyev Ağdamda 2-ci yaşayış kompleksinin açılışında sakinlərlə görüşüb

*(əvvəli 2-ci səhifədə)*

## Prezident İlham Əliyevin çıxışı

– Mən sizi ürəkdən salamlayıram. Bu gün Ağdam şəhərinin tarixində çox əlamətdar bir gündür, tarixi bir gündür. Uzun fasilədən sonra ağdamlılar öz doğma şəhərinə qayıdırlar. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm. Əminəm ki, burada siz rahat yaşayacaqsınız, əmin-amanlıq şəraitində yaşayacaqsınız. Siz buna layiqsiniz. Uzun illər köçkün həyatını yaşamış insanlar üçün bu gün Ağdam şəhərində və işğaldan azad edilmiş bütün başqa ərazilərdə yeni, müasir şəhərlər, kəndlər, qəsəbələr salınır və artıq "Böyük Qayıdış" Proqramının əyani təzahürlərini hər kəs görə bilir.

İşğal dövründə Ağdam, demək olar ki, urbisidə məruz qalmışdır. Yəni şəhər Ermənistan dövləti tərəfindən tamamilə dağıdılmışdır. Bu, Ermənistan dövlətinin məqsədyönlü siyasəti, bizə qarşı olan düşmənçiliyin bariz nümunəsi idi. Məqsəd də tam aydın idi. Birincisi, talançılıq. Çünki bütün binaların daşları bir-bir sökülərək talan edilmişdir, müxtəlif yerlərdə, Ermənistan ərazisində satılmışdır. Digər tərəfdən, Ermənistan dövləti bu bölgələrdə Azərbaycan xalqının tarixi irsini tamamilə silmək istəyirdi. Üçüncü məqsəd isə bu şəhəri elə vəziyyətə salmaq idi ki, artıq burada yaşayış mümkün olmasın, azərbaycanlılar heç vaxt buraya qayıtmaq haqqında düşünməsinlər. Ancaq səhv etdilər. Biz, xalqımız bütün bu əzablı illər ərzində bir amalla yaşamışıq ki, öz doğma dədə-baba torpaqlarımıza qayıdaq və qayıdandan sonra bu torpaqları, bu şəhərləri, kəndləri bərpa edək. Azərbaycan xalqı heç vaxt işğalla barışmamışdır.







Əminəm, bütün xalqımız, o cümlədən keçmiş köçkünlər bilirdilər və inanırdılar ki, tarixi ədalət bərpa ediləcək. Halbuki Ermənistan–Azərbaycan münaqişəsi ilə məşğul olan, hər halda beynəlxalq təşkilatlar tərəfindən bu vəzifəni icra etməli olan qurumlar başqa fikirdə idi. Onlar Ermənistan dövləti ilə, işğalçı, talançı dövlətlə həmrəy idilər. Xüsusilə ATƏT-in Minsk qrupunun yarıtmaz və anti-Azərbaycan fəaliyyətini qeyd etmək istərdim. Bu qrup 1992-ci ildə yaradılmışdır və o vaxt bizim torpaqlarımızın işğal altına düşməsinin birinci mərhələsi idi. Bu qrupun və onun həmsədrlərinin məqsədi məsələni həll etmək əvəzinə, əksinə, bu işğalı əbədi etmək, Ermənistana haqq qazandırmaq, Azərbaycan xalqını və dövlətini isə işğalla barışdırmaq idi.

Mən 17 il ərzində ATƏT-in Minsk qrupunun həmsədrləri ilə təmasda olmuşam, onlarla çoxsaylı görüşlər keçirmişəm. Hər dəfə görüşəndə illər keçdikcə görürdüm ki, bunların məqsədi məsələni həll etmək, işğala son qoymaq, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasına nail olmaq yox, işğalı əbədi etmək idi. Sanki danışıqlar masasında bir tərəfdə Ermənistan və Minsk qrupunun həmsədrləri, digər tərəfdə isə Azərbaycan idi. Bax, bu 17 il ərzində keçirdiyim saysız-hesabsız görüşlərin nəticəsi budur. Hesab edirdilər ki, buna nail olacaqlar. Hesab edirdilər ki, bizi inandırmağa nail olacaqlar ki, biz öz əzəli torpaqlarımızdan əl çəkək. Ancaq yenə də Ermənistan dövləti kimi səhv etdilər.

Mən işğal dövründə dəfələrlə demişdim ki, xalqımız və dövlətimiz heç vaxt işğalla barışmayacaq, nəyin bahasına olursa-olsun, öz doğma torpaqlarını qaytaracaq. Bunu Prezident kimi fəaliyyətə başladığım ilk dəqiqələrdə - birinci andiçmə mərasimindəki çıxışımda və ondan sonrakı dövrdə bildirmişəm. Bu illər ərzində biz bir məqsəd ətrafında birləşmişdik ki, bir nöqtəyə vuraraq xalqımız bu müqəddəs missiyanı yerinə yetirsin.

Beş il bundan əvvəl şanlı İkinci Qarabağ müharibəsi və onun nəticələri haqq-ədaləti bərpa etdi, bizim hüquqlarımızı bərpa etdi, beynəlxalq hüququ bərpa etdi, bizim milli ləyaqətimizi bərpa etdi. Xalqımız qan tökərək öz ərazi bütövlüyünü bərpa edib. Ermənistan dövləti bir qarış, bir santimetr torpaq qaytarmaq fikrində deyildi. Ermənistanın bütün rəhbərləri, müstəqillik illərində Ermənistana rəhbərlik edən bütün şəxslər bir qarış torpaq qaytarmaq fikrində deyildilər. Biz onları məcbur etdik və xalqımız bütün dünyaya öz gücünü, qüdrətini, güclü iradəsini göstərmişdir. Xalq yumruq kimi birləşdi. Silahlı Qüvvələrimiz qəhrəmanlıq, fədakarlıq göstərmişdir. Allah bütün şəhidlərimizə rəhmət eləsin.

Cəmi 44 gün ərzində Ermənistanı böyrü üstə qoyduq. Bu günlər bu gün Xankəndidə açdığım Zəfər tağının pilləkənlərində də əks olunub. Əminəm ki, oraya da siz və bütün Azərbaycan vətəndaşları gedəcəklər, ziyarət edəcəklər. Bu gün ölkəmizdə ikinci Zəfər tağı açılmışdır - Bakıdan sonra Xankəndidə. Orada pilləkənlərin üzərində şanlı Zəfər yürüşümüzün hər günü təsbit edilib. Biz hər gün irəli gedirdik, hər gün şəhər və kəndləri azad edirdik və heç bir qüvvə bizim qabağımızda dura bilməzdi. Halbuki bizi 44 gün ərzində dəfələrlə dayandırmaq istəyənlər min cür təzyiq, təhdid və təxribat törətməyə çalışırdılar və hətta törədirdilər. Bizi qorxutmaq, bizi dayandırmaq, bizim şanlı Zəfər yürüşümüzü yarımçıq qoymaq və münaqişəni əbədi etmək – bax, bizə qarşı olan qüvvələrin məqsədi bu idi.

Təbii ki, 5 il keçəndən və biz 2023-cü ildə öz suverenliyimizi antiterror əməliyyatı nəticəsində tam bərpa edəndən sonra artıq bizə qarşı olan qüvvələr yeni reallıqla barışmağa məcbur idilər, biz onları məcbur etdik. O cümlədən bizim Qələbəmizi qəbul etməyənlər, bunu həzm edə bilməyənlər, ermənipərəst qüvvələr məcbur olaraq bugünkü reallıqlarla barışmalı oldular. Ermənistan dövləti bu vəziyyətlə barışmalı oldu.

Vaxtilə buradan uzaqda olmayan Xankəndi şəhərinin stadionunda "Qarabağ Ermənistandır və nöqtə" deyənlər "Qarabağ Azərbaycandır!" deməyə məcbur oldular. Yəni öz xoşu ilə yox, məcbur edən də biz olduq - xalqımız, dövlətimiz. Yəni bu tarixi biz heç vaxt unutmamalıyıq. O acı günləri yaşayan yaşlı nəsil təbii ki, heç vaxt unutmayacaq. Gənc nəsil unutmamalıdır. Bundan sonra gələn nəsillər, gələcək nəsillər unutmamalıdır, bilməlidir. Bu tarix həm məktəblərdə, həm ali məktəblərdə, ailələrdə əzbər olmalıdır. Yəni bu, bizim şanlı Zəfərimizdir. Eyni zamanda, bundan sonra sülh içində, təhlükəsizlik içində yaşamaq üçün biz bu tarixi heç vaxt unutmamalıyıq.

Biz bilirik bizim dostumuz kim olub, düşmənlərimiz kim olub. Əfsuslar olsun ki, düşmənlərimiz dostlarımızdan bir neçə dəfə çox olub. Amma bu gün bizim güclü iradəmiz, siyasi addımlarımız, Silahlı Qüvvələrimizin güclü olması artıq tamamilə yeni mənzərəni ortaya qoyur. Beş il bundan əvvəl döyüş meydanında qazandığımız Qələbəni biz 2 il bundan əvvəl antiterror əməliyyatı nəticəsində tam əldə etdik. Ondan sonra keçən 2 il ərzində bütün beynəlxalq təşkilatlarda bunu təsdiqlədik. Mənfur Minsk qrupunun tarixin arxivinə göndərilməsi də məhz bizim təkidimizlə olmuşdur. Bu ayın əvvəlində Minsk qrupu və ona bağlı olan bütün təsisatlar rəsmən ləğv edildi. Bu da bizim tələbimiz idi və Ermənistan tərəfi demək olar ki, 5 il ərzində buna müqavimət göstərirdi. Ancaq yenə də deyə bilərəm ki, bizim iradəmizin qarşısında heç kim dura bilməz.

Bugünkü yeni reallıqlar dünyanın aparıcı ölkəsinin Prezidentinin iştirakı ilə avqust ayında təsdiqləndi, möhürləndi. Bizim Qələbəmizin çox böyük və güclü möhürü də vuruldu, onunla da separatçılığın, bizə qarşı ərazi iddialarının, anti-Azərbaycan qüvvələrinin bizə qarşı açıq "soyuq savaşı"nın artıq sonu gəldi, separatçılığın kitabı bağlandı və Azərbaycan xalqı artıq bir neçə aydır ki, sülh içində yaşayır.

Bizim xalqımız böyük fəlakətlə üz-üzə qalmışdı. Bilmirəm, dünyada buna oxşar ədalətsizliklə üzləşən xalqlar var, yoxsa yox, - bəlkə də var, - amma son illərin tarixində ən böyük ədalətsizliklə biz üzləşmişdik. Çünki torpaqlarımız işğal altına düşdü. Belə hallar dünyada var. Biz nə birinci idik, nə də sonuncu. Amma bütün belə hallar olduğu vaxtda beynəlxalq təşkilatlar, böyük dövlətlər və müxtəlif ölkələrin siyasi dairələri bu işğalı qınayır, işğalçını məcbur etmək üçün müxtəlif üsullardan istifadə edir, sanksiyalar tətbiq edir. Bunu biz görürük, indi yaxın tariximiz bunu göstərir.

Ermənistan–Azərbaycan müharibəsi zamanı və müharibədən sonra atəşkəs dövründə beynəlxalq təşkilatlar düzgün qərar qəbul etsələr də, bu qərarların icrası üçün bir addım belə atmayıblar. Bax, bu təşkilatların, böyük dövlətlərin riyakarlığı, necə deyərlər, özünü burada bariz şəkildə göstərir. Bizi işğalla barışdırmaq böyük dövlətlərin əsas vəzifəsi idi. Bizim yanımızda olan tək ölkə Türkiyə idi. Buna görə biz türk qardaşlarımıza minnətdarıq, həm işğal dövründə, həm müharibə dövründə bizə daim siyasi və mənəvi dəstək vermişdir.

Müsəlman ölkələri. Onlar İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində bizim təkliflərimizə həmişə müsbət reaksiya verərək, lazım olan qərar və qətnamələri qəbul etmişdilər. Ancaq bütövlükdə götürəndə bizim müharibəmiz və işğal tariximiz bütün başqa, buna oxşar hadisələrdən fərqlənir. Çünki yenə də deyirəm, işğalçıya qarşı heç bir sanksiya tətbiq olunmadı. Bu gün dünyada müxtəlif yerlərdə müharibələr, toqquşmalar, münaqişələr baş alıb gedir. Ya beynəlxalq təşkilatlar, ya böyük nüfuzlu ölkələr dərhal nə edirlər? Sanksiyalar tətbiq edirlər.

Əlbəttə ki, sanksiyaların da böyük təsiri var. Xüsusilə Ermənistan kimi kiçik və zəngin olmayan, demək olar ki, kasıb ölkəyə əgər sanksiyalar tətbiq edilsəydi, əlbəttə, Ermənistan işğala son qoyardı. Ancaq nəinki sanksiyalar tətbiq edilmədi, əksinə, onlara bəziləri pulsuz silahlar verirdi, özü də bir milyon dollarlıq yox, milyardlarla dollar dəyərində. Bizim həm İkinci Qarabağ müharibəsi, həm antiterror əməliyyatı nəticəsində Ermənistandan qənimət kimi götürdüyümüz və məhv etdiyimiz silahların pul dəyəri təqribən 5-6 milyard dollardır. Bunların dağılmış bəzi nümunələri Bakıda Hərbi Qənimətlər Parkında nümayiş etdirilir, o cümlədən "İsgəndər M" ballistik raketi, hansı ki, ümumiyyətlə, Ermənistanda olmamalı idi. Çünki "İsgəndər M" raketinin ixracı qadağandır. Əgər belə demək mümkündürsə, ixraca açıq olan "İsgəndər E", yəni eksport növüdür. "İsgəndər M" raketi necə Şuşaya zərbə endirdi? Elə bu, böyük sualdır. Yəni pulsuz silah, maliyyə yardımı.

Hər il Amerikada, Fransada marafonlar keçirilirdi. Separatçılar, separatçı liderlər, - hansılar ki, bu gün Bakıda məhkəmə qarşısında cavab verirlər, - oraya vizalar alırdılar. Necə ola bilər? Minsk qrupunun həmsədr ölkələrinə separatçılar necə gedə bilərdilər? Axı digər separatçı ərazilər də var. Onlara Amerikaya, yaxud da ki, Fransaya kimsə viza verə bilər? Gedin, baxın, bu gün nə qədər separatçı inzibati ərazi var?! Ukrayna ərazisində, Moldova ərazisində, Gürcüstan ərazisində separatçı yuvalar var. Onların rəhbərlərinə Amerika, Fransa, Avropa ölkələri viza verə bilər? Yox. Amma erməni separatçılarına niyə vizalar verilirdi? Yəni dediyim sözün bir təsdiqi də budur.

Onlar telemarafonlar keçirirdi, 100 milyonlarla dollar pul yığırdılar. Onlara gizli mənbələrdən də pul ötürülürdü, bir məqsədlə ki, bu torpaqları əbədi işğal altında saxlasın, Azərbaycan xalqına divan tutsun, bu şəhər və kəndləri daim nəzarət altında saxlasın. Bax, görün biz kimlərlə kəllə-kəllə getmişik. Biz görün Ermənistana olan hansı dəstəyin fonunda İkinci Qarabağ müharibəsində Qələbə qazanmışıq. Yəni, ona görə bütün bunlar, necə deyərlər, həm düzgün çatdırılmalıdır, həm də bizim təhsil müəssisələrimizdə, ictimai məkanda dəqiq təqdim edilməlidir, yəni bu unudulmamalıdır və biz də heç vaxt unutmamalıyıq.

Düzdür, indi Ermənistanla Azərbaycan arasında sülh prosesi gedir və bu sülh prosesinin təşəbbüskarı da biz olmuşuq. Onu da hamı bilir və bilməlidir. Birinci təklifi biz vermişik, sülh müqaviləsinin mətninin müəllifi də bizik və oraya salınan bütün maddələrin də müəllifi bizik. Ancaq biz işğalı necə unuda bilərik?! Şəhidlərimizi necə unuda bilərik?! Xocalı qurbanlarını, digər günahsız insanların həlak olmasını necə unuda bilərik?! Heç vaxt unuda bilmərik və unutmamalıyıq. Çünki bu tarixi yaddaş həmişə bizim qəlbimizdə olmalıdır. Şəhidlərin əziz xatirəsi həmişə qəlbimizdə yaşamalıdır və heç vaxt şirin sözlərə uymamalıyıq. Bax, bunu mən bir də deyirəm. Mən bunu birinci dəfə deyil ki, deyirəm. Ayıq olmalıyıq, daim güclü olmalıyıq. Ona görə biz son 5 ildə ordu potensialımızı böyük dərəcədə gücləndirmişik və keçən ay hərbi paradda bütün dünya bunun bir hissəsini görə bildi. Əbədi sülhə nail olmaq üçün biz hər zaman potensial düşmənlərimizdən bir neçə dəfə güclü olmalıyıq. Bunu təmin edirik və edəcəyik.

Bu gün Ağdam rayonunda artıq həyat bərpa edilir. Üç kənddə insanlar yaşayır. Mən bu kəndlərin yenidən istifadəyə verilməsi mərasimlərində iştirak etmişəm - Kəngərli, Sarıcalı, Xıdırlı. Orada indi bir neçə min insan yaşayır və bu köç prosesi davam edir. Bu gün Ağdam şəhərində artıq insanlar yerləşir və bu yaşayış məhəlləsindəki 1268 mənzildə ağdamlılar yerləşəcək. Daha iki məhəllədə inşaat işləri gedir. Təkcə bu məhəllədə 60 çoxmərtəbəli bina var. Bütün şərait yaradılıb, infrastruktur qurulub və burada rahat yaşamaq üçün bütün imkanlar var. Təbii ki, Ağdam şəhərinin tam istədiyimiz kimi qurulması zaman tələb edir.

Onu da hər kəs yaxşı bilir ki, təkcə Ağdamda deyil, azad edilmiş bütün başqa ərazilərdə genişmiqyaslı quruculuq işləri gedir, "Böyük Qayıdış" Proqramı uğurla icra edilir. Ağdam rayonunda isə artıq bir neçə önəmli infrastruktur obyekti, mədəni obyekt istismara verilmişdir. Mən dünən Ağdam Sənaye Məhəlləsində yeni müəssisələrlə tanış olmuşam. Artıq 30-dan çox rezident qeydə alınıb. Onların bəziləri fəaliyyətə başlayıb, bəziləri isə yaxın gələcəkdə fəaliyyətə başlayacaq. Ağdam ölkəmizin böyük sənaye şəhəri olacaq. Bakı, Sumqayıt və Gəncədən sonra, yəqin ki, dördüncü sənaye mərkəzi olacaq.

Burada nəqliyyatla bağlı məsələlər həll olunur. Birinci layihə Bərdə-Ağdam avtomobil yolu, Bərdə-Ağdam dəmir yolu olmuşdur. Dəmiryol vağzalı istismara verilmişdir. Hazırda biz vaxtilə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə inşa edilmiş Ağdam–Xankəndi dəmir yolunun inşası ilə məşğuluq.

**Sakinlər:** Allah rəhmət eləsin.

**Prezident İlham Əliyev:** Allah ölənlərinizə rəhmət eləsin. Bu dəmir yolunu da biz yenidən qururuq. Ağdam Cümə məscidi birinci bərpa olunan tarixi-dini abidəmizdir. Qiyaslı məscidi, - hansı ki, tamamilə dağıdılmışdır və orada da Ağdam Cümə məscidi kimi Ermənistan dövləti bütün müsəlmanları təhqir etmək üçün heyvan saxlayırdı, - o da açıldı. Suvarma işləri öz həllini tapır. Xaçınçay su anbarı yenidən quruldu. Həm Ağdam üçün, həm də bütün ölkəmiz üçün vacib olan mədəni digər abidə "İmarət" kompleksidir. O da tamamilə bərpa edildi. Natəvanın ermənilər tərəfindən dağıdılmış heykəlinin eynisi qoyuldu. Məktəb istifadəyə verilmişdir. Çox gözəl, böyük məktəb, Muğam Mərkəzi, iki mehmanxana. Yəni o qədər işlər görülüb ki, bəlkə də hansılarısa mən unutmuşam. Amma yəni hər şey göz qabağındadır.

Bütün bunlar da cəmi 5 il ərzində yaradılıb. Yəni, bilirsiniz o nəyi göstərir? Təkcə söhbət ondan getmir ki, biz proqram qəbul etmişik və təbii ki, nəzarət var. Mən də dəfələrlə azad edilmiş ərazilərə gedərkən özüm şəxsən nəzarət edirəm. Söhbət ondan gedir ki, bütün xalqımız bu işləri böyük həvəslə görür. Əgər bu amil olmasaydı, biz qısa müddət ərzində bu qədər işi görə bilməzdik. Məsələn, dünən Xankəndidə Qarabağ Universitetinin yeni korpusunun açılışında idim. Tamamilə sıfırdan tikilmiş yeni, gözəl binadır. Maraqlanıram ki, burada yeni tədris prosesi necə gedir? Tələbələr, müəllimlər. Müəllimlərin bəziləri xaricdən, bəziləri isə Azərbaycanın müxtəlif yerlərindən gəlir dərs deməyə. Mən maraqlanıram ki, bəs motivasiya nədir? Onları nə cəlb edir? Mənə deyirlər ki, Qarabağ cəlb edir bizi.

Bir daha sizi təbrik edirəm, cansağlığı arzulayıram.

*

Sonra sakinlər çıxış etdilər.

**Birinci kişi sakin:** Cənab Prezident, bu gün Ağdam camaatı üçün ikiqat bayramdır. Həm Sizin doğum gününüzdür, həm də Ağdam şəhərinin açılışı günüdür. Siz prezidentlik dövrünüzdə nə söz vermişdinizsə, onun hamısını vaxtında yerinə yetirdiniz və bizi 30 illik Ağdam həsrətindən qurtardınız. Allah Sizə uzun ömür, cansağlığı versin. Mən bir ziyalı, bir şəhid atası və Qarabağ veteranı kimi öz adımdan, bütün ağdamlılar adından Sizə uzun ömür, cansağlığı, fəaliyyətinizdə uğurlar arzu edirəm. Sağ olun, Allah Sizə ömür versin.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Birinci qadın sakin:** Salam, əziz Prezident, xoş gəldiniz, Mehriban xanım. Sizi həmişə xalqın arasında görmək bizim üçün böyük fəxrdir, bizi çox sevindirir, qürur verir. Ağdamlılar adından Sizi təbrik edir, uzun ömür, cansağlığı arzulayırıq.

**İkinci qadın sakin:** Yüz yaşayasan.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Birinci qadın sakin:** Bizə qürur verir ki, Siz həmişə xalqın arasındasınız. Çox sağ olun, var olun. Sizə təşəkkür edirik ağdamlılar adından. Milli Qəhrəmanımız Allahverdi Bağırovun həyat yoldaşıyam. Təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Sağ olun.

**İkinci kişi sakin:** Mən də təqdimat edim: ruhani şair, Ağdamdan din xadimi Hacı Fərman Azançı. Cənab Prezident, əvvəla, sizlərin üzərinə Allahın salamı, rəhməti və bərəkəti olsun ki, bu gün o qədər bizim ürəyimiz açılıb ki, Quzanlıdan bu gün buraya gələndə and olsun Allaha, elə bilirdik ki, Kəbəni ziyarət eləməyə gəlirik. Ağdam bizim Kəbəmiz, qibləgahımızdır. Bu gün bütün bunları bizə bəxş edən Siz, Sizin Müzəffər, Qalib Ordunuz, şəhidlərimiz, döyüşən oğlanlarımızdır. Allah, Xudavəndi Aləm sizlərdən razı olsun. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı versin.

Mən nəyi demək istəyirəm, bayaq Ağdam məscidinin adını çəkdiniz. Mənim yadıma nə düşdü: mənfur ermənilər orada donuz saxlayırdılar. Siz gəldiniz, oranı bərpa etdiniz. Bu gün həmin məsciddən azan səsləri ucalır, insanları doğruluğa, dürüstlüyə, Allaha doğru ibadətə, itaətə dəvət edir. Siz o məscidin qarşısında durdunuz və dediniz ki, "Qarabağ Azərbaycandır!". Bu, elə-belə məsələ deyil. Ondan əlavə, bu gün Ağdam dirçəlir. Beş il müddətində sıfırdan o qədər işlər görülüb ki, təsəvvür edin, bu boyda binalar, məktəblər Ağdamın rəmzləri olubdur. Biz ağdamlıların ürəyində nisgil idi, yaşamışıq bunu. Təsəvvür edin, İmarət kompleksi, Çay evi, - göstəriş vermisiniz ora bərpa olunur, - Ağdamın simvollarından Çörək muzeyi, mədəniyyət evimiz, bir nömrəli məktəbimiz...

İnşallah, onlar da bərpa olunacaqdır. Yəni, bütün bunların həyata keçməyi Sizin əməyinizdir. Mən Ağdamın özündənəm. Bizim uşaqlığımız bu yerlərdə keçibdir. Bu gün bizi o günlərə qaytarmaq, bizə sevinc bəxş etmək elə-belə məsələ deyil. Biz Sizə 210 minlik ağdamlılar adından ürəkdən təşəkkür edirik. Allah Sizdən razı olsun, Allah Sizi var eləsin!

**Prezident İlham Əliyev:** Sağ olun.

**Üçüncü qadın sakin:** Bu gün biz buraya yığışmışıq. Şəhidlərimizin ruhu şad olsun, qazilərimizə Allah kömək olsun. Allah Sizə də cansağlığı versin. Ad gününüzü təbrik edirəm, cənab Prezidentimiz, başınıza dönüm Sizin. Yüz yaşayasan!

Bu gün 83 yaşımda, - yəqin, yadınızda olar, o vaxt çəkiliş olanda 79 yaşım var idi, indi 83 yaşımın içindəyəm, - burada, bu torpağın üstündə Sizinlə birlikdə, bütün xalqımla birlikdə durmağı Allah-taala mənə nəsib etdiyinə görə çox şadam. Çox şükür, o açar təkcə evimin açarı deyil, o torpağımızın açarıdır, qızıl açardır. Çox şadam, Allah Sizi var eləsin, canınız sağ olsun. O vaxt Allah-taaladan möhlət arzuladım ki, torpağımızın alınması münasibətilə gəlim, burada Sizə, Mehriban xanıma təşəkkürümü bildirim.

Cənab Prezident, 24 dekabr – bu gün Sizin ad gününüzdür. Öz ad gününüzdə burada bizimləsiniz. Biz Sizi ürəkdən təbrik edirik. Sizə gözəl günlər arzulayırıq. Allah razı olsun Sizlərdən.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Üçüncü kişi sakin:** Çox hörmətli Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyev, Azərbaycanın çox hörmətli birinci xanımı, vitse-prezidentimiz Mehriban xanım, çox xoş gəlmisiniz. Gələn qədəmləriniz mübarək olsun, sağlam olasınız, gümrah olasınız. Ağdam torpağına 32 il idi həsrət idik. Hər dəfə Sizinlə görüşdə deyirdiniz ki, Maarif, arxayın ol, mən o torpaqları işğaldan azad edib sizi oraya aparacağam. Həqiqətən, elə də oldu. Şəxsən mənim və bütün ağdamlıların bu gün o qədər yüksək səviyyədə sevinci var ki, adam bilmir, nədən başlasın, nədə qurtarsın. Bu gün Sizin doğum gününüzdür. Mən hər ikinizi, sizin övladlarınızı təbrik edirəm. Doğum gününüz münasibətilə Sizə sağlam ömür, uğurlar arzu edirəm. Allah Sizi qorusun.

Bir də demək istəyirəm, cənab Prezident, uzun illərin təcrübəsində görmüşəm ki, İlahinin yaratdığı sevimli bəndəsi xeyirxah işlərlə məşğul olur - körpüsü olmayan yollara körpü salır, yolu olmayan yerlərə yol, işığı olmayan şəhərə işıq çəkir, suyu olmayan yerlərə su çəkir, evi olmayan adamların hamısına ev tikir, yardım edir. Bunların hamısı hər ikinizdə var - həm Prezident İlham Əliyevdə, həm də Azərbaycanın birinci xanımı Mehriban xanımda. Ona görə ki, Siz Ulu Öndərimiz Heydər Əliyevin övladısınız və onun tapşırığı, varisliyi ilə Azərbaycanı həmişə qoruyursunuz. Biz buna sevinirik, şad oluruq.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Həmin kişi sakin:** Ulu öndərin vəsiyyətlərinin hamısını mən bilirəm. Onların hamısına əməl edirsiniz. O deyirdi, tapşırırdı ki, Siz Azərbaycanın işğal olunmuş 20 faiz torpağını bərpa etməlisiniz, sərhədləri düzgün müəyyənləşdirməlisiniz. İşğal olunmuş kəndləri, şəhərləri, o yerlərin hamısını azad etməklə yanaşı, yeni kənd, yeni şəhər, yeni qəsəbə salmalısınız. Bunların hamısını edirsiniz, cənab Prezident, Allah Sizi qorusun. Mən bir ağsaqqal kimi, – 81 yaşım var, – bunu deyirəm, İlahi qüvvə var, Sizə heç bir qüvvənin gücü çatmaz. Ona görə ki, deyilən bu işlərin hamısını Siz İlham Heydər oğlu Əliyev ürəkdən, yatmadan, dincəlmədən, əziyyət çəkə-çəkə edirsiniz. Hansı yerdə, hansı rayonda təməl qoyursunuzsa, onun icrası ilə maraqlanır, açılışında iştirak edirsiniz. Buna vaxt lazımdır, sağlamlıq lazımdır. Allah Sizə sağlamlıq versin, amin. Eləcə də Mehriban xanıma Allah sağlamlıq versin. Allah Sizi qorusun.

Siz Azərbaycanın 20 faiz torpağını işğaldan azad etdiniz. Otuz iki il idi ki, biz Ağdam üzünə həsrət idik. Şəxsən mən hər dəfə Sizinlə görüşəndə deyirdiniz ki, tələsmə, mərhələ-mərhələ o günə də gəlib çatacağıq. Mehriban xanım deyirdi o sözü. Doğrudan da, şükürlər olsun bu günə ki, Siz onu həyata keçirə bildiniz. Elə qüvvələrlə rastlaşırdınız ki, mən televizorun qabağında saatlarla ayaq üstə durub gözləyirdim ki, görüm nə cavab alınacaq. Ona elə cavab verirdiniz, mat olurdu. Ona elə cavab verirdiniz ki, o, Sizin sözünüzdən dönə bilmirdi, Sizə baş əyirdi.

Bunların hamısı Azərbaycanın milli qurucusu Heydər Əliyevin təcrübəsi idi. Onun vəsiyyəti idi. O, Azərbaycanın yüksəksəviyyəli memarı idi. Hər dəfə onunla görüş keçirəndə mən elə bilirdim ki, dünya bizimdir. Elə bilirdim ki, həyat bizimdir. O hakimiyyətə gəlməsə idi, Azərbaycan yox idi. O, hakimiyyətə gələndən sonra biz dirçəldik. Biz ondan sonra hər yerdə tanındıq. Həm də dünyanın hər yanında deyirdilər ki, Azərbaycanı Heydər Əliyev tanıtmışdır. İndi isə Sizin mərdliyiniz, qoçaqlığınız, güclü rəhbərliyiniz hesabına, şəhidlərimizin, qazilərimizin gücü, müharibə veteranlarımızın səyi ilə biz işğal olunmuş torpaqlarımızı azad etdik.

*(ardı 4-cü səhifədə)*

# Prezident İlham Əliyev Ağdamda 2-ci yaşayış kompleksinin açılışında sakinlərlə görüşüb




*(əvvəli 3-cü səhifədə)*

İndi gözəl şəhərlər salırsınız. Sizə uzun ömür, sağlamlıq arzulayıram. Arzu edirəm ki, heç bir pis qüvvə Sizə toxunmasın. Biz onu həmişə deyirik. Bütün ağdamlılar Sizi sevir. Balacasından tutmuş böyüyünə kimi bütün Ağdam camaatı Sizi dəstəkləyir. Hər dəfə söhbət düşəndə deyirlər, Allah İlham Əliyevə dəyməsin, Allah Mehriban xanıma dəyməsin. O, Azərbaycanın birinci xanımıdır. O, Azərbaycanın vitse-prezidentidir. O, İlham Əliyevə çox yaxşı kömək edir. Mən və bütün ağdamlılar arzu edirik ki, balaca Heydərimiz həmişə sağlam, gümrah olsun, Azərbaycana rəhbər olsun, Sizin özünüzün yetişdirməniz, kadrınız olsun. Necə ki, Ulu Öndərimiz Heydər Əliyev Sizi yetişdirib, onun vəsiyyətlərinin hamısına əməl edirsiniz, özü də yüksək səviyyədə. Bu hər övladın işi deyil. İndi isə balaca Heydər Azərbaycanın rəhbəri olsun. Biz onunla fəxr edirik. Biz Sizinlə fəxr edirik. Sizi sevirik, Sizi dəstəkləyirik. Bunu bütün ağdamlıların adından deyirəm, bütün komandamızın adından deyirəm.

Bir məsələni demək istəyirəm ki, mən Qarabağ atlarını ermənilərdən çox cəsarətlə aldım. O zaman aldım ki, 1992-ci il fevral ayının 26-sı idi, 366-cı alayın köməyi ilə Xocalıya hücum etdilər, Xocalını çox pis günə saldılar. Orada mənim 15 nəfər yaxın qohumum şəhid oldu. Beş nəfər yaxın qohumum əsir düşdü. Bu zaman onlar Qarabağ atını özəlləşdirmək, özününküləşdirmək istəyirdilər. Ona nail ola bilmədilər. Biz mərdliklə, qoçaqlıqla o atları gətirdik, Üçoğlanda toyuq fermasına yığdıq, orada saxladıq. Sonra da onları öz gücümüzlə Bakıya apardıq. Siz 2014-cü ildə Ağdamda köçkün şəhərciklərinin açılışında iştirak edəndə Sizə çatdırdıq ki, bəs Qarabağ atlarının vəziyyəti yaxşı deyil. Çox sağ olun, minnətdaram. Bu atlar Ağdamın milli simvolu idi. Ağdama böyük hörmət etdiniz, Qarabağ atı üçün böyük kompleks tikdirdiniz, Mehriban xanım da ona xarici dildə kitab yazdırdı, bütün dünyanın hər yanına yaydı.

Quzanlı kimi böyük bir şəhər salmısınız orada. Allah Sizdən razı olsun. Ağdam camaatı Sizə ömrü boyu minnətdardır ki, Qarabağ atını Ulu Öndərimiz Heydər Əliyevin tapşırığı ilə regionların iqtisadi inkişafı dövlət proqramına saldınız. İndi Sizin və Mehriban xanımın hesabına orada Qarabağ atı inkişafdadır, özü də yüksək səviyyədə.

Bizim qoşa minarəli Ağdam məscidini, Cümə məscidini ermənilər məhv etmişdi. Çox xırdalamıram. Onu Siz yenidən bərpa etdiniz. Biz ağdamlıların ürəyindən keçən işləri etdiniz. Muğam evini yaratdınız. Muğam evi bizim Ağdam üçün ən lazımlı bir yerdir. Həm Muğam evi, həm Qarabağ atı, həm də ki, o başqa işlərin hamısını Siz yüksək səviyyədə gördünüz. Allah Sizin köməyinizdə olsun. Siz yaxşı ailənin, gözəl ailənin, Ulu Öndərimiz Heydər Əliyevin düzgün, cəsarətli oğlusunuz. Onun vəsiyyətlərini Siz yerinə yetirdiniz. Öpürəm Sizi. Bütün ağdamlıların adından Sizə öz təşəkkürümüzü, minnətdarlığımızı bildiririk. Biz səni sevirik. Səni də, bütün uşaqlarını da, balaca Heydəri də sevirik.

**Prezident İlham Əliyev:** Sağ olun, mən də sizi sevirəm.

**Həmin kişi sakin:** Sənin arxanca haraya desən, getməyə hazırıq. Siz ki, o qatarı gətirib Ağdama çıxarmısınız, nə desən, etməyə hazırıq. Ağdamda Baş plan üzrə gözəl şərait yaradırsınız. O Baş plan haqqında mənim məlumatım var. Allah Sizə ömür versin. Allahdan arzu edirəm ki, İlahi qüvvə sənə, yoldaşına, balalarına sağlam ömür versin.

**Prezident İlham Əliyev:** Sağ olun.

***

Daha sonra sakinlərə evlərin açarlarının təqdim edilməsi mərasimi oldu.

Dövlətimizin başçısına minnətdarlığını bildirən **Maarif Hüseynov** dedi: Öpürəm Sizi. Bütün Azərbaycanı yaşatdın, təkcə Ağdamı yox. Ağdamın əhalisi səni çox istəyir, sənin arxandadır, necə deyim, ürəyin istəyən qədər sənə köməyi var. Öpürəm səni, öpürəm.

**Prezident İlham Əliyev:** Çox sağ olun. Bilirsiniz, biz Eyvazxanbəylidə də gözəl bir mərkəz yaradacağıq.

**Maarif Hüseynov:** Sağ olun, bilirəm, bilirəm.

**Prezident İlham Əliyev:** Yəni atın əsl vətəni oradır da, bilirsiniz.

**Maarif Hüseynov:** Oradır, amma inanın ki, o nəslin korlanmasının qarşısını alan birinci növbədə Ulu Öndərimiz Heydər Əliyev oldu.

**Prezident İlham Əliyev:** Amma siz o vaxt o atları çıxarmasaydınız, onlar batacaqdı.

**Maarif Hüseynov:** Erməni sevinəcəkdi, deyəcəkdi, Qarabağ da bizimdir, elə Qarabağ atları da. Öpürəm Sizi, çox sağ olun. Sizə uzun ömür arzu edirəm. Balalarınız xoşbəxt olsun. O balaca Heydər Sizə həmişə dayaq olsun.

**Mehriban xanım Əliyeva:** Balaca Heydər artıq böyüyüb (gülür).




**Maarif Hüseynov:** Çox xoşbəxt olsunlar. Balaları ilə xoşbəxt olsun.

**Mehriban xanım Əliyeva:** Çox sağ olun.

**Prezident İlham Əliyev:** İki uşağı var.

**Sakinlər:** Allah saxlasın.

**Prezident İlham Əliyev:** İki oğul.

**Maarif Hüseynov:** Siz Azərbaycanı bütün dünyada tanıdırsınız. Siz o polad yumruğunuzla elə cəsarətli komandanlıq edirdiniz ki, həyatda heç vaxt uduzmazsınız. Siz xeyirxah adamsınız. Bax o da, Siz də. Yaradırsınız, xalqı yaşadırsınız, xalqa çörək verirsiniz. Bunlar hamısı Sizin qanınızda var, Sizdə var. Sağ olun.

**Prezident İlham Əliyev:** Çox sağ olun. Təbrik edirəm, xoşbəxt yaşayın.

**Maarif Hüseynov:** Çox sağ olun, Allah Sizdən razı olsun.

***

Sonra xatirə şəkilləri çəkdirildi.




***

**Qadın sakin:** Sizin ad gününüzü təbrik edirəm. Allah Sizə uzun ömür, cansağlığı versin. Allah-taala Sizi dövlətimizin, millətimizin üzərindən əskik etməsin, əskik olmayasınız. Siz bu gün bizə 30 illik həsrətin sevincini yaşatdınız. Doğma Vətənimizə qayıtdığımız üçün Sizə minnətdarlığımı bildirirəm. Allah Sizi qorusun. Biz anaların xeyir-duası həmişə Sizin üstünüzdə olsun.

**Kişi sakin:** Cənab Prezident, bu gün doğum gününüzdə burada camaatla görüşməyinizlə, elə bil ki, Ağdamı dirçəltdiniz, camaatın ürəyini genişləndirdiniz. Allah Sizi qorusun, Allah Sizə dəyməsin!



***AZƏRTAC***

## Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində 2026-cı ilin yanvar ayında vətəndaşların qəbulu cədvəli

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri** Əmirov Natiq Ərziman oğlu | 5 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri** Nağdəliyev Zeynal Səfər oğlu | 6 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri** Ələsgərov Fuad Murtuz oğlu | 7, 21 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri** Əliyeva Fərəh Şirməmməd qızı | 8 |
| **Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi** Həsənov Altay Tofiq oğlu | 9, 16, 30 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri** Həsənov Kərəm Əvəz oğlu | 9 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri** Mövsümov Şahmar Arif oğlu | 12 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri** Seyidov Fərid Mirmufid oğlu | 13 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri** Hacıyev Hikmət Fərhad oğlu | 14 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri** Vəliyev Ədalət Məqsəd oğlu | 15 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri** Məcidov Tələt Tahir oğlu | 16 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri** Məmmədəliyev Yusuf Ülfət oğlu | 16 |
| **Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi** | 19 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | 19 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | 19 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** İsmayılov Süleyman Abbas oğlu | 22 |
| **Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hüseynov Emin Zamin oğlu | 23 |
| **Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Məmmədov Məsim Əhməd oğlu | 26 |
| **Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Yusubov Elçin Mustafa oğlu | 27 |
| **Kəlbəcər rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hacıyev Bəşir Qüdrət oğlu | 28 |
| **Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Kərimov Aydın Zöhrab oğlu | 29 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri** Kərimov Gündüz Hacı oğlu | 30 |
| **Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hacıyev Vahid Rasim oğlu | 30 |
| * * * | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi** Usubov Ramil İdris oğlu | 29 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev, 79.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: Çağrı Mərkəzi – 1111.**

## Bakı Bəyannaməsi BMT-nin rəsmi sənədi kimi dərc olunub

**Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının təşkilatçılığı ilə 2025-ci il oktyabrın 9-11-də Bakı şəhərində keçirilən "İtkin düşmüş şəxslər məsələsinin həlli üçün səylərin birləşdirilməsi və əməkdaşlığın gücləndirilməsi" mövzusunda beynəlxalq konfransda qəbul edilmiş bəyannamə BMT Baş Assambleyasının və Təhlükəsizlik Şurasının rəsmi sənədi kimi dərc olunub və yayılıb.**

Azərbaycanın BMT yanında daimi nümayəndəsi Tofiq Musayev bununla bağlı BMT Baş katibinə məktub ünvanlayıb. O, məktubun və bəyannamənin yer aldığı əlavənin Baş Assambleyası gündəliyinin 31, 69, 71 və 84-cü bəndləri çərçivəsində və Təhlükəsizlik Şurasının sənədi kimi yayılması ilə bağlı müraciət edib.

***XQ***



United Nations A/80/564*-S/2025/797*

General Assembly
Security Council

Distr.: General
8 December 2025

Original: English

General Assembly
Eightieth session
Agenda items 31, 69, 71 and 84

Security Council
Eightieth year

Prevention of armed conflict

Elimination of racism, racial discrimination, xenophobia and related intolerance

Promotion and protection of human rights

The rule of law at the national and international levels

**Letter dated 8 December 2025 from the Permanent Representative of Azerbaijan to the United Nations addressed to the Secretary-General**

Upon instructions from the Government of the Republic of Azerbaijan, I have the honour to submit herewith the declaration adopted at the international conference on "Uniting efforts and enhancing cooperation for addressing the issue of missing persons", held from 9 to 11 October 2025 in Baku, Azerbaijan (see annex).

I should be grateful if you would have the present letter and its annex circulated as a document of the General Assembly, under agenda items 31, 69, 71 and 84, and of the Security Council.

(*Signed*) Tofig F. Musayev
Ambassador
Permanent Representative

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Cənab Prezident, Əziz Qardaşım.**

Sizi doğum gününüz münasibətilə xalqım adından və öz adımdan səmimi-qəlbdən təbrik edir, Zati-alinizə cansağlığı, rifah və ailənizlə birlikdə uzun ömür arzulayıram.

Zati-alinizin bacarıqlı liderliyi və uzaqgörən siyasəti sayəsində Can Azərbaycanın davamlı şəkildə güclənməsi, regional və beynəlxalq siyasətdə nüfuzunun artması bizim üçün böyük məmnunluq və qürur mənbəyidir.

Beşinci ildönümünü birlikdə qeyd etdiyimiz şanlı Vətən müharibəsi Zəfərindən sonra həyata keçirilən sülh prosesinin davamlı bir razılaşma ilə nəticələnməsini arzu etdiyimi bir daha vurğulamaq istəyirəm. İnanıram ki, Qafqazda sabitliyin hökm sürdüyü sülh mühiti bütün regionun inkişafına xidmət edəcəkdir.

Türkiyə və Azərbaycan arasında öz gücünü tarixdən alan dərin köklərə malik qardaşlıq və həmrəylik əlaqələri ümummilli lider Heydər Əliyevin bizə miras qoyduğu "Bir millət, iki dövlət" prinsipi ilə hər gün daha da güclənir.

Möhkəm təməllər üzərində qurulmuş müttəfiqlik münasibətlərimiz və hər sahədə nümayiş etdirdiyimiz yüksəksəviyyəli əməkdaşlıq sayəsində regionumuzun taleyini və gələcəyini formalaşdıran birgə layihələrimizi həyata keçirmək üçün güclü iradəyə malik olduğumuz birmənalıdır.

Əziz Qardaşım, Sizi bir daha doğum gününüz münasibətilə ürəkdən təbrik edir, fürsətdən istifadə edərək dost və qardaş Azərbaycan xalqının rifah və firavanlığı üçün ən xoş arzularımı çatdırıram.

***Rəcəb Tayyib ƏRDOĞAN,***
***Türkiyə Respublikasının Prezidenti***

*

**Hörmətli İlham Heydər oğlu.**

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Sizin rəhbərliyinizlə Azərbaycan sosial və iqtisadi sahələrdə böyük uğurlar qazanıb, beynəlxalq aləmdə mövqelərini ardıcıl olaraq möhkəmləndirir.

Ölkələrimiz arasında münasibətlər möhkəm dostluq, mehriban qonşuluq və qarşılıqlı hörmət ənənələrinə əsaslanır. Əminəm ki, bu münasibətlər bundan sonra da strateji tərəfdaşlıq və müttəfiqlik ruhunda inkişaf edəcək, bu da, şübhəsiz ki, Rusiya və Azərbaycan xalqlarının mənafelərinə cavab verir.

Hörmətli İlham Heydər oğlu, Sizə cansağlığı, firavanlıq və uğurlar arzulayıram. Ən səmimi salamlarımı ailənizə çatdırmağı xahiş edirəm.

**Hörmətlə,**

***Vladimir PUTİN,***
***Rusiya Federasiyasının Prezidenti***

*

**Zati-aliləri, hörmətli cənab Prezident.**

İcazə verin, doğum gününüz münasibətilə gürcü xalqı adından və öz adımdan Sizə ən səmimi təbriklərimi çatdırım.

Sizin rəhbərliyiniz altında Azərbaycan Respublikası davamlı sülhə, sabitliyə və mühüm nailiyyətlərə nail olub ki, bu da uzaqgörənliyinizin və Azərbaycan xalqının rifahı naminə göstərdiyiniz fədakar xidmətinizin əyani sübutudur. İnanıram ki, Sizin rəhbərliyinizlə Azərbaycan həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə daha da güclənəcəkdir.

Əminəm ki, xalqlarımız arasında nümunəvi dostluq münasibətləri və möhkəm strateji tərəfdaşlıq qarşıdakı illərdə də möhkəmlənəcək və genişlənəcəkdir. Gürcüstan və Azərbaycan arasındakı əməkdaşlıq təkcə ikitərəfli əlaqələrimizin inkişafı üçün deyil, həm də Cənubi Qafqazda daha dərin regional inteqrasiyanın, davamlı sülhün və sabitliyin təşviqi üçün təməl daşı rolunu oynayır.

Zati-aliləri, Sizə möhkəm cansağlığı, tükənməz enerji və yüksək məsuliyyətli dövləti fəaliyyətinizdə yeni uğurlar, dost Azərbaycan xalqına isə davamlı sülh və rifah arzulayıram.

**Ən xoş arzularla,**

***Mixeil KAVELAŞVİLİ,***
***Gürcüstanın Prezidenti***

*

**Hörmətli İlham Heydər oğlu.**

Qırğız Respublikası xalqı adından və şəxsən öz adımdan Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Sizin rəhbərliyinizlə qardaş Azərbaycan Respublikası siyasi və iqtisadi inkişafda böyük uğurlara nail olmuş və beynəlxalq aləmdə xüsusi nüfuz qazanmışdır.

Qırğız Respublikası ilə Azərbaycan Respublikası arasında əməkdaşlığın möhkəmləndirilməsinə şəxsi töhfənizi yüksək qiymətləndirirəm.

Əminəm ki, Qırğızıstana qarşıdan gələn dövlət səfəriniz çərçivəsində biz səmərəli və effektiv danışıqlar yolu ilə Qırğızıstan-Azərbaycan münasibətlərinin bundan sonra da inkişafı üçün zəmin yaradacağıq.

Sizə möhkəm cansağlığı, ailə səadəti, uzun ömür, qardaş Azərbaycan xalqına isə davamlı sülh və tərəqqi arzulayıram.

**Hörmətlə,**

***Sadır JAPAROV,***
***Qırğız Respublikasının Prezidenti***

*

**Hörmətli cənab Prezident.**

Doğum gününüz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram. Sizə möhkəm cansağlığı, davamlı güc-qüvvət və Azərbaycan dövlətinin rəhbəri kimi ali dövləti vəzifənizdə uğurlar arzulayıram.

Moldova Azərbaycanla dostluq münasibətlərini yüksək qiymətləndirir və tərəfdaşlığımızı müəyyən edən etimad və əməkdaşlıq ruhunu dəyərləndirir. Əminəm ki, birlikdə konstruktiv dialoqumuzu dərinləşdirməyə və ölkələrimiz arasındakı əlaqələri daha da möhkəmləndirməyə davam edəcəyik.

Cənab Prezident, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Maya SANDU,***
***Moldova Respublikasının Prezidenti***

*

**Hörmətli cənab Prezident.**

Doğum gününüz münasibətilə səmimi təbriklərimi və ən xoş arzularımı qəbul etməyinizi xahiş edirəm.

Macarıstanın həm sülh dövründə, həm də son onilliklərdəki böhran dövründə Azərbaycana güvənə bilməsinə görə minnətdarlığımı bildirirəm. İkitərəfli münasibətlərimiz ildən-ilə daha da güclənməkdə davam edir. Əməkdaşlığımız genişlənərək bir çox əsas sahəni, xüsusilə də enerji sektorunu əhatə edir.

Zati-alinizin şəxsi töhfələri sayəsində xalqlarımız arasında münasibətlərdə yeni bir dövr başlanmışdır və buna görə Sizə dərin minnətdarlığımı bildirirəm.

Sizi əmin etmək istərdim ki, hökumətim tərəfdaşlığımızın dərinləşməsinə və xalqlarımızın ortaq maraqlarının irəliləməsinə sadiqdir.

Sizə möhkəm cansağlığı və məsuliyyətli fəaliyyətinizdə uğurlar arzulayıram.

**Hörmətlə,**

***Viktor ORBAN,***
***Macarıstanın Baş naziri***

*

**Hörmətli Prezident, əziz dost.**

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm. Uğurlu fəaliyyətiniz, dövlət işlərini səmərəli şəkildə yerinə yetirmək və beynəlxalq məsələlərin həllində kompromis əldə etmək bacarığınız haqlı olaraq Sizə bütün dünyada yüksək nüfuz və hörmət qazandırıb.

Qarşıdan gələn Yeni ildə Sizə möhkəm cansağlığı və uğurlar arzulayıram. Həm iqtisadi, həm də hərbi baxımdan güclü, beynəlxalq münasibətlərdə mühüm rol oynayan bir ölkənin Prezidenti kimi qarşınızda böyük vəzifələr durur.

Hazırkı dünya çoxsaylı çətinliklərlə üzləşir. Bizim gələcəyimiz dünyanın bu çətinliklərin öhdəsindən necə gəlməsindən asılı olacaqdır.

Fürsətdən istifadə edərək, Sizə, ailənizə və xalqınıza Yeni ildə ən xoş arzularımı çatdırıram.

**Səmimiyyətlə,**

***Stepan MESİÇ,***
***Xorvatiya Respublikasının sabiq Prezidenti***

*

**Möhtərəm cənab Prezident.**

Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı - TÜRKSOY-un Baş Katibliyi adından Zati-alinizi doğum günü münasibətilə ən səmimi arzularımla təbrik edirəm. Bu əlamətdar günün Sizin üçün sağlamlıq, xoşbəxtlik və əmin-amanlıq dolu yeni bir ilin başlanğıcı olmasını arzu edirəm.

Həyatınızı Azərbaycan xalqına və Türk Dünyasının ortaq gələcəyinə həsr etdiyiniz bu şərəfli yolda ölkənizin rifahı, sabitliyi və inkişafı naminə nümayiş etdirdiyiniz qətiyyətli və uzaqgörən liderlik təkcə Azərbaycan üçün deyil, bütün Türk dünyası üçün mühüm qürur mənbəyidir.

Azərbaycan Respublikasının Türk mədəniyyətinin qorunması, inkişaf etdirilməsi və beynəlxalq miqyasda tanıdılması istiqamətindəki ardıcıl mövqeyi, eləcə də TÜRKSOY-a göstərdiyi dəyərli dəstək xalqlarımız tərəfindən daim böyük hörmət və təqdirlə qarşılanır.

Zati-alinizin Türk dünyasında birlik və həmrəyliyin möhkəmləndirilməsinə yönəlmiş strateji baxışı ortaq tarix, dil və mədəniyyət bağlarımızı daha da gücləndirir, dövlətlərimiz arasında qardaşlıq münasibətlərini möhkəm əsaslar üzərində gələcəyə aparır. Azərbaycanın beynəlxalq arenada artan nüfuzu, eləcə də regional və qlobal sülhə verdiyi töhfələr diqqətlə izlənilir və yüksək qiymətləndirilir.

Bu əlamətdar gün münasibətilə Zati-alinizə bir daha möhkəm cansağlığı, firavanlıq və davamlı uğurlar arzulayır, Azərbaycan Respublikasının və əziz Azərbaycan xalqının sülh, sabitlik və rifah şəraitində inkişafının davam etməsini Uca Allahdan diləyirəm.

Zati-aliləri, dərin hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Sultan RAEV,***
***TÜRKSOY-un Baş katibi***

*

**Cənab Prezident.**

Zati-alinizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan xalqını qələbələrə aparan liderliyiniz ölkənizin müasir tarixində dönüş nöqtəsi təşkil edir. Nümayiş etdirdiyiniz qətiyyətli mövqe təkcə Azərbaycan xalqı üçün deyil, bütün türk dünyası üçün qürur mənbəyidir.

Zati-alinizin strateji uzaqgörənliyi və uğurlu dövlətçilik fəaliyyəti bölgəmizdə sülhün, sabitliyin və gələcəyə inamın möhkəmlənməsinə mühüm töhfələr vermişdir. Bu proses güclü dövlətçiliyin və milli birliyin eyni məqsəd ətrafında necə davamlı uğura çevrilə biləcəyini əyani şəkildə nümayiş etdirdi.

Sizin rəhbərliyinizlə Azərbaycan milli birlik, qətiyyətli iradə və güclü dövlət anlayışının parlaq nümunəsini ortada qoymuşdur. Bu mövqe türk dünyası üçün ruhlandırıcı yol xəritəsi rolunu oynayır.

Bu əlamətdar gündə Zati-alinizə möhkəm cansağlığı və rifah, ali dövləti vəzifənizdə daha böyük uğurlar arzulayıram.

**Dərin ehtiramla,**

***Binəli YILDIRIM,***
***Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının sədri***

*

**Hörmətli cənab Prezident.**

Doğum gününüz münasibətilə Sizi ürəkdən təbrik edirəm. Məsafədən asılı olmayaraq dostlarınızı qiymətləndirmək və xatırlamaq xüsusiyyətiniz həqiqətən təqdirəlayiqdir. Mən də öz növbəmdə, bu əlamətdar gününüzdə dünyanın hər yerindəki saysız-hesabsız dostlarınız və Sizi sevənlərlə birlikdə Zati-alinizə möhkəm cansağlığı, rifah, xoşbəxtlik, davamlı uğurlar arzulayıram.

Sizin görkəmli dövlət xadimi kimi nümayiş etdirdiyiniz cəsarət və müdrikliyi xatırlayıram. Əhəmiyyətli nailiyyətləriniz Azərbaycanın beynəlxalq aləmdə dinlərarası və mədəniyyətlərarası harmoniya mayakı kimi mövqeyini xeyli yüksəldib.

Bir liderin irsini bəşəriyyətə verdiyi töhfələrə əsasən qiymətləndirərkən, deyə bilərik ki, Azərbaycana və dünyamıza verdiyiniz töhfələrə görə Sizinlə rəqabət apara bilən az adam var. Misilsiz rəhbərliyiniz altında qarşıdakı illərdə daha çox uğur qazanacağınızı gözləmək məni sevindirir.

Cənab Prezident, sevimli Azərbaycan xalqının davamlı tərəqqisi və rifahı naminə fəaliyyətinizdə Sizə ən xoş arzularımı bildirir, ən yüksək hörmət və ehtiramımı ifadə edirəm.

***Ravvin Mark ŞNAYER,***
***ABŞ-ın Etnik Anlaşma Fondunun prezidenti***

*

**Hörmətli cənab Prezident.**

Doğum gününüz münasibətilə Sizə ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan şərəf duyuram.

Zati-alinizin müdrik liderliyi və uzaqgörənliyi Azərbaycan Respublikasının sabitliyinə, inkişafına və firavanlığına, eləcə də onun beynəlxalq mövqeyinin güclənməsinə, regional və qlobal məsələlərdə konstruktiv iştirakının artmasına mühüm töhfə vermişdir.

Həmçinin Azərbaycanın Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirəyə sədrliyi dövründə fəal və konstruktiv roluna görə səmimi minnətdarlığımı bildirmək istərdim. Ölkənizin rolu təşkilatımızın prinsip və məqsədlərinin irəliləməsinə, eləcə də Asiyada sülh və dialoqun təşviqinə dəyərli töhfələr vermişdir.

Bu əlamətdar gün münasibətilə Zati-alinizə möhkəm cansağlığı, məsuliyyətli missiyanızda davamlı uğurlar, eləcə də qardaş Azərbaycan xalqına daha da çox tərəqqi və rifah arzulayıram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Kayrat SARIBAY,***
***Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin Baş katibi***

*

**Hörmətli İlham Heydər oğlu.**

Qaraçay-Çərkəz xalqı adından və şəxsən öz adımdan doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Sizin rəhbərliyinizlə Azərbaycan özünəməxsus mədəni və tarixi kimliyini qoruyub saxlayaraq bütün sahələrdə davamlı inkişaf nümayiş etdirir.

Xalqlarımız arasında dostluq əlaqələrinin möhkəmləndirilməsinə göstərdiyiniz diqqətə görə Sizə təşəkkür edirəm. Əminəm ki, Qaraçay-Çərkəz ilə Azərbaycan arasındakı münasibətlər konstruktiv dialoq üçün yeni perspektivlər yaradaraq daha da möhkəmlənəcəkdir.

Sizə möhkəm cansağlığı, firavanlıq və Azərbaycan xalqının rifahı naminə ali missiyanızda yeni uğurlar arzulayıram.

**Hörmətlə,**

***Rəşid TEMREZOV,***
***Rusiya Federasiyasının Qaraçay-Çərkəz Respublikasının başçısı***

***

**Hörmətli İlham Heydər oğlu.**

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi və ən xoş arzularımı qəbul edin.

Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik, daim ətrafınızda sadiq məsləkdaşların və etibarlı dostların olmasını arzulayıram.

**Dərin hörmətlə,**

***Anatoli TORKUNOV,***
***Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun rektoru, Rusiya Elmlər Akademiyasının akademiki***

***

**Zati-aliləri.**

Doğum gününüz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırıram.

Sizə möhkəm cansağlığı, ailənizlə birlikdə daim xoş günlər, uğurla inkişaf edən ölkənizin dövlət başçısı kimi gələcək fəaliyyətinizdə daha çox güc və enerji arzulayıram.

Dünyanın ən gözəl ölkələrindən biri olan Azərbaycanın Sizin rəhbərliyiniz altında qlobal miqyasda nüfuzlu dövlətlərdən birinə çevrildiyini müşahidə etməkdən məmnunam. Azad edilmiş torpaqlarınızın Sizin birbaşa nəzarətinizlə bərpası və transformasiyasını heyranlıqla izləyirik.

Cənab Prezident, mən həmçinin Sizə və ailənizə qarşıdan gələn Yeni il münasibətilə ən xoş arzularımı çatdırıram. Ölkənizə uzunmüddətli sülh və firavanlıq, dost Azərbaycan xalqına isə rifah arzulayıram.

Yeni il Sizə yeni imkanlar, davamlı nailiyyətlər və daha çox tərəqqi gətirsin!

**Dərin hörmət və ehtiramla,**

***Konrad SZORQ,***
***Almaniyadan "S.A.T. GmbH Security and Transport" korporasiyasının icraçı direktoru***

***

**Hörmətli İlham Heydər oğlu.**

İcazə verin, doğum gününüz münasibətilə Sizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırım.

Müdrik və uzaqgörən rəhbərliyiniz sayəsində Azərbaycan Respublikası davamlı inkişaf, sosial-iqtisadi tərəqqi, regional əməkdaşlığın gücləndirilməsi və xalqlar arasında qarşılıqlı anlaşma yolu ilə inamla irəliləyir.

Fürsətdən istifadə edərək, şirkətimizin Azərbaycan ərazisində strateji əhəmiyyətli layihələrin həyata keçirilməsində gördüyü daimi diqqətə və konstruktiv dəstəyə görə dərin minnətdarlığımı bildirirəm.

Zati-aliləri, Sizə möhkəm cansağlığı, firavanlıq və respublikanın bundan sonrakı inkişafı naminə ali dövləti fəaliyyətinizdə yeni böyük uğurlar arzulayıram.

**Hörmətlə,**

***Vahid ƏLƏKBƏROV,***
***Rusiyanın "LUKOYL" Publik Səhmdar Cəmiyyətinin sabiq prezidenti***

***

**Hörmətli cənab Prezident.**

Mərkəzi Asiya Mediatorları Konsorsiumu Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edir.

Sizin rəhbərliyiniz altında Azərbaycan Respublikası davamlı sosial-iqtisadi inkişaf nümayiş etdirmiş, dövlətçiliyini möhkəmləndirmiş, beynəlxalq nüfuzunu artırmış, sabitliyi, dialoqu və sülh yolu ilə həll prinsiplərini ardıcıl olaraq təşviq etmişdir.

Regional və beynəlxalq əməkdaşlığın inkişafını, dövlətlər arasında etimadın qurulmasını və peşəkar vasitəçilik missiyasına uyğun olaraq problemlərin sülh yolu ilə həlli mexanizmlərini dəstəkləmək səylərinizi yüksək qiymətləndiririk.

Sizə möhkəm cansağlığı, rifah və məsuliyyətli fəaliyyətinizdə uğurlar, qardaş Azərbaycan xalqına isə davamlı sülh, firavanlıq və inkişaf arzulayırıq.

**Hörmətlə,**

***Gülsina KOJOYAROVA,***
***Mərkəzi Asiya Mediatorları Konsorsiumunun sədri, Qırğız Respublikası Mediatorlar Birliyinin Müşahidə Şurasının sədri,***

***Jandilda JAKUPOV,***
***Mərkəzi Asiya Mediatorları Konsorsiumunun həmsədri, Qazaxıstan Mediatorları Assosiasiyasının baş direktoru, Beynəlxalq İnsan Hüquqları Mərkəzinin rəhbəri***

***

**Zati-aliləri cənab Prezident.**

Azaflı Sosial Yardım və Mədəniyyət Dərnəyi adından Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edir, Zati-alinizə ən dərin ehtiramımızı bildiririk.

Sizin Azərbaycan Respublikasının daha da inkişafına, beynəlxalq aləmdə nüfuzunun durmadan artmasına və ölkəmizin daha parlaq gələcəyinə yönəlmiş strateji hədəfləriniz daim yüksək qiymətləndirilir.

Sizin Müzəffər Ali Baş Komandan kimi qətiyyətiniz, möhkəm iradəniz və uzaqgörən siyasətiniz nəticəsində Vətən müharibəsində əldə olunan şanlı Zəfər xalqımızın milli qürurunu, birlik və həmrəylik ruhunu daha da gücləndirmişdir.

Bu tarixi gün Azərbaycan dövlətinin gücünü, ordumuzun rəşadətini və xalqımızın yenilməzliyini bütün dünyaya bir daha nümayiş etdirmişdir.

Fürsətdən istifadə edərək Sizi xalqımız üçün xüsusi mənəvi əhəmiyyət daşıyan 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə də təbrik edirik. Dünyanın harasında yaşamasından asılı olmayaraq bütün soydaşlarımızı birliyə çağıran bu bayram milli kimliyimizin, mədəni irsimizin və birliyimizin rəmzidir. Həyata keçirdiyiniz siyasət dünya azərbaycanlılarının həmrəyliyini daha da möhkəmləndirmiş, diasporumuzun fəaliyyətinə yeni dinamika gətirmişdir.

Sizin rəhbərliyinizlə ölkəmizin daha da inkişaf edəcəyinə inanırıq.

Sizə möhkəm cansağlığı, uzun ömür, Azərbaycanımızın tərəqqisi naminə gördüyünüz böyük işlərdə müvəffəqiyyətlər arzulayırıq.

**Hörmətlə,**

***Arzuman AZAFLI,***
***Türkiyədə fəaliyyət göstərən Azaflı Sosial Yardım və Mədəniyyət Dərnəyinin sədri***

***

**Hörmətli cənab Prezident.**

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimizi qəbul etməyinizi xahiş edirik. Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi, ölkənin daha sürətli inkişafı, dünyada nüfuzunun daha da artması istiqamətində apardığınız qətiyyətli siyasət bütün dünya azərbaycanlıları tərəfindən qürurla izlənilir.

Bu il biz Sizin müdrik rəhbərliyiniz və Ali Baş Komandanlığınızla qazanılan, uzun illər həsrətlə gözlənilən, tarixi ədalətin bərpasını təmin edən möhtəşəm Zəfərin beşinci ildönümünü böyük iftixar hissi ilə qeyd etdik. Zəfər Günü təkcə Azərbaycanın deyil, bütün Türk dünyasının qürur günüdür.

Cənab Prezident, icazə verin Sizi hər bir azərbaycanlını bir amal, bir bayraq və bir ruh ətrafında birləşdirən əlamətdar gün - 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə də təbrik edək. Dünyanın müxtəlif ölkələrində yaşayan milyonlarla azərbaycanlı bu birliyi dövlətə sədaqət, milli-mənəvi dəyərlərə bağlılıq və Vətən eşqi ilə qorumağa davam edir. Azərbaycanın yanında olmaqdan, ölkənin haqq işini dəstəkləməkdən və xalqın birliyinə xidmət etməkdən qürur duyuruq.

Sizə möhkəm cansağlığı, uzun ömür, Azərbaycan Respublikasına davamlı inkişaf və əmin-amanlıq arzu edirik.

**Dərin hörmətlə,**

***Əşrəf TUNA,***
***İzmir Azərbaycan Mədəniyyət və Həmrəylik Dərnəyinin sədri***

***

**Çox hörmətli cənab Prezident.**

Doğum gününüz mübarək! Sizə möhkəm cansağlığı, uzun ömür, xoşbəxtlik, hər zaman böyük sevinc, qarşıdakı planlarınızın uğurla həyata keçməsini arzulayır, doğma ölkənizin daha da inkişafı və Azərbaycan xalqının daha xoşbəxt gələcəyi naminə fəaliyyətinizdə müvəffəqiyyətlər diləyirəm.

Zati-aliləri, xeyirxahlığınıza, humanistliyinizə, xüsusilə də uşaqlarımızın xoşbəxtliyi üçün göstərdiyiniz əvəzsiz köməyə görə Sizə ömrümün sonuna qədər minnətdar olacağam.

Qəlbinizin zənginliyinə, alicənablığınıza, şəfqətinizə görə minnətdarlığımı və hisslərimin dərinliyini sözlə ifadə etmək mümkün deyil.

Sizin müdrik rəhbərliyinizə, vətənpərvərliyinizə və görkəmli siyasi xadim kimi yüksək zəkanıza heyranam.

Sizi bir daha təbrik edir, ən xoş arzularımı çatdırıram.

**Dərin hörmət və ehtiramla,**

***Valentina ANTONENKO,***
***Ukraynanın İrpen şəhərindəki Zərifə Əliyeva adına humanitar "Linqvist" liseyinin direktoru, Ukraynanın Əməkdar müəllimi, Azərbaycanın "Dostluq" ordeni laureatı***

***

**Möhtərəm cənab Prezident.**

Belçika Krallığında fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları adından doğum gününüz münasibətilə Sizə səmimi təbriklərimizi və ən xoş arzularımızı çatdırırıq.

Azərbaycan Respublikasının güclü rəhbəri kimi Sizə ölkənin davamlı inkişafında, suverenliyinin, beynəlxalq nüfuzunun möhkəmlənməsində əvəzolunmaz xidmətlərinizə görə minnətdarlığımızı bildirir, dərin hörmət və ehtiramımızı ifadə edirik.

Sizin təşəbbüslərinizlə Azərbaycanda və regionda həyata keçirilən nəhəng layihələr ölkənin gələcəyinə inamla baxmağa imkan yaradır və irəlidə bizi yeni mühüm nailiyyətlərin gözlədiyini deməyə əsas verir. Göstərdiyiniz əzmli fəaliyyət dünya azərbaycanlıları, o cümlədən Belçikada yaşayan soydaşlarımız üçün böyük qürur mənbəyidir.

Belçikadakı Azərbaycan diasporu ölkəmizin milli maraqlarının təbliği, mədəni irsimizin qorunması və Azərbaycanın haqq səsinin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində fəaliyyətini bundan sonra da birlik və həmrəylik ruhunda davam etdirəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, ailə səadəti, ali dövləti missiyanızda yeni-yeni uğurlar və Azərbaycan xalqının rifahı naminə yorulmaz fəaliyyətinizdə daim müvəffəqiyyətlər arzulayırıq.

**Dərin hörmət və ehtiramla,**

***Rüfət ABASOV,***
***RADİOCTO – Avropada Azərbaycan Radiosu,***

***Yasəmən ABBASİ,***
***BUTAM Azərbaycan Mədəniyyət Assosiasiyası,***

***Eldar BAYRAMZADƏ,***
***İRS Azərbaycan Belçika Tələbə Assosiasiyası,***

***Novruz ABDULLAYEV,***
***FİRELAND – Belçika Azərbaycanlıları Birliyi,***

***Emin ƏLİYEV,***
***"MADANİ - Azərbaycanlıların Mədəniyyət, İdman, Düşüncə, Həmrəylik və Gələcək İmkanlar Məkanı" platforması***

***

**Hörmətli cənab Prezident.**

Sizi doğum gününüz münasibətilə Berlin şəhərində yerləşən "Xarı Bülbül" Azərbaycan Mədəniyyət Evinin kollektivi adından səmimi-qəlbdən təbrik edir, Sizə möhkəm cansağlığı, uzun ömür və ali dövləti fəaliyyətinizdə yeni uğurlar arzulayırıq.

Sizin rəhbərliyiniz altında Azərbaycan Respublikası bütün sahələrdə davamlı inkişaf yolu keçmiş, beynəlxalq aləmdə nüfuzunu daha da möhkəmləndirmişdir. Milli-mənəvi dəyərlərimizin qorunması və təbliği, Azərbaycan dilinə, mədəniyyətinə və incəsənətinə göstərilən yüksək diqqət və qayğı xalqımız tərəfindən daim minnətdarlıqla qarşılanır.

Xüsusilə xaricdə yaşayan azərbaycanlıların milli kimliyinin qorunması, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması istiqamətində həyata keçirilən siyasət diaspor təşkilatlarının fəaliyyətinə güclü stimul verir. Biz Azərbaycan dilinin və mədəni irsinin yaşadılması və gələcək nəsillərə ötürülməsi yolunda fəaliyyətimizi bundan sonra da böyük məsuliyyətlə davam etdirəcəyik.

**Dərin hörmət və ehtiramla,**

***Sevda BADALİOURİ,***
***Berlində fəaliyyət göstərən "Xarı bülbül" Azərbaycan Mədəniyyət Evinin sədri***

***

**Hörmətli cənab Prezident.**

Doğum gününüz münasibətilə Sizi İspaniyada yaşayan azərbaycanlılar, eləcə də Barselonadakı Azərbaycanlılar Cəmiyyəti və Azərbaycan Evi adından səmimi-qəlbdən təbrik edirik.

Sizin rəhbərliyiniz altında Azərbaycan son illərdə mühüm tarixi nailiyyətlərə imza atmış, öz suverenliyini və ərazi bütövlüyünü bərpa etmiş, beynəlxalq aləmdə nüfuzunu daha da möhkəmləndirmişdir. Bu uğurlar dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar üçün də böyük qürur və mənəvi dayaq mənbəyidir.

Xüsusilə vurğulamaq istərdik ki, Sizin diaspor siyasətiniz xaricdə yaşayan soydaşlarımızın milli kimliyinin qorunması, Azərbaycan mədəniyyətinin və həqiqətlərinin dünyada tanıdılması baxımından mühüm rol oynayır.

Biz, İspaniyada yaşayan azərbaycanlılar bu siyasətə uyğun şəkildə ölkəmizi layiqincə təmsil etməyə, milli-mənəvi dəyərlərimizi yaşatmağa və Azərbaycan-İspaniya münasibətlərinin inkişafına töhfə verməyə çalışırıq.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, uzun ömür, ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayırıq. Qoy Sizin rəhbərliyiniz altında Azərbaycan dövləti daim güclənsin, xalqımız sülh, rifah və sabitlik şəraitində yaşasın!

**Dərin hörmət və ehtiramla,**

***Kərim KƏRİMOV,***
***Barselonadakı Azərbaycanlılar Cəmiyyətinin və Azərbaycan Evinin rəhbəri***

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Möhtərəm cənab Prezident.**

"MADANİ - Azərbaycanlıların Mədəniyyət, İdman, Düşüncə, Həmrəylik və Gələcək İmkanlar Məkanı" platforması adından Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edir, Sizə və ailənizə möhkəm cansağlığı, həyatınızda yeni uğurlar arzulayırıq.

Sizin rəhbərliyiniz altında Azərbaycan güclü, müasir və beynəlxalq arenada söz sahibi olan bir dövlət kimi mühüm inkişaf mərhələsindən keçmişdir. Milli maraqların qətiyyətlə qorunması, ölkəmizin strateji mövqeyinin möhkəmləndirilməsi və xalqımızın birliyi naminə həyata keçirdiyiniz ardıcıl siyasət dünya azərbaycanlıları üçün qürur mənbəyidir.

"MADANİ" platforması olaraq biz Belçikada və Avropada yaşayan azərbaycanlıların birliyinin möhkəmləndirilməsini, mədəni və ictimai dəyərlərimizin təbliğini, gənclərin fəal və məsuliyyətli vətəndaş mövqeyinin gücləndirilməsini əsas məqsədimiz hesab edirik. Bu istiqamətdə fəaliyyətimizdə Azərbaycanın inkişafı və gələcəyi naminə müəyyənləşdirdiyiniz strateji xətt bizim üçün əsas istinad nöqtəsidir.

Bu xüsusi gündə "MADANİ" ailəsi adından Sizə bir daha səmimi təbriklərimizi çatdırır, minnətdarlığımızı bildirir və qarşıdakı illərdə yeni nailiyyətlər, daim sevinc dolu xoş günlər arzulayırıq.

**Dərin hörmət və ehtiramla,**

***Emin ƏLİYEV və Aytən MƏMMƏDOVA,***
***Belçikada fəaliyyət göstərən***
***"MADANİ - Azərbaycanlıların Mədəniyyət, İdman, Düşüncə, Həmrəylik və Gələcək İmkanlar Məkanı" platformasının təsisçiləri***

*

**Zati-aliləri cənab Prezident.**

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edir, ən dərin ehtiramımı ifadə edirəm.

Müasir dövrdə mürəkkəb qlobal çağırışların və dəyişkən geosiyasi proseslərin fonunda Sizin qətiyyətli, prinsipial və uzaqgörən siyasətiniz Azərbaycan dövlətinin milli maraqlarının etibarlı şəkildə qorunmasına, ölkəmizin beynəlxalq nüfuzunun davamlı olaraq möhkəmlənməsinə xidmət edir. Sizin rəhbərliyinizlə Azərbaycan güclü, müstəqil və öz sözünü deyən bir dövlət kimi dünya birliyində layiqli yerini daha da möhkəmləndirmişdir.

Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi strateji inkişaf xəttini müasir dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirərək, Siz ölkəmizin sosial-iqtisadi potensialının gücləndirilməsi, əhalinin rifahının yüksəldilməsi, milli həmrəyliyin möhkəmləndirilməsi istiqamətində ardıcıl və məqsədyönlü siyasət həyata keçirirsiniz. Bu siyasətin nəticələri bu gün həm ölkə daxilində, həm də beynəlxalq aləmdə aydın şəkildə görünməkdədir.

Xaricdə yaşayan azərbaycanlılarla bağlı apardığınız siyasət xüsusi əhəmiyyət daşıyır. Dövlətimizin diasporla bağlı strateji xətti sayəsində dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımız Azərbaycan ətrafında daha sıx birləşmiş, milli maraqlarımızın müdafiəsində fəal mövqe tutmuşlar. Finlandiyada fəaliyyət göstərən Helsinki Azərbaycan Evi də bu istiqamətdə dövlət siyasətinə uyğun olaraq Azərbaycan mədəniyyətinin, tarixinin və müasir reallıqlarının tanıdılması naminə ardıcıl iş aparır. Bu fəaliyyətlərdə Sizin müəyyən etdiyiniz milli birlik və dövlətçilik prinsipləri əsas rəhbər tutulur.

Sizin yüksək siyasi mədəniyyətiniz, zəngin dövlətçilik təcrübəniz, prinsipial mövqeyiniz və Vətənə bağlılığınız Azərbaycan xalqının Sizə olan böyük etimadının əsasını təşkil edir. Qürurverici haldır ki, bu etimad ölkəmizin qazandığı uğurlarda, əldə olunan nailiyyətlərdə öz parlaq əksini tapır.

Zati-aliləri, əminəm ki, Sizin rəhbərliyinizlə Azərbaycan dövləti bundan sonra da sabitlik, inkişaf və tərəqqi yolunda inamla irəliləyəcək, xalqımız yeni nailiyyətlərin sevincini yaşayacaqdır.

Doğum gününüz münasibətilə Sizi bir daha ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

**Dərin hörmət və ehtiramla,**

***Ülviyyə CABBAROVA,***
***Helsinki Azərbaycan Evinin və Azərbaycan-Türk Gənclər Təşkilatının rəhbəri***

*

**Hörmətli cənab Prezident.**

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirik.

Sizin rəhbərliyiniz altında Azərbaycan Respublikası mühüm tarixi uğurlara imza atmış, dövlət suverenliyini və ərazi bütövlüyünü tam təmin etmiş, beynəlxalq aləmdə nüfuzunu daha da artırmışdır. Bu nailiyyətlər xaricdə yaşayan azərbaycanlılar üçün böyük qürur mənbəyi və mənəvi dayaqdır.

Sizin ardıcıl diaspor siyasətiniz soydaşlarımızın milli kimliyinin qorunması, Azərbaycan mədəniyyətinin dünyada təbliği və həqiqətlərinin tanıdılması baxımından xüsusi əhəmiyyətə malikdir. Biz də İsveçdə yaşayan azərbaycanlılar olaraq, bu siyasətə uyğun şəkildə ölkəmizi layiqincə təmsil etməyə və Azərbaycan-İsveç münasibətlərinin inkişafına töhfə verməyə çalışırıq.

Bu əlamətdar gündə Sizə uzun ömür, cansağlığı, ali dövləti fəaliyyətinizdə yeni uğurlar arzulayırıq. Qoy Sizin rəhbərliyiniz altında Azərbaycan dövləti daim güclənsin, xalqımız hər zaman sülh və firavanlıq şəraitində yaşasın!

**İsveçdə yaşayan azərbaycanlılar adından dərin hörmətlə,**

***Ülviyyə NƏCƏFOVA,***
***İsveç Azərbaycanlıları Koordinasiya Şurasının Yöteborq şəhəri üzrə koordinatoru və Azərbaycan Qarabağ Mərkəzinin rəhbəri***

*

**Hörmətli cənab Prezident.**

Doğum gününüz münasibətilə Sizə Polşada yaşayan azərbaycanlılar adından səmimi təbriklərimizi və dərin ehtiramımızı çatdırırıq.

Sizin rəhbərliyinizlə Azərbaycan müasir tarixinin ən həlledici və şərəfli mərhələsini yaşamış, milli iradə, siyasi uzaqgörənlik və güclü dövlətçilik modeli formalaşdırılmışdır. Qlobal çağırışların artdığı bir dövrdə Azərbaycanın müstəqil mövqeyinin qorunması, milli maraqlarının qətiyyətlə müdafiə edilməsi və ölkəmizin beynəlxalq nüfuzunun yüksəlməsi Sizin liderliyinizin bariz nəticəsidir.

Siz yalnız ölkə daxilində deyil, xaricdə yaşayan milyonlarla azərbaycanlının da inam və ümid mənbəyisiniz. Biz, Polşada yaşayan azərbaycanlılar respublikamızın qazandığı hər uğuru, atdığı hər strateji addımı qürur hissi ilə izləyir, bu uğurları yaşadığımız ölkədə layiqincə təmsil etməyə çalışırıq.

Sizə möhkəm cansağlığı, uzun ömür, ali dövləti fəaliyyətinizdə davamlı uğurlar arzulayırıq. İnanırıq ki, Sizin rəhbərliyiniz altında Azərbaycan daha böyük zirvələr fəth edəcək, sülhün, inkişafın və ədalətin güclü tərəfdarı kimi öz yolunda inamla irəliləməkdə davam edəcəkdir.

**Hörmətlə,**

***Sedat ŞAMİLLİ,***
***Polşada fəaliyyət göstərən "Xarı Bülbül" Dünya Azərbaycanlıları Mədəniyyət Assosiasiyasının sədri***

*

**Hörmətli cənab Prezident.**

Sizi doğum gününüz münasibətilə Portuqaliya Respublikasında yaşayan Azərbaycan icması adından səmimi-qəlbdən təbrik edir, Sizə ən xoş arzularımızı çatdırırıq.

Sizin müdrik və prinsipial rəhbərliyiniz sayəsində Azərbaycan Respublikası son illər ərzində böyük inkişaf yolu keçmiş, beynəlxalq aləmdə nüfuzunu əhəmiyyətli dərəcədə artırmışdır. Dövlətimizin güclənməsi, milli maraqlarımızın qətiyyətlə qorunması və xalqımızın rifahının yüksəldilməsi istiqamətində həyata keçirdiyiniz ardıcıl və məqsədyönlü siyasət hər bir azərbaycanlıda böyük iftixar hissi doğurur.

Xaricdə yaşayan soydaşlarımız, o cümlədən Portuqaliyadakı Azərbaycan icması Sizin diaspor fəaliyyətinin inkişafına göstərdiyiniz xüsusi diqqət və qayğını daim hiss edir, Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində bu etimadı layiqincə doğrultmağa çalışır.

Bu əlamətdar gün münasibətilə Sizə möhkəm cansağlığı, uzun ömür və Azərbaycan xalqının daha firavan gələcəyi naminə ali dövləti fəaliyyətinizdə davamlı uğurlar arzulayırıq.

**Dərin hörmət və ehtiramla,**

***Milana SEYİDZADƏ,***
***Portuqaliyada yaşayan Azərbaycan icmasının koordinatoru***

*

**Hörmətli cənab Prezident.**

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edir və Zati-alinizə ən xoş arzularımı bildirirəm.

Bəzən elə şəxsiyyətlər olur ki, onların misilsiz dərəcədə böyük əhəmiyyəti təkcə öz ölkəsinin tarixində deyil, ədalətli bir dünyanın formalaşmasında da hiss olunur. Zamanla onlar insanın daxili dünyasının ayrılmaz hissəsinə çevrilirlər. Onlara sadəcə heyran qalınmır və onlarla təkcə qürur duyulmur, onları həqiqətən dəyərli və doğma bilirlər.

Cənab Prezident, Sizin həyat yolunuz təkcə dövlət məsuliyyəti deyil.

Bu yol xalqın etimadı, ümidləri, tarixi və gələcəyidir, onun sevgisidir. Bu, çox ağır, eyni zamanda çox qiymətli bir yükdür və Siz bu yükü böyük ləyaqətlə daşıyırsınız.

Bu gün Sizə ad günü təbriki çatdırmaqla yanaşı, həm də səmimi minnətdarlığımı bildirmək istəyirəm - verdiyiniz dayaq hissinə, sabaha olan əminliyə və ədalətin qalib gələcəyinə olan inanca görə.

Həmişə sağlam olun və Sizi ürəkdən sevən xalqınızın yanında olun.

Ad gününüz mübarək, əziz Prezident!

**Hörmətlə,**

***Leyla Begim CƏFƏROVA,***
***Praqada yerləşən Azərbaycan Mədəniyyət Evinin rəhbəri, Natəvan Cəmiyyətinin sədri, Azərbaycan Yazıçılar Birliyinin üzvü, Çex Yazıçılar Birliyinin üzvü***

*

**Hörmətli cənab Prezident.**

Sizi doğum gününüz münasibətilə Çexiyada yaşayan Azərbaycan icması adından səmimi-qəlbdən təbrik edir, ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayırıq.

Sizin rəhbərliyiniz altında Azərbaycan dövləti davamlı inkişaf yolu ilə irəliləyir, beynəlxalq aləmdə nüfuzunu daha da möhkəmləndirir. Xaricdə yaşayan azərbaycanlılar olaraq biz də bu uğurlarla qürur duyur, Vətənimizlə bağlı hər bir nailiyyəti böyük sevinc hissi ilə qarşılayırıq.

Ulu öndər Heydər Əliyevin siyasi irsinin layiqli davamçısı kimi həyata keçirdiyiniz məqsədyönlü siyasət Azərbaycan xalqının rifahına, ölkəmizin güclənməsinə və gələcək nəsillərin firavan sabahına xidmət edir.

Bu əlamətdar gün münasibətilə Sizə ən xoş arzularımızı yetirir, Azərbaycan dövlətinə və xalqına bundan sonra da böyük nailiyyətlər diləyirik.

**Hörmətlə,**

***Fərid ƏMİRƏLİYEV,***
***Çexiyada fəaliyyət göstərən "Land of Fire" Cəmiyyətinin təsisçisi***

*

**Hörmətli cənab Prezident.**

Sizi doğum gününüz münasibətilə Azərbaycan Türk Mədəniyyəti Assosiasiyası adından səmimi-qəlbdən, dərin hörmət və ehtiramla təbrik edirik.

Sizin müdrik, uzaqgörən və qətiyyətli rəhbərliyinizlə Azərbaycan Respublikası son illərdə hərtərəfli inkişaf yolu keçmiş, dövlət müstəqilliyi daha da möhkəmlənmiş, ölkəmizin siyasi, iqtisadi və sosial sahələrdə qazandığı uğurlar beynəlxalq miqyasda yüksək dəyərləndirilmişdir. Azərbaycan Respublikasının beynəlxalq arenada artan nüfuzu, milli maraqlarımızın qətiyyətlə qorunması və dövlətçilik ənənələrinin möhkəmləndirilməsi Sizin uğurlu siyasi kursunuzun bariz göstəricisidir.

Xüsusilə qeyd etmək istərdik ki, Sizin rəhbərliyinizlə əldə olunan tarixi nailiyyətlər, ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpa edilməsi Azərbaycan xalqının milli qürurunun və birliyinin təcəssümünə çevrilmişdir. Bu böyük uğurlar hər bir azərbaycanlının qəlbində dərin fəxarət hissi doğurur və gələcək nəsillər üçün möhkəm təməl yaradır.

Bu əlamətdar və sevincli gündə Sizə möhkəm cansağlığı, uzun ömür, ali dövləti fəaliyyətinizdə daim müvəffəqiyyətlər, Azərbaycan dövlətinin daha da güclənməsi, xalqımızın rifahının yüksəldilməsi naminə həyata keçirdiyiniz bütün təşəbbüslərdə yeni-yeni uğurlar arzulayırıq.

Zati-alinizin rəhbərliyi ilə Azərbaycan Respublikasının davamlı inkişaf yolunda daha böyük zirvələr fəth edəcəyinə dərin inamımızı ifadə edirik.

**Hörmətlə,**

***Taleh QURBANOV,***
***Sloveniyada fəaliyyət göstərən Azərbaycan Türk Mədəniyyəti Assosiasiyasının prezidenti***

*

**Möhtərəm cənab Prezident.**

Lüksemburq Azərbaycan Dostluq Assosiasiyası və Lüksemburqda yaşayan azərbaycanlı həmvətənlərimiz adından Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edir, Zati-alinizə dərin ehtiramımızı ifadə edirik.

Sizin uzun illər ərzində Azərbaycan xalqı və dövləti qarşısında göstərdiyiniz xidmətlər danılmaz və əvəzolunmazdır. Uzaqgörən və qətiyyətli rəhbərliyiniz altında Azərbaycan güclü dövlətçilik ənənələrini möhkəmləndirmiş, beynəlxalq arenada etibarlı və nüfuzlu tərəfdaş kimi tanınmış, iqtisadi inkişaf və sosial rifah sahəsində mühüm nailiyyətlər əldə etmişdir. Ali Baş Komandan kimi göstərdiyiniz misilsiz siyasi iradə, əzm və liderlik sayəsində torpaqlarımızın işğaldan azad olunması Azərbaycan tarixinin ən şanlı səhifələrindən biri kimi yaddaşlara həkk olunmuşdur. Bu tarixi Zəfər Sizin adınızı müasir Azərbaycan tarixinə qızıl hərflərlə yazmış, xalqımızın qürur mənbəyinə çevrilmişdir.

Zati-alinizin fəaliyyəti nəticəsində Azərbaycan bu gün güclü, müstəqil və gələcəyə inamla addımlayan bir dövlətdir. Sizin dövlətçilik fəlsəfəniz, milli maraqlara söykənən siyasətiniz və prinsipial mövqeyiniz həm ölkə daxilində, həm də beynəlxalq müstəvidə yüksək qiymətləndirilir və xalqımızın Sizə olan sevgi və etimadını daha da möhkəmləndirir.

Bu əlamətdar gün münasibətilə Sizi bir daha səmimi-qəlbdən təbrik edir,

Zati-alinizə möhkəm cansağlığı, ali dövlətçilik fəaliyyətinizdə yeni uğurlar, Azərbaycan Respublikasına isə davamlı inkişaf, rifah və firavanlıq arzulayırıq.

**Ən yüksək ehtiramla,**

***Seymur ƏHMƏDOV,***
***Lüksemburq Azərbaycan Dostluq Assosiasiyasının sədri***

*

**Zati-aliləri cənab Prezident.**

Ukraynada yaşayan azərbaycanlılar və diaspor təşkilatları adından Sizi doğum gününüz münasibətilə dərin ehtiramla təbrik edir, Zati-alinizə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və Azərbaycan dövlətinin daha böyük zirvələr fəth etməsi naminə ali missiyanızda davamlı uğurlar arzulayırıq.

Sizin uzaqgörən rəhbərliyiniz, qətiyyətli siyasi iradəniz və milli maraqlara söykənən strateji xəttiniz sayəsində Azərbaycan beynəlxalq müstəvidə nüfuzunu gücləndirən, iqtisadi və sosial inkişafını ardıcıl təmin edən, öz sözünü inamla deyən müasir dövlət kimi tanınır. Bu uğurlar dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımız üçün güvən, qürur mənbəyi və birliyə çağırışdır.

Ukraynada fəaliyyət göstərən diasporumuz da Azərbaycançılıq ideyasına sadiq qalaraq milli-mənəvi dəyərlərimizi yaşatmaq, ölkəmizin haqq səsini çatdırmaq və Azərbaycan-Ukrayna dostluq münasibətlərinin möhkəmlənməsinə töhfə vermək istiqamətində səylərini davam etdirir.

Eyni zamanda, Sizi və bütün xalqımızı 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə ürəkdən təbrik edir, bu əlamətdar günün hər bir azərbaycanlının qəlbində milli birliyi daha da möhkəmləndirməsini diləyirik.

Qarşıdan gələn Yeni ilin ölkəmizə sülh, sabitlik, tərəqqi, ailələrimizə firavanlıq və sevinc gətirməsini arzu edirik.

**Dərin hörmət və ehtiramla,**

***Cəlil ASTANOV,***
***Ukraynanın Odessa vilayətindəki "Birlik" diaspor təşkilatının sədri***

*

**Hörmətli cənab Prezident, Müzəffər Ali Baş Komandan.**

Doğum gününüz münasibətilə Sizi "QALA" Yunanıstan-Azərbaycan Dostluq Cəmiyyəti adından səmimi-qəlbdən, dərin hörmət və ehtiramla təbrik edirəm.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, uzun ömür, rifah, davamlı uğurlar arzulayıram. Fəaliyyətinizin hər anı müstəqil Azərbaycanımızın daha da güclənməsi, rifahı və gözəlləşməsi yolunda atılan addımdır.

Sizin müdrik və qətiyyətli rəhbərliyinizlə ölkəmizin hər sahədə qazandığı tarixi nailiyyətlər, xüsusilə Vətənimizin ərazi bütövlüyünün bərpası uğrunda göstərdiyiniz dəmir iradə və sarsılmaz əzmkarlıq hər bir vətəndaşımız üçün qürur mənbəyidir. Xalqa xidmətiniz, dövlətçilik məfkurəsinə sədaqətiniz xüsusilə təqdirəlayiqdir.

Bu əlamətdar gündə Sizi bir daha ürəkdən təbrik edir, Azərbaycanın əzəmətli inkişafı yolunda yeni parlaq səhifələr yazmağınızı diləyirəm. Sizinlə fəxr edirik, uğurlarınıza ürəkdən sevinirik.

**Hörmətlə,**

***Rəşid MƏMMƏDOV,***
***"QALA" Yunanıstan-Azərbaycan Dostluq Cəmiyyətinin sədri***

*

**Möhtərəm cənab Prezident.**

Sizi doğum gününüz münasibətilə "Vətənsevər" Azərbaycan-Küveyt Mədəniyyət və Dostluq Cəmiyyətinin üzvləri adından ürəkdən təbrik edirik.

Biz, Küveytdə yaşayan azərbaycanlılar Sizin uzaqgörən siyasətinizi dəstəkləyirik, Sizin kimi Prezidentimizin olması ilə fəxr edirik.

Siz Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı olaraq bir çağırışınızla bütün Azərbaycan xalqını, xüsusilə də gəncləri Vətənimizin ərazi bütövlüyü uğrunda mübarizədə tək bayraq altında birləşdirən və "dəmir yumruğ"a çevirən, tarix yazan böyük Lider, qüdrətli sərkərdəsiniz.

Cənab Prezident, bu gün Siz dünya azərbaycanlılarının qürur mənbəyinə çevrilmisiniz. Fürsətdən istifadə edərək Sizi və ailə üzvlərinizi 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə də təbrik edirik.

Sizə uzun ömür, cansağlığı, əzmkar fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayırıq.

Allah Sizi və ailənizi qorusun!

**Hörmətə,**

***Könül HACIZADƏ,***
***"Vətənsevər" Azərbaycan-Küveyt Mədəniyyət və Dostluq Cəmiyyətinin sədri***

*"Konstitusiya və Suverenlik İli" – 2025*

# Heydər Əliyev dühasından İlham Əliyev zirvəsinə






**Dekabrın 24-də "Konstitusiya və Suverenlik İli" çərçivəsində Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı tərəfindən Nəsimi rayon təşkilatı ilə birgə "Milli Konstitusiyadan mütləq suverenliyə: Heydər Əliyev dühasının İlham Əliyev zirvəsi" mövzusunda tədbir keçirilib.**

Yeni Azərbaycan Partiyası Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bu əlamətdar gündə keçirilən tədbirin mövzusunun çağdaş tariximizin möhtəşəm dövrü ilə həmahəng olduğunu bildirib: "Çünki günümüzün reallığı budur ki, dünyada bir çox ölkələr mühüm resurslara – əlverişli coğrafi mövqeyə, təbii sərvətlərə, böyük iqtisadi və demoqrafik potensiala sahib olsalar da, öz siyasətlərini milli maraqlara uyğun həyata keçirə bilmirlər. Müasir Azərbaycanın nümunəsi isə təsdiqləyir ki, məhz zəngin dövlətçilik təcrübəsinə, xalqın birmənalı və qətiyyətli dəstəyinə malik lideri olan ölkələr milli mənafelərə əsaslanan siyasət vasitəsilə davamlı inkişafı təmin edir və beynəlxalq aləmdə nüfuz sahibi olurlar. Çoxəsrlik dövlətçilik tarixinə malik Azərbaycan mürəkkəb sosial-iqtisadi və geosiyasi vəziyyətə baxmayaraq, müstəqilliyin bərpasından sonra yüksəlişini təmin edə, dünyada nüfuzlu dövlət kimi tanına bilib. Bu, birmənalı olaraq Heydər Əliyev dühası və Prezident İlham Əliyevin uzaqgörən və məqsədyönlü fəaliyyəti sayəsində mümkün olub".

Tahir Budaqovun sözlərinə görə, inkaredilməz həqiqətdir ki, müdrik dövlət xadimi Heydər Əliyev fəaliyyətinin bütün mərhələlərində Azərbaycan naminə çalışaraq xalqın işıqlı gələcəyini təmin edən əvəzsiz işlər görüb: "1993-cü ildə xalqın israrlı tələbi ilə respublikamızda yenidən hakimiyyətə qayıdan Ulu öndərin dövrün çağırışlarına cavab verən siyasəti nəticəsində milli birliyin, sabitlik və təhlükəsizliyin təmini, xarici dövlətlərlə qarşılıqlı faydalı əməkdaşlığın qurulması, ikitərəfli münasibətlərin bərabərhüquqlu tərəfdaşlıq prinsipi əsasında inkişaf etdirilməsi və digər mühüm faktorlar Azərbaycanın müstəqilliyinin möhkəmlənməsini və beynəlxalq münasibətlər sistemində rolunun artmasını təmin edib. Dahi şəxsiyyətin rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul olunmuş müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası dövlətimizin qarşısında duran ali məqsədlərə çatmaq üçün milli qanunvericiliyimizin əsaslarını müəyyən etmişdir".

YAP Sədrinin müavini bildirib ki, Ulu öndərin xalqımız qarşısında xidmətlərindən bəhs edərkən bu kontekstdə müasir dövlətçilik tariximizdə müstəsna yerə və rola malik - taleyüklü önəm daşıyan siyasi varisliyin təmin olunmasını xüsusi qeyd etmək lazımdır: "Azərbaycan xalqının böyük etimadı əsasında ölkə Prezidenti seçilərək dövlət başçısı kimi fəaliyyətə başladığı zaman öz missiyasını "Hamımızın amalı ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar" - tezisi ilə ifadə edən Prezident İlham Əliyev Heydər Əliyev yoluna sadiqliyini sübuta yetirib. Bu gün inamla və iftixarla söyləyirik ki, Ulu öndərin ideyaları və zəngin dövlətçilik irsi əsasında inkişaf yolunda addımlayan müasir müstəqil Azərbaycan dövləti Prezident İlham Əliyevin rəhbərliyi ilə tarixi uğurlara imza ataraq qarşıda duran strateji hədəfləri inamla gerçəkləşdirib".

Azərbaycan Dillər Universitetinin rektoru, Xalq yazıçısı, akademik Kamal Abdulla çıxışında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 2003-cü ildə Prezident İlham Əliyev haqqında "O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər".

Şəhid Ruslan Cəfərovun anası Alimə Cəfərova bildirib ki, Azərbaycanın bugünkü qürurlu, suveren və qalib ölkə reallığı təsadüfi deyil. Bu yolun təməli xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulub. Heydər Əliyev ideyaları Prezident İlham Əliyevin rəhbərliyi ilə tarixi Zəfəri təmin etdi. Fəxrlə ifadə edirik ki, şəhidlərimizin qanı yerdə qalmadı. Oğlum Ruslan Cəfərov qalib xalqın şəhididir!"

Daha sonra çıxış edən Vətən müharibəsi iştirakçısı, qazi Rüfət Salmanov deyib: "Biz döyüşə gedəndə bir amalımız vardı: dövlətimizin suverenliyini tam bərpa etmək. Biz bilirdik ki, arxamızda ulu öndər Heydər Əliyevin qurduğu güclü dövlət, önümüzdə isə Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli rəhbərliyi dayanır. Bu inam bizi məğlubedilməz etdi".

Tədbirin rəsmi hissəsi Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

Sonra konsert proqramı təqdim olunub.

***XQ***

# Baş nazir Türkiyə Diyanət İşləri İdarəsinin sədrini qəbul edib



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov dekabrın 24-də Türkiyə Respublikası Diyanət İşləri İdarəsinin sədri Safi Arpaquş ilə görüşüb.**



Nazirlər Kabinetindən bildiriblər ki, görüşdə S.Arpaquşun Bakıda keçirilən Azərbaycan Din Xadimlərinin İkinci Forumunda iştirakının əhəmiyyəti vurğulanıb.

İki ölkə arasında dini sahədə əməkdaşlığa toxunularaq qarşılıqlı əlaqələrin daha da dərinləşdirilməsinin, təcrübə mübadiləsinin genişləndirilməsinin əhəmiyyəti qeyd edilib, qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunub.

Görüşdə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov iştirak edib.

***XQ***

# “Təmiz Dünya” sığınacağında görüş





**Dekabrın 24-də “Təmiz Dünya” sığınacağında yaşayan uşaqlar üçün bayram şənliyi təşkil olunub.**

Şənlikdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva və Alena Əliyeva iştirak ediblər.

Şaxta baba və Qar qız nağıl qəhrəmanları ilə birlikdə şənlikdə iştirak edən uşaqları əyləndirib, onlara xoş anlar yaşadıblar.

Uşaqların məktəbə rahat və təhlükəsiz şəkildə gedib-gəlmələrini təmin etmək məqsədilə Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva tərəfindən mərkəzə yeni avtobus hədiyyə olunub.

Sonra Leyla Əliyeva, Arzu Əliyeva və Alena Əliyeva uşaqlara hədiyyələr təqdim edib, balacaların sevincinə şərik olublar.

***XQ***



# Mərkəzi Nəbatat bağında uşaqların Yeni il şənliyi



**Dekabrın 24-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə Mərkəzi Nəbatat bağında uşaqlar üçün bayram şənliyi təşkil olunub.**

Tədbir Bakı Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə internat evlərində yaşayan azyaşlılar üçün keçirilib. Bayram proqramı çərçivəsində balacalar üçün əyləncəli tədbirlər, oyunlar və musiqili proqramlar təqdim edilib. Uşaqlara müxtəlif hədiyyələr paylanıb.

Sonra Leyla Əliyeva uşaqlarla birlikdə IDEA İctimai Birliyinin “Şəhər ekologiyası” (“Urban Ecology”) layihəsi çərçivəsində Mərkəzi Nəbatat bağının ərazisinə Bakı Zooloji Parkında çoxaldılmış 10 sincab buraxıb. “Şəhər ekologiyası” layihəsi şəhər mühitinə xas olan və keçmişdə geniş yayılmış fauna növlərinin qorunmasına və qaytarılmasına yönəlib. Sincabların məhz bu əraziyə buraxılmasında digər məqsəd onların Nəbatat bağı ərazisində təbii şəkildə çoxalmasıdır.

Keçmişdə Bakı şəhəri ərazisində çoxsaylı sincab və digər heyvan növləri məskunlaşıb, onlar parklarda, yaşıllıqlar mövcud olan digər ərazilərdə insanlar arasında sərbəst dolaşıb. Lakin ötən əsrin sonlarında mövcud olan ekoloji problemlər səbəbindən bu növlərin sayı kəskin azalıb. Son illər ölkədə aparılan geniş yaşıllaşdırma və abadlaşdırma işləri, xüsusən də IDEA İctimai Birliyinin səyləri sayəsində Bakıda qanunsuz ağac kəsilməsi hallarının azaldılması və saysız-hesabsız yeni ağacların əkilməsi nəticəsində şəhərdə bir çox fauna növlərinin qaytarılması üçün münbit şərait yaradılıb.

***XQ***



# Paytaxtın 5 nömrəli internat məktəbində şəfqət mərasimi





**Dekabrın 24-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, Arzu Əliyeva və Alena Əliyeva Bakı şəhəri 5 nömrəli internat tipli xüsusi ümumtəhsil məktəbində olublar.**

Qonaqlar məktəbdə təşkil olunan Yeni il tədbirində iştirak ediblər.

Leyla Əliyeva, Arzu Əliyeva və Alena Əliyeva burada təhsil alan şagirdlərlə görüşərək onları 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edib, onlara hədiyyələr təqdim ediblər.

Qonaqlar şagirdlərin çıxışlarını və rəqslərini izləyib, onların ifasında şeir və musiqi parçalarını dinləyiblər.

Leyla Əliyeva, Arzu Əliyeva və Alena Əliyeva daha sonra uşaqlarla söhbət edib və şəkillər çəkdiriblər.



Qeyd edək ki, gözdən əlil uşaqlar üçün internat məktəbi 1961-ci ildə inşa edilib. Məktəb 2006-cı ildə Heydər Əliyev Fondu tərəfindən əsaslı təmir edilib, yeni sinif otaqları, kompüter zalı yaradılıb və müasir avadanlıqla təchiz olunub.

***XQ***

# İrəvan Azərbaycan Teatrı yeni binada



**Bakıda İrəvan Dövlət Azərbaycan Dram Teatrının binasının Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə əsaslı təmir və yenidənqurmadan sonra açılış mərasimi keçirilib.**

Əvvəlcə teatrın kollektivi, mədəniyyət xadimləri, Qərbi Azərbaycan İcmasının nümayəndələri və Milli Məclisin deputatları binada yaradılan şəraitlə tanış olublar. Teatrın direktor əvəzi Zivər Abbasova bildirilib ki, 3000 kvadratmetrlik teatr binası yenidənqurma layihəsi çərçivəsində tam müasir standartlara uyğunlaşdırılıb.

Mədəniyyət naziri Adil Kərimli vurğulayıb ki, bu teatr təkcə yaradıcı kollektivin fəaliyyəti üçün məkan deyil, eyni zamanda, Azərbaycan teatr ənənəsini, Qərbi Azərbaycan yaddaşını və mədəni irsimizi yaşadan rəmzi bir ünvandır.

Teatr Xadimləri İttifaqının sədri, Xalq artisti Hacı İsmayıl yaradılan şəraiti Azərbaycan teatrının tarixi ənənələrinə verilən dəyərin göstəricisi kimi qiymətləndirib. Qərbi Azərbaycan İcmasının sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli bildirib ki, İrəvan Dövlət Azərbaycan Dram Teatrı onlar üçün sıradan bir sənət ocağı deyil, 1882-ci ildə yaranan bu sənət ocağı Qərbi Azərbaycandan olan soydaşlarımızın üzləşdiyi tarixi sınaqların canlı yaddaşıdır.

Çıxışlarda, həmçinin binada yaradılan şəraitə və mədəniyyətimizin inkişafına göstərilən yüksək diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevaya minnətdarlıq ifadə olunub.

***XQ***

# Hər bir vədini uğurla gerçəkləşdirən Lider

(əvvəli qəzetin ötən sayında)



## Demokratik inkişaf yolu

Ötən 22 il demokratik təsisatların inkişafı, milli həmrəyliyin, sağlam əməkdaşlıq mühitinin və siyasi dialoqun təşviqi baxımından da diqqətçəkəndir. Ulu öndər Heydər Əliyevin siyasi kursunu bütün sahələrdə uğurla davam etdirən Prezident İlham Əliyev iqtisadi və siyasi islahatların vəhdətliliyinin təmin edilməsi üçün mühüm addımlar atır. Daim bu məqam önə çəkilir ki, elə ölkələr var ki, demokratik inkişaf baxımından yüksək səviyyədədir, amma iqtisadi tərəqqidən söhbət gedə bilməz.

Elə ölkələr də var ki, iqtisadi inkişaf yüksəkdir, demokratiyanın inkişafından danışmaq çətindir. Amma Azərbaycan hər iki baxımdan diqqətdədir. Ölkəmizdə demokratikləşmə prosesi, sadəcə, bir şüar, niyyət deyil, Azərbaycanın hərtərəfli inkişafı üçün əsasdır. Dövrün, zamanın tələblərinə uyğun olaraq reallıqların yeniləşməsi islahatların davamlı aparılmasını vacib vəzifə kimi müəyyən edir. Dövlət başçısı İlham Əliyevin həyata keçirdiyi islahatlar Azərbaycanın dayanaqlı inkişafının əsasıdır. Ölkə Prezidenti İlham Əliyev dövlət və cəmiyyətin inkişafı naminə sağlam əməkdaşlıq mühitini yaratdı.

Siyasi dialoqu və əməkdaşlıq mühitini təşviq edən Prezident İlham Əliyev bildirir: "Ümummilli məsələlərdə heç bir fərqli fikir ola bilməz. Ümumi məsələlər Qarabağ məsələsidir. Ümumi məsələlər siyasi partiyaların fəaliyyətidir, demokratiyanın inkişafıdır, iqtisadi azadlıqların bərqərar olmasıdır, ölkəmizin güclənməsidir. Bu gün bu siyasi dialoq aparılır. Mən bunu çox təqdir edirəm. Hesab edirəm ki, ölkəmizin gələcək siyasi sisteminin təkmilləşməsi üçün bunun böyük əhəmiyyəti var".

Ölkədə aparılan islahatlar kursunun tərkib hissələrindən biri kimi 2019-cu ildə Prezident Administrasiyasında yeni Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin yaradılması da bu məqsədə xidmət edir. Şöbənin müdiri Ədalət Vəliyev mütəmadi olaraq siyasi partiyaların rəhbərləri ilə görüşlər keçirir, aktual məsələlər ətrafında fikir mübadiləsi aparır. Ölkədə fəaliyyət göstərən siyasi partiyaların mütləq əksəriyyətinin siyasi dialoq proseslərinin fəal iştirakçıları olması faktı siyasi həmrəyliyin təzahürüdür.

Görülən işlərin məntiqi nəticəsidir ki, iqtidar-müxalifət dialoqu artıq ölkəmizin gündəlik siyasi təcrübəsinə daxil olmuş və davamlı şəkildə inkişaf edir. Bu birlik, həmrəylik dünyaya səs salan 44 günlük İkinci Qarabağ savaşında özünü daha aydın nümayiş etdirdi. 50-dən artıq siyasi partiya dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi siyasətə dəstəklərini və onun ətrafında birləşdiklərini imzaladıqları birgə Bəyanatda ifadə etdilər.

"Siyasi partiyalar haqqında" yeni Qanunun qəbul edilməsi ölkəmizdə bütün partiyaların normal fəaliyyətinin prioritetliliyini bir daha təsdiqlədi. Həmçinin 10 siyasi partiyanın VI çağırış, 11 siyasi partiyanın isə VII çağırış Milli Məclisdə təmsil olunması bilavasitə ölkədə yaşanan demokratik münasibətlərin təzahürüdür. 2024-cü il 7 fevral tarixində keçirilmiş prezident seçkilərində qeydiyyata alınmış 7 namizəddən 5-i məhz siyasi partiyalar tərəfindən irəli sürülmüşdü.

Ölkədə formalaşmış yeni siyasi mədəniyyətin bariz nümunəsi olaraq prezident seçkilərindən sonra ilk dəfə 18 siyasi partiya rəhbəri seçkilərin demokratik və şəffaf keçirilməsi haqqında bəyanat verərək Prezident İlham Əliyevi qələbə münasibəti ilə təbrik etmişlər. 2025-ci ilin 29 yanvar tarixində keçirilən bələdiyyə seçkilərində ölkədə mövcud olan 26 siyasi partiyadan 23-ü həm namizəd, həm də müşahidəçi irəli sürməklə seçki prosesinə qatılmışdı.

## İnsan hüquqlarının qorunması və humanizm

Ölkəmizdə insan hüquqlarının qorunması, yeni müdafiə mexanizmlərinin müəyyənləşdirilməsi də demokratik inkişafın əsas göstəricilərindəndir. İnsan hüquqlarının müdafiəsi sahəsində aparılan islahatların davam etdirilməsi məqsədilə Prezident İlham Əliyevin 28 dekabr 2006-cı il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi, bunun davamı olaraq, ölkə Prezidentinin 27 dekabr 2011-ci il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nın uğurlu icrası, 18 iyun 2007-ci il tarixli Sərəncamla İnsan Hüquqları Gününün təsis edilməsi bu reallığın təsdiqidir ki, insan amili dövlət siyasətinin əsasında dayanır.

Ulu öndər Heydər Əliyevin siyasi kursuna sadiqlik son 22 ildə humanizm prinsiplərinə söykənərək imzalanan əfv sərəncamlarından, həmçinin qəbul olunan Amnistiya aktlarından da aydın görünür. Bunun üçün Prezident İlham Əliyevin ümumbəşəri humanizm dəyərlərinə sadiqliyini əks etdirən mühüm təşəbbüslərini yada salmaq kifayətdir. Dövlət başçısı İlham Əliyev 2003-2025-ci illərdə 39 əfv sərəncamı imzalayıb və onlar 7060 nəfərə şamil olunub. Həmin dövrdə 5 Amnistiya aktı qəbul edilib. Prezident İlham Əliyevin təşəbbüsü əsasında 2021-ci ildə 8 Noyabr Zəfər Günü münasibətilə elan olunan Amnistiya aktı 17 mindən artıq nəfərə şamil edilib.

Suverenliyimizin bərpasının, Konstitusiyamızın ali hüquqi qüvvəsinin ölkəmizin bütün ərazilərində bərqərar olunmasının xalqımızın ən böyük tarixi qələbəsi olduğunu nəzərə alaraq, Prezident İlham Əliyev 15 dekabr 2025-ci ildə amnistiya elan edilməsi təşəbbüsünü irəli sürdü. Artıq icrasında başlanan Amnistiya aktı tətbiq edilən şəxslərin, o cümlədən azadlıqdan məhrumetmə cəzasından azad ediləcək məhkumların sayına görə ən böyük amnistiyadır. Belə ki, Amnistiya aktının, ümumilikdə, 20 mindən çox şəxsə şamil ediləcəyi gözlənilir. Bunlardan, 5 mindən çox məhkumun azadlıqdan məhrumetmə cəzasından azad ediləcəyi, həmin cəzaya məhkum olunmuş 3 mindən artıq şəxsin cəzasının azaldılacağı, 7 mindən çox məhkumun azadlığın məhdudlaşdırılması cəzasından, 4 minə yaxın məhkumun azadlıqdan məhrumetmə ilə bağlı olmayan digər cəzalardan və ya şərti tətbiq edilmiş cəzalardan, habelə mindən çox şəxsin cinayət məsuliyyətindən azad ediləcəyi proqnozlaşdırılır.

1995-ci ildə ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə işlənib hazırlanan və referendum yolu ilə qəbul olunan Konstitusiyamıza 2003-cü ildən bu günədək iki dəfə əlavə və dəyişikliklərin edilməsi məqsədilə ümumxalq səsverməsinin keçirilməsi də insan amilinə verilən dəyəri nümayiş etdirir.

Son 22 ildə azad mətbuatın inkişafı, seçkilərin demokratik, beynəlxalq standartlara uyğun keçirilməsi istiqamətində də mühüm addımlar atılıb. Bu gün ölkəmiz söz və mətbuat azadlığının yüksək səviyyədə təmin olunması sahəsində dünyada ön sıralarda yer alır. Azərbaycan KİV-lərin sayına görə MDB və Şərqi Avropa ölkələri arasında lider mövqedə dayanır. Sürətlə inkişaf edən internet resursları vətəndaş cəmiyyəti quruculuğunun fəal iştirakçısına çevrilərək cəmiyyətimizin informasiyaya olan ehtiyacının ödənilməsində əhəmiyyətli rol oynayır. Ölkəmizdə internet azaddır, heç bir məhdudiyyət yoxdur. Yeni "Media haqqında" Qanunun qəbulu azad mətbuatın qarşısında açılan imkanların təqdimatıdır. Ümumilikdə demokratik islahatlar Azərbaycanın dünəninin, bugününün və gələcəyinin əsasıdır.

## Yeni Azərbaycan Partiyasının töhfələri

Ölkəmizdə gedən bütün proseslərin mərkəzində dayanan Yeni Azərbaycan Partiyası siyasi sistemin təkmilləşdirilməsində mühüm rol oynayır. Yaradıcısı ulu öndər Heydər Əliyev olan, Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf edən Yeni Azərbaycan Partiyası qəbul etdiyi qərarları, irəli sürdüyü təşəbbüsləri ilə daim ölkəmizin inkişafına, siyasi sistemin təkmilləşdirilməsinə töhfələrini verir. Onu da qeyd edək ki, tarixi Zəfərimizin reallıqları fonunda 2021-ci ilin 5 mart tarixində VII qurultayını keçirən Yeni Azərbaycan Partiyasının yeni Nizamnaməsi təsdiq olundu, yeni tərkib formalaşdı, qərarlar qəbul olundu. Prezident İlham Əliyevin Sərəncamı ilə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Yeni Azərbaycan Partiyası Sədrinin Birinci müavini təyin edilməsi qarşıdakı dövr üçün müəyyənləşdirilən hədəflərə yüksək səviyyədə nail olacağımızı şərtləndirdi. Partiyanın "Biz birlikdə güclüyük!" devizi altında təsdiqlənən Proqramında hədəflər və onların icra mexanizmi öz əksini tapıb. Təbii ki, əsas çağırışlardan biri hazırkı dövrün əsas hədəfi olan azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərinə, Böyük Qayıdış Proqramının icrasına dəstək olmaqdır. Yeni Azərbaycan Partiyasının hər bir üzvü qalib Azərbaycanın uğurlarından böyük qürur hissi keçirir, yeni hədəflərin reallığa çevrilməsinə öz töhfələrinin verməyə çalışır.

Uğurlarımızı şərtləndirən amillərə nəzər salmaqla bu ümumiləşdirməni apara bilərik ki, tariximizə Zəfər və Dövlət Suverenliyi günlərinin yazılması dünənimizin, bugünümüzün və gələcəyimizin aydın mənzərəsini yaradır. 44 günlük İkinci Qarabağ müharibəsi gənclərimizin Vətən, torpaq sevgisinin təqdimatı oldu. Bir daha sübut olundu ki, torpaq, əgər uğrunda ölən varsa, Vətəndir. Dövlətimizin tarixi Zəfərimizin əbədiləşdirilməsi istiqamətində atdığı addımlar davamlıdır. Bu addımlar 44 günlük Vətən müharibəsində dastan yazan oğulların vətənpərvərlik məktəbindən öyrənməyə, onları unutmamağa çağırışdır. Azad edilmiş ərazilərimiz üzrə şəhər günləri təsis edildi. İndiki və gələcək nəsillər tariximizin hər səhifəsini, o cümlədən Zəfər səhifəsini daim yaddaşında saxlamalı, tariximizi öyrənməli və torpaqlarımızın azad edildiyi günləri yaddaşına həkk etməlidir. Şəhidlərimizin qanı, canı bahasına yazılan bu tarixləri unutmağa haqqımız yoxdur.

## Müzəffər Ali Baş Komandan – torpaqlarımızın xilaskarı

Ərazi bütövlüyümüzün bərpası və xalqımızın mədəniyyət beşiyi hesab olunan Şuşanın azad olunması Prezident İlham Əliyevin Zəfər zirvəsidir. Dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev adını tariximizə torpaqlarımızın xilaskarı kimi qızıl hərflərlə yazdı. Bu gün harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı qürurludur. İşğaldan azad edilmiş ərazilərimiz quruculuq meydanını xatırladır. Bərpa və quruculuq işləri geniş vüsət alıb. Azərbaycan yalnız özünün maliyyə resurslarına arxalanaraq sıfırdan yeni şəhər və kəndlər salır. Artıq 6 şəhər, 2 qəsəbə və 20-dən artıq kənd sakinlərinə qovuşub. Qarabağımız və Şərqi Zəngəzurumuz cənnətməkana çevrilir. Bu ərazilərimiz şəhərsalmanın Azərbaycan təcrübəsini dünyaya təqdim edir.

Hər vədini əməli fəaliyyəti ilə həyata keçirən Prezidentə xalqın sevgisi sonsuzdur. Möhtərəm Prezidentimiz İlham Əliyev Azərbaycanı gücləndirdi, qalibiyyətimizi şərtləndirən bütün amillərin yaradılmasına nail oldu və sonda azadlığına qovuşacağını 30 il səbirsizliklə gözləyən torpaqlarımıza "Biz gəldik və burada əbədi olacağıq" söylədi. Prezident İlham Əliyevin qalib Lider kimi işğaldan azad edilmiş ərazilərimizə davamlı səfərləri bu torpaqlara əbədi gəlişimizin təsdiqidir. Bugünümüzün reallıqları, eyni zamanda, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın "Qoy bizim üçrəngli bayrağımız suveren, qüdrətli Azərbaycan səmasında əbədi dalğalansın!", "Qoy Uca Tanrı hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin!" kimi istəklərinin təsdiqidir.

Tarixi Zəfərimiz bütün regiona sülh və davamlı inkişaf imkanı qazandırıb. Müzəffər Ali Baş Komandan İlham Əliyevin gələcəyə xidmət edən strategiyası sayəsində regionun beynəlxalq statusu dəyişmiş və bölgə ölkələrinin inkişafı üçün yeni imkanlar açılmışdır. Qarabağ münaqişəsinin həlli regionun təhlükəsizliyi və investisiya cəlbediciliyi baxımından strateji əhəmiyyətə malikdir. Qələbə nəticəsində işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq Azərbaycanın inkişafına böyük təkan verəcək. Bu il sülh müqaviləsinin imzalanması istiqamətində mühüm uğurlara imza atıldı. Dövlətimizin başçısı İlham Əliyevin avqustun 8-də ABŞ-a işgüzar səfəri zamanı əldə edilən razılaşmalar bunun təsdiqidir. Azərbaycan hər zaman sülhün, təhlükəsizliyin tərəfdarıdır. Bölgədə dayanıqlı sülhün təmin edilməsi, Ermənistanla münasibətlərdə yeni səhifənin açılması üçün ölkəmizin qarşı tərəfə sülh təklifini etməsi və buna nail olmaq üçün atdığı addımlar bütün məqamları özündə ehtiva edir.

## Növbəti hədəf Qərbi Azərbaycana qayıdışdır

Dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin əminliklə qeyd etdiyi kimi, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Bunu deməyə əsas verən bir çox amillər var. Onlardan yəqin ki, ən önəmlisi xalqımızın tarixi yaddaşıdır. Ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə-yeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var.

Bir sözlə, 22 ilin uğurları gələcəyə böyük inamla addımlamağa stimul verir. Prezident İlham Əliyevin qarşıya qoyduğu bu hədəf hər bir Azərbaycan vətəndaşına çağırışdır – Biz daim irəli baxmalıyıq!

***Vüqar RƏHİMZADƏ,***
***Milli Məclisin deputatı***

# Qüdrətli dövlətin, ahəngdar cəmiyyətin qurucusu

**Qətiyyətli, hökmlü, azad, prinsipial! Onu bu sözlərlə xarakterizə etmək olar. Qətiyyəti, əzmi bütün dünya üçün örnəkdir. O göstərir ki, öz dövlətinin, öz millətinin mənafeyini prioritetə çevirəndə, onun dəyərlərinə hörmət edəndə, digər xalqlara, dövlətlərə də rəqib və ya istismar obyekti kimi baxmırsan, onlara məxsus olan dəyərlərə etinasız yanaşmırsan. Bu əxlaq siyasətini öz tərcümeyi-hallarına çox az dövlət başçısı yazdırmağa müvəffəq olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bunu bacarıb.**

Dünyagörüşünün qlobal xarakteri, bəşəriyyət qarşısında məsuliyyət hissi, eyni zamanda, milli mənafenin hər şeydən uca tutulması amili onun ehtiva etdiyi ən ali dəyər, mənəvi-əxlaqi keyfiyyətlər məcmusu kimi müstəsnadır. O, bütün cəbhələrdən ölkəmizə uzanmış əl, dil, silah müdaxilələrini dəf etməyə çalışaraq Azərbaycanın milli varlığını qorumaq amalına layiqincə xidmət göstərir. Xalqın tarixini və taleyini növbəti səhvlərdən qorumaq üçün sağlam mənəvi iqlim yaradır və bu işdə bütün milli-siyasi-intellektual potensialı ilə birlikdə dayanır. Amma onun ən xarakterik portret cizgisi sülh və harmoniya məramını dəst-xəttinə çevirməsidir.

Azərbaycan Prezidenti İlham Əliyev bu il ardıcıl dörd mühüm beynəlxalq zirvə toplantısında iştirak etdi. Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası, Danimarkada keçirilən Avropa Siyasi Birliyinin Zirvə görüşü, Qəbələdə baş tutan Türk Dövlətləri Təşkilatının sammiti və Misirdə keçirilən Sülh Sammiti! Bu faktlar təkcə diplomatik aktivlik deyil, həm də Azərbaycanın artan nüfuzunun, beynəlxalq aləmdə yüksək hörmətə və etimada sahib olmasının bariz göstəricisi idi.

Cənab Prezidentin bu görüşlərdəki çıxışları həm məzmun, həm də ton baxımından qlobal siyasətə aydın mesajlar verdi. O, dünyanın ən ali tribunalarından birində – BMT Baş Assambleyasında ədalət və beynəlxalq hüququn üstünlüyü məsələsinə toxunaraq dedi: "Ədalət qalib gəldi, suverenliyimiz bərpa olundu və sülh artıq reallığa çevrildi". Bu sözlər təkcə Azərbaycanın ədalətli mübarizəsinin yekunu deyil, həm də müasir beynəlxalq münasibətlər sisteminə ünvanlanmış bir prinsipial çağırış idi. İlham Əliyev açıq şəkildə vurğuladı ki, dünya ədalətsizliklərə göz yummamalı, beynəlxalq hüquq seçici deyil, ümumi dəyər olmalıdır.

Avropa Siyasi Birliyinin Zirvə toplantısında isə Azərbaycan lideri daha çox qarşılıqlı asılılığın sivil tərəfləri barədə danışdı. "Azərbaycan hər zaman etibarlı tərəfdaş olub və belə də qalacaq", – deyərək Avropanın enerji xəritəsində ölkəmizin həlledici rolunu bir daha təsdiqlədi.

Qəbələdə keçirilən Türk Dövlətləri Təşkilatının sammitində Prezident İlham Əliyevin səsləndirdiyi fikirlər xüsusi rezonans doğurdu. O bildirdi ki, "Türk dünyasının birliyi hər bir üzv dövləti gücləndirəcək, ortaq səsimizi beynəlxalq aləmdə daha da ucaldacaq". Bu sözlər, əslində, türk dünyasının gələcək inteqrasiyasının siyasi manifesti kimi səsləndi. Qəbələdəki sammit həm qardaşlıq, həm də siyasi iradə baxımından yeni mərhələ açdı. Azərbaycanın ev sahibi kimi diplomatik və təşkilati bacarığı burada bir daha özünü göstərdi, ölkəmiz Türk dünyasının siyasi mərkəzinə çevrildi.

Misirdə keçirilən Sülh Sammitində isə İlham Əliyev Azərbaycanın beynəlxalq humanitar məsuliyyətinə əsaslanan mövqeyini ortaya qoydu: "Bizim baxışımız sülh və inkişaf üzərində qurulub – beynəlxalq hüquqa, dövlətlərin daxili işlərinə qarışmamaq prinsipinə, qarşılıqlı hörmətə və əməkdaşlığa əsaslanan bir dünya nizamı yaratmaq istəyirik". Bu fikirlər bir daha sübut edir ki, Azərbaycan müharibə və qarşıdurmalardan uzaq, konstruktiv dialoqa üstünlük verən dövlət kimi tanınır.

Bu beynəlxalq görüşlərdə baş verənlər, əslində, Azərbaycanın diplomatik tarixində bir mərhələdir. Dörd böyük qlobal tribuna, dörd fərqli region, amma eyni məzmunlu mesaj: ədalət, sülh, əməkdaşlıq və müstəqillik. Burda mən diqqəti məhz harmoniya amilinə yönəltmək istəyirəm. Vaxtilə böyük qırğız yazıçısı Çingiz Aytmatov məşhur "Kassandra damğası"nda yazırdı: "İndi artıq dünya qan tökməklə problemləri həll etmək yolunu tuta bilməz. Müharibə kultunun yerinə mütləq dünya mədəniyyəti gəlməlidir. Dünya paytaxtlarının mərkəzində mütləq at belində sərkərdələr görürük. Bəs sülh istəyən böyük şəxsiyyətlər hanı?"

Yaxud Misir yazıçısı Nəcib Məhfuzun Nobel alarkən etdiyi çıxışda belə fikirlər yer alırdı: "Bizim sivil dövlətlərin rəhbərlərindən və onların sahibkarlarından əsl sıçrayış etməyi, müasir dünyaya yeni, qərəzsiz baxışla baxmağı tələb etməyə haqqımız və borcumuz var. Əvvəllər hər bir lider yalnız öz millətinin mənafeyi naminə hərəkət edirdi, qalanlarına rəqib və ya istismar obyekti kimi baxır, öz üstünlüyündən və şəxsi şöhrətindən başqa bütün digər dəyərlərə etinasız yanaşırdı. Bunun adı ilə əxlaq dağıdılıb, prinsiplər pozulub, ləyaqətsiz üsullara haqq qazandırılıb, saysız-hesabsız insan ölümə məhkum edilib. Yalan, hiylə, xəyanət və qəddarlıq bəsirət möcüzəsi kimi ehtiram edilir, böyüklüyün sübutu kimi görülürdü. Bu gün yanaşma kökündən dəyişməlidir".

Qazax xalqının dəyəri, məşhur "Az i Ya"-nın müəllifi Oljas Süleymenov da bu yaxınlarda verdiyi müsahibəsində fəlakət, taun və dağıdıcılıq bəlaları kimi təlqin olunan və şüurlara yeridilən qloballaşmada, eləcə də müstəmləkə asılılığından şüurlu qarşılıqlı asılılıq erasına keçiddə yaradılmış bütün maneələri yarmaqda ancaq sülh və harmoniya istəyən və bunu yaratmağa can atan sağlam qüvvələrin gücünü istisna etmir.

Bəli, sülh və əmin-amanlığın tam bərqərar olmasına çalışmaq əzmi bu gün İlham Əliyevin bəşər tarixinə verdiyi böyük töhfədir! Balanslı, müstəqil və milli maraqlara əsaslanan siyasət! Bu gün Azərbaycanın səsi dünyanın ən ali tribunalarında eşidilir. Bu səs gücün, ədalətin, sülhün və milli qürurun səsidir. Prezident İlham Əliyevin qlobal liderlik missiyası təkcə Azərbaycanın deyil, bütövlükdə regionun sabitliyi və inkişafı üçün yol xəritəsidir. Hərçənd, dünya belə qətiyyətli, güclü lider obrazını, xüsusilə prinsipial, beynəlxalq dəngələri qoruyan idarəedicini o qədər də asan qəbullana, həzm edə bilmir. Amma olsun, onsuz da başqa yolları yoxdur.

Parçalanan, talan olan Azərbaycan hələ ümummilli lider Heydər Əliyevin zamanında kor Edip kimi ayağa durub qalxmağa özündə qətiyyət tapmışdı. İlham Əliyev isə Azərbaycanı ona tarixən dəymiş bütün zərbələrin altından zədəsiz çıxarmağı bacardı. Gələcəyə bütöv Azərbaycan ərməğan etmək üçün!

Bu gün dünyada öz siyasi ambisiyası, mənfəəti naminə xalqının qanı və müsibətini tərəziyə qoymağa hazır olanlar var. İlham Əliyev isə şərəf və suverenliyi, humanizm və insaniyyəti liderlik fəaliyyətinin ana xəttinə çevirib. İlham Əliyev nəyə çalışır? Məqsəd yalnız Qarabağı bütöv şəkildə geri almaq, Azərbaycanın bütün torpaqlarında Konstitusiya quruluşunu bərpa etmək deyildi. Hədəf və niyyət daha ali məramları çevrələyir: göz yaşına, müharibələrə son qoymaq, sülhə nail olmaq! Bütün çıxışlarında bu ali niyyətini dünyaya sərgiləyir ölkə başçısı. Qarabağdakı ermənilərə öz vətəndaşları kimi müraciət edilməsi, onlara düzgün yol göstərilməsi də həmin bu missiya daxilində dərkediləsi prosesdir. Sülh və əmin-amanlığın tam bərqərar olmasına çalışmaq əzmi bu gün İlham Əliyevin bəşər tarixinə verdiyi böyük töhfədir!

Hər halda, bu gün qürur duymalıyıq ki, kimlərinsə utopik şəkildə arzuladığı sivil, sülhsevər lider obrazı - böyük şəxsiyyət, güclü siyasi rəhbər, tək ölkəsinin deyil, dünyanın yaxşılığını arzulayan, bunu bəşəriyyət qarşısında məsuliyyət kimi dərk etdirməyə çalışan insanın rəhbərlik etdiyi ölkədə yaşamaq bizim nəsibimiz olub və Azərbaycan Prezidenti İlham Əliyev bu ali dəyərləri, mənəvi-əxlaqi keyfiyyətləri özündə ehtiva edən şəxsdir! Bu gün onun Qərbi Azərbaycana qayıdışla bağlı qarşısına qoyduğu amalın da zəmini sülh və hamoniyaya əsaslanır: "Zəngəzura da, əlbəttə ki, qayıdacağıq, amma sülh yolu ilə. Mən demişəm, məni bəziləri ittiham etməyə çalışırlar, mən dedim ki, biz oraya tanklarla yox, minik maşınları ilə qayıdacağıq".

Ölkə başçısının Zəngəzurla bağlı mövqeyi əvvəldən elə bu olub. Düz üç il əvvəl, 2022-ci ilin 24 dekabrında Qərbi Azərbaycan İcmasında çıxışında vurğulayırdı ki, "Biz hüquqlarımızı sülh yolu ilə təmin etmək istəyirik və yenə də deyirəm, bütün konvensiyalar bu hüququ tanıyır. Ona görə buna nail olmaq üçün biz, o cümlədən beynəlxalq müstəvidə daha fəal olmalıyıq. Biz birgə səylərlə Qərbi Azərbaycana Qayıdış Konsepsiyasını da işləməliyik. Qarabağ münaqişəsi həll olunandan sonra indi bizim gündəliyimizdə duran məsələ budur".

Göründüyü kimi, İlham Əliyev fərqli yol tutur və tutduğu yolla əslində xalqın əsrlərlə qazandığı nəcib xalq statusunu da təhdid və zərbələrdən qorumuş olur, onu erməni daşnakları, faşist təfəkkürlü terrorçularla eyniləşdirmir. Onlar kimi davranmamalı, onlar kimi danışmamalı olduğumuzun ən böyük örnəyini Azərbaycan Prezidenti İlham Əliyev birinci elə özü meydana qoyur. Bu mənada, İlham Əliyev bu gün insanlığın, bütövlükdə, bəşəriyyətin düşmənlərinə qarşı vuruşur. Onun hədəfi yalnız mənfur düşmən deyil, həm də bütün insanlığa qənim kəsilən qüvvələrdir, silahı yalnız hərbi texnika deyil, həm də insani, humanist ideyalardır. Böyük Mirzə Ələkbər Sabirin dediyi kimi, "Kim ki, insanı sevər, aşiqi-hürriyyət olur, Bəli, hürriyyət olan yerdə də insanlıq olur"!

Sülh istəyi və insanlıq ləyaqətini bir araya cəm edib öz liderlik tərcümeyi-halının əsas xəttinə çevirməyi bacaran Azərbaycanın gücü – İlham Əliyev bu əzmlə ən uzaq tarixləri yaxına gətirir, ən əlçatmaz arzuları reallığa çevirir. Və bu yaxınlaşan uzaqlıqlardan bir də açılacaq Zəngəzur dəhlizinin üfüqləri görünür...

***Elnarə AKİMOVA,***
***Milli Məclisin deputatı,***
***filologiya elmləri doktoru***

# Prezident İlham Əliyevin “Xəzərin geosiyasəti” konsepti

V MƏQALƏ

## Müasir regional və qlobal geosiyasi xüsusiyyətlər

Prinsipcə, Xəzərin geosiyasətinə konseptual yanaşma regional və qlobal özəllikləri nəzərə almadan mümkün deyil. Bunlarla yanaşı, Xəzəryanı dövlətlərin milli maraqları və milli təhlükəsizliyi məsələsini kənara atmaq imkansızdır. Azərbaycan Prezidentinin dərin məzmunlu əsərlərindən göründüyü kimi, bu prosesdə XXI əsrin 20-ci illərinə qədər əsasən böyük dövlətlər öz maraqlarından çıxış edərək dominant rol oynamışlar. ABŞ, Böyük Britaniya, Fransa, Almaniya, Rusiya, Türkiyə, İran öz fəaliyyətləri ilə Xəzəryanı regionun siyasi və geosiyasi mənzərəsinə “möhürləri”nu vurmuşlar.

Belə alınır ki, əgər məsələyə Xəzərin tarixi-siyasi xüsusiyyətləri prizmasında baxsaq, burada hegemon qüvvə həmişə imperialist güclər olmuşdur. Bu, bir müddət İran, başqa zaman Rusiya və ya Qərbin hansısa dövləti ola bilər. Onların hamısını birləşdirən məqam regiona orada mövcud olan dövlətlərin (Azərbaycan, Qazaxıstan, Türkmənistan) hüquqlarının tam təmin edilmədiyi şərtlər daxilində fəaliyyət göstərmək olmuşdur.

Tam da olmasa, faktiki olaraq, Xəzəryanı regiona aid olan Rusiya və İran da eyni məntiqlə davranmışlar. Bu, əsrlərlə yerli, lakin supergüc olmayan ölkələrə qarşı qərəzli siyasəti labüd etmişdir. Xəzəryanı regionun geosiyasəti tarix boyu ziddiyyətli və qərəzli məqamlarla zəngin olmuşdur.

Bu vəziyyəti SSRİ-nin süqutu dəyişməyə başladı. Artıq Xəzəryanı regionda 5 müstəqil dövlət vardı ki, onlar BMT-nin əməl etdiyi beynəlxalq hüquq normalarına görə, bərabərhüquqludurlar. Deməli, yeni vəziyyət yaranmışdı ki, regionun geosiyasətini tam fərqli formlaşdırmağı tələb edirdi. Azərbaycan Respublikası bu məsuliyyətli işi öz üzərinə götürmüşdür. Prezident İlham Əliyevin əsərlərində Xəzərin yeni geosiyasət konsepti dərindən və əsaslı ifadə edilmişdir.

Azərbaycan liderinin yanaşmasında müasir dövrdə regional və qlobal geosiyasi xüsusiyyətlərlə Azərbaycan da daxil olmaqla Xəzəryanı regionun hər bir dövlətinin milli maraqları ciddi surətdə nəzərə alınmışdır. Bu məqam İlham Əliyevin konseptinin çox güclü nəzəri aspektini təşkil edir. Yəni regional və qlobal geosiyasətin yaratdığı şərtlər fonunda yalnız Azərbaycan deyil, Xəzəryanı regiona aid olan hər bir müstəqil dövlətin hüquqları bərabər qaydada diqqətə alınmışdır. Bizcə, Azərbaycan Prezidentinin konseptinin böyük uğurlarının səbəblərindən biri regiona obyektiv yanaşma, hər bir dövlətin maraqlarını bərabər qaydada nəzərə almaqdan ibarətdir.

Bu tezisi Azərbaycan dövlət başçısının konseptində yer almış üç prinsipin qarşılıqlı əlaqədə təhlili sayəsində əsaslandırmaq olar. Öncə, deyək ki, bizim bir qəzet məqaləsində problemi tam əhatə etməyimiz və bütün konseptual prinsipləri nəzərə almağımız imkansızdır. Ancaq vurğulamaq istədiyimiz üç prinsip məsələnin ümumi nəzəri məzmununu dərk etməyə imkan yaradır. Həmin prinsiplər Azərbaycanın geosiyasi vəziyyətinin inkişafı tendensiyaları ilə bağlıdır.

## Azərbaycanın geosiyasi və geoiqtisadi vəziyyəti

Müstəqilliyini əldə etmiş Azərbaycanın XX əsrin son onilliyində geosiyasi və geoiqtisadi vəziyyəti bir sıra təhlükələrlə üzləşmişdi. Azərbaycan Prezidenti onları detallı şəkildə əsərində təhlil etmişdir. Belə aydın olur ki, artıq müstəqil olan Azərbaycana geosiyasi və geoiqtisadi aspektlərdə çətinliklər, mürəkkəb situasiyalar yaradan kifayət qədər dairələr olmuşdur. Onlar müxtəlif bəhanələrlə Azərbaycanın müstəqil dövlət kimi inkişaf etməsinə əngəllər törətmişlər. Həm də bu proses bizə məlum olan hadisələrindən daha dərin qatlarda baş vermişdir. Bir faktı göstərə bilərik.

Azərbaycan Prezidenti əsərində “Əsrin müqaviləsi” ilə bağlı çox maraqlı faktlar gətirmişdir. Neftlə bağlı Azərbaycan SSR-yə ilk ayaq basan Şotlandiyanın “Remko” şirkətinin idarə heyətinin sədri S.Remp olmuşdur. O, 1989-cu ildə Bakıya təşrif buyurmuşdur. Onlar hiss emişdilər ki, yaxın zamanlarda ciddi siyasi dəyişikliklər olacaq və Azərbaycana Qərb sərmayələri lazım ola bilər. Məşhur neftçimiz K.Abbasovla tanış olan şotland sonra xatırlayacaqdı ki, “Yüzlərlə quyu ağır vəziyyətdə idi. Sanki burada zaman donmuşdu”.

Yəni qərbli iş adamı açıq hiss edirdi ki, Azərbaycan neftinə ciddi sərmayə gərəkdir. S.Remp onu da ifadə etmişdi ki, Azərbaycanda neftin qurtardığı fikrini yaratmışdılar. Kimlər? Bizcə, aydındır.

K.Abbasov S.Rempdən Azərbaycan neftinə Qərbin sərmayə qoymasını xahiş etmişdir. Böyük Britaniyaya qayıdan mütəxəssis “bp”-yə Azərbaycanın real neft ehtiyatı ilə bağlı rəqəmləri təqdim edir. İngilis şirkətin rəhbərliyi şoka düşür: bu qədər çox?!

1990-cı ildə Azərbaycan SSR rəhbərliyi “bp”(Statoyl)”, “AMOKO” və “Yunokal” ilə danışıqlar aparmağa başlamışdır. 1991-ci ilin qışında real addımlar atmağa cəhd də olmuşdur. Ancaq məlum dairələrin anti-Azərbaycan təbliğatı və ölkəmizdə hakimiyyət dəyişiklikləri buna imkan verməmişdir. Əsərdə əsas səbəblər kimi aşağıdakılar göstərilir: ABŞ-ın “907-ci düzəliş”i, bütün yataqlar üzrə işlərin hamısını birləşdirmək niyyətinin getdikcə artması və layihə üzərində işləyən azərbaycanlı mütəxəssislərin hazırlıqlarının lazımi səviyyədə olmaması.

Lakin əsas faktorlardan biri kimi Rusiya və İran da vardı. 1994-cü ilin yazında Rusiya diplomatiyası “Əsrin müqaviləsi” layihəsinə qarşı güclü diplomatik hücuma keçmişdir. Moskva Londona nota vermişdir. Kreml Azərbaycanın müstəqil olaraq qərar qəbuletmə hüququnun olmadığını vurğulayırdı.



Hətta 1994-cü il iyunun 21-də B.Yeltsin gizli əmr imzalamışdır ki, (№396 – РПС) neft layihəsi baş tutsa, Azərbaycana qarşı iqtisadi sanksiyalar tətbiq edilsin. “Əsrin müqaviləsi” imzalanandan sonra isə Rusiya XİN bəyanat yaymışdır ki, Azərbaycan, Qazaxıstan və Türkmənistanın davranışları mövcud hüquqi rejimə uyğun deyil və Rusiyanın maraqlarına zərbə vurur.

Gətirilən bu faktlar göstərir ki, Heydər Əliyevin yenidən hakimiyyətə gəlişi ərəfəsində və onun ilk illərində Azərbaycan üçün çox riskli, qeyri-müəyyən və təhlükəli geosiyasi və geoiqtisadi vəziyyət yaranmışdı. Bu durumdan məharətlə çıxmaq lazım idi.

## Xəzər regionunun geosiyasi xüsusiyyəti

Prezident İlham Əliyev Xəzər regionunun müasir geosiyasəti üçün onun Avropadan Asiyaya olan ənənəvi ticarət yollarının kəsişməsində yerləşməsinin əhəmiyyətli olduğunu vurğulayır. Burada “ənənəvi ticarət yolları” ifadəsi geosiyasi aspektdə konseptuallaşdırılmış anlayışdır. Yəni onun semantikası yalnız birbaşa predmetə aid olanla məhdudlaşmır, xüsusi məcazla (metafor) geosiyasi idrak müstəvisinə proyeksiya edilir. “Ənənəvi ticarət yolu” termini ümumiləşdirilir və bütövlükdə müasir şəraitdə müxtəlif nəqliyyat marşrutlarının Azərbaycanda şəbəkə yaratması, “dəhliz” statusunda formalaşması və bunun bir aspektinin mütləq surətdə milli maraqlara və milli təhlükəsizliyə “bağlanması” kimi xüsusiyyətləri ehtiva edir.

Bu cür konseptuallaşma çox uğurludur. Çünki indiki mərhələdə Xəzərin region kimi geosiyasi anlamında substantivliklə nəqliyat-loqistika vəhdətdə çıxış edirlər. Yəni regionun təbii ehtiyatlarının (enerji daşıyıcıları da bura daxildir) və bioresurslarının real mövcudluğu (“təbii depozitlik”) kifayət etmir, onların necə və hansı istiqamətlərdə daşınması da geosiyasət üçün “ontoloji faktora” çevrilmişdir.

Xəzərin geosiyasətinə vurğulanan faktorların qarşılıqlı əlaqəsində konseptual yanaşma müasir dövr üçün optimal və praktiki aspektdə faydalıdır. Burada nəzəri obrazla onun praktiki reallaşması bir-birini tamamlayır. Və əsas odur ki, praktiki faydalılıq əminliyi nəzəri obrazdan qaynaqlanır.

Azərbaycan Prezidenti regionun tarixinə, siyasi ənənəsinə və müasir geosiyasət elminin əsas kriteriyalarına əsaslanaraq Xəzərin geosiyasəti” konseptini hazırlamaqla əsrlərlə davam edən ixtilafları, intriqaları və pozuculuq meyillərini aradan qaldırmışdır. Əvəzində qlobal miqyasda faydası olan əməkdaşlıq və təhlükəsizlik modelini aktullaşdırmışdır. Bu məqamda Azərbaycan Prezidentinin konseptual yanaşmasının nəzəri tərəfi üçün olduqca əhəmiyyətli olan bir məsələni vurğulamaq gərəkdir.

## “Dövlət” anlayışının tarixi və geostrateji kökləri

Azərbaycan Prezidenti “Azərbaycanın Xəzər nefti” (2003) əsərində region və qlobal miqyasların qarşılıqlı əlaqəsi kontekstində ölkənin geosiyasəti xüsusiyyətlərini təhlil edərkən ayrıca “dövlət” anlayışı üzərində dayanır. Dövlət başçısının yanaşması ən müasir elmi nəzəriyyələrə əsaslanır. Prezident İlham Əliyev dövlətin aşağıdakı xüsusiyyətlərini vurğulayır:

- *Dövlət özünün tərkib hissələrinin cəmindən “böyük”dür;*
- *Dövlət rəqabət aparan sosial və institusional qüvvələrin toplam əks etdirdiyindən də “böyük”dür;*
- *Dövlət keçici olmayan və dəyişməyən maraqları ifadə edə bilər;*
- *Həmin maraqlar uzunmüddətli tarixi və geosiyasi köklərə malikdirlər.*

Bu əlamətlərdə müasir dövlətçiliyin bir neçə aspekti sistemli ifadə edilmişdir. Birinci əlamətdə dövlətin mürəkkəb, qeyri-xətti və daim özünütəşkil edən açıq sistem olmasının nəzəri-konseptual obrazı verilmişdir. Məhz bu baxımdan dövlət həmişə onu təşkil edən hissələrin cəmindən daha çox anlama malikdir. Onun mahiyyəti ilə funksiyasının vəhdəti qeyri-xətti xarakterlidir – dövlət bir güclü təsirə minimal və ya bir ən zəif təsirə çox həssas reaksiya verə bilər. Məsələn, müasir müstəqil dövlət böyük hərbi gücü dəf edər və ən az dəyişmələrə məruz qalar. Lakin ən zəif olsa belə mənəviyyat, ideologiya, informasiya, mədəniyyət və ya əxlaqla bağlı pozucu təsirə ciddi həssaslıqla yanaşar.

İkinci əlamət sosial və institusional faktorların dövlət üçün əhəmiyyətini ifadə etməklə yanaşı, onların da hüdudları ilə məhdudlaşmadığını əks etdirir. Burada, görünür, idarəetmə fəlsəfəsinin rolu ön plana çıxarılır. İdarəetmə həmişə real mövcud olan sosial və insitutlaşma prosesinin fövqündə dayanan “dövləti reallıq” yarada bilir.

Üçüncü və dördüncü əlamətlər bir-biri ilə sıx bağlıdırlar. Onlar sintez halında dövlətin həmişə tarixi və geosiyasi məqamların harmoniyasına nail olmaq zərurliyinə aiddirlər. Əsl müstəqil uğurlu dövlət özünün tarixi və geosiyasi ənənəsinin nisbətini daim milli və dövləti maraqlar üzərində “optimallaşdırmalıdır”. Bu qayda pozulduqda gec və ya tez dövlətin müstəqilliyi zərər görür.

Sonuncu tezisdən başqa bir əhəmiyyətli məqama keçid vardır.

## Sülhsevər, praqmatik və təhlükəsiz əməkdaşlıq

Azərbaycan Prezidentinin “Xəzərin geosiyasəti” konseptini yığcam belə ifadə etmək olar. Yuxarıda vurğuladığımız faktorlardan çıxan ümumi nəticə ondan ibarətdir ki, Azərbaycan liderinin Xəzər konsepti mahiyyətcə sülhə aparır. Hazırkı funksional xüsusiyyətləri üçün isə təhlükəsiz əməkdaşlıq aparıcı yer tutur. Bütün bu cəhətləri fokuslandırma mexanizmləri isə beynəlxalq hüquqa və tarixi ədalətə əsaslanan xarici siyasət təşkil edir. Azərbaycanın Xəzər konseptinin təməlinə yerləşdirdiyi bərabərhüquqluluq prinsipi geniş perspektivlər açır.

Hazırda Xəzəryanı regionda proseslər Azərbaycanın aparıcı fəaliyyətinin məntiqinə və stratejisinə uyğun inkişaf edir. Bunun başlıca səbəbi öncədən dəqiq düşünülmüş və davamlı olaraq həyata keçirilən geostrateji konseptin mövcudluğu ilə bağlıdır. Artıq Xəzəryanı regionun geosiyasi ritmi fərqlidir.

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# İrəvanın kompası Şərqlə Qərb arasında titrəyir

**Ermənistan son illər mürəkkəb və ziddiyyətli geosiyasi mərhələdən keçir. Bu mərhələnin mərkəzində Nikol Paşinyan administrasiyasının apardığı ehtiyatlı, mərhələli və çoxvektorlu siyasi kurs dayanır. Rəsmi İrəvanın davranış modeli Rusiyadan Qərbə doğru açıq dönüşdən daha çox, kəskin addımlardan yayınan, riskləri minimuma endirməyə çalışan siyasət təsiri bağışlayır. Bu siyasətin əsas hədəfi Moskva ilə münasibətləri açıq qarşıdurma həddinə çatdırmadan alternativ dayaqlar axtarmaq, eyni zamanda, ölkəni iqtisadi və daxili siyasi sarsıntılardan qorumaqdır.**

İrəvanın bunca ehtiyatlı davranmasının səbəbi aydındır. Ölkə artıq üç onillikdən çoxdur ki, iqtisadi, hərbi və institusional baxımdan Rusiyaya dərin şəkildə inteqrasiya olunub. Bu asılılıq təkcə siyasi iradə ilə aradan qaldırıla biləcək səviyyədə deyil və yaxın perspektivdə də tam qırılması real görünmür.

İqtisadi müstəvidə Ermənistanın Rusiyadan asılılığı xüsusilə qabarıqdır. Moskva bu gün də İrəvanın əsas ticarət tərəfdaşı olaraq qalır. İxrac və idxal əməliyyatlarının böyük hissəsi Rusiya ilə həyata keçirilir. Enerji daşıyıcıları, yanacaq, qaz, nüvə enerjisi, həmçinin bir sıra strateji xammal sahələrində Ermənistan üçün Rusiya, faktiki olaraq, alternativsizdir. Bu, ölkənin iqtisadi təhlükəsizliyini birbaşa Moskvanın qərarlarından asılı vəziyyətə salır.

Bundan başqa, Ermənistanın strateji əhəmiyyət daşıyan biznes aktivlərinin və infrastruktur obyektlərinin mühüm hissəsi Rusiya şirkətlərinin nəzarətindədir. Energetika sektoru, dəmir yolu nəqliyyatı, telekommunikasiya şəbəkələri və bir sıra iri sənaye müəssisələri rus kapitalının iştirakı ilə fəaliyyət göstərir. Bu isə Ermənistanın iqtisadi müstəqilliyini ciddi şəkildə məhdudlaşdıran əsas amillərdən biridir.

Rusiyadakı erməni diasporunun rolu bu asılılığın mühüm tərkib hissəsidir. İki milyondan çox erməninin Rusiyada yaşaması və çalışması ölkəyə göndərilən pul köçürmələrinin həcmini xeyli artırır. Bu vəsaitlər minlərlə ailə üçün əsas gəlir mənbəyi olmaqla yanaşı, ümumi daxili tələbatın formalaşmasında və sosial sabitliyin qorunmasında mühüm rol oynayır. Statistik göstəricilər də bunu təsdiqləyir. Son illər Ermənistana daxil olan pul köçürmələrinin 65 faizdən çoxu Rusiyanın payına düşür.

Ticarət dövriyyəsində müşahidə olunan artım da ilk baxışdan iqtisadi canlanma təsiri yaratsa da, mahiyyət etibarilə riskli tendensiyadır. 2022-ci ildən sonra Ermənistan–Rusiya ticarət dövriyyəsinin kəskin artaraq rekord həddə çatması əsasən real istehsal artımı ilə deyil, Rusiyaya qarşı tətbiq edilən sanksiyalar səbəbindən onun məhsullarının Ermənistan üzərindən ixracı ilə bağlıdır. Təkrar ixrac üzərində qurulan bu model “süni şişmə” effekti yaradıb və indi tənəzzül mərhələsinə daxil olub. Bu isə Ermənistan iqtisadiyyatının xarici şoklara qarşı nə qədər kövrək olduğunu göstərir. Bu mənzərədə Avrasiya İqtisadi İttifaqından (Aİİ) çıxış məsələsi xüsusilə riskli görünür.



**Milli Məclisin deputatı Vüqar Bayramovun** da vurğuladığı kimi, Ermənistanın Rusiyadan iqtisadi asılılığı hələ uzun müddət qalacaq: “Rusiya kapitalının iqtisadiyyatda dominant mövqeyi, maliyyə axınlarında Moskvanın payının böyüklüyü Aİİ-dən qəfil imtinanı Ermənistan üçün ciddi iqtisadi və sosial sarsıntılarla müşayiət oluna biləcək addıma çevirir. Məhz buna görə Paşinyan administrasiyası bu məsələdə son dərəcə ehtiyatlı davranır”.

Bununla bağlı **Cənubi Qafqaz üzrə ekspert Konstantin Tasits** qeyd edir ki, Ermənistan iqtisadi sahədə qanunvericiliyi dəyişməyə başladığı anda Aİİ-də üzvlüklə bağlı problemlər ortaya çıxacaq: “İlk problemlər konkret texniki Aİ standartlarının qəbul edilməsi və ya malların əlçatanlığının artırılması ilə başlayacaq ki, bunlar Gömrük İttifaqının normalarına, yəni Aİİ-nin əsasını təşkil edən qaydalara ziddir... Məsələ bundadır ki,



Aİİ-nin gömrük müdafiəsi təşkilatın üzvləri arasında razılaşmaların ayrılmaz hissəsidir. Əgər Ermənistan bu müdafiəni sarsıdacaq yola getsə, bu qurumun digər üzv ölkələri öz bazarlarını Ermənistanın hərəkətlərindən qorumağa başlayacaq”.

Asılılıq yalnız iqtisadi çərçivə ilə məhdudlaşmır. Ermənistanın təhlükəsizlik sistemi də uzun illər Rusiya ilə qurulan müttəfiqlik münasibətləri üzərində formalaşıb. Gümrüdə yerləşən Rusiya hərbi bazası, eləcə də uzun müddət İran və Türkiyə ilə sərhədlərdə xidmət göstərmiş rus sərhədçiləri bu asılılığın hərbi-siyasi ölçülərini aydın şəkildə nümayiş etdirir. Ermənistanın müdafiə doktrinasında Moskvanın rolu həlledici olub və bu rol ölkənin suveren təhlükəsizlik siyasəti formalaşdırmaq imkanlarını əhəmiyyətli dərəcədə məhdudlaşdırıb.

Şübhəsiz ki, Rusiya hərbi varlığı təkcə xarici təhlükələrə qarşı qoruyucu mexanizm kimi deyil, eyni zamanda, Ermənistanın daxili və xarici siyasət manevr imkanlarını məhdudlaşdıran amil kimi çıxış edir. Ölkə faktiki olaraq Rusiyanın təhlükəsizlik çətiri altında saxlanılıb və bu reallıqdan kəskin şəkildə imtina etmək ciddi təhlükəsizlik boşluğu yaradar.

Belə bir siyasi, hərbi və institusional “irs”dən imtina etmək cəhdi Ermənistan üçün son dərəcə ağır nəticələr vəd edir. Bu, daxili siyasi sabitliyi sarsıda, sosial narazılığı gücləndirə və ölkəni yeni risklərlə üz-üzə qoya bilər. Məhz buna görə də Rusiyadan açıq



şəkildə uzaqlaşmaq Paşinyan hakimiyyəti üçün, faktiki olaraq, “siyasi intihar” riski daşıyır.

Lakin 2023-cü ildə Qarabağ üzərində nəzarətin tam itirilməsi bu balanslı siyasətdə ciddi psixoloji və siyasi dönüş nöqtəsi yaratdı. Bu hadisə Ermənistan cəmiyyətində və siyasi elitasında Rusiyaya əsaslanan təhlükəsizlik modelinin effektivliyi ilə bağlı dərin suallar doğurdu. Məhz bu fonda Paşinyanın siyasi ritorikasında yeni tonlar və vurğular ön plana çıxmağa başladı. Ritorika və simvolik addımlar səviyyəsində Ermənistan getdikcə daha çox Qərbyönlü ölkə təsiri bağışlayır. Demokratik dəyərlər, suverenlik, dövlət institutlarının müstəqilliyi, hüququn aliliyi və beynəlxalq hüquq kimi anlayışlar rəsmi çıxışlarda daha tez-tez səslənir. Paralel olaraq Paşinyan prorusiya müxalifətinin siyasi təsir imkanlarını azaltmaq üçün ardıcıl addımlar atır, Rusiya ilə sıx bağlı olan siyasi və ictimai dairələrin manevr sahəsini daraltmağa çalışır.

Bu proses Qərb paytaxtları ilə münasibətlərin intensivləşməsi ilə müşayiət olunur. Brüssel, Paris, Berlin və Vaşinqtonla siyasi dialoqun gücləndirilməsi, ABŞ və Avropa İttifaqı ilə əməkdaşlıq sənədlərinin imzalanması İrəvanın xarici siyasət prioritetlərində dəyişiklik niyyətini açıq şəkildə ortaya qoyur. Avropa strukturları ilə münasibətlərin dərinləşdirilməsi və müşahidə missiyalarının yerləşdirilməsi də bu kursun tərkib hissəsidir.

Bununla belə, bütün bu addımlar hələlik daha çox siyasi və simvolik xarakter daşıyır. Praktik müstəvidə Rusiya Ermənistan üçün əsas iqtisadi və təhlükəsizlik dayağı olaraq qalır. Ermənistan nə Aİİ-dən, nə MDB-dən, nə də KTMT-dən çıxıb. Paşinyan Vladimir Putinlə mütəmadi görüşür və Rusiya hərbi bazasının çıxarılması məsələsi gündəmə gətirilmir.

Beləliklə, Ermənistan bu gün nə tam Qərbdədir, nə də tam Şərqdə. Ölkə “idarə olunan qeyri-müəyyənlik” məngənəsindədir. Paşinyan Rusiyanın etibarını xeyli itirib, lakin ondan qopa bilmir; Qərbə ümid edir, amma oradan real təhlükəsizlik zəmanəti almır. Bu siyasət nə açıq dönüşdür, nə də qəti mövqe. Sadəcə, vaxt qazanmaq cəhdidir.

Aydındır ki, bu ikili oyun uzun müddət davam edə bilməz. Ermənistan gec-tez strateji seçim qarşısında qalacaq: ya Şərq, ya da Qərb! Bu seçimin nə zaman və hansı qiymətə ediləcəyi isə təkcə Paşinyanın manevr imkanlarından deyil, həm də regionda böyük güclərin hansı ssenarini oynayacağından asılı olacaq.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Dövlət siyasəti gəncləri uğur və kamillik yoluna çıxarır

## *Yeni nəsil müstəqilliyimizin sahibi kimi yetkinləşir*

**Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasəti Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Ölkə başçısının müstəqil dövlətimizin daha xoş gələcəyi üçün böyük əhəmiyyət kəsb edən fərman və sərəncamları, gənclərə inam və etibarı, diqqət və qayğısı onların qarşısına mühüm vəzifələr qoyur. Müstəqil dövlətçiliyin möhkəmləndirilməsi, milli-mənəvi dəyərlərin qorunması və ölkənin uzunmüddətli inkişaf strategiyasının davamlılığı məhz gənc nəslin intellektual, fiziki və vətəndaşlıq baxımından formalaşmasından asılıdır.**



Ulu öndər Heydər Əliyev irsinə sadiq, azad və elmi düşünə bilən, vətənin, millətin mənafeyini hər şeydən üstün tutan Azərbaycan gənci istər elm, təhsil, istərsə də idman sahəsində üçrəngli bayrağımızı dünyanın hər yerində qürurla dalğalandırır, Vətənimizi azad, suveren bir dövlət kimi dünya miqyasında fəxrlə təmsil edir. Gənclərimiz Prezident İlham Əliyevin etimadını doğruldub daha böyük uğurlara imza atmaq üçün dövlət başçısının məqsədyönlü siyasətini dəstəkləyirlər.

Bu həqiqəti həyatın müxtəlif sahələrində önəmli nailiyyətlər qazanmış istedadlı və çalışqan gənclərimizin uğur hekayələri bir daha təsdiqləyir.

**Hacı ƏLİYEV, güləş üzrə üççat Dünya və dördqat Avropa çempionu:**

– Azərbaycan idmançısı kimi böyük fəxrlə qeyd edirəm ki, son illərdə qazandığımız möhtəşəm zəfərlər hörmətli Prezidentimiz İlham Əliyevin uzaqgörən siyasətinin, xalqımıza inam aşılayan qüdrətinin və etimadının nəticəsidir.



2014-cü ildə Avropada, 2015-ci ildə Las-Veqasda, 2017-ci ildə isə Parisdə keçirilən Dünya çempionatlarının qalibi olmuşam. XXXI Yay Olimpiya Oyunlarının bürünc və 3 dəfə Dünya Çempionatının qızıl medalını qazanmışam. 2017-ci ildə Paris şəhərində keçirilən Dünya Çempionatının qalibiyəm. 2015-ci ildə "Tərəqqi" medalı, 2016-cı ildə isə "Azərbaycan Respublikası Prezidentinin Fəxri diplomu" ilə təltif edilmişəm. Eləcə də 2014, 2015 və 2016-cı illərdə Gənclər və İdman Nazirliyinin təsis etdiyi "İlin ən yaxşıları" mükafatına layiq görülmüşəm.

Bayrağımızı yüksəklərə qaldırmaq mənim üçün ən gözəl hissdir. Sərbəst güləş üzrə ikiqat Dünya çempionu olanda da sevincimin həddi-hüdudu yox idi. Çalışdım, əziyyət çəkdim və 3-cü dəfə bu sevinci yaşadım. Alın təri, zəhmətlə irəlilədiyim bu yolda Prezident İlham Əliyevin böyük dəstəyi olmasaydı, saysız qələbələr heç vaxt mümkün olmazdı. Bu dəstək biz idmançılara motivasiya verir, hər yarışa, sınağa yeni ümidlərlə, inamla çıxmağı öyrədir.

Bəzi ölkələrdə idmana diqqət formal xarakter daşıyır, idmançılar yalnız klubların imkanları, sponsor dəstəyi, şəxsi səyləri ilə inkişaf etməyə çalışırlar. Qələbə də fərdi zəhmət və şəxsi mübarizə ilə qazanılır. Hətta idmançılar böyük nəticələr əldə etsələr belə, onların uğuru ictimaiyyət və dövlət tərəfindən layiqincə qiymətləndirilmir. Xüsusilə gənclər bu vəziyyətə görə öz potensiallarını tam reallaşdıra bilmirlər.

Bunun əksinə olaraq, ölkəmizdə idmana dövlət tərəfindən böyük diqqət və qayğı göstərilir. Burada idmançının uğuru dövlətin məqsədyönlü siyasəti, infrastruktur və təlim imkanları ilə tamamlanır. Məktəblərdə idmana xüsusilə önəm verilir, peşəkar klublar və federasiyalar gənc istedadların aşkar olunması və inkişaf etdirilməsi üçün proqramlar həyata keçirir. Stadionlar, idman kompleksləri və məşq bazaları genişləndirilib, müasir avadanlıqlarla təchiz olunub ki, bu da idmançıların öz potensialını tam reallaşdırmasına şərait yaradır.

Beynəlxalq yarışlarda idmançıların iştirakı təmin edilir, onların hazırlığı maliyyələşdirilir. Məhz bu yanaşma sayəsində idmançı yalnız şəxsi istedadına güvənmir, eyni zamanda, dövlətin, məşqçilərin və ictimaiyyətin dəstəyi ilə yüksək nəticələr qazanır. Dövlət başçısının gənclərə və idmançılara olan qayğısı hər addımda hiss olunur. Prezident İlham Əliyev nailiyyətlərimizi izləyir, qiymətləndirir və hətta şəxsən təqdir edir. Bunun nəticəsidir ki, Azərbaycan idmançısı beynəlxalq arenalarda çıxış edir, ölkəmizi layiqincə təmsil edir və hər uğuru ilə xalqımızı qürurlandırır.

**Günay İMANZADƏ, "İlin İKT sahibkarı" nominasiyasının qalibi:**

– "Bizim bugünkü gəncliyimiz sağlam düşüncəli gənclikdir, vətənpərvər gənclikdir, xalqını, millətini sevən gənclikdir… Gənclərimiz mükəmməl təhsil almalı, həyatı dərindən öyrənməli, dünyada gedən prosesləri bilməlidir. Lazımi fəaliyyət göstərib öz xalqına, dövlətinə xidmət etməlidir". Ulu öndər Heydər Əliyevin bu dəyərli fikirlərini həyatımın ayrılmaz hissəsinə çevirərək, sözün əsl mənasında, uğurlu



Azərbaycan gənci adına layiq olmağa çalışıram. 2013–2017-ci illərdə Bakı Dövlət Universitetinin SABAH qruplarında kimya ixtisası üzrə ingilis bölməsində bakalavr təhsilimi uğurla başa vurmuşam, magistr təhsilimi isə İsveçrənin Federal Texnologiya Universitetində almışam.

2022-ci ildə İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi tərəfindən təsis edilən "İlin İKT sahibkarı" nominasiyasının qalibi, eyni zamanda, "Enthouse" layihəsinin həmmüəllifiyəm. "Teknofest" Türkiyə yarışmasında bu layihəmiz böyük maraqla qarşılanıb. Nəticədə bir neçə sürətləndirmə proqramı çərçivəsində Türkiyə bazarına çıxış üçün təkliflər almışıq.

"Teknofest" Azərbaycan yarışmasında isə C kateqoriyası üzrə birinci yerə layiq görülmüşük. Bu uğurumuza görə Prezident İlham Əliyev, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və "Nobel" mükafatı laureatı Əziz Səncər tərəfindən medalla təltif olunmaq mənim üçün böyük qürur idi.

Hazırda təsisçisi olduğum "Metatesk" startapı "ABB Startup Hackathon"un qalibi olub, İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin təsis etdiyi "İlin kəşfi" nominasiyasında finalçı seçilib. Eyni zamanda startap "Microsoft for Startups" proqramının üzvü, "Google for Startups" akselerasiya proqramının iştirakçısıdır. Təhsil sahəsində "Roblox" şirkəti ilə də əməkdaşlıq edirik.

2018-ci ildə İsveçrənin Federal Texnologiya Universitetində, daha sonra Çində beynəlxalq məktəbdə elm istiqaməti üzrə tədris fəaliyyəti ilə məşğul olmuşam. "Enthouse" layihəsi balıq və bitkilərin eyni anda hava, su və torpaqdan asılı olmayaraq istehsalına imkan yaradan innovativ sistemdir. Bu sistem təkcə istehsalı deyil, eyni zamanda, bütün proseslərin ağıllı idarə olunmasını və məlumatların təhlükəsizliyini təmin edir.

Bu gün əldə etdiyim uğurlara görə, ilk növbədə, ailəmə, dövlətimizə, müəllimlərimə və birlikdə çalışdığım komandaya borcluyam. Daim öz üzərimdə işləmək, yeni biliklər qazanmaq və mümkün olmayan məqamlarda belə alternativ çıxış yolları axtarmaq mənə əlavə güc və inam verib.

Ölkəmizdə gənclər üçün yaradılan geniş imkanlar – innovasiya və sahibkarlığın təşviqi, müxtəlif dəstək mexanizmləri, müsabiqələr, beynəlxalq proqramlara çıxış və formalaşan innovativ ekosistem biz gənclərin ideyalarının reallaşdırmasına şərait yaradır. Bu imkanları həm böyük motivasiya, həm də ciddi məsuliyyət kimi dəyərləndirirəm: verilən fürsətləri real nəticələrə çevirmək və onları ölkəmizə fayda olaraq geri qaytarmaq.

Prezident İlham Əliyev tərəfindən mükafata layiq görülmək mənim üçün böyük şərəf və qürur, eyni zamanda, məsuliyyətdir. Bu etimad gənclərə göstərilən yüksək diqqətin və təşəbbüskarlığa verilən dəstəyin bariz nümunəsidir. Bu gün komandamla birlikdə süni intellekt əsaslı təhsil həlləri üzərində çalışır, öyrənmə prosesini daha fərdiləşdirilmiş, praktik və cəlbedici edən alətlər formalaşdırırıq.

Böyük qürur hissidir ki, gənclərdən ibarət innovativ komanda olaraq həyata keçirdiyimiz layihələr ölkəmizin strateji hədəfləri ilə üst-üstə düşür və biz innovasiya, rəqəmsallaşma və süni intellekt istiqamətində müəyyənləşdirilmiş məqsədlərə töhfə veririk. Dövlət başçısının da vurğuladığı kimi, yeni inkişaf mərhələsinin əsas çağırışları sırasında süni intellekt texnologiyalarının geniş tətbiqi, rəqəmsallaşma və insan kapitalının inkişafı xüsusi yer tutur. Biz gənclər də bu xətti həm öyrənir, həm də fəal şəkildə dəstəkləməyə çalışırıq. Arzu edirəm ki, startapımızın tətbiqi dövlət məktəblərinə qədər genişlənsin.

Bu baxımdan, arzularımızın ən həssas və ən mənalı istiqaməti Qarabağ bölgəsidir. Qarabağda bu ideyanı həyata keçirmək bizim üçün ikiqat məna daşıyır, çünki təhsilin keyfiyyətinin yüksəldilməsinə töhfə vermək, "ağıllı" konsepsiya əsasında inkişaf edən yeni iqtisadi və sosial ekosistemdə innovativ düşüncə tərzini məhz məktəbdən formalaşdırmaq əsas hədəflərimiz sırasındadır.

**Şövkət FİKRƏTQIZI, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin SABAH qruplarının fəxri məzunu:**



– Mən AzMİU-da kino rejissoru ixtisası üzrə həm bakalavr, həm də magistr təhsili almışam. Hazırda Azərbaycan Televiziyasının xüsusi layihələr studiyasında direktor müavini və rejissor kimi fəaliyyət göstərirəm. Eyni zamanda, oxuduğum universitetdə SABAH qruplarında müəllimlik fəaliyyəti ilə məşğulam. Müxtəlif film və televiziya layihələrinin quruluşçu rejissoru olmuşam. Çəkdiyim filmlər ölkəmizdə və xaricdə keçirilən festivallarda nümayiş etdirilib, müxtəlif mükafatlara layiq görülüb.

Yaradıcılıq mənim üçün həyat tərzidir. Hobbi olaraq musiqi ilə də maraqlanıram, gitara və pianoda ifa edir, mahnılar bəstələyirəm, həm yaradıcı, həm də pedaqoji fəaliyyəti paralel şəkildə davam etdirmək mənə xüsusi zövq verir və daim öz üzərimdə işləməyə stimul yaradır. Uğur qazanmağın ilk və ən vacib şərti özünə inanmaqdır. Qarşıya qoyulan hədəflərə doğru ardıcıl şəkildə irəliləmək vacibdir, lakin bu yol təkcə istəkdən ibarət deyil.

Əzmlə öyrənmək, öz üzərinizdə işləmək, bilik və bacarıqları davamlı şəkildə inkişaf etdirmək, yeni sahələrdə təcrübə qazanmaq və kreativ düşünmək və insanlarla sağlam münasibətlər qurmaq uğurun ayrılmaz hissəsidir. Çətinliklərlə qarşılaşanda ruhdan düşməmək, hər maneəni təcrübə və dərs kimi qəbul etmək lazımdır. Çünki çəkilən zəhmət və göstərilən səy gec-tez bəhrəsini verir.

Bu il ölkə Prezidentinin müvafiq sərəncamı ilə "Gənclər üçün Prezident mükafatı"na layiq görülməyim mənim üçün böyük şərəf və qürurdur. Eyni zamanda, bu mükafat üzərimə daha böyük məsuliyyət qoyur. Mənə göstərilən bu etimadı hər zaman doğrultmağa, gələcək fəaliyyətimdə daha böyük uğurlara imza atmağa çalışıram. Bu mükafat mənim üçün güclü motivasiyadır və yeni yaradıcılıq hədəflərinə doğru irəliləməyə ruhlandırır.

Prezident İlham Əliyevin uğurlu gənclər siyasəti bizim üçün müxtəlif imkanların yaradılması, təhsil və mədəniyyət sahəsində innovativ yanaşmaların tətbiqi, həmçinin müxtəlif sahələrdə liderlik etməyimiz, sosial və peşəkar inkişafımızda mühüm rol oynayır. Hər birimiz dövlətin dəstəyi ilə daha fəal, yaradıcı və müstəqil vətəndaşlar kimi yetişir və müstəqil dövlətimizin inkişafına layiqli töhfələr verməyə çalışırıq.

Dövlət başçımızın etimadını doğrultmaq üçün sənət yolunda irəliləməyi, müxtəlif janr və formatlarda yeni layihələrə imza atmağı, yaradıcılıq fəaliyyətimi həm ölkə daxilində, həm də beynəlxalq miqyasda daha geniş şəkildə inkişaf etdirməyi qarşıma məqsəd qoymuşam. Hesab edirəm ki, davamlı axtarış, yeniliklərə açıq olmaq və peşəkar səviyyədə məsuliyyət daşımaq sənətdə irəliləyişin əsas şərtləridir.

Gənc rejissorların inkişafı üçün müasir tədris metodlarının tətbiqi, yaradıcı düşüncəni stimullaşdıran yanaşmaların formalaşdırılması və nəzəri biliklə bərabər, real praktiki təcrübə qazanmaq imkanların artırılması əsas hədəflərim sırasındadır.

**Mircavid AĞALAROV, Prezident mükafatçısı:**

– Ölkəmizdə gənclərin hərtərəfli inkişafı, intellektual, yaradıcı və peşəkar potensialının üzə çıxarılması dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Bu siyasətin mühüm tərkib hissələrindən biri də gənclər üçün Prezident mükafatlarının təsis olunmasıdır. Prezidentin Sərəncamı ilə təqdim olunan bu mükafatlar gənclərə göstərilən diqqət və etimadın bariz göstəricisidir.



Məni bu uğurlara aparan yol Bakı Dövlət Universitetindən başlayıb. Belə ki, 2016-cı ildə orta məktəbi bitirdikdən sonra bu ali təhsil ocağının tarix fakültəsinə qəbul olmuşam, ingilis dilli proqramı bakalavr səviyyəsində başa vurmuşam.

2017–2018-ci illərdə ABŞ və Böyük Britaniya mütəxəssislərinin iştirakı ilə həyata keçirilən "Archaeological Exploration of Barda" layihəsi çərçivəsində Bərdə şəhərinin arxeoloji tədqiqatlarında iştirak etmişəm. Bu layihə Oksford Universiteti və Moskva Dövlət Universitetinin Bakı filialı tərəfindən reallaşdırıldı. 2020-ci ilin fevral ayında Böyük Britaniyanın Oksford şəhərində həmin arxeoloji qazıntıların nəticələrinə həsr olunmuş beynəlxalq konfrans keçirildi.

Bu günə qədər 5-dən artıq beynəlxalq elmi və tədqiqat, 10-dan çox arxeoloji tədqiqat layihəsində iştirak etmişəm. Bu layihələr Azərbaycanın müxtəlif bölgələrini – Ağcabədi, Bərdə, Şəmkir, Şəki, Ağdam və Zəngilan ərazilərini əhatə edir. Xüsusilə, işğaldan azad edilmiş ərazilərdə aparılan arxeoloji tədqiqatlarda iştirakım mənim üçün böyük mənəvi əhəmiyyət kəsb edir.

Bütün bu uğurlarda Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü gənclər siyasətinin mühüm rolu var. Son illər ölkəmizdə gənclər üçün geniş imkanlar yaradılır, təhsil proqramları, beynəlxalq layihələr, innovativ təşəbbüslər, elmi və yaradıcı fəaliyyətimizə dəstək verilir.

Prezident mükafatı bizi əldə etdiklərimizlə kifayətlənməməyə, daha böyük hədəflər qoymağa və fəaliyyətimizi cəmiyyət və dövlət üçün faydalı istiqamətdə davam etdirməyə sövq edir. Bu etimad bizdən daha çox çalışmağı, bilik və bacarıqlarımızı daim artırmağı, ölkəmizin inkişafına real töhfələr verməyi tələb edir.

Biz gənclər olaraq bu siyasəti hər zaman dəstəkləyir, cənab Prezidentin bizə olan inamını doğrultmağa çalışırıq. Əsas məqsədimiz əldə etdiyimiz imkanları real nəticələrə çevirmək, Azərbaycanı beynəlxalq miqyasda layiqincə təmsil etmək və dövlətimizin inkişaf strategiyasına töhfə verməkdir.

**Səma MUĞANNA, Azərbaycan Yazıçılar Birliyinin üzvü, Prezident təqaüdçüsü:**



– "İstiqlal" ordenli Xalq yazıçısı İsa Hüseynovun nəvəsi və sənət yolunun davamçısı kimi yeniyetməlik yaşlarımdan daim yazır, özümü inkişaf etdirmək üçün böyük səy göstərirəm. Bu günədək 5 kitabım, bir çox hekayələrim, povestlərim və iki romanım işıq üzü görüb. 2012-ci ildən başlanan bu yolda müasir Azərbaycanın qəhrəmanlıq salnaməsini yaradan lider, Prezident İlham Əliyevin biz gəncləri daim diqqət mərkəzində saxlaması və xüsusi qayğısı sözlərə sığmayacaq qədər əvəzsizdir.

Bəzən duyğular insanın daxili dünyasında elə lal olur ki, boğula-boğula kiçik bir kəlmə belə söyləməyə əziyyət çəkirsən. Yadımdadır, birinci kitabım – "Mələk Səmanın sevdalı dünyası" çap olunanda 2020-ci il idi, 14 yaşım tamam olmuşdu. 14 yaşlı bir qızcığazın qələmi nə yazacaq? - deyə düşünənlər, sözsüz ki, var idi, amma mən bu sözlərə məhəl qoymayıb qələmimi sənət sevgisi ilə sınamışdım.

16 yaşında Yazıçılar Birliyinə üzv seçilməyim, 17 yaşında isə Prezident təqaüdünə layiq görülməyim, sözsüz ki, mənim üçün böyük şans idi. Bu etimad, göstərilən diqqət gələcək yolumda böyük məsuliyyətin başlanğıcı oldu. Bu ağır, lakin mənə qürur hissi yaşadan yükü çiyinlərimdə fəxrlə daşıyıram. Bu il sentyabr ayının 26-da Azərbaycan Yazıçılar Birliyinin "Natəvan" zalında "Qeyb olan uşaqlıq" və "Həyatımdan parçalar" adlı kitablarımın təqdimatı keçirildi.

Əminliklə deyirəm ki, bu günədək qazandığım uğurlarda dövlətin dəstəyi ölçüyəgəlməz önəm daşıyır. Hazırda Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində təhsil alıram. Yazılarım qəzet və jurnallarda, eləcə də qardaş ölkə Türkiyənin müxtəlif nəşrlərində dərc olunur.

Dövlət başçımızın biz gənclərə inamı, fəaliyyətimizə verdiyi qiymət hər birimizi ruhlandırır, yaradıcılığımızı irəli aparır. Mənim hekayəm bunun əyani sübutudur. Dövlətimizin gənclərə qayğısı uğurlu gələcəyin, böyük qələbələrin zəminidir.

*Səhifəni hazırladılar:*
***Mehparə ƏLİYEVA,***
***Ləman TƏHMƏZ,***
***Fidan ƏLİYEVA***
***XQ***

“Konstitusiya və Suverenlik İli” – 2025

# Konstitusiyalı dövlət xalqımızın ən böyük sərvətidir

**Bir dövlətin mövcudluğunun, davamlı inkişafın və xalqın öz varlığını qoruyub saxlamasının əsasını təşkil edən fundamental anlayışlardan biri Konstitusiya və suverenlikdir. Bu anlayışlar müasir dövlətçilik sistemində yalnız hüquqi terminlər deyil, eyni zamanda, dövlətin siyasi legitimliyi, xalqın hakimiyyətə münasibətini və milli kimliyin formalaşmasını müəyyən edən başlıca prinsiplərdir.**

Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2024-cü il tarixli sərəncamı ilə 2025-ci ilin ölkə ərazisində “Konstitusiya və Suverenlik İli” elan edilməsi bu anlayışın dövlətçilik tariximizdə və müasir inkişaf mərhələmizdə xüsusi əhəmiyyət daşıdığını bir daha nümayiş etdirir. Bu qərarın mahiyyətini düzgün dərk etmək üçün, ilk növbədə, “Konstitusiya” və “suverenlik” anlayışlarının hüquqi məzmununun elmi əsaslarla təhlili zəruridir.

Konstitusiyanın anlayışına və onun hüquqi mahiyyətinə gəldikdə qeyd etmək lazımdır ki, “Konstitusiya” termini etimoloji baxımdan latın mənşəlidir və “constitutio˝ sözündən yaranmışdır. Bu söz ˝qurmaq˝, ˝yaratmaq˝, ˝əsasını qoymaq”, “təşkil etmək” mənalarını ifadə edir. Hüquqi baxımdan Konstitusiya dövlətin ali qanunu olmaqla, ən yüksək hüquqi qüvvəyə malik normativ hüquqi aktdır.

Konstitusiya dövlətin siyasi, hüquqi və iqtisadi sistemlərinin əsasını müəyyənləşdirir, insan və vətəndaş hüquq və azadlıqlarının təminatını təsbit edir, eyni zamanda, dövlətin hakimiyyətinin təşkili və fəaliyyət mexanizmini hüquqi çərçivəyə salır. O, qanunverici, icra və məhkəmə orqanlarının səlahiyyətlərini müəyyənləşdirməklə cəmiyyət və dövlət arasında münasibətləri tənzimləyən əsas hüquqi sənəd kimi çıxış edir.

Konstitusiya digər normativ hüquqi aktlardan fərqli olaraq daha yüksək sabitliyə malikdir və ona dəyişikliyin edilməsi xüsusi prosedurlar əsasında həyata keçirilir. Azərbaycan Respublikasında Konstitusiyaya dəyişikliklər yalnız ümumxalq səsverməsi – referendum yolu ilə mümkündür ki, bu da Əsas Qanunun ali hüquqi statusunu bir daha təsdiqləyir.

Konstitusiya dövlət və xalq arasında ən mühüm ictimai münasibətləri tənzimləyən, konstitusion quruluşun, dövlət hakimiyyəti təşkilinin əsaslarının özündə əks etdirən Ali Qanundur. Konstitusiya ölkədə siyasi sabitliyin, milli sülhün və barışığın qarantı kimi çıxış edir, hüquqi-siyasi münasibətlər sisteminə və hüquq düşüncəsinə əhəmiyyətli təsir göstərir. Əsas Qanun müxtəlif sosial hadisələrlə əlaqədar olsa da, o, hüquq normaları sistemidir.

Hüquq nəzəriyyəsində Konstitusiyanın əsas funksiyaları aşağıdakı kimi qruplaşdırılmışdır:

*– Hüquqi funksiya. Konstitusiya bütün hüquq sisteminin əsasını təşkil edir. Respublika ərazisində qəbul edilən bütün qanunlar, normativ və qeyri-normativ, normativ-xarakterli aktlar Konstitusiyaya uyğun olmalıdır. Konstitusiyaya riayət etmək bütün dövlət orqanları, ictimai birliklər və vətəndaşlar üçün məcburidir, çünki bu onların hüququ yox, vəzifəsidir.*

*– Konstitusiyanın sosial funksiyası. Cəmiyyətdə mövcud olan sosial təbəqələrin ortaq maraqlanı müəyyən edir, sosial sistemin başlıca sahələrini bir-birilə əlaqələndirir və onları hüquqi çərçivəyə salır. Ailə, din, atalıq, analıq və s. kimi sosial dəyərlərin qorunmasına xidmət edir.*

*– Ali Qanunun siyasi funksiyası. Dövlət hakimiyyətinin təşkili, hakimiyyət bölgüsü, siyası proseslərin hüquqi əsasları Konstitusiya vasitəsilə tənzimlənir. Siyasi hakimiyyətin formalaşmasının demokratik üsulları Konstitusiyada öz əksini tapır.*

*– Konstitusiyanın tərbiyəvi funksiyası. Konstitusiya cəmiyyətdə hüquq düşüncəsinin formalaşmasına, qanunlara, dövlətə və insan hüquqlarına hörmət ruhunun aşılanmasına xidmət edir.*

Bir sözlə, Konstitusiya dövlətin hüquqi əsasını təşkil edən, idarə olunma prinsiplərinin və müəyyən edilmiş presedentlərin məcmusudur.

Konstitusiya forma baxımından əsasən yazılı və yazılmamış növlərə bölünür. Yazılı konstitusiyalar vahid sənəd şəklində qəbul olunur (ABŞ, Fransa, İspaniya və s.). Yazılmamış konstitusiyalar isə müxtəlif hüquqi aktlar, məhkəmə presedentləri və adət-ənənələr əsasında formalaşır (Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı, Yeni Zelandiya və s.). 1215-ci ildə qəbul edilmiş Magna Carta-Azadlıqların Böyük Toplusu – konstitusiya olmasa da, konstitusionalizmin formalaşmasında mühüm mərhələ hesab edilir. Müasir mənada ilk yazılı konstitusiya 1787-ci ildə qəbul edilmiş və 1789-cu ildə qüvvəyə minmiş ABŞ Konstitusiyasıdır.

Azərbaycan Respublikasının Konstitusiyası 1995-ci il noyabr ayının 12-də ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş və müstəqil dövlət quruculuğunun hüquqi əsasının təşkil etmişdir.

Suverenlik anlayışı və onun hüquqi məzmununa gəldikdə isə “Suverenlik” termini “superus” sözündən yaranmış və “yuxarıda olan”, “üstün”, “ali” və s. mənalarını ifadə edir. Hüquqi-siyasi baxımdan suverenlik dövlətin öz ərazisi daxilində ali hakimiyyətə malik olması və xarici münasibətdə müstəqil fəaliyyət göstərməsi deməkdir. Belə ki, dövlətin və xalqın varlığının əsasını təşkil edən bir anlayış olmaqla, dövlətin xarici müdaxilə olmadan özünü idarə etmək səlahiyyətini, xalqların öz muxtariyyətlərini, legitimlik və kimliklərini necə müəyyənləşdirdiklərini formalaşdıran əsas prinsipdir.

XVI əsr siyasi mütəfəkkiri, hüquqşünas Jan Boden 1576-cı ildə yazdığı “The Six Books of the Republic” – “Dövlətin altı kitabı” adlı əsərində suverenliyi dövlətin əsas əlaməti kimi dəyərləndirmiş və onu ali, bölünməz və müstəqil hakimiyyət kimi xarakterizə etmişdir. Onun fikirincə, suverenlik, qanunyaratma və icraetmə səlahiyyətlərinin mənbəyidir.

Sözlərin mənalarından və ifadələrdən göründüyü kimi, hər iki termin müstəqil bir dövlət üçün böyük əhəmiyyətli və vacibdir. Belə ki, bir cəmiyyətin, dövlətin, xalqın öz iradəsini ifadə edə bilməsi, müstəqil təsisat kimi formalaşması, özünü idarə edə bilməsi, xalqın öz gələcəyinə ümidlə baxması məhz dövlətin Konstitusiyasının ideal olmasının və suveren hakimiyyətə sahibliyinin xəbərçisidir. Suverenlik müstəqil dövlətlərin mövcudluğu və tərəqqisini gerçəkləşdirən başlıca prinsiplərdəndir. Bu amil təkcə dövlətin hüquqi, iqtisadi-siyasi əsaslarını deyil, həm də milli kimliyini və birliyini ifadə edir.

Azərbaycan Respublikasında konstitusion quruluş və suverenliyin bərpası məhz Ulu öndərin adı ilə bağlıdır. Belə ki, dahi şəxsiyyətin 1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə qayıtdıqdan sonra böyük xilaskarlıq missiyası sayəsində ölkəmizdə cərəyan edən təhlükəli proseslərin qarşısı alındı, ictimai-siyasi sabitlik təmin edildi və müasir dövlət quruculuğu üçün etibarlı zəmin yaradıldı. Bundan sonra Ümummilli liderin bilavasitə rəhbərliyi ilə müstəqil dövlətimizin Konstitusiyasının hazırlanması qarşıya mühüm vəzifə kimi qoyuldu.

1995-ci ildə Konstitusiya Komissiyası yaradıldı. Komissiyanın ilk iclası 1995-ci il iyun ayının 5-də ulu öndər Heydər Əliyevin sədrliyi ilə keçirildi. İclasda ölkənin təcrübəli və yüksək təhsilli hüquqşünasları, dövlət hakimiyyətinin hər üç qolundan olan nümayəndələr, ziyalılar, alimlər iştirak etdilər. Böyük zəhmət tələb edən gərgin işdən sonra Əsas Qanunun baza müddəaları, daha sonra onun layihə mətni ictimai müzakirəyə çıxarıldı.

Ümummilli lider Heydər Əliyev deyirdi: “Konstitusiya birinci növbədə, dövlətlə, hakimiyyətlə xalqın arasında olan münasibətləri özündə əks etdirməlidir. Hakimiyyət bölgüsü ali icra, qanunvericilik, məhkəmə hakimiyyətləri – bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır. Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır və bu prinsiplər Konstitusiyamızın əsasını təşkil etməlidir”.

Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabr ayının 12-də ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası müstəqil dövlət quruculuğunun hüquqi əsasını formalaşdırmaqla respublikamızda demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinə hüquqi baza yaratdı və inkişafın başlanğıcını qoydu. Bir sözlə, müasir Azərbaycan dövlətinin Konstitusiyası Ümummilli Lider Heydər Əliyevin şah əsərlərindən biri olmaqla yanaşı, dahi şəxsiyyətin Azərbaycan dövlətçiliyi qarşısındakı ən böyük xidməti, müstəqillik tariximizin ən mühüm hadisələrindən biridir.

Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış Konstitusiyada xalq və dövlətin bir-birinə bağlığı ətraflı qeyd edilməklə, Ali Qanunda ideal Konstitusiyanın bütün funksiyaları, yəni hüquqi, sosial, siyasi, tərbiyəvi, təsisedici, səlahiyyətverici, mühafizəedici və sistemyaradıcı funksiyaları öz əksini tapmaqla yanaşı, insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunması dövlətin ali məqsədi kimi bəyan edilmişdir. İnsan və vətəndaş hüquqlarının, azadlıqlarının müdafiəsini qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanları üzərində ümdə vəzifə olaraq qoyulmaqla, şəxsiyyətin toxunulmazlığı, insan həyat və sağlamlığının qorunması, layiqli həyat səviyyəsinin reallaşdırılması, humanizm və insanpərvərlik prinsipləri müstəqil dövlət Konstitusiyamızın başlıca mahiyyətini təşkil edir.

Ümummilli liderin ideal dövlət quruculuğu sahəsində gördüyü işlərin, uzaqgörən siyasətinin, xalqa suverenlik və azadlıq hüququnun aşılanması, özündən sonra layiqli davamçı, müzəffər Ali Baş Komandan İlham Əliyevi yetişdirərək xalqa bəxş etməsi nəticəsində bu gün Azərbaycan Respublikası ərazi bütövlüyünü tam bərpa etmiş və suveren dövlətə çevrilmişdir.

Prezident İlham Əliyevin hakimiyyətə gəldiyi dövrdən dövlətimizin misilsiz inkişafı, hərbi potensialının güclənməsi, iqtisadi inkişafın gündən-günə çiçəklənməsi nəticəsində 2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində tarixi qələbə və 2023-cü il sentyabrın 19-20-də həyata keçirilmiş uğurlu antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmiş, Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi işğaldan azad olunmuş bütün ərazilərdə bərqərar olmuşdur. Bax, bu hadisə Azərbaycanın dünyaya günəş kimi doğduğu tarixdir.

Tariximizə qızıl hərflərlə yazılmış 44 günlük Vətən müharibəsi və lokal xarakterli antiterror tədbirləri nəticəsində parlaq Qələbənin əldə edilməsi Müzəffər Ali Baş Komandan, dövlət başçısı cənab İlham Əliyevin yenilməz siyasi, hərbi iradə və qətiyyəti, ordumuzun qəhrəmanlığı sayəsində mümkün olmuşdur.

Prezident İlham Əliyev məhz 2025-ci ili təsadüfü seçməmiş, Azərbaycan Respublikasının ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunduğu, bu ildə Konstitusiyanın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbənin 5-ci ildönümünü nəzərə alaraq cari ili ölkəmizdə “Konstitusiya və Suverenlik İli” elan etmişdir. Bu qərar Konstitusiya və suverenlik dəyərlərinin möhkəmləndirilməsi baxımından xüsusi əhəmiyyətə malikdir. Suverenlik müstəqil dövlətlərin varlığını və inkişafını təmin edən əsas amillərdir. Bu anlayışlar həm dövlətin hüquqi və siyasi əsasını, həm də milli kimliyini və birliyini ifadə edir. Hazırda dövlətimiz müstəqillik tarixinin ən qüdrətli, yüksək inkişaf mərhələsini yaşayır. Bu baxımdan respublikamızda 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi qeyd olunan prinsiplərin həm tarixi əhəmiyyətini, həm də gələcəyə yönəlik strateji mahiyyətini daha da ön plana çıxarır.

Dövlətimizin başçısının qətiyyəti, tarixi ədalətə və beynəlxalq hüquqa söykənən siyasəti ölkəmizin zəfərlərinin davamlılığını təmin edir. Otuz ilə yaxın işğal altında qalan əzəli Azərbaycan torpaqlarını geri qaytaran Müzəffər Ali Baş Komandan İlham Əliyevin zəfər müjdələri hər bir azərbaycanlını qürurlandırdı, xalqımızın yenilməzliyini bir daha bütün dünyaya nümayiş etdirdi.

Torpaqlarımızın işğaldan azad edilməsi, ərazi bütövlüyümüzün və suverenliyimizin tam təmin olunması nəticəsində Əsas Qanunda ehtiva edilən Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq niyyəti də tam reallaşdı. Belə ki, Konstitusiyanın 2-ci maddəsinə əsasən öz müqəddəratını sərbəst və müstəqil həll etmək və öz idarəetmə formasını müəyyənləşdirmək Azərbaycan xalqının suveren hüququdur. Xalqımız öz suveren hüququnu bilavasitə ümumxalq səsverməsi – referendum və ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, gizli və şəxsi səsvermə yolu ilə seçilmiş nümayəndələri vasitəsilə həyata keçirir. Ali Qanunun 11-ci maddəsinə əsasən isə Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir. Azərbaycan Respublikasının ərazisi özgəninkiləşdirilə bilməz. Dövlət başçısı İlham Əliyevin uzaqgörən və uğurlu siyasəti nəticəsində bu müddətdə təsbit edilən prinsiplər tam şəkildə təmin olunub.

Azərbaycan Prezidentinin 2024-cü il 19 sentyabr tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü təsis edildi. Sərəncama əsasən, 2023-cü il sentyabrın 20-də Azərbaycan Respublikasının bütün ərazisində qanunun aliliyinin təmin olunduğu və Azərbaycan Respublikasının dövlət suverenliyinin bərpa edildiyi nəzərə alınaraq hər il sentyabrın 20-nin Azərbaycan Respublikasında “Dövlət Suverenliyi Günü” kimi qeyd edilməsi qərara alındı. Sərəncamda qeyd edilmişdir: “Hər bir xalq üçün öz taleyinə sahib olmaq, müstəqil dövlətini yaradaraq inkişaf etdirmək onun ən böyük nailiyyətidir. Tarixin müxtəlif mərhələlərində üzləşdiyi çətinliklərə, işğala, məhrumiyyətlərə baxmayaraq, heç bir qüvvə xalqımızın müstəqillik, dövlətçilik əzmini sarsıda bilməmişdir. Azərbaycan xalqı bu gün öz müstəqil dövlətinə sahibdir, qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı hesabına əldə edilmiş ərazi bütövlüyümüz, suverenliyimiz xalqımızın milli sərvətidir”.

Bu gün respublikamız siyasi-diplomatik müstəvidə ardıcıl olaraq yeni qələbələr qazanmaqda davam edir, Dövlət Bayrağımız suverenliyimizin bərpa olunduğu bütün ərazilərdə əzəmətlə dalğalanır. Bütün bunların nəticəsidir ki, dövlətimiz günü-gündən inkişaf edərək, çiçəklənərək, güclənərək, inkişafının yüksək tərəqqi ilə xarakterizə olunan, keyfiyyətcə yeni dövrünü yaşayır. Bu gün demək olar ki, Azərbaycan dünyada sabit, eyni zamanda, həm daxili, həm də xarici siyasəti ilə dünya ölkələri arasında öz sözü, imzası olan bir ölkəyə çevrilmişdir. Bir sözlə, dövlət başçısı İlham Əliyev tərəfindən həyata keçirilən səmərəli dövlət idarəçiliyi, həmçinin təhlükəsizlik və sabitliyin gücləndirilməsi istiqamətində görülən tədbirlər, ümumilikdə, müstəqilliyimizin daha da möhkəmləndirilmişdir. Ölkəmizin bilavasitə təşəbbüsü və iştirakı ilə uğurla həyata keçirilən bir sıra irimiqyaslı layihələr nəinki təkcə Azərbaycanın, ümumilikdə, regionun təhlükəsizliyinə və iqtisadi inkişafına öz mühüm və əvəzsiz töhfə verir.

Hazırda işğaldan azad edilmiş ərazilərdə bərpa və yenidənqurma işlərinin həyata keçirilməsi qarşıda duran mühüm və prioritet vəzifələrdəndir. Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı quruculuq proqramı reallaşdırılır, bərpa və yenidənqurma işləri sürətlə və planlı şəkildə davam etdirilir, müasir standartlara cavab verən infrastruktur formalaşdırılır. İşğal illərində tamamilə viran qoyulmuş kənd, qəsəbə və şəhərlər tamamilə yenidən qurulur, doğma torpaqlarımıza həyat qayıdır. Bərpa və yenidənqurma işləri Azərbaycan Respublikası ərazisinin vahidliyi, toxunulmazlığı və bölünməzliyi ilə bağlı Konstitusiya prinsipinin təmin edilməsinin daha bir əyani göstəricisidir.

***Qabil SƏFƏROV,***
***Zaqatala rayon prokuroru,***
***baş ədliyyə müşaviri***

# Demokratik cəmiyyətin siyasi nizamnaməsi

**Xalqımız 1991-ci il oktyabr ayının 18-də əsrlər boyu arzuladığı azad, sərbəst, müstəqil yaşamaq arzusuna yenidən qovuşdu. Müstəqilliyin ilk illərində ölkəmiz suverenliyini, dövlətçiliyini itirmək, dünya xəritəsindən silinmək təhlükəsi ilə üz-üzə qalmışdı. Çox mürəkkəb, taleyüklü bir dövrdə ümummilli lider Heydər Əliyev xalqın çağırışı, təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdaraq ölkəni parçalanma, məhvolma təhlükəsindən xilas etdi. Müstəqilliyimizi, dövlətçiliyimizi qoruyub möhkəmləndirdi. Azərbaycan yeni, dinamik inkişaf mərhələsinə qədəm qoydu.**




1995-ci il noyabrın 12-də Ulu öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul edildi. Milli Konstitusiyamız dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığın təmin edilməsi kimi ali niyyətləri özündə ehtiva edir.

Konstitusiya bir əsrə yaxın dövrdən sonra müstəqilliyini yenidən bərpa etmiş Azərbaycan dövlətinin ictimai-siyasi, hüquqi quruluşunu, gələcək inkişaf istiqamətlərini müəyyənləşdirdi. Əsas Qanunun milli dövlətçilik tarixində müstəsna əhəmiyyəti nəzərə alınaraq, müdrik rəhbər Heydər Əliyevin imzaladığı 1 noyabr 1996-cı il tarixli Fərmana əsasən, hər il noyabrın 12-si ölkəmizdə Konstitusiya Günü kimi qeyd edilir.

Əbədiyaşar liderin inkişaf strategiyasını uğurla davam etdirən Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə 22 il ərzində ölkəmiz çox böyük uğurlara, 44 günlük Vətən müharibəsində tarixi qələbəyə, şanlı Zəfərə imza atıb. 2023-cü il sentyabrın 19-da cəmi 23 saat davam etmiş antiterror əməliyyatı nəticəsində növbəti parlaq qələbə əldə edilərək ölkəmizin suverenliyi tam bərpa olundu. Suverenliyin bərpasının və respublikamızın bütün ərazisində qanunun aliliyinin təmin olunmasının müstəsna əhəmiyyəti nəzərə alınaraq, ölkə Prezidentinin 19 sentyabr 2024-cü il tarixli Sərəncamı ilə sentyabrın 20-si Dövlət Suverenliyi Günü kimi təsbit olundu.

Azərbaycan dünyada güclü, qalib dövlət, yeni reallıqların müəllifi kimi tanınır. Şanlı, üçrəngli Dövlət Bayrağımız respublikamızın hər yerində əzəmətlə dalğalanır. Qarabağ və Şərqi Zəngəzur yenidən qurulur, keçmiş məcburu köçkünlər doğma ata-baba yurdlarında qayıdırlar.

Azərbaycan Prezidenti cənab İlham Əliyev 28 dekabr 2024-cü il tarixli Sərəncamı ilə 2025-ci ilin ölkəmizdə “Konstitusiya və Suverenlik İli” elan edilməsi heç də təsadüfi deyil. Vətən müharibəsində qazandığımız misilsiz qələbədən 5 il, ilk milli Konstitusiyanın qəbulundan 30 il keçir. Xalqımız çağdaş tariximizin parlaq səhifələrinə çevrilmiş bu unudulmaz, əlamətdar tarixləri böyük iftixarla, qürur və fəxarət hissləri ilə qeyd edir. Dövlətimizin başçısının imzaladığı Sərəncam milli suverenliyimizin və hüquqi dəyərlərimizin təbliği baxımından tarixi bir addımdır.

Konstitusiya Azərbaycanın demokratik inkişafında, müstəqil dövlətçiliyin təminatında mühüm rol oynayır. Əsas Qanun 5 bölmə, 12 fəsil və 158 maddədən ibarət olmaqla təkcə dövlətin hüquqi və demokratik dəyərlərə söykənən əsaslarını deyil, həm də xalqın siyasi iradəsinin ifadəsi və dövlətin legitimliyinin əsas mənbəyidir.

Cənab Prezidentin müvafiq Sərəncamında da 1995-ci il noyabrın 12-də qəbul edilmiş Konstitusiyanın hüquqi, institusional və demokratik idarəetmə çərçivələrinin möhkəmlənməsində həlledici rolu vurğulanır. Qeyd edilir ki, 1991-ci il oktyabrın 18-də qəbul edilmiş “Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktında yeni Konstitusiyanın hazırlanması nəzərdə tutulsa da, o illərdə hakimiyyətin yarıtmaz fəaliyyəti cəmiyyət həyatının bütün sahələrində kəskin böhrana, ölkədə anarxiyanın yaranmasına gətirib çıxarmış, qanunçuluğun, vətəndaşların azad, təhlükəsiz yaşamaq hüququnun təmin edilməsi mümkün olmamışdır.

Heydər Əliyevin müəllifi olduğu ilk milli Konstitusiya dahi rəhbərin dövlət quruculuğunda müstəsna xidmətlərinin, əzəmətli və möhtəşəm liderliyinin parlaq nümunəsidir. Əsas Qanuna istinad edərək ölkəmizdə hüquq sisteminin, dövlət idarəetməsinin müasirləşdirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının qorunması sahəsində ardıcıl islahatlar həyata keçirilib.

Əldə olunmuş nailiyyətlərin davam etdirilməsi, Konstitusiya prinsiplərinin dərinləşdirilməsi və yeni dövrün tələblərinin yaratdığı zərurətlə əlaqədar 2002-ci il avqustun 24-də referendum yolu ilə Konstitusiyanın 24, 2009-cu il martın 18-də isə 25 maddəsinə əlavə və dəyişikliklər edilib. 2016-cı il sentyabrın 26-da keçirilmiş referendumla Konstitusiyanın 29 maddəsinə edilən əlavə və dəyişikliklər müxtəlif sahələri əhatə etməklə, ali dövlət, məhkəmə hakimiyyəti orqanlarının və bələdiyyələrin işinin təkmilləşdirilməsinə, insan hüquq və azadlıqlarının daha səmərəli təmin edilməsinə yönəlib. Konstitusiyada aparılan dəyişikliklər müstəqil Azərbaycanın sosial-iqtisadi bazasının gücləndirilməsinə, vətəndaşların hüquq və azadlıqlarının daha etibarlı şəkildə təmin olunmasına xidmət edir.

Suverenlik – dövlətin daxili və xarici siyasətində öz iradəsini sərbəst ifadə etmək, hüquqi və siyasi qərarları müstəqil şəkildə qəbul etmək səlahiyyətidir. Bu anlayış yalnız siyasi deyil, həm də hüquqi müstəvidə öz təsdiqini tapır. Dövlətin suverenliyi dövlət hakimiyyətinin vahidliyində və aliliyində, hüquqi aktların bütün hüquqi və fiziki şəxslər üçün məcburi xarakter daşımasında ifadə olunur.

Dövlət suverenliyinin ən mühüm hüquqi təminatı onun Konstitusiyasıdır. Lakin dövlət suverenliyi də hədsiz deyil, o, xarici münasibətlərdə beynəlxalq hüququn hamılıqla tanınmış norma və qaydaları ilə, daxili münasibətlərdə isə qanunlarla məhdudlaşır.

Konstitusiyanın "Azərbaycan dövləti" adlanan 7-ci maddəsində qeyd olunur ki, Azərbaycan demokratik, hüquqi, dünyəvi və unitar respublikadır. Azərbaycan Respublikasında dövlət hakimiyyəti daxili məsələlərdə yalnız hüquqla, xarici məsələlərdə isə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn müddəalarla məhdudlaşır. Hakimiyyətin qanunvericilik, icra və məhkəmə qollarına bölünməsi, onların qarşılıqlı fəaliyyət göstərməsi və müstəqilliyi dövlətin hüquqi müstəqilliyini gücləndirən əsas prinsiplərdəndir.

Xalqın suverenliyi Konstitusiyamızın 1-ci maddəsində dolğun şəkildə təsbit olunub. Hakimiyyətin mənbəyinin xalqa məxsusluğu öz təzahürünü xalqın referendumda və seçkilərdə iştirakı və bu yolla hakimiyyəti təşkil etməsində tapır.

Daxili suverenlik dövlətin qanun yaradıcılığına, idarəetmə və məhkəmə hakimiyyətinə kənar təsir olmadan tam nəzarətini təmin edən ali prinsiplərdən biridir. Bu, Konstitusiya ilə möhkəmləndirilmiş hüquqi institutların müstəqil fəaliyyətini və dövlətin öz ərazisində yeganə legitim güc sahibi olduğunu təsdiqləyir.

Xarici suverenlik dedikdə isə dövlətin beynəlxalq hüququn tamhüquqlu subyekti kimi tanınması, dünya arenasında bərabərhüquqlu iştirakı və milli maraqlarını müstəqil şəkildə müdafiə etməsi başa düşülür.

Ölkəmizin suverenliyinin təminatında beynəlxalq aləmdə tanınma həlledici rol oynamışdır. 1991-ci ildən başlayaraq dünyanın əksər dövlətləri Azərbaycanın müstəqilliyini tanımış, ölkəmiz BMT və digər beynəlxalq təşkilatların üzvü olmuşdur. Bu, Azərbaycanın beynəlxalq hüququn subyekti kimi qəbul olunması və dövlət müstəqilliyinin legitimliyini möhkəmləndirməsi demək idi.

Eyni zamanda milli silahlı qüvvələrin yaradılması yalnız ölkənin ərazi bütövlüyünün qorunması üçün deyil, həm də dövlətin suverenliyinin daxildən və xaricdən müdafiə etmək məqsədi daşıyır.

"Konstitusiya və Suverenlik İli" ilə əlaqədar həyata keçirilən tədbirlər cəmiyyətdə həmrəyliyi daha da artırır, müasir hüquqi, iqtisadi prioritetlərin dəqiqləşdirilməsinə, konstitusion dəyərlərin qlobal çağırışlar əsasında təmin edilməsinə yeni töhfələr verir.

Lənkəran Şəhər Prokurorluğunun kollektivi "Konstitusiya və Suverenlik İli" çərçivəsində məsuliyyətini dərindən dərk edərək dövlətçiliyimizin daha da möhkəmləndirilməsi, ictimai-siyasi sabitliyin təmini, vətəndaş hüquq və azadlıqlarının etibarlı şəkildə qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi naminə qarşıda duran vəzifələri bundan sonra da işgüzarlıqla, yüksək peşəkarlıqla yerinə yetirəcəkdir.

***Azad QARAYEV***
***Lənkəran rayon prokuroru,***
***baş ədliyyə müşaviri***

# “Təyyarə olayı”nın 1 ili – hər şey yaxşı olacaqmı?

## *Prezident Putinin gecikmiş açıqlaması nikbinlik yaratdı, amma...*

**Bu gün Bakı-Qroznı reysini həyata keçirən AZAL-a məxsus “Embraer 190” sərnişin təyyarəsinin Qroznı səmasında vurulmasından 1 il ötür. Məlum olduğu kimi, təyyarə Rusiyanın hava hücumundan müdafiə sistemi tərəfindən açılan atəş nəticəsində ciddi ziyan görmüş və Qazaxıstanın Aktau yaxınlığında qəza enişi etmişdi. Hadisə göyərtədəki 67 nəfərdən 38-nin həyatını itirməsinə, 29 nəfərin isə xəsarət almasına səbəb olmuşdu. Təyyarənin pilotları və bələdçi Hökumə Əliyeva II Fəxri xiyabanda dəfn olundular. Bələdçi Hökumə Əliyeva və pilotlar xüsusi fədakarlıq göstərdiklərinə görə “Azərbaycanın Milli Qəhrəmanı” fəxri adına, stüard Zülfüqar Əsədov və stüardessa Aydan Rəhimli isə 1-ci dərəcəli “Rəşadət” ordeninə layiq görüldülər. Hökumə Əliyevanın təyyarədəkiləri sakitləşdirmək üçün “hər şey yaxşı olacaq” ifadəsi hələ də qulaqlarda səslənir.**



Rusiya Prezidenti Vladimir Putin bu ilin oktyabrında Tacikistanın paytaxtı Düşənbədə Prezident İlham Əliyevlə görüşündə məlum təyyarə olayına toxunaraq, faciənin rəhbərlik etdiyi ölkənin səmasında baş verdiyinə görə əvvəlki üzrxahlıqlığını xatırladıb. “Görüşümüzü ən həssas mövzudan – bizim səmamızda baş verən aviasiya faciəsindən başlamaq istərdim. O vaxt bu faciənin məhz Rusiya səmasında baş verməsinə görə üzr istədim, həlak olanların ailələrinə dərin hüznlə başsağlığı verdim”, - deyən Kreml rəhbəri əlavə edib ki, Moskva təyyarənin qəzaya uğraması ilə bağlı istintaqa dəstəyini göstərir. Putinin sözlərinə görə, olaya səbəb Ukraynaya məxsus 3 PUA-nın səmada olması və Rusiya sərhədini keçməsidir: “Rusiyanın hava hücumundan müdafiə sistemi tərəfindən atılan iki raket AZAL-ın təyyarəsinə birbaşa dəyməyib, bir neçə metr aralıda partlayıb. Təyyarə, çox güman ki, raketin elementləri ilə deyil, qırıntıları ilə vurulub”.

Rusiya Prezidenti cənab İlham Əliyevlə görüşdə onu da bildirib ki, ölkəsi təzminat ödənilməsinə dair tələb olunan hər şeyi edəcək. Artıq il başa çatmaq üzrədir, amma Putinin haqqında söz açdığı təzminatdan xəbər yoxdur. Güman edirik olacaq. Hər halda, Kreml rəhbəri sözü boşuna deməz.

Məlum olduğu kimi, Prezident İlham Əliyev 2024-cü ilin bu günündə Sankt-Peterburqa MDB ölkələri dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak üçün Rusiyaya səfərə yollanmışdı. Dövlətimizin başçısı təyyarə qəzası haqqında ona məruzə edildikdən dərhal sonra geri dönmüş, Heydər Əliyev Beynəlxalq Aeroportuna çatan kimi müşavirə keçirmişdi: “Mən bu gün səhər MDB Zirvə görüşündə iştirak etmək üçün Bakıdan Sankt-Peterburqa təyyarə ilə uçurdum və uçuş zamanı bu faciə ilə bağlı mənə məlumat verildi. Dərhal göstəriş verdim və təyyarə geriyə – Bakıya döndü. Hələ havada ikən mənim tərəfimdən müvafiq göstərişlər verildi, Baş nazirlə danışdım, onun rəhbərliyi ilə komissiya yaradıldı. Eyni zamanda, Azərbaycan nümayəndələrindən ibarət heyət qəzanın baş verdiyi Aktau şəhərinə ezam edilmişdir. Əlavə göstəriş verildi ki, Azərbaycan həkimlərindən ibarət briqadalar da Aktau şəhərinə tezliklə ezam olunsun”.

Bəli, Azərbaycan dövləti hadisə ilə bağlı ciddi həssaslıq göstərdi. Buna qarşılıq Rusiyanın ayrı-ayrı dairələri anti-Azərbaycan təbliğatına start verdilər. Əminliklə demək olar ki, buna səbəb ölkənin xarici işlər naziri Sergey Lavrovun açıqlaması oldu. Lavrov təyyarə olayının əsl səbəbini yayındırmağa çalışdı və faciənin hava gəmimizin quşlarla toqquşması nəticəsində baş verdiyini dedi. O, hətta bir qədər də irəli gedərək elə fon yaratdı ki, sanki Azərbaycan tərəfdən hansısa reaksiya olmalı deyilmiş.

Rusiyanın baş diplomatının bu sayaq ritorikası, yumşaq desək, təəccüb doğurmuşdu. Əlbəttə, onun rəhbərlik etdiyi qurumun təyyarə olayı xüsusunda daha bir təəccüblü açıqlaması da var ki, ondan bəhs edəcəyik. Hələlik isə...

AZAL-a məxsus təyyarənin üzərində qəlpə izləri var idi və bu onun atəşə məruz qaldığını söyləməyə əsas verirdi. Amma açıq-aydın göründü ki, Rusiya tərəfi diqqəti həqiqətlərdən yayındırmaq üçün uzun müddət təbliğat aparıb. Üstəlik, jurnalist cildinə girmiş Solovyov kimi iblislər bu təbliğata aqressiv ton verərək, ölkəmizi hədələməyə keçdilər. Bu kimi neqativ təmayüllərə ən layiqli cavabı isə Prezident İlham Əliyev şəxsən özü verdi. Dövlətimizin başçısı dekabrın 29-da təyyarə qəzasında həyatını itirmiş ekipaj üzvləri ilə Heydər Əliyev Beynəlxalq Aeroportunda keçirilmiş vida mərasiminə qatıldı və mərasimdən dərhal sonra Azərbaycan Televiziyasına müsahibəsində son dərəcə prinsipial mövqe ortaya qoydu.

Əsl həqiqətlərin təyyarənin “qara qutu”sunun açılmasından sonra aşkara çıxacağını deyən Prezident İlham Əliyev, həmçinin, ilkin versiyaların, kifayət qədər əsaslı olduğunu və faktlara söykəndiyini bildirdi: “Faktlar isə ondan ibarətdir ki, Azərbaycanın mülki təyyarəsi Rusiya ərazisində, Qroznı şəhərinin yaxınlığında xaricdən zədə almış və idarəetməni demək olar ki, itirmişdir. Onu da bilirik ki, təyyarəmiz radioelektron mübarizə vasitələri tərəfindən idarəolunmaz vəziyyətə salınmışdır. Bu, təyyarəyə yetirilən birinci xətərdir. Eyni zamanda, yerdən açılan atəş nəticəsində təyyarənin quyruq hissəsi də böyük dərəcədə zədələnmişdir və dərhal, elə həmin gün bizim heyətimiz Aktau şəhərində artıq o videomaterialları təşkil edəndə ictimaiyyət də bu məsələ ilə məlumatlandırıldı. Füzelyajın dəlik-deşik olması, əlbəttə, göstərir ki, bilmirəm, ilkin olaraq kimin tərəfindən atılmış quş versiyası tamamilə gündəlikdən çıxarıldı. Ola bilər ki, təyyarə zədə alanda, zərbə alanda pilot bunu quşların təyyarə ilə toqquşması kimi qəbul edə bilərdi. Çünki yəqin ki, heç kimin ağlına gələ bilməzdi ki, bizim üçün dost olan ölkədə bizim təyyarəyə yerdən atəş açılsın. Ancaq təəssüflər olsun ki, Rusiyanın bəzi dairələri bu versiya üzərində dayanmağa üstünlük vermişdilər. Bizi təəssüfləndirən və təəccübləndirən məqamlardan biri də o idi ki, Rusiyanın rəsmi qurumları hansısa qaz balonunun partlaması ilə bağlı versiyalar irəli sürmüşdü. Yəni, bu, açıq-aydın göstərirdi ki, Rusiya tərəfi məsələni ört-basdır etmək istəyir və əlbəttə, bu, heç kimə başucalığı gətirmir. Təbiidir ki, təyyarəmiz təsadüfən vuruldu. Təbiidir ki, burada hər hansı bir qəsdən terror aktı törətmək məsələsindən söhbət gedə bilməz”.

Prezident İlham Əliyev müsahibəsində Azərbaycanın Rusiyadan tələbini də qətiyyətli şəkildə dilə gətirdi: “Dekabrın 27-də artıq bu tələblər rəsmi qaydada onlara çatdırıldı. Bu, nədən ibarətdir? Birincisi, Rusiya tərəfi Azərbaycandan üzr istəməlidir. İkincisi, öz günahını etiraf etməlidir. Üçüncüsü, günahkarları cəzalandırmalıdır, cinayət məsuliyyətinə cəlb etməlidir və Azərbaycan dövlətinə və zərərçəkən sərnişin və ekipaj üzvlərinə təzminat ödəməlidir. Bu, bizim şərtlərimizdir. Onlardan birincisi artıq dünən təmin edildi. Mən ümid edirəm ki, digər şərtlərimiz də qəbul ediləcək. Bütün bu şərtlər ədalətlidir. Burada hər hansı bir fövqəladə tələb, yaxud da ki, məsələ yoxdur və bu, beynəlxalq təcrübəyə və normal insani davranışa əsaslanır. Bax, budur. Yenə də deyirəm, Azərbaycan ictimaiyyəti məsələnin bütün tərəfləri barədə məlumatlandırılacaq və məlumatlandırılır. Dediyim şərtlər də, bunlar təbii olaraq ictimaiyyətə sizin vasitənizlə çatdırılır və yenə də deyirəm, mən ümid edirəm ki, bizim şərtlərimiz qəbul ediləcək”.

Təzminatdan söz düşmüşkən, Rusiya XİN-in bizi təəccübləndirməsinə keçid alaq. Belə ki, qurum bu ilin sentyabrında məlumat yayaraq, təyyarə olayı ilə bağlı sığorta ödənişlərinin həyata keçirildiyini iddia etdi. Azərbaycan XİN-in buna cavabı isə son dərəcə dəqiq və məntiqli idi: “AZAL-a və sərnişinlərə Rusiyada qeydiyyatda olan sığorta şirkəti tərəfindən sığorta ödənişlərinin həyata keçirilməsi və təyyarənin vurulması ilə bağlı ölkəmizin Rusiya Hökumətindən kompensasiya tələb etməsi məsələləri tamamilə fərqli mövzulardır: “Sözügedən şirkət tərəfindən qeyd edilən sığorta ödənişləri artıq 6 aydır həyata keçirilir. Ümumilikdə, bu ödənişlər məhz AZAL-ın sığorta müqaviləsi çərçivəsində, şirkətin təyyarəsini və sərnişinləri sığorta etməsi nəticəsində öhdəliklərə uyğun olaraq təmin edilir. Ödənişlərin məhz Rusiya sığorta şirkəti tərəfindən həyata keçirilməsi məsələsinə gəldikdə qeyd edək ki, adətən təyyarələrin sığortası müvafiq beynəlxalq sığorta şirkətləri vasitəsilə aparılır. Rusiyanın ərazisində heç bir beynəlxalq sığorta şirkətinin fəaliyyət göstərmədiyini nəzərə alaraq, AZAL təyyarəsinin sığortası Rusiya şirkəti vasitəsilə aparılıb. Beləliklə, sığorta ödənişlərinin Azərbaycanın Rusiya hökumətindən tələb etdiyi kompensasiya ilə eyniləşdirilməsi cəhdləri düzgün deyil”.

Buna qədər isə fevralın 4-də hadisə ilə bağlı Beynəlxalq Mülki Aviasiya Təşkilatı 1944-cü il Beynəlxalq Mülki Aviasiya haqqında Çikaqo Konvensiyasının 13 saylı Əlavəsinin tələblərinə uyğun aparılmış araşdırmanın ilkin hesabatını dərc etdi. Məlumdur ki, təşkilatın yekun sənədi qəza tarixindən 1 il ərzində hazırlanmalıdır. Sözügedən hesabat hələlik açıqlanmasa da, ilkin sənəd özlüyündə hər şeyi dedi. Məsələn, qurum Rusiya tərəfinin iddiasının əksinə olaraq, oksigen balonunun partlaması ilə bağlı faktın qeydə alınmadığını, hava gəmisinin quşlarla toqquşmadığını, füzelyajda çoxsaylı dəlib keçən və kor zədələrin olduğunu, həmçinin Rusiya hava məkanında, o cümlədən Qroznı hava limanı üzərində GPS siqnallarının itdiyini vurğuladı...

2025-ci ilin martında Moskva məhkəməsi təyyarə qəzası ilə bağlı aparılan istintaqa dair sənədlərin müsadirəsinə icazə verdi. Buna dair qərar müstəntiqin prokuror tərəfindən dəstəklənən və həmin ilin yanvarında verilmiş vəsatətinə baxılaraq qəbul edildi. Məhkəmə sənədləri göstərdi ki, cinayət işi Rusiya İstintaq Komitəsinin Baş İstintaq İdarəsi tərəfindən aparılır. Yeri gəlmişkən, APA may ayında Rusiyanın hadisə ilə bağlı aparılan istintaq haqqında konkret heç bir məlumat açıqlamadığını vurğulayan informasiya yaydı. Agentlik mötəbər mənbəyə istinadən bildirdi ki, Azərbaycan tərəfi hər ay bu məsələ ilə bağlı müraciət etsə də, qarşı tərəf müxtəlif bəhanələrlə istintaqı uzadır, müraciətləri cavabsız qoyur: “Bu 5 ay ərzində Rusiya tərəfindən heç bir istintaq hərəkətləri aparılmır. Qəzanın baş verməsində günahı və məsuliyyəti olan şəxslərdən heç kim barəsində həbs qətimkan tədbiri seçilməyib”.

Sonda qeyd edək ki, bu gün də Rusiya tərəfi təyyarə olayına zəruri hüquqi qiymət verməyib. Nikbin məqam yalnız Prezident Putinin əvvəldə diqqətə çatdırdığımız açıqlamasıdır. Onu da vurğulamışdıq ki, belə bir durum Azərbaycan–Rusiya münasibətlərinə mənfi təsir göstərir. Güman edirik ki, Moskvada məsələnin mahiyyətinə varanlar tezliklə hərəkətə keçib təyyarə olayı xüsusunda zəruri mütləq prosedurları həyata keçirəcək, günahkarları cəzalandıracaq, obrazlı desək, Rusiya XİN rəhbəri S.Lavrovun vaxtilə buraxdığı quşu qəfəsə salacaqlar.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Türkiyə Ermənistana qapı açır...

## *İrəvanda isə kimin daha çox qazanacağını hesablayırlar*

**Ermənistan–Türkiyə sərhədlərinin açılması məsələsi bu gün əsas müzakirə mövzusu olaraq qalır. Rəsmi İrəvan iddia edir ki, yaxın aylarda sərhədlərin açılması reallaşa bilər. Bu, erməni diplomatiyasının əsas prioritetidir. Ermənistanla Türkiyə arasında diplomatik münasibətlər qurmaq və sərhədlərin açılmasını təmin etmək üçün təşəbbüslərin çoxu Ermənistandan gəlib.**




Danışıqlar prosesinin daimi xarakter alması üçün hər iki ölkə xüsusi nümayəndələr təyin edib. Türkiyədən təcrübəli diplomat Sərdar Kılıç və Ermənistandan parlamentin sədr müavini Ruben Rubinyan bir neçə dəfə görüşüblər. Son görüş bu ilin yayında İrəvanda olub. Sərdar Kılıç bu dəfə erməni həmkarı ilə görüşməyə Əlican qapısından keçərək gedib. Görüşdən sonra Ruben Rubinyan yaxın vaxtlarda yeni görüşün baş tutacağını desə də, bunun harada və hansı şərtlərlə keçiriləcəyi barədə açıqlama verməyib: “Gündəliyə Ermənistan-Türkiyə münasibətlərinin normallaşdırılması prosesinin bütün gündəliyi daxil olacaq, indiyədək atılan və növbəti addımlar müzakirə olunacaq”.

Oxucuların nəzərinə çatdıraq ki, Ermənistanla Türkiyə arasındakı sərhəd 311 kilometr uzunluğundadır. Şimalda Gürcüstanla, cənubda Azərbaycanla (Naxçıvan Muxtar Respublikası ərazisində) kəsişir. 1993-cü ildə Türkiyə Ermənistanla quru sərhədini birtərəfli qaydada bağlayıb. Münasibətlərin normallaşması prosesi 2022-ci ilin əvvəlindən başlayıb. Rəsmi Ankara bildirir ki, Ermənistan–Türkiyə və Ermənistan–Azərbaycan münasibətlərinin normallaşması prosesləri bir-biri ilə bağlıdır və sülh danışıqlarının müsbət nəticə verəcəyi təqdirdə sərhəd açılacaq. Ermənistan və Türkiyə nümayəndələri 2022-ci ilin iyulunda Vyanada keçirilən dördüncü görüşdə quru sərhədi mümkün qədər tez, üçüncü ölkə vətəndaşları üçün açmaq barədə razılığa gəliblər. Erməni tərəfi Marqara keçid məntəqəsini yenidən qurmaq üçün təxminən 1 milyard dram xərcləyib, amma razılaşmanın nə vaxt olacağı hələ məlum deyil.

Avropa Komissiyasının sədri Ursula fon der Lyayen Türkiyə–Azərbaycan–Ermənistan sərhədlərinin açılmasını Avropa və Mərkəzi Asiya arasında əməkdaşlıq üçün yeni imkanlar yaradacağına ümid edir. O, bu barədə Səmərqənddə keçirilən Aİ–Mərkəzi Asiya 1-ci sammiti zamanı danışıb: “Qara dənizə çatmaq üçün Mərkəzi Asiya və Cənubi Qafqaz ölkələri ilə hamar sərhəd vacibdir. Ermənistanın Türkiyə və Azərbaycanla 30 ildir bağlı olan sərhədlərinin açılması oyunun qaydalarını dəyişəcək. Bu, Avropa və Mərkəzi Asiyanı həmişəkindən daha da yaxınlaşdıracaq”.

***

Erməni mediasında gedən diskussiyalarda bəziləri iddia edirlər ki, Azərbaycanla yekun sülh sazişi imzalanana qədər sərhədlərin açılması mümkün deyil. Türkoloq Hakop Çakryan verdiyi müsahibədə Ermənistan–Türkiyə sərhədinin açılması ehtimalı barədə deyib: “Ermənistan–Türkiyə sərhədi, yəqin ki, açılacaq. Son vaxtlar bu barədə çox danışırlar. Sərhədin açılması tamamilə mümkündür, niyə də olmasın? Bəziləri buna qarşı çıxa bilər, amma gec-tez qonşu ölkə ilə sərhəd açılmalıdır. Yaxın qonşular arasında sərhədlərin bağlı qalması qeyri-təbii bir haldır”.

H.Çakryan deyir ki, keçən il Ermənistan–Türkiyə quru sərhədinin üçüncü ölkə vətəndaşları üçün açılması üçün işlərin görüldüyü elan edildi, amma bu, Ermənistanla sərhədin açılması demək deyil. Bunun, ilk növbədə, Türkiyəyə, ikinci növbədə isə Azərbaycana fayda verəcəyi etiraf edilməlidir: “Yəni, Türkiyə Ermənistan ərazisindən ən qısa yolla Azərbaycana çatacaq, oradan da Mərkəzi Asiyaya, türkdilli respublikalara nüfuz edəcək. Bu, uzunmüddətli plandır və sərhəd açılarsa, Türkiyə bu fürsəti əldə edəcək. Başqa sözlə, sərhədlərin açılmasında biz yox, Türkiyə maraqlı olmalıdır, çünki bundan ən çox bu ölkə faydalanacaq”.

Müzakirələrdə bu fikri də səsləndirənlər tapılır ki, qısa müddətdə Türkiyə ilə sərhədin açılması risklidir. Guya, Ermənistan–Türkiyə sərhədinin açılması ciddi təhlükəsizlik məsələlərinə gətirib çıxaracaq. Bu, Türkiyənin Ermənistana daxil olması deməkdir. Bu fikri deputat Mher Abrahamyan səsləndirib. İqtisadiyyat Nazirliyinin iqtisadi araşdırmalar departamentinin rəhbəri Albert Hayrapetyan isə narahatlıqların qarşı tərəfin niyyəti kimi təqdim olunmasını qəbul etmir. O qeyd edir ki, azad ticarət özü resursların daha səmərəli bölüşdürülməsinə kömək edir: “Sərhəd açılan kimi Aİ-nin gömrük ittifaqının üzvü olan Türkiyə ilə azad ticarətimiz olacaq. Ticarət maneələri aradan qalxacaq və rəqabət artacaq”.

İqtisadiyyat Nazirliyinin nümayəndəsi sərhədlərin açılmasının Ermənistanın ÜDM-nin artmasına töhfə verəcək bir neçə proqnoza istinad edib: “Asiya Bankının proqnozlarına görə, sərhədlərin açılacağı təqdirdə Ermənistanda ÜDM artımı 30 faiz, xarici ticarət kəsiri isə 30-50 faiz azalacaq. Dünya Bankının proqnozlarına görə, ixracın artımı ÜDM-in 30-38 faiz artmasına səbəb ola bilər. İxrac potensialının həcmi isə ÜDM-in həcmi 19-20 faiz təşkil edəcək”.

“Türkiyə ilə sərhədin açılması nəticəsində Ermənistan iqtisadiyyatı ümumilikdə faydalanacaq, lakin bəzi sektorlar rəqabət problemləri ilə üzləşə bilər. Bunu Ermənistanın iqtisadiyyat naziri Gevorq Papoyan “Vətəndaş Müqaviləsi” partiyasının 7-ci konfransından sonra jurnalistlər üçün keçirdiyi brifinqdə deyib.

***

Daxili müzakirələr öz yerində, bəzi beynəlxalq qurumlar sərhədlərin açılmasının Ermənistan üçün faydalarını analiz ediblər. Federal İqtisadi İşlər və İqlim Fəaliyyəti Nazirliyi tərəfindən maliyyələşdirilən Almaniya İqtisadi Qrupu (GET) sərhədin açılmasının ikitərəfli ticarətə təsiri ilə bağlı hesabat dərc edib. Hesabatda deyilir ki, Ermənistan–Türkiyə sərhədi illərdir bağlıdır və iki ölkə arasında birbaşa ticarət yoxdur. Lakin dolayı ticarət, əsasən Gürcüstan vasitəsilə davam edib. 2021-ci ildə Ermənistan xammal istisna olmaqla, Türkiyə mənşəli malların idxalına qadağa qoysa da, bu qadağa 2022-ci ildə aradan qaldırılıb. Ermənistan və Türkiyənin ortaq sərhədlərini açıb birbaşa ticarətə icazə verdiyi ssenarinin Ermənistanın Türkiyə ilə ticarətinə təsirini araşdırdıq.

Hazırda Ermənistanın əsas ticarət tərəfdaşları Rusiya, AB və Çindir. Türkiyə ilə ticarət 2021-ci ildə 0,9 faiz təşkil edib ki, bu da xammal istisna olmaqla, Türkiyə mənşəli malların idxalına qoyulan qadağa səbəbindən azalıb. COVID-19 böhranı və qadağadan əvvəl 2017-2019-cu illərdə ticarət təxminən 4 faiz təşkil edib. Ermənistan əsasən Türkiyədən mal idxal edir, ixrac isə demək olar ki, yoxdur. 2021-ci ildəki qadağadan əvvəl əsas idxal malları tekstil, geyim, maşın və avadanlıqlar, yanacaq idi. 2021-ci ildə Türkiyədən idxal 68 faiz azalaraq bütün çeşidə təsir etdi və yanacaq idxalı, demək olar ki, tamamilə dayandı. Ermənistan və Türkiyə arasında ticarətin potensial strukturunun qiymətləndirilməsi iki modelə əsaslanır. Sərhədlər açılarsa Türkiyə məhsullarının Ermənistan ticarətində payının 12 faiz olacağı proqnozlaşdırılır. Halbuki, əslində, bu rəqəm 2021-ci ildə (qismən qadağalar səbəbindən) cəmi 1 faiz, 2019-cu ildə isə 3,6 faiz olub.

Beləliklə, Ermənistanın Türkiyə ilə ticarətinin perspektivi var. Ermənistanın Türkiyəyə potensial ixracı 185 milyon ABŞ dollarıdır. Bu, 2021-ci ildə Ermənistan ixracının 6,7 faizinə bərabər olub. İxracın əsas çeşidinə kənd təsərrüfatı məhsulları, o cümlədən tütün məhsulları (siqaret), şüşə qablar, zərgərlik məmulatları və minerallar, mis filizi daxildir. Türkiyədən Ermənistana potensial ixraclın həcmi 678 milyon ABŞ dolları təşkil edir ki, bu da Ermənistanın 2021-ci ildəki ümumi idxalının 12,8 faizini təşkil edir. Sərhədlərin açılması Ermənistanda kapital mallarının ixracına və idxalına töhfə verəcək ki, bu da əsasən Ermənistanın iqtisadi maraqları ilə üst-üstə düşür.

***Qafar ÇAXMAQLI,***
***XQ-nin Türkiyə müxbiri***

# Ermənistanı kimlər gərginliyə sürükləyir?

## *Sülh istəməyənlər siyasi səhnəni tərk etmək istəmirlər*

**Ermənistanda parlament seçkiləri yaxınlaşdıqca, daxili siyasi hərarət də artır. Bu prosesdə Erməni Apostol Kilsəsinin qızışdırıcı rol oynaması xüsusilə diqqəti cəlb edir. Hakimiyyətlə kilsə arasında əvvəllər pərdə arxasında qalan narazılıqlar son aylar açıq qarşıdurma mərhələsinə keçib. Bu qarşıdurma cəmiyyətdə yeni suallar və narahatlıqlar doğurur. Kilsənin siyasi proseslərə bu qədər açıq müdaxiləsi ölkədə onsuz da zəif olan ictimai münasibətlər sistemini daha da sarsıdır. Hakimiyyətin yaranmış vəziyyəti nəzarətdə saxlamaq üçün sərt mövqe nümayiş etdirməyə çalışdığı da diqqətdən yayınmır. Nəticədə, Ermənistan seçkilərə parçalanmış və gərgin mühitdə gedir.**

Ölkədəki durumu gərginləşdirməyə çalışan şəxslərdən biri də hazırda istintaq təcridxanasında saxlanılan zəngin iş adamı Samvel Karapetyandır. Onun adı son vaxtlar müxtəlif siyasi proseslərdə hallanır. Karapetyanın maliyyə imkanlarının hazırda müəyyən



dairələr tərəfindən təsir aləti kimi istifadə edildiyi barədə iddialar yayılır. Onun kilsəni cidd-cəhdlə müdafiə etməsi iqtidarla bütün ermənilərin katolikosu arasındakı qarşıdurmanı daha da dərinləşdirir. Samvel həbsdə olduğu dövrdə "Öz yolumuzla" adlı "xalq hərəkatı" yaradıb. Hazırda həmin hərəkata Samvelin qardaşı oğlu Narek Karapetyan koordinatorluq edir.

Narek bu günlərdə iddialı bəyanat səsləndirib. O, diz çökməyəcəklərini, bərabər mövqedən sülhə nail olacaqlarını bildirib. Karapetyan birliyin vacibliyini vurğulayıb: "Bizə necə qalib gələ bilərlər? Bizi bir-birimizdən ayırmaqla. Üç gün əvvəl Eçmiədzində idik. Nə qədər bölünmüş olduğumuzu bilirsinizmi? Polis əməkdaşları ortada dayanıb soruşdular: "Siz kilsəni müdafiə edirsiniz, yoxsa Nikolu dəstəkləyirsiniz?". Deyirdilər ki, əgər kilsəni müdafiə edirsinizsə, sağa dönün. Nikolu dəstəkləyirsinizsə, sola dönün. Amma onlar nəzərə almırlar ki, biz hamımız erməniyik". O, hər kəsin kilsəni müdafiə etməli olduğunu vurğulayıb.

Baş verən son hadisələri şərh edən politoloq Ayk Nahapetyan isə "Aysor.am" saytına bildirib ki, baş nazir Nikol Paşinyanın və onunla birlikdə Erməni Apostol Kilsəsinə və katolikosa qarşı çıxan bir sıra ruhanilərin hərəkətlərinə yalnız daxili siyasi proses kimi baxmaq olmaz. Onun sözlərinə görə, problem daha dərin və daha qlobaldır: "Bu, kilsə və ya Nikol Paşinyanla bağlı məsələ deyil. Əsas sütunlarından biri olan Erməni Apostol Kilsəsi və bütün pravoslav xristian dünyası təhlükə altındadır". Politoloqun sözlərinə görə, hazırda kilsənin bir hissəsini parçalayıb "yeni kilsə" kimi təqdim etməyə yönəlmiş proqram həyata keçirilir. İddia edib ki, oxşar ssenari artıq Ukraynada da reallaşıb. "Ukraynada Ukrayna Pravoslav Kilsəsi var idi, sonra Pravoslav Ukrayna Kilsəsi yaradıldı. İndi onlar eyni şeyi Ermənistanda da həyata keçirməyə çalışırlar. Ermənistanda 12 yeparxiya əsasında yeni bir kilsə strukturu yaratmaq və Erməni Apostol Kilsəsini, faktiki olaraq, parçalamaq cəhdi göstərilir".

Nahapetyan əmin olduğunu bildirib ki, qlobalist qüvvələr həm Ukraynada, həm də Ermənistanda kilsə strukturlarını parçalamaqda maraqlıdırlar. "Ukrayna Pravoslav Kilsəsini parçalamaqda kim maraqlı idi? Əlbəttə ki, qlobalistlər", – deyə o bildirib.

*

Hayastanda yaranmış mövcud vəziyyət göstərir ki, ölkəni gərginliyə sürükləyən əsas təhlükə təkcə hakimiyyətlə kilsə arasındakı açıq qarşıdurma deyil. Bu qarşıdurmadan öz maraqları üçün istifadə edən, cəmiyyəti qəsdən parçalamağa çalışan şəxslər və qruplar prosesi daha təhlükəli məcraya yönəldir. S.Karapetyan və onun ətrafında formalaşan çevrə bu baxımdan xüsusilə diqqət çəkir. Həbsdə olan bir iş adamının siyasi gündəmi müəyyən etməyə çalışması artıq Ermənistan üçün adi hala çevrilib. Karapetyanın kilsəni fanatik şəkildə müdafiə etməsi dini dəyərlərlə bağlılıqdan irəli gəlmir. Burada söhbət kilsənin arxasında gizlənərək siyasi təsir imkanlarını qorumaq cəhdindən gedir. Kilsə onun üçün xalqın mənəvi dayağı yox, hakimiyyətə təzyiq alətidir. Bu yanaşma isə cəmiyyətdə süni gərginlik yaradır, insanları bir-birinə qarşı qoyur. Hakimiyyətlə katolikos II Qaregin arasındakı qarşıdurmanın dərinləşməsində Karapetyan faktorunun rolu aşkardır.

"Öz yolumuzla" adlanan qondarma "xalq hərəkatı" da mahiyyət etibarilə xalqın yox, dar çevrənin maraqlarına xidmət edir. Həbsdə olan bir şəxsin adından yaradılan bu struktur ailə biznesi kimi idarə olunur. Koordinator postuna qardaşı oğlunun gətirilməsi də bunu təsdiqləyir. Burada nə demokratik yanaşmadan, nə də real ictimai dəstəkdən danışmaq mümkündür. Sadəcə, böyük pullar və köhnə iddialar yeni şüarlarla ortaya çıxarılır.

Narek Karapetyanın son bəyanatları isə vəziyyətin nə qədər təhlükəli həddə çatdığını göstərir. "Diz çökməmək, bərabər mövqedən sülhə nail olmaq" kimi ifadələr ilk baxışdan iddialı səslənsə də, əslində, açıq qarşıdurma çağırışıdır. Bu ritorika sülhə yox, toqquşmaya hesablanıb. Xüsusilə onun Eçmiədzində insanların hansı tərəfdə olduqlarına görə ayrılmasını normal kimi təqdim etməsi cəmiyyət üçün ciddi təhlükədir. Bu, artıq fikir ayrılığı deyil, açıq bölücülükdür. Karapetyanların çıxışlarında "hamımız erməniyik" sözləri tez-tez səslənsə də, real addımlar bunun əksini göstərir. Onlar cəmiyyəti kilsəni dəstəkləyənlər və hakimiyyəti dəstəkləyənlər kimi ayırır, ortaq mövqeni mümkünsüz hala gətirirlər. Bu yanaşma Ermənistanı daxildən zəiflədir, onu idarəolunmaz vəziyyətə sürükləyir. Ən təhlükəli məqam isə onların Azərbaycanla sülh prosesinə açıq şəkildə qarşı çıxmalarıdır. Karapetyan çevrəsi üçün sülh düşmən obrazının dağılması deməkdir. Çünki gərginlik nə qədər uzun sürərsə, revanşist şüarlar bir o qədər rahat satılır. Sülh isə bu dairələrin bütün arqumentlərini puça çıxarır. Məhz buna görə onlar sülhü zəiflik, dialoqu isə təslimçilik kimi təqdim etməyə çalışırlar. Halbuki Ermənistanın real çıxış yolu daxili sabitlikdən və Azərbaycanla normal münasibətlərin qurulmasından keçir. Kilsə adı altında aparılan siyasi oyunlar, maliyyə gücü ilə yönləndirilən küçə ritorikası ölkəni yeni fəlakətlərə aparır. Karapetyanlar isə bu prosesdə xilaskar yox, dağıdıcı rol oynayırlar. Bu gün Ermənistanda sülhə qarşı çıxan hər kəs, əslində, ölkənin gələcəyinə qarşı çıxır. Samvel və Narek karapetyanların fəaliyyəti bunu açıq şəkildə göstərir. Onların hədəfi nə xalqın rifahıdır, nə də dövlətin güclənməsi. Hədəf hakimiyyət uğrunda mübarizəni uzatmaq və köhnə təsir imkanlarını qorumaqdır. Bunun, necə deyərlər, bədəlini isə yenə Ermənistan vətəndaşı ödəyir.

Ayk Nahapetyanın fikirlərinə gəldikdə isə bu, Ermənistanda kilsə–hakimiyyət qarşıdurmasının hansı çərçivədə təqdim olunmağa çalışıldığını aydın göstərir. O, prosesi sırf daxili siyasi mübarizə kimi yox, daha geniş kontekstdə izah etməyə üstünlük verir və məsuliyyəti Paşinyanın üzərinə atmağa çalışır. Bu yanaşma erməni cəmiyyətində yaranmış gərginliyi xarici təsirlərlə əsaslandırmaq cəhdidir və faktiki olaraq, problemlərin kökünü ölkədaxili idarəçilik böhranından yayındırır.

Nahapetyanın kilsənin parçalanması ilə bağlı iddiaları Ermənistan daxilində qorxu və narahatlıq mühitini gücləndirməyə hesablanıb. "Yeni kilsə" ssenarisi barədə deyilənlər konkret faktlardan daha çox ehtimallara söykənir və ictimai rəyə təsir məqsədi daşıyır. Bu cür çıxışlar kilsəni müqəddəs toxunulmaz zona kimi təqdim edərək onu istənilən tənqiddən kənarda saxlamağa xidmət edir. Ümumilikdə Nahapetyanın mövqeyi kilsə ətrafında formalaşmış köhnə təsir dairələrinin öz mövqelərini qorumaq cəhdini əks etdirir. Bu cür şərhlər real problemlərin həllinə deyil, qarşıdurmanın daha da dərinləşməsinə xidmət edir.

***Səxavət HƏMİD***
***XQ***

# Dövlət borcu üzərində fransızsayağı idarəetmə

## *Paris olimpinin ödəncləri 3,482 trilyon avroya yüksəlib*

**Müasir Avropa siyasətində dövlət borcu anlayışı artıq siyasi idarəetmənin keyfiyyətini, institutların qərarvermə qabiliyyətini və ölkənin gələcəyini müəyyən edən əsas indikatorlardan birinə çevrilib. Fransanın açıqlanan fiskal göstəriciləri bu reallığı daha aydın şəkildə ortaya qoyur. Söhbət birdəfəlik büdcə pozuntusu və ya fövqəladə vəziyyətin yaratdığı müvəqqəti maliyyə yükündən getmir. Uzun illər yığılıb qalmış struktur məsuliyyətsizliyindən və onun indi açıq böhran formasında üzə çıxmasından gedir.**

Bu günlərdə Fransanın dövlət borcunun 3,482 trilyon avroya yüksəldiyi açıqlanıb. Ölkənin Milli statistika qurumu bu barədə məlumat yayıb. Qeyd olunub ki, sözügedən göstərici ÜDM-in 117,4 faizinə bərabərdir və müharibə, pandemiya kimi fövqəladə dövrlər istisna olmaqla qeydə alınmış ən yüksək göstəricidir. Açıqlanan rəqəmlər, əslində, Fransanın öz maliyyə imkanları üzərində nəzarətinin hansı mərhələyə gəlib çatdığını bir daha göstərir.

Borcun bu həddə nə üçün çatdığını anlamaq üçün məsələni daha dərindən təhlil etmək lazımdır. İlk növbədə vurğulanmalıdır ki, cəmi üç ay ərzində borcun 65,9 milyard avro artması problemin struktur xarakter daşıdığından xəbər verir. Qeydə alınan artım nə müharibə xərcləri, nə enerji, nə də strateji investisiya dalğası ilə izah oluna bilər. Əksinə, bu dinamika göstərir ki, Fransa artıq gündəlik fəaliyyətini belə öz gəlirləri hesabına maliyyələşdirə bilmir. Vəziyyət parlamentdə gedən proseslərdə daha aydın şəkildə özünü büruzə verir. Çünki parlament daxilində dövlət büdcəsi ilə bağlı müzakirələr texniki çərçivədən çıxaraq siyasi əhəmiyyət kəsb etməyə başlayıb. Daha dəqiq desək, büdcə artıq kompromis sənədindən çox ideoloji qarşıdurma alətinə çevrilib. Sağ və sol siyasi qütblər fiskal reallıqla sosial vədlər arasında balans nöqtəsi tapa bilmirlər. Yeri gəlmişkən, dövlət büdcəsi haqqında qanun layihəsi üzrə kompromis tapmaq məqsədilə yaradılmış birgə parlament komitəsinin




nəticəsiz qalması da institusional böhranın bariz nümunəsidir. Görünür, ölkədə parlamentarizmin qərarvermə funksiyası zəifləyib. Mövcud vəziyyətin ən açıq siyasi etirafı isə baş nazir Sebastian Lekornu tərəfindən səsləndirildi. Onun il bitmədən dövlət büdcəsinin qəbul olunmayacağı barədə açıqlaması Fransada idarəetmə mexanizminin böhranı idarə etmək gücündə olmadığını bir daha təsdiqlədi. Yəni vəziyyət o qədər ciddidir ki, büdcə qəbul olunmadan ilin başa çatması artıq yeni normaya çevrilmək üzrədir.

**ARAYIŞ:** Fransada 1975-ci ildən sonra qəbul edilən bütün büdcələr kəsirlə olub ki, bu da fiskal məsuliyyətsizliyin institusionallaşması ilə əlaqədardır. Dövlət, yerli hakimiyyət orqanları və sosial təminat sistemi uzun illər topladıqlarından daha çox xərcləyir və bu fərq borclanma hesabına bağlanır. Ən problemli məqam isə borclanmanın məqsədidir. Borcdan, sadəcə, infrastruktur və ya uzunmüddətli investisiya üçün istifadə olunmur. Hətta sosial ödənişlər, transfer mexanizmləri və inzibati xərclər də borc hesabına davam etdirilir.

Fransa özünü uzun illər Avropada sosial dövlət modelinin əsas nümunələrindən biri kimi təqdim edib. Lakin mövcud fiskal göstəricilər bu modelin gəlir bazası ilə uyğunlaşmadığını göstərir. Sosial öhdəliklər siyasi baxımdan toxunulmaz elan edildikcə, fiskal reallıq ikinci plana keçir. Əvvəllər bu ziddiyyət uzun müddət borclanma vasitəsilə gizlədilirdi. Lakin borcun yüksək həddə çatması artıq köhnə strategiyanın işləmədiyini sübut edir. Analitiklərin bazar böhranı ehtimalını istisna etməməsi də məhz bu səbəbdəndir. Nəzərə alsaq ki, rəsmi Paris Avropa İttifaqının əsas siyasi və iqtisadi sütunlarından biri hesab olunur, onun fiskal böhranını, sadəcə, milli məsələ kimi qiymətləndirmək olmaz. Büdcə böhranı və borcun idarə olunmaması Aİ-nin bütövlükdə fiskal arxitekturasına təsir göstərir. Brüsselin fiskal intizam çağırışları fonunda Fransanın büdcəsiz qalması qurumun da fəaliyyətinə kölgə salır. Yaranmış vəziyyət Avropada "ikiqat standart" ittihamlarını gücləndirir və ümumi maliyyə nizamına olan inamı sarsıdır.

Daha bir vacib məqam ondan ibarətdir ki, Fransanın dövlət borcu problemi konkret hökumətin taleyi ilə məhdudlaşmır. Sadə şəkildə izah etsək, Lekornunun kabineti istefa versə belə, borc qalacaq. Çünki problem əvvəldə də qeyd etdiyimiz kimi, struktur xarakterlidir. Onu sosial prioritetləri yenidən qiymətləndirmək və fiskal reallığın qəbulu ilə həll etmək mümkündür. Hazırkı mənzərə göstərir ki, Fransa hələ bu mərhələyə çatmayıb. Büdcənin ilin sonuna qədər qəbul olunmamasına gəldikdə isə, görünür, dövlət öz maliyyə gələcəyinə dair qərar verməkdən yayınır.

Mövcud vəziyyət göstərir ki, Fransa artıq seçim mərhələsinə çatıb. Ya borcun idarə olunmasını siyasi prioritetə çevirərək zəruri qərarlar qəbul ediləcək, ya da problem növbəti hökumətlərin üzərinə ötürülərək daha da böyüyəcək. Doğrudur, hər iki yolun siyasi əhəmiyyəti var. Lakin ikinci yolun iqtisadi və institusional məsuliyyəti daha ağırdır. Büdcənin qəbul olunmaması, borcun artması və siyasi kompromissizliyin davam etməsi Fransa dövlətinin idarəolunan böhrandan daimi qeyri-müəyyənlik mərhələsinə keçdiyini göstərir. Bu mərhələdə risk artıq siyasi sistemin öz-özünü bloklamasıdır. Fransa üçün əsas təhlükə borcun özü yox, onun yaratdığı siyasi narahatlıqdır. Bu vəziyyət dəyişmədikcə, heç bir büdcə sənədi problemi kökündən həll edə bilməz.

***Nəzrin ELDARQIZI***
***XQ***

### *Ekspert rəyi*




**Yeganə HACIYEVA, politoloq**

Fransada dövlət borcunun ÜDM-in 117 faizini keçməsi ölkənin iqtisadi gündəminin əsas mövzularındandır. Bu göstərici hələlik birbaşa böhran ssenarisi yaratmasa da, borcun idarə olunması fonunda ciddi siyasi və institusional problemlər formalaşdırır. Əsas risk onun ətrafında yaranan siyasi qeyri-müəyyənlik və qərarların davamlı gecikdirilməsidir. Büdcə qəbulunun uzanması, aydın fiskal strategiyanın olmaması və parlamentdə konsensus çatışmazlığı maliyyə bazarlarında narahatlıq yaradır, investor etimadını zəiflədir. Qərarların düzgün qəbul edilməməsi dövlətin daxili və xarici öhdəliklərini planlaşdırmasını çətinləşdirir, borclanmanı artırır və sosial-iqtisadi proqramlarda qeyri-müəyyənlik yaradır. Siyasi kompromisin mümkünsüzlüyü islahatların iflicinə, iqtisadi risklərin dərinləşməsinə və radikal qüvvələrin mövqelərinin güclənməsinə yol açır. Parlamentdə davam edən qarşıdurmalar struktur islahatlarının həyata keçirilməsini, faktiki olaraq, bloklayıb. Hökumət böyük və şaxələndirilmiş iqtisadiyyat, güclü vergi bazası və Avropa Mərkəzi Bankının dəstəyini əsas arqument kimi göstərsə də, siyasi qeyri-sabitlik və investor etimadının azalması borclanma xərclərini kəskin artıra bilər.

Makron hakimiyyəti üçün xarakterik olan sosial xərclərin optimallaşdırılması, subsidiyaların azaldılması və dövlət idarəçiliyinin səmərəliliyinin artırılması kimi qeyri-populyar, lakin zəruri addımlar davamlı olaraq təxirə salınır. Bu isə onsuz da gərgin olan iqtisadi və siyasi vəziyyəti daha da ağırlaşdırır. Cəmiyyətdə narazılıq və etiraz əhvali-ruhiyyəsi artır, hökumətin manevr imkanları daralır, borcun artım tempinə nəzarət çətinləşir. Mövcud tendensiyalar dəyişmədiyi təqdirdə dövlət borcu Fransanın iqtisadi və siyasi həyatına uzunmüddətli təzyiq göstərməkdə davam edəcək. Borcun xidmətinə yönələn vəsaitlərin artması sosial sahələrə investisiya imkanlarını azaldacaq, beynəlxalq maliyyə bazarlarında ölkənin mövqeyini risk altına salacaq.

# Diasporun Paşinyan təhdidi

## *Sankt-Peterburq görüşü Rusiyada ermənilərin yeni reallığı qəbul etmədiyini göstərdi*



**Ermənistanın baş naziri Nikol Paşinyan Rusiyanın Sankt-Peterburq şəhərində erməni icmasının üzvləri ilə görüşündə bir neçə nəfər onu tənqid edib və sonra etiraz əlaməti olaraq zaldan çıxıb. Şəhərdə fəaliyyət göstərən erməni milli-mədəni muxtariyyəti (ANCA) görüşün təfərrüatlarını açıqlayıb.**

Təşkilatın məlumatına görə, onlardan Paşinyanla keçiriləcək görüşdə iştirak edəcək bir neçə nəfərin siyahısını operativ şəkildə təqdim etmələri xahiş olunub. Nəzərdə tutulan vaxtda zala təxminən 60 nəfər yığışıb. Onlardan 20-si gənclər təşkilatlarının təmsilçiləri, qalanları Ermənistan Xarici İşlər Nazirliyinin nümayəndələri, Sankt–Peterburqdakı baş konsulluğun əməkdaşları və Moskvadan bir neçə nəfər olub. Müqəddəs Yekaterina erməni kilsəsində keçirilən görüşdə 3 nəfər – Vahe Avetyan, Vahan Babaxanyan və Karen Mkrtçyan tənqidi çıxış edib.

Vahe Avetyan Paşinyanın idarəçilik üslubunu tənqid edib. Bildirib ki, onlar iş adamı kimi Samvel Karapetyanın üzləşdiyi aqibətdən sonra Ermənistana investisiya qoymağa risk etmirlər: "Bizi narahat edən və nəyin gözlədiyi barədə suallar verə bilmək üçün bu görüşdə iştirak etməyə dəvət olunmuşduq. Bizə nə təklif etmək üçün gəlmisiniz? Biz gəlirik, investisiya qoyuruq və əgər əlavə dəyər vergisini nağd şəkildə ödəsək, onda siz müəssisələrimizi bağlamağı əmr edəcəksiniz? Deyəcəksiniz ki, indi buna görə həbs olunmalısınız! Deyirsiniz ki, Samvel Karapetyanın iş üslubu cinayətdir, amma sizin tamamilə xaos olan tərziniz qanunidirmi? Arxiyepiskoplar dövlətin maraqları üçün təhlükəli hesab olunurlar, amma müəssisələri bağlamaq və müsadirə etmək barədə qanunsuz əmrləriniz məqbuldurmu? Küçədə toplaşan insanlar da eyni sualı vermək istəyirlər. Hamı başa düşür ki, bu addımlar, sadəcə, "parçala və hökm sür" düsturuna əsaslanır. Siz, hətta bazar liturgiyasında da iştirak etməmisiniz. Sizi Nijni Taprdakı liturgiyada iştirak etməyə dəvət edirik. Biz bu cür manipulyasiyalarda iştirak etməyəcəyik və bölünməyə qarşı öz yolumuzla mübarizə aparacağıq. Məni və küçədə toplaşan bütün insanları "öz yolumuz"a görə həbs edə bilərsiniz".

Vahan Babaxanyan Paşinyana hələ 2018-ci ilin iyun və avqust aylarında iki dəfə ümumerməni məsələləri ilə bağlı məktub yazdığını, amma laqeydlik gördüyünü bildirib: "İkinci məsələ sizin Alma–Ata Bəyannaməsini tez-tez təkrarlamağınızla bağlıdır. Həmin bəyannamənin "Artsax"la heç bir əlaqəsi yoxdur. "Artsax" referendum keçirdi və Alma-Atadakı görüşdən əvvəl qısa bəyannamə ilə konstitusiyaya uyğun olaraq Azərbaycan SSR-dən ayrıldı. Orada sərhədlər açıq şəkildə qeyd olunmayıb.

Əgər Alma-Ata görüşü zamanı sərhədlər nəzərdə tutulurdusa, deməli, onlar görüş zamanı mövcud olan sərhədlər idi və "Artsax" o vaxt Azərbaycan SSR-in tərkibində deyildi. Bu bəyannamə sizin tərəfinizdən birbaşa manipulyasiyadır, çünki ermənilərin 95 faizi onu oxumayıb və sizə inanmayıb, amma bu, yalandır. Bir çox tarixçi, politoloq və alim bu barədə onlarla dəfə danışıb və yazıb. Amma siz xalqı aldatmağa davam edirsiniz".

Erməni milli-mədəni muxtariyyəti şurasının sədri Karen Mkrtçyan iclasda iştirak edən sonuncu natiq olub. O, bütün ermənilərin katolikosu II Qareginin doğma qardaşı, Erməni Apostol Kilsəsinin Rusiya və Novo-Naxçıvan yeparxiyasının rəhbəri arxiyepiskop Yezrası (dünyəvi adı Mkrtiç Nersisyan–S.N.) tərifləyib. Deyib ki, onlar ata Yezrasın sayəsində erməni icmasının dirçəldiyi bir şəhərdədirlər:

*(ardı 14-cü səhifədə)*

# Araz üzərindən etimad körpüsü

**Bakı–Tehran xəttində uzun illər formalaşmış ehtiyatlı diplomatiya modeli yerini tədricən daha açıq, daha isti və simvolik məzmunu güclü olan siyasi ünsiyyət formatına verir. Son dövrlər müşahidə edilən proseslər Azərbaycan–İran münasibətlərinin ictimai rəy, mədəni kod və psixoloji etimad müstəvisində yenidən formalaşdığını nümayiş etdirir. Məsud Pezeşkian administrasiyasının Bakıya yönəlik atdığı ardıcıl addımlar bu dəyişimin mahiyyətini aydın şəkildə ortaya qoyur.**



İran Prezidenti Məsud Pezeşkianın Prezident İlham Əliyevi doğum günü münasibətilə telefon zəngi ilə təbrik etməsi bu xəttin diqqətçəkən siyasi jestlərindən biri oldu. İran diplomatik ənənəsində prezidentlərin telefon danışığı, adətən, tərəflər arasında xüsusi siyasi, birbaşa dialoqun qurulduğunu göstərir. Yəni Pezeşkianın zəngi Bakının Tehran üçün yenidən siyasi tərəfdaş kateqoriyasına daxil edildiyini göstərən açıq mesajdır.

Bu xəttin davamı mədəni platformada verildi. İran prezidentinin qızı Zəhra Pezeşkianın Bakıda keçirilən beynəlxalq konfransda çıxışının sonunda Şəhriyarın "Heydərbabaya salam" poemasından bənd səsləndirməsi ictimai rəyə ayrıca mesaj rolunu oynadı. Poemanın müxtəlif vaxtlarda İran prezidenti və onun ailə üzvü tərəfindən Bakının mərkəzində səsləndirilməsi Tehranın mədəni–etnik mövzulara münasibətdə ritorik tonunu, sadəcə, yumşaltmaqla kifayətlənmədiyini, bu sahədə konseptual xətt dəyişikliyinə getdiyini göstərən açıq siyasi ismarış sayılmalıdır. Xatırlatmaq yerinə düşər ki, İran Prezidenti Məsud Pezeşkian da aprel ayında ölkəmizə səfəri zamanı "Heydərbabaya salam" şeirindən bir parça səsləndirmişdi.

Bu siyasi mesajlar paralel şəkildə iqtisadi gündəmin də aktivləşdirilməsi ilə müşayiət olunur. Araz çayı üzərində hidroenerji layihələrinin irəlilədilməsi, Astara–Rəşt dəmir yolunun Şimal–Cənub dəhlizi üzrə əsas həlqələrdən birinə çevrilməsi, sərhəd ticarətinin genişləndirilməsi və yeni logistika marşrutlarının aktivləşdirilməsi artıq simvolik istiləşmənin mexaniki dayaqlarla möhkəmləndirildiyini göstərir. Bu gün Azərbaycan Avrasiyanın şimalı və cənubu arasında tranzit axınlarının ən etibarlı dayaqlarından biri kimi çıxış edir.

Elə bu məcrada Şimal–Cənub dəhlizinin milli seqmentinin sürətlə modernləşdirilməsi həyata keçirilir, Sumqayıt–Yalama xəttinin yenidən qurulmasının isə yaxın günlərdə tamamlanacağı gözlənilir. Paralel olaraq Horadiz–Ağbənd dəmir yolu xəttinin tikintisi yüksək templə davam etdirilir və marşrutun 2026-cı ilədək Ermənistan sərhədinə qədər uzadılması planlaşdırılır. Naxçıvandan keçən 188 kilometrlik hissənin bərpası da bu logistika arxitekturasının əsas elementlərindən biri kimi irəliləyir. Ötən ay Bakıda keçirilən MDB Dəmir Yolu Nəqliyyatı Şurasının 83-cü iclasında bu istiqamət üzrə aparılan işlər ayrıca müzakirə edildi və rəsmi Bakının sözügedən marşrutda ən etibarlı aktor olduğu bir daha təsdiqləndi. Bu reallıq həm Moskva, həm də Tehran tərəfindən aydın şəkildə başa düşülür.

*

Məhz bu kontekstdə Vaşinqton platformasında formalaşdırılan və regionda yeni logistik–siyasi arxitektura qurmağa yönələn TRIPP Bakı üçün əlavə diplomatik və geoiqtisadi manevr imkanları açır. Tehran üçün isə TRIPP reallığı Bakı ilə münasibətlərin artıq alternativsiz strateji xətt kimi qəbul edildiyini təsdiqləyən əlavə təhlükəsizlik və iqtisadi zəmanət funksiyası daşıyır. Dəhliz ətrafında İran daxilində hələ də müəyyən tərəddüdlərin mövcudluğu müşahidə olunsa da, beynəlxalq praktikada məhz Azərbaycanın iştirakı ilə reallaşdırılan layihələrin qərəz və riskdən uzaq olması artıq formalaşmış etibarlı nümunə kimi qəbul edilir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan tərəfdaş ölkələrə münasibətdə ardıcıl şəkildə dostluq və əməkdaşlıq xəttini qoruyub saxlayır. Bu siyasi davranış modeli regional layihələrin uzunmüddətli dayanıqlılığının əsas təminatçılarından biri kimi çıxış edir.

Eyni zamanda formalaşan bu yeni ton İran daxilində uzun müddət Azərbaycanı şübhə obyektinə çevirən radikal ritorikanın siyasi çəkisini nəzərəçarpacaq dərəcədə zəiflədir. Dövlət başçısının ardıcıl mesajları da bu transformasiyanın dərinliyini açıq şəkildə ortaya qoyur. Məsud Pezeşkian iyul ayında etdiyi çıxışında Azərbaycanla münasibətlərin qurulmamasında məsuliyyətin məhz İran tərəfinə aid olduğunu açıq etiraf etmişdi. Rəsmi mərkəzdən səslənən bu tip mövqelər İran daxilində anti-Azərbaycan xəttində dayanan dairələrin manevr imkanlarını daraldır, ictimai rəyin vektorunu dəyişir və Bakı–Tehran xəttində formalaşmaqda olan yeni siyasi ünsiyyət modelinin institusional dayaqlarını möhkəmləndirir.

***Tacir SADIQOV***
***XQ***

### *Ekspert rəyi*



**Ceyhun MƏMMƏDOV,**
**Milli Məclisin deputatı,**
**Azərbaycan–İran parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü**

Əslində hazırkı mərhələdə İran Prezidentinin, eləcə də onun ailə üzvlərinin və rəsmi dövlət qurumlarının Azərbaycanla münasibətlərin inkişafında açıq şəkildə maraqlı olduqları müşahidə olunan reallıqdır. Bu il Məsud Pezeşkianın Azərbaycana etdiyi səfərlər, Bakıda keçirdiyi görüşlər, habelə Tehranda rəsmi çıxışları zamanı Azərbaycan–İran münasibətlərinin strateji əhəmiyyətini xüsusi vurğulaması bu siyasi iradənin institusional xarakter daşıdığını təsdiqləyir.

Bu gün İranda müəyyən dairələrin ikitərəfli münasibətlərin inkişafına əngəl yaratmağa çalışdıqları görünür. Lakin bu cəhdlər fonunda rəsmi Tehran administrasiyasının, xüsusilə Prezident Pezeşkianın mövqeyi konstruktivdir və Bakı ilə əlaqələrin dərinləşdirilməsinə yönəlib. Bu kontekstdə onun Azərbaycana dair verdiyi açıqlamalar, eləcə də qızının Bakıda beynəlxalq tədbirdə iştirakı, rəsmi görüşlər keçirməsi, mediaya verdiyi mesajlar uzaqgörən siyasi yanaşmanın tərkib hissəsi kimi qiymətləndirilməlidir.

Reallıq ondan ibarətdir ki, Azərbaycan–İran münasibətləri mərhələli şəkildə, institusional əsaslar üzərində inkişaf etməlidir. Azərbaycan bu istiqamətdə ardıcıl addımlar atır və regional sabitlik, iqtisadi əməkdaşlıq, nəqliyyat-logistika bağlantıları baxımından bu əlaqələrin genişlənməsinə xüsusi əhəmiyyət verir. Son dövrlər səsləndirilən rəsmi açıqlamalar, verilən mesajlar və nümayiş etdirilən siyasi jestlər məhz bu prosesə təkan verən faktorlardır.

Təbii ki, İrandan zaman-zaman fərqli, ziddiyyətli mövqelər və açıqlamalar da eşidirik. Lakin əsas meyar İran dövlətinin rəsmi xəttidir və bu xətt Bakı ilə münasibətlərin möhkəmləndirilməsinə yönəlib. Bu, artıq təkcə diplomatik ritorika deyil, institusional iradə səviyyəsində formalaşmış siyasətdir. Unudulmamalıdır ki, Azərbaycan–İran münasibətləri bir müddət bizim iradəmizdən kənar səbəblər üzündən müəyyən gərginlik mərhələsindən keçib. Sonrakı dövrdə isə bu əlaqələr yenidən inkişaf xəttinə daxil oldu və Azərbaycan dövləti bu prosesdə maraqlı tərəf kimi ardıcıl mövqe sərgilədi. Prezident İlham Əliyevin bu istiqamətdə dəfələrlə səsləndirdiyi açıqlamalar da məhz bu strateji xəttin siyasi təsdiqidir.

Azərbaycan bu münasibətlərin inkişafı üçün çalışır və bu strateji xətt dövlət siyasətinin əsas prioritetlərindən biri olaraq qalır. Qarşıdakı mərhələdə əlaqələrin daha da dərinləşdirilməsi, institusional mexanizmlərin gücləndirilməsi və siyasi dialoqun intensivləşdirilməsi regionun gələcək arxitekturası baxımından həlledici əhəmiyyət kəsb edir. Bu mənada son açıqlamalar, verilən mesajlar və nümayiş etdirilən siyasi davranışlar Azərbaycan–İran münasibətlərinin yeni mərhələyə keçidinin real indikatoru kimi qiymətləndirilməlidir.

# Diasporun Paşinyan təhdidi

**(əvvəli 13-cü səhifədə)**

"O vaxtdan onun erməni xalqının, erməni kilsəsinin və icmasının rifahı naminə gördüyü fədakar işlərin şahidi olmuşam. Əminəm ki, son 30-40 ildə Rusiyada arxiyepiskop Yezrasdan daha çox xalqımız üçün işlər görən erməni olmayıb və olmayacaq. Onun indi xalq düşməni olduğuna necə inana bilərəm? Mən buna inanmıram. 1990-cı ildə mən arximandrit, indi yepiskop olan Mikael tərəfindən vəftiz olunmuşam. O, 35 ildir ki, mənə doğma adamdır. Onun da xalq düşməni olduğuna necə inana bilərəm? Mən buna inanmıram. Mən 25 ildən çoxdur ki, yepiskop Baqratla dostam. Yeri gəlmişkən, cənab baş nazir, 2018-ci ildə Baqrat sizin hakimiyyətə gəlməyinizi alqışladı və üstəlik, evimdə oturarkən mənə dostcasına dedi: "Yaxşı, mənim rusiyapərəst qardaşım, bizi rahat buraxın və həyatımızı yaşayaq". Yeri gəlmişkən, mən heç vaxt rusiyapərəst yönümümü gizlətməmişəm və utanmamışam və indi də bu barədə açıq danışıram. Bəs onun da xalq düşməninə çevrildiyinə necə inana bilərəm? Mən buna inanmıram".

Bu fikirləri səsləndirdikdən sonra hər üç şəxs görüş zalını tərk ediblər. Maraqlıdır ki, Paşinyanın onlara hansı cavabı verdiyi açıqlanmayıb. Təşkilat Paşinyanın görüş zamanı çoxlu düşündürücü suallar aldığını və səslənən tənqidləri nəzərə alacağını bildirdiyini açıqlayıb.

*

Qeyd etmək lazımdır ki, Paşinyanın erməni icması ilə görüşü, əslində, bir diaspor tədbiri deyil, Ermənistan cəmiyyətində və xüsusən də xaricdəki erməni çevrələrində formalaşmış dərin siyasi-psixoloji parçalanmanın növbəti təzahürü kimi diqqət çəkir. Görüş zamanı səslənən çıxışlar ilk baxışdan "narazı vətəndaş mövqeyi" təsiri bağışlasa da, məzmununa diqqət yetirildikdə, burada rasional siyasi tənqiddən daha çox emosional, ideoloji və keçmişə bağlı düşüncə tərzinin üstünlük təşkil etdiyi aydın görünür. Vahe Avetyanın çıxışı bunun bariz nümunəsidir. O, Paşinyanı investisiya mühitini dağıtmaqda, xaos yaratmaqda və iş adamlarını qorxutmaqda ittiham edir. Lakin Avetyanın arqumentləri konkret hüquqi faktlara deyil, ehtimallara və şəxsi qorxulara söykənir. Samvel Karapetyan nümunəsi isə məqsədli şəkildə kontekstdən çıxarılır. Avetyan Ermənistanda oliqarx-kapital münasibətlərinin onilliklər boyu dövlət institutlarını iflic etdiyini, iqtisadiyyatın bir neçə ailənin nəzarətində saxlanıldığını nədənsə "unudur". Vaxtilə mövcud olan vergidənyayınma, qanunsuz üstünlüklər və siyasi himayə sistemi investisiya mədəniyyəti kimi təqdim olunur. Əslində isə Paşinyanın tənqid edilən addımları məhz köhnə sxemlərin dağıdılmasına yönəlib. Avetyanın "bizi həbs edin" fikri isə arqument yox, emosional şantaj təsiri bağışlayır.

Vahan Babaxanyanın Alma–Ata Bəyannaməsi ilə bağlı iradları da daha çox ideoloji mövqenin müdafiəsidir. O, bu məsələdə hüquqi reallıqları deyil, 1990-cı illərin siyasi mifologiyasını əsas götürür. Referendum arqumenti beynəlxalq hüquq baxımından mübahisəli olmaqla yanaşı, Ermənistanın bu gün üzləşdiyi regional və geosiyasi reallıqlarla uzlaşmır. Babaxanyanın iddia etdiyi kimi, erməni cəmiyyətinin "95 faizinin aldadılması" tezisi nə sosioloji araşdırmalara, nə də real siyasi proseslərə söykənir. Bu, daha çox Paşinyanın apardığı çətin, amma qaçılmaz normallaşma xəttini gözdən salmağa hesablanmış populist yanaşmadır.

Karen Mkrtçyanın çıxışı isə siyasi diskussiyadan çox, açıq şəkildə kilsə-diaspor ittifaqının müdafiəsinə çevrilir. Onun arxiyepiskop Yezrası və digər ruhaniləri qorumağa çalışması kilsənin toxunulmaz statusunu şübhə altına qoymamaq cəhdidir. Halbuki məsələ şəxslərin kimliyi yox, onların siyasi proseslərdə oynadığı roldur. "Rusiyapərəstlik" etirafı isə Ermənistanın suveren siyasi kursu ilə diaspor düşüncəsi arasındakı dərin ziddiyyəti açıq şəkildə üzə çıxarır.

Nəticə etibarilə, Sankt–Peterburq görüşündə səslənən tənqidlər Paşinyanın siyasətinə alternativ konsepsiya təqdim etmir. Bu çıxışlar daha çox keçmişin qorunması, itirilmiş imtiyazların bərpası və emosional narazılığın ifadəsidir. Ermənistan isə artıq romantik şüarlar və diaspordan verilən ultimatumlarla deyil, sərt reallıqlar və məsuliyyətli qərarlarla yaşamaq məcburiyyətindədir. Bu baxımdan, zaldan çıxanlar, əslində, Paşinyanı yox, dəyişən dövrün tələblərini qəbul etmək istəmədiklərini nümayiş etdirmiş oldular.

***S.NAZİMOĞLU***
***XQ***

# Azərbaycanın COP uğuru Türkiyə üçün yol xəritəsidir

## *"Türk əsri"nin qlobal iqlim diplomatiyasında addım səsləri*




**Braziliyanın Belem şəhərində yekunlaşan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) Tərəflər Konfransının 30-cu sessiyası – COP30 sammiti dünya diplomatiya tarixində müstəsna əhəmiyyətə malik qərarlarla yadda qaldı. Həmin tarixi toplantının mühüm siyasi nəticələrindən biri gələcək iqlim danışıqlarının mərkəzinin Avrasiyanın qapısı sayılan Türkiyəyə keçməsi barədə əldə olunan razılaşmadır. Uzun sürən diplomatik danışıqlar, gərgin müzakirələr və strateji manevrlər nəticəsində Qərbi Avropa və Digərləri Qrupu (WEOG) daxilindəki rəqabət Türkiyənin qələbəsi ilə yekunlaşdı.**

Avstraliya ilə əldə olunan kompromis variantı rəsmi Ankaranın qlobal arenadakı artan nüfuzunun, çoxtərəfli diplomatiyadakı ustalığının və Antalya şəhərinin beynəlxalq tədbirlər mərkəzi kimi təsdiqinin bariz göstəricisidir. Lakin məsələnin mühüm tərəfi Türkiyənin COP31-ə ev sahibliyi edərkən əsaslanacağı strateji resursla bağlıdır. Bu proses isə Azərbaycanın COP29 zamanı qazandığı uğurlu və beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilən təşkilatçılıq təcrübəsidir.

Belem şəhərində toplanan dünya liderləri, Amazon meşələrinin taleyini müzakirə etməklə kifayətlənmədilər, həm də estafetin növbəti mərhələdə kimə ötürüləcəyi barədə qızğın debatlar apardılar. COP31-ə ev sahibliyi etmək uğrunda mübarizə Türkiyə və Avstraliya arasında cərəyan edirdi. Avstraliya Sakit okean ada dövlətləri ilə birlikdə namizədliyini irəli sürərək, iqlim dəyişmələrindən ən çox əziyyət çəkən regionun səsini duyurmaq iddiasında idi. Lakin Türkiyənin təklif etdiyi model onun coğrafi mövqeyi, Aralıq dənizi hövzəsindəki iqlim çağırışlarına (quraqlıq, meşə yanğınları, su qıtlığı) diqqət çəkmək arzusu və inkişaf etmiş Şimalla Cənub arasında körpü rolunu oynamaq bacarığı seçimdə həlledici rol oynadı. Avstraliyanın kompromisə gedərək namizədliyini geri götürməsi və ya növbəti dövrlər üçün dəstək alması müqabilində Türkiyəyə yol verməsi Ankaranın diplomatik məharətidir. Nəticədə, COP31-in Türkiyənin turizm və diplomatiya paytaxtı Antalyada keçirilməsi qərarı rəsmi olaraq təsdiqləndi. Sözügedən qərar Türkiyənin "Türkiyə əsri" vizyonu çərçivəsində qarşıya qoyduğu qlobal hədəflərə çatmaq yolunda atdığı nəhəng addımdır.

Antalya seçiminin arxasında duran məntiq olduqca dərindir. Şəhər Diplomatiya Forumu kimi mötəbər platformaya ev sahibliyi etməklə qlobal siyasi müzakirələrin mərkəzinə çevrilib. Antalya iqlim dəyişmələrinin fəsadlarını – meşə yanğınlarını və temperatur artımını bilavasitə yaşayan bölgə olaraq müzakirə olunacaq mövzuların aktuallığını əyani şəkildə nümayiş etdirmək gücündədir. Lakin ən vacib məqam Türkiyənin mövcud prosesə təkbaşına yox, ən yaxın müttəfiqi Azərbaycanla birlikdə hazırlaşmaq niyyətidir. Azərbaycanın 2024-cü ildə Bakıda keçirdiyi COP29 təşkilatçılıq səviyyəsi, qəbul edilən qərarların əhatəliliyi və iştirakçı sayının rekord həddə çatması ilə yadda qalmışdır.

*

Antalyada keçiriləcək COP31 sammitinə hazırlıq prosesinin Türkiyə və Azərbaycan arasında, sadəcə, ekoloji qurumların texniki əməkdaşlığı çərçivəsində qalmadığını, məsələnin dövlətlərin ali siyasi rəhbərliyi tərəfindən strateji prioritet kimi qəbul edildiyini Bakıda baş tutan son yüksəksəviyyəli təmaslar da təsdiqləyir. Dekabrın 23-də Milli Məclisin sədri Sahibə Qafarovanın ölkəmizdə səfərdə olan Türkiyənin vitse-prezidenti Cevdet Yılmazın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşü iqlim diplomatiyasının parlamentar ölçüsünün prosesə fəal şəkildə inteqrasiya olunduğunu nümayiş etdirir.

Eyni zamanda, icraedici hakimiyyət səviyyəsində verilən mesajlar Azərbaycanın COP29 irsinin Türkiyəyə transferi prosesinin konkret yol xəritəsinə malik olduğunu göstərir. Azərbaycan ilə Türkiyə arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 12-ci iclasında Baş nazir Əli Əsədovun 2024-cü ilin noyabr ayında Bakıda keçirilmiş COP29 sammitində Türkiyənin yüksək səviyyədə iştirakına görə təşəkkür etməsi və COP31-in ev sahibi seçilməsi münasibətilə təbriklərini çatdırması prosesin davamlılığını təmin edən siyasi varislik prinsipini əks etdirir.

Bəs dünya birliyi COP31-dən nə gözləyir və Türkiyə-Azərbaycan tandemi hansı yenilikləri təklif edə bilər? İlk növbədə, Antalya sammiti qlobal istiləşmənin 1.5 dərəcə həddində saxlanılması üçün verilən vədlərin icrasının yoxlanıldığı məqam olacaq. Belem sammitindən sonra qlobal diqqət Amazoniyadan Aralıq dənizi və Yaxın Şərq regionuna yönələcək. Türkiyə su ehtiyatlarının idarə olunması, kənd təsərrüfatının iqlimə uyğunlaşdırılması və bərpaolunan enerji mənbələrinin inkişafı sahəsində öz modelini təqdim etmək imkanı qazanacaq. COP31-in Türkiyədə keçirilməsi Ankaranın Qərb və Şərq arasında balanslaşdırıcı güc kimi statusunu təsdiqləyir. Avstraliya ilə əldə olunan kompromis Türkiyənin Qərb bloku daxilində (WEOG qrupu çərçivəsində) apardığı uğurlu diplomatiyanın nəticəsidir. Eyni zamanda, Türkiyənin İslam Əməkdaşlıq Təşkilatı və Türk Dövlətləri Təşkilatı daxilindəki liderliyi, Antalya sammitinə Qlobal Cənubun güclü dəstəyini təmin edəcək.

Təşkilati baxımdan Azərbaycanın könüllülər hərəkatı, təhlükəsizlik protokolları, media ilə iş və logistik idarəetmə sahəsindəki təcrübəsi Türkiyə üçün əvəzolunmazdır. COP tədbirləri on minlərlə nümayəndənin, dövlət başçılarının və vətəndaş cəmiyyəti fəallarının iştirak etdiyi çətin orqanizmdir. Bakı 2024-cü ildə nümayiş etdirdi ki, hətta məhdud zaman çərçivəsində belə, yüksək standartlara cavab verən tədbir təşkil etmək mümkündür. İndi Ankara standartları daha da yüksəltmək, Antalyanın imkanlarını maksimum səfərbər etmək əzmindədir.

Antalya sammitinin gündəliyi, şübhəsiz ki, Aralıq dənizi hövzəsinin problemləri ilə zəngin olacaq. İqlim dəyişikliklərinin "qaynar nöqtəsi" hesab edilən bu region kəskin istilər və biomüxtəlifliyin itirilməsi təhlükəsi ilə üz-üzədir. Türkiyə sözügedən problemləri qlobal müzakirəyə çıxarmaqla yanaşı, şəhərsalma, dayanıqlı turizm və tullantıların idarə olunması ("Sıfır tullantı" layihəsi) sahəsindəki təşəbbüslərini də dünyaya təqdim edəcək. Azərbaycanın birinci xanımı Mehriban Əliyeva və Türkiyənin birinci xanımı Əminə Ərdoğanın rəhbərliyi ilə həyata keçirilən ekoloji layihələrin sinerjisi COP31 platformasında xüsusi yer tutacaq.

COP31-in Türkiyədə keçirilməsi və Azərbaycanın təcrübəsindən istifadə olunması regionumuzun qlobal siyasətdəki çəkisinin artdığını təsdiqləyən tarixi hadisədir. Artıq Cənubi Qafqaz və Kiçik Asiya regionu qlobal problemlərin həll olunduğu intellektual və diplomatik mərkəz kimi çıxış edir. Belem şəhərində verilən qərar Bakıdan başlayan iqlim marafonunun Antalyada davam edəcəyini və estafetin etibarlı əllərdə olduğunu göstərir. Ankara və Bakı iqlim dəyişmələrinə qarşı mübarizədə "vahid güc" kimi çıxış etməyə hazırdır və mövcud reallıq bütün dünya üçün ümidverici siqnaldır.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

*Din Xadimlərinin II Forumu*

# Azərbaycan dünyəvi dəyərlər və vicdan azadlığı ölkəsidir

**Dekabrın 24-də "Konstitusiya və Suverenlik İli" çərçivəsində dünyəvilik və vicdan azadlığı kimi təməl konstitusion dəyərlərin təbliği, dövlət-din münasibətlərinin hüquqi, mədəni aspektləri ilə bağlı məsələlərin müzakirəsi məqsədilə "Azərbaycanda dövlət-din münasibətlərinin konstitusion prinsipləri: dünyəvilik və vicdan azadlığı" mövzusunda Azərbaycan Din Xadimlərinin II Forumu keçirildi.**



Forumda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov, Türkiyə Cümhuriyyəti Diyanət İşləri İdarəsinin sədri Safi Arpaquş, Qazaxıstan Respublikası Parlamenti Senatının üzvü Yernur Aitkenov, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva, Özbəkistan Respublikası Prezidentinin dövlət müşavirinin müavini, Beynəlxalq İslam Akademiyasının rektoru Müzəffər Kamilov, Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, Qafqaz Müsəlmanları İdarəsi sədrinin birinci müavini, müfti Hacı Salman Musayev, eləcə də müxtəlif dini icmaların rəhbərləri çıxış etdilər.

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov** bildirdi ki, Azərbaycanda məscid, kilsə və sinaqoqların qapıları hər kəsin üzünə eyni səmimiyyətlə açılır və bu ibadətgahlar dövlətin hərtərəfli qayğısı ilə əhatə olunur.

**Türkiyə Cümhuriyyəti Diyanət İşləri İdarəsinin sədri Safi Arpaquş** qeyd etdi ki, insanların sanki bir böhrandan digərinə sürükləndiyi dövrdə İslam dünyasının gücü və təsir imkanları zəifləyib. Bu vəziyyət isə təkcə siyasi və iqtisadi müstəvidə deyil, həm də mənəvi-əxlaqi sahədə ciddi boşluqların yaranmasına səbəb olub, nəticədə bəşəriyyət bütövlükdə böhranla üz-üzədir. Bu baxımdan İslam dinində haqq və ədalət anlayışı, fərqli dünyagörüşlərə tolerant münasibət böyük əhəmiyyətə malikdir.

**Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili Səbinə Əliyeva** söylədi ki, Heydər Əliyev Fondu bu sahədə mühüm rol oynayır. Eyni zamanda, dövlət qurumları, vətəndaş cəmiyyəti və dini icmalarla əməkdaşlıqda insan hüquqlarının, dini tolerantlıq və multikulturalizmin təbliği istiqamətində maarifləndirmə tədbirləri davam etdirilir.

**Elm və təhsil nazirinin müavini Firudin Qurbanov** vurğuladı ki, internet və süni intellekt vasitəsilə geniş informasiya imkanları yaransa da, bəzən bu mühitdə yayılan məlumatlar gənclərin və uşaqların tərbiyəsinə mənfi təsir göstərir, hətta radikalizmə yol açır. Bəzi ölkələr artıq sosial şəbəkələrdən istifadəni məhdudlaşdırır, müəyyən platformalara girişə qadağalar tətbiq olunur. Biz də öz məsuliyyətimizi dərk edərək birgə səy göstərməliyik.

**Forumun rəsmi hissəsi başa çatdıqdan sonra məclis iştirakçılarından XQ-yə müsahibələr aldıq.**

**Aleksiy SMİRNOV, Rus Provaslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının yepiskopu:**



– Müasir cəmiyyətdə şəxsiyyət azadlığı bir sıra meyarlar vasitəsilə reallaşır ki, onlardan biri də dini etiqad azadlığıdır. Azərbaycanda dini tolerantlığın spesifikliyi bütün dini institutların və ideologiyaların birgəyaşayışında özünü göstərir.

Qeyd etmək lazımdır ki, müasir cəmiyyətdə ənənəvi dəyərlər yalnız qanunvericilik sahəsinə aid etmək olmaz. İnsan əsrlər boyu dini etiqadların təsiri altında inkişaf edib. Gənc nəslin şəxsiyyət kimi formalaşdırılması problemi də kəskin olaraq qalmaqdadır.

Hazırda təhsil sahəsi, əsasən, informasiya komponentini təmin edir, tərbiyə funksiyasını isə cəmiyyətin əsası olan ailə yerinə yetirir. İnformasiya texnologiyaları sosial şəbəkələr vasitəsilə gənclərə mənfi təsir göstərə bilər. Uşaq və gənclərdə həqiqi dəyərlər haqqında təsəvvürlərin formalaşdırılması ilə bütün cəmiyyət, o cümlədən dini institutlar məşğul olmalıdır. Bu baxımdan inanmaq istəyirik ki, ölkəmizin bütün dini institutlarının, Rus Pravoslav Kilsəsinin, eləcə də cəmiyyətin bütün sağlam qüvvələrinin birgə səyləri nəticəsində Azərbaycan bundan sonra da davamlı inkişaf edəcək.

**Davronbek MAXSUDOV, Özbəkistan Respublikasının Dini İşlər Komitəsi sədrinin birinci müavini:**



– Tarix boyu dinin həyatın bütün sahələrinə müdaxilə etməsini dəstəkləyən qüvvələr mövcud olub. Bəzən bu iki tərəf arasındakı münasibətlər o qədər gərginləşib ki, ölkələri çaşqınlıq və nadanlıq burulğanına sürükləyib.

Dövlət-din münasibətlərinin daha bir mühüm xüsusiyyəti isə dinin siyasiləşdirilməməsidir. Axı istənilən din, ilk növbədə, mənəvi-əxlaqi hadisədir. Heç bir din öz-özlüyündə xalqın sosial-iqtisadi, siyasi və mədəni həyatının bütün aspektlərini əhatə etmək iddiasında olmur. İslamda sekulyarizm dinə yad anlayış kimi nəzərdən keçirilmir.

Hər bir dünyəvi dövlətdə olduğu kimi, Özbəkistanda da dinə münasibət müəyyən normativ-hüquqi aktlar və qanunlarla tənzimlənir. Xüsusilə, "Vicdan azadlığı və dini təşkilatlar haqqında" Qanun ölkəmizdə dini etiqad azadlığının və dini tolerantlığın möhkəmləndirilməsində əsas meyardır.

Qeyd etmək lazımdır ki, dini təşkilatların dövlətdən ayrılması dinin cəmiyyətdən ayrılması demək deyil.

Bu gün Özbəkistanda heç kim dini təşkilatların və ruhanilərin mənəvi baxımdan kamil nəslin yetişdirilməsində, milli dəyərlərin qorunmasında, xalqımızın həqiqi mənəvi simasını və missiyasını müəyyən edən keyfiyyətlərin formalaşdırılmasında, harmoniya, qarşılıqlı yardım, böyüklərə hörmət, Şərq mədəniyyəti kimi ali insani hisslərin fundamental mahiyyətinin dərk edilməsində rolunu və əhəmiyyətini inkar etmir. Əksinə, bu cür yaradıcı fəaliyyət hərtərəfli dəstəklənir.

**Milix YEVDAYEV, Bakı Şəhəri Dağ Yəhudiləri Dini İcmasının sədri:**




– Azərbaycan dağ yəhudiləri respublikanın ictimai-siyasi həyatında hər zaman fəal iştirak ediblər. Bu fəallığın əsas səbəbi isə Azərbaycan xalqına son dərəcə yaxın olmağımızdır. Çünki artıq iki min ildən çoxdur ki, biz bu torpaqlarda yaşayır, ölkənin taleyini öz taleyimiz bilirik. Mətbəximiz, musiqimiz, müqəddəslərimiz birdir. Ağsaqqallarımız, ağbirçəklərimiz eyni dəyərləri üstün tuturlar. Övlada, Vətənə, xalqa sevgi, anaya hörmət – bütün bu anlayışlar bizim üçün müqəddəsdir.

Məhsəti Gəncəvinin dediyi kimi, "sudan ayrılınca candan ayrılar, eşqi balıqlardan öyrənmək gərək". Bizi də bu torpaqdan ayıracaq heç bir qüvvə yoxdur.

Biz nəzəri yanaşmalardan fərqli olaraq, xalq arasında tolerantlığın və multikultural mühitin real şəkildə nə dərəcədə formalaşdığını açıq şəkildə müşahidə edirik. Azərbaycan dünyada dini və mədəni müxtəlifliyin harmoniyasını uğurla təmin etmiş nadir dövlətlərdəndir. Məhz bu harmoniya bu gün ölkənin tolerantlıq modelini qlobal miqyasda tanınan və öyrənilən bir nümunəyə çevirib. Bu modelin bariz təcəssümü isə müasir Azərbaycandır.

Hazırda ölkədə 40-a yaxın azsaylı xalq yaşayır. Bu xalqlar Konstitusiya ilə təsbit olunmuş hüquqlarından istifadə edərək dini inanclarını və mədəni dəyərlərini sərbəst şəkildə yaşadırlar. Biz yəhudilər də daxil olmaqla, onlar artıq əsrlərdir Azərbaycanda məskunlaşıblar.

Əgər bölünməyə əsas yoxdursa, deməli, ixtilaflar da yoxdur. Burada qardaşlıq, sülh, əmin-amanlıq var. Bunu həm Birinci, həm də İkinci Qarabağ müharibəsi açıq şəkildə sübut etdi. Birinci Qarabağ müharibəsində Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunov igidliyi ilə xalqın nələrə qadir olduğunu bütün dünyaya göstərdi. Eyni mənzərə İkinci Qarabağ müharibəsi zamanı da yaşandı. Bu dəfə də azsaylı xalqlarının nümayəndələri Azərbaycan xalqının övladları ilə çiyin-çiyinə döyüşərək Vətən uğrunda canlarından keçdilər.

Bu dəyərlərin bariz göstəricisi olaraq, dövlətin tam dəstəyi ilə Qafqazda ilk dəfə Yəhudi dini-mədəni mərkəzi inşa edilir. Dörd mərtəbədən ibarət olan mərkəzin tikintisi artıq başa çatıb, hazırda son tamamlama işləri görülür. 2026-cı ildə rəsmi və təntənəli açılışı planlaşdırılır.

**Robert MOBİLİ, Alban-Udi Xristian Dini İcmasının sədri:**



– Azərbaycanda dini liderlər və icma rəhbərləri arasında daim qarşılıqlı dialoq və əməkdaşlıq olub. Bu, təsadüfi deyil. Çünki əsrlər boyu həmişə birlikdə yaşamışıq və bu birgəyaşayış mədəniyyəti bu gün də davam edir.

Bu gün katolik Qərb kilsəsinin də Milad bayramıdır. Axşam biz də ora gedəcək, katolik icmasının nümayəndələrini təbrik edəcəyik. Bu, tolerantlığın praktik təzahürüdür və xüsusi olaraq vurğulamaq lazımdır ki, bizi buna heç kim məcbur etmir. Bu, daxili mədəniyyətimizdən, tarixən formalaşmış birgəyaşayış ənənəmizdən irəli gəlir.

Azərbaycanda tarix boyu fərqli dini-mədəni icmalar sülh və qarşılıqlı hörmət şəraitində yaşayıblar. Məhz bu mövzu Prezident İlham Əliyevin çıxışlarında daim vurğulanır.

Dövlət başçısı Qarabağa səfərləri zamanı kilsələrdə, məscidlərdə, dağıdılmış dini məbədlərdə olarkən Azərbaycanın tolerantlıq və multikulturalizm ənənələrini dəfələrlə qeyd edib. Biz bu dəyərlərə yalnız sözlə deyil, əməli şəkildə də sadiqik. Necə ki, işğal dövründə İslam, Xristian, Alban mədəniyyətinə aid abidələr dağıdılmışdı və bu gün Azərbaycan dövləti xristian irsinə aid alban kilsələrinin bərpasını da eyni diqqət və həssaslıqla həyata keçirir. Hazırda həmin kilsələrdə bərpa və yenidənqurma işləri aparılır. Bu yanaşma bir daha göstərir ki, Azərbaycan üçün dini və mədəni irs hansı inanca məxsus olmasından asılı olmayaraq qorunan və yaşadılan ümumbəşəri dəyərdir.

***Fidan ƏLİYEVA,***
***Ləhman TƏHMƏZ***
***XQ***

# Milli dövlətçilikdə inanc sərbəstliyi və multikulturalizm




**(əvvəli 1-ci səhifədə)**

Azərbaycanın dünyəvilik anlayışı klassik ideoloji qarşıdurma məntiqindən kənarda formalaşıb. Burada dünyəvilik nə dinə qarşı mövqe, nə də ictimai həyatdan dini sıxışdırmaq cəhdidir. Dövlət dini rituallara müdaxilə etmir, lakin dini fəaliyyətin hüquqi statusunu, maliyyə şəffaflığını və ictimai məsuliyyətini də açıq qaydalarla tənzimləyir. Təbii ki, belə yanaşma dini qeyri-müəyyənlikdən və sui-istifadə riskindən qoruyur. Eyni zamanda, dini icmaların fəaliyyəti dövlət institutlarının alternativinə çevrilmir.

Təhsil, sosial yardım və maarifçilik sahələrində din təşəbbüskar rol oynaya bilər, lakin bu proseslər paralel idarəçilik mexanizmləri yaratmır. Məhz buna görə dini təhsil nə gizli, nə də nəzarətsiz kanallar üzərindən formalaşır; dinin tədrisi rəsmi təhsil standartları və müasir çağırışlarla uzlaşdırılır. Rəqəmsal platformalarda dini maarifçilik təşəbbüslərinin təşviqi də bu kontekstdə oxunmalıdır: məqsəd dini diskursu radikal və kənar təsirlərdən ayırmaqdır.

Dövlət səviyyəsində dini bayramların tanınması, müxtəlif konfessiyalara bərabər münasibət, tarixi-dini abidələrin qorunması bu balansın real ifadəsidir. Bütün bu amillər göstərir ki, din milli-mədəni irsin tərkib hissəsi kimi qəbul olunur, lakin siyasi legitimliyin əsasına çevrilmir. Nəticədə, dünyəvilik gündəlik idarəetmənin effektiv mexanizminə çevrilir. Məhz bu səbəbdən Azərbaycan cəmiyyətində dünyəvilik müxtəlif kimlikləri eyni hüquqi müstəvidə birləşdirən praktik çərçivə kimi qəbul olunur.

Azərbaycan Din Xadimlərinin II Forumunun məhz "Konstitusiya və Suverenlik İli" çərçivəsində keçirilməsi bu yanaşmanın açıq göstəricisidir. Dövlət bu mesajı verir: məsələ dini neytrallaşdırmaq deyil, onu konstitusion çərçivədə sistemləşdirmək və institusional nəzarət altında cəmiyyətin təbii tərkib hissəsinə çevirməkdir. Belə bir model region üçün nadir və diqqətçəkəndir. Postsovet məkanında dünyəvilik çox vaxt sərt və mərkəzləşdirilmiş sekulyarizm formasında tətbiq olunub. Müstəqillikdən sonra bir sıra ölkələr bu yanaşmanı formal olaraq dəyişsələr də, idarəetmə refleksi eyni qaldı.

Mərkəzi Asiya respublikalarında dini icmaların fəaliyyəti uzun müddət yalnız təhlükəsizlik prizmasından qiymətləndirildi, məscidlərin açılması, dini təhsilin təşkili və dini liderlərin formalaşması ciddi inzibati nəzarət altında saxlanıldı. Yaxın Şərqdə isə əks-tendensiya – dinin siyasi legitimliyin əsas mənbəyinə çevrilməsi müşahidə edilir. Dövlətin və ya hakim partiyaların siyasi dayağı kimi dini identiklik və inanclar instrumental alət rolunda istifadə olunur. Bəzi ölkələrdə hakimiyyət dini qanun və ya şəriət prinsiplərini öz legitimliyini gücləndirmək üçün əsas vasitə kimi tətbiq edir.

Mövcud vəziyyət həm sosial siyasətə, həm də hüquqi sistemə dərindən təsir edir: hüquqi qərarlar, icma hüquqları və təhsil siyasəti dini doktrinalara uyğunlaşdırılır, dövlətin addımları dinin məntiqi ilə sıx bağlı olur. Yaxın Şərq modeli postsovet sekulyarizminin əksi kimi ortaya çıxır: burada dövlət din üzərində deyil, din dövlət üzərində hökmranlıq edir və dünyəvilik anlayışı, praktiki olaraq, mövcud deyil. Deməli, sərt sekulyarizm və dini legitimlik şəraitində Azərbaycan üçüncü yolu seçərək öz unikallığını göstərir. Hər iki halda nəticə ya ideoloji gərginlik, ya da davamlı siyasi qarşıdurma olub. Azərbaycan isə fərqli və daha praqmatik xətt formalaşdırmağa nail olub.

Dövlət dini prosesləri birbaşa idarəetmədən onları hüquqi çərçivədə tənzimləyir, din isə siyasi hakimiyyətin formalaşma alətinə çevrilmir. Nəticədə, hər iki sahə eyni hüquqi sistem daxilində uzlaşır və bu uzlaşma sabitliyin institusional əsas üzərində qurulmasına imkan yaradır. Forumun məzmunu açıq şəkildə göstərir ki, Azərbaycanda vicdan azadlığı anlayışı artıq yalnız "mane olmamaq" və ya formal hüquqi təminat səviyyəsində qalmır. Vicdan azadlığı prinsipi tədricən aktiv dövlət siyasətinə çevrilir və sosial proseslərin idarə olunmasında funksional alət kimi istifadə edilir.

Dini təhsilin rəqəmsal mühitdə təşkili, gənclərlə sistemli maarifçilik işi, qadınların dini icmalar çərçivəsində sosial və mənəvi inkişafının müzakirəyə çıxarılması klassik dövlət-din məsafəsi modelindən fərqli yanaşmanın formalaşdığını göstərir. Burada dövlət riskləri qabaqlayan və prosesləri yönləndirən tərəf kimi çıxış edir. Həmin yanaşmada incə, lakin strateji əhəmiyyət daşıyan balans xətti mövcuddur. Azərbaycan dini sahəni nə tam sərbəst buraxır, nə də onu monopoliyalaşdırır. Dövlətin məqsədi dinin hüquqi və institusional çərçivədə sağlam şəkildə inkişafına şərait yaratmaqdır. Məhz bu balans radikalizmin ən əlverişli zəmini olan idarə olunmayan boşluğun yaranmasının qarşısını alır. Vicdan azadlığı bu kontekstdə düzgün tənzimləndikdə ictimai sabitliyi möhkəmləndirən və sosial inteqrasiyanı gücləndirən strateji resurs kimi çıxış edir.

Forumda Türkiyə, Qazaxıstan, Özbəkistan və Qırğızıstanın dini sahəyə məsul dövlət qurumlarının rəhbər şəxslərinin iştirakı onu regional siyasi məzmunla yükləyir. Türk dünyasında dövlət-din münasibətlərinin hansı normativ model üzərində qurulmalı olduğu ilə bağlı açıq dialoqdur. Məhz bu məqamda multikulturalizm anlayışı daxili sosial siyasət aləti olmaqdan çıxaraq xarici siyasi mesaj funksiyası qazanır. Azərbaycan bu platformada özünü nə teokratik idarəetmə modelinə



yaxın, nə də dini identikliyi ictimai sferadan sıxışdıran aqressiv sekulyar dövlət kimi təqdim edir.

Eyni zamanda, milli kimliyi dini məzmun üzərindən formalaşdıran yanaşmadan da şüurlu şəkildə uzaq durur. Belə bir mövqe Azərbaycanın multikulturalizm siyasətini balanslaşdırılmış dövlətçilik modeli kimi ortaya qoyur və onu ideoloji ifratlardan qoruyur. Məhz bu səbəbdən Azərbaycan təcrübəsi Qlobal Cənubda, eləcə də postimperial keçid mərhələsində olan cəmiyyətlərdə diqqətlə izlənilir. Ölkəmiz bu platforma vasitəsilə açıq şəkildə nümayiş etdirir ki, dünyəvilik onun üçün dövlət suverenliyini qoruyan funksional alətdir. Vicdan azadlığı cəmiyyət daxilində etimadı və sosial sabitliyi möhkəmləndirən mexanizm kimi dəyərləndirilir.

Bu yanaşma region ölkələrinə ünvanlanan, ölçülmüş və düşünülmüş açıq siyasi mesaj kimi oxunur.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

*Replika*

# Haysayağı "dartay"

**"Mətbuatda bir xəbər gördüm ki, Azərbaycandan alınan premium markalı benzin 430 dramdan satılacaq, bizdə isə hazırda onun qiyməti 500-520 dramdır. Bu o deməkdir ki, daha aşağı qiymətə satılacaq. Bu, yaxşı haldır".**

Bunu Ermənistanın iqtisadiyyat naziri Gevorq Papoyan özünün "Facebook" səhifəsində yazıb. Bakının sülhməramlı, kommunikasiyaların açılmasına, əməkdaşlığa yönəlik humanist addımını reallığı qəbul edən və ona praqmatik siyasətçi kimi yanaşan erməni nazirin əhaliyə müraciəti də diqqət çəkir: "Sosial şəbəkədə bəzi vətəndaşların bu benzini almaq fikrində olmadığını bildirən yazılara da rast gəldim. Hörmətli vətəndaşlar, siz azadsınız. Bizim də məqsədimiz odur ki, siz azad olasınız, istədiyiniz benzini alasınız".

Papoyanın Bakının bu jestini ağıllı və müsbət şərh etməsi təqdirolunası haldır. Onun hökumətin daşnakizm və revanşizm kimi mərəzlərdən hələ də qurtula bilməyən soydaşlarına seçim şansı verdiyi barədə dedikləri də maraq doğurur: "Dövlətin işi sizə müxtəlif və geniş seçim, fasiləsiz marşrutlar təqdim etməkdir ki, benzin və digər mallar həmişə mövcud olsun. Həm də hər şey yüksəkkeyfiyyətli olsun, həcmdə aldatma olmasın. Bu, dövlətin məsuliyyətidir, qalan hər şey sizin ixtiyarınızdadır".

Deməli, Paşinyan komandasında Azərbaycanla sülhün və əməkdaşlığın alternativinin olmadığını qəbul edən və bunu açıq şəkildə xalqa bildirən çinovniklər az deyil. Bu da müsbət tendensiyadır.

Amma təəssüf ki, Hayastan cəmiyyətində bu qarşısıalınmaz prosesi tam dərk etməyən, yaxud anlamaq istəməyən kəsim də var. Belələri ölkə parlamentində də özlərinə yer ediblər. Mövcud hakimiyyətə radikal müxalif düşərgənin təmsilçisi sayılan "Ermənistan" fraksiyası nə yolla olursa-olsun, sülhə və tərəqqiyə mane olmağa çalışır, Paşinyanın ictimai imicini ləkələmək üçün min cür oyundan çıxırlar.

Milli Assambleyadakı həmin daşnak və ekslərin toplaşdığı fraksiyanın üzvləri İsveç, Hollandiya və Belçikanın Ermənistandakı səfirləri ilə görüşüblər. Onların avropalı elçilərin qarşısında qaldırdıqları məsələ Bakıda "qanunsuz saxlanılan erməni əsirlərin" qaytarılması olub. "Ermənistan" fraksiyasının rəhbəri, zatına çoxdan bələd olduğumuz, barəsində məhkəmə araşdırması gedən Seyran Ohanyan, deputatlar Anna Qriqoryan, Artur Xaçatryan, Armen Gevorqyan və Kristin Vardanyan İsveçin Ermənistandakı səfiri Eva Sundqvist, Niderlandın səfiri Marieke Monroy-Vinter və Belçikanın səfiri Ambarik Dey Mumbarike görüşdə əvvəlcə Ermənistandakı daxili siyasi vəziyyətlə bağlı fikirlərini təqdim ediblər.

Yəni xarici ölkələrin diplomatik nümayəndələrinə rəsmi şəkildə "işverənlik" ediblər. İntəhası, bu zaman onlar "qiymətli informasiyanın" əvəzinə Ermənistanın məhkəmə-hüquq sistemində islahatların həyata keçirilməsində Aİ-nin yardımının vacibliyini vurğulayıblar. Aydın məsələdir ki, məqsədləri Brüssel və Strasburqdan "məsləkdaşlarını" – daşnak, revanşist, dövlətə və orduya vurduları zərərləri, korrupsiya əməlləri sübuta yetirilmiş və hazırda İrəvanın həbsxanalarında cəzalarını çəkən anti-Paşinyan klanının üzvlərinin azadlığa çıxmalarına yardım ummaqdır.

"Ermənistan"çılar bununla da kifayətlənməyib, Azərbaycanla sülhün təminatını, Bakıda məhkəmələri davam edən, saxlanılan şəxslərin qaytarılması və Qarabağda erməni mədəni irsinin məhv edilməsi məsələlərini qaldırıblar. Fraksiya üzvləri avropalı diplomatlara Ermənistanda demokratiyanın geriləməsindən ciddi narahat olduqlarını da dilə gətiriblər.

Necə deyərlər, hay parlamentarilər Avropa ölkələrinin İrəvandakı səfirlərinin qarşısında "açıblar sandığı, töküblər pambığı". Bu üsulu Paşinyanı quyunun dibinə sallamağa çalışanlar ağıllarının ucundan belə keçirməyiblər ki, vaxtilə onların mindiyi qatar çoxdan gözdən itib, geriyə qayıtmaq ehtimalı da yoxdur. Onlar təkcə keçmişə üz tutmuş qatarın sərnişinləri deyil, həm də Bakının sayəsində zamanın gətirdiyi yeni reallıqdan xəbərsiz kəslərdir.

Belələrini müasir texnologiyanı qəbul etməyib, nöyütü quyudan köhnə "dartay" üsulu ilə çıxarmağa çalışan gerizəkalılar adlandırmaq olar. İndi quyuya nə qədər su töksələr də, ordan heç nə çıxmayacaq.

***İ.HƏSƏNQALA***
***XQ***

*Qərbi Azərbaycana qayıdış*

# Ümummilli hərəkatın geosiyasi aspektinin tədqiqi

**Tarixən Azərbaycan ərazisi olmuş, qədimdən azərbaycanlıların yaşadığı və indi "Ermənistan" adlanan məkanın geosiyasi faktor olaraq tədqiqinə həsr edilmiş növbəti dəyərli əsər "Qərbi Azərbaycan geosiyasi faktor kimi: ideyanın intibahı" adlanır. Kitabın müəllifi Kamal Adıgözəlov bu əsərində sistemli yanaşma çərçivəsində Qərbi Azərbaycanın ontoloji dərki və müasir beynəlxalq münasibətlər sistemində Qərbi Azərbaycan məsələsinin məzmun və mənasını bir-biri ilə əlaqəli şəkildə araşdırmışdır. Kitabda Azərbaycan rəhbərliyinin bu istiqamətdə yürütdüyü siyasət və Qərbi Azərbaycan İcmasının fəaliyyəti kontekstində təhlillər aparılmışdır.**

Tədqiqat tarixi ədalət və obyektivlik prinsipinə əsaslanır. Kitabın strukturu və məntiqi özəlliyi bu iki kriteriyaya əsasən müəyyən edilmişdir. Tədqiqat predmetinin adekvat dərki üçün əsərin strukturu ilə məntiqi tədqiq üsulu ahəngdarlıq təşkil edir. Belə ki, kitabın I fəslində Qərbi Azərbaycanın ontoloji dərkinin təməlini təşkil edən tarixi aspekt araşdırılır. Burada göstərilir ki, Qərbi Azərbaycan məsələsini geosiyasi məkan kimi adekvat dərk etməkdən ötrü XVII əsrin ikinci yarısından başlayaraq Qərbin böyük imperialist dairələri ilə Rusiya imperiyasının türk dövlətçiliyinə qarşı yürütdükləri siyasətin incəliklərinə varmaq zəruridir. Bu başlıca məqamı tədqiqatın təməl hissəsindən çıxarsaq, nə Qərbi Azərbaycanın ontoloji anlamda gerçək dərkinə nail ola, nə də müasir beynəlxalq münasibətlərdə Qərbi Azərbaycan məsələsinin əsl mahiyyətini sərgiləyə bilərik.

Qarşıya qoyulmuş vəzifələri həll etmək üçün kitabın "Giriş" hissəsində başlıca tədqiqat istiqamətləri müəyyən edilmiş, yanaşma xüsusiyyətləri vurğulanmışdır. Bu yanaşma klassik və müasir geosiyasətin başlıca məktəblərinin (realizm, liberalizm və konstruktivizm) qısa təhlili əsasında onların təməl prinsiplərinin sintezində Azərbaycan dövlətçiliyi üçün vacib olan şərtlər çərçivəsində müəyyən edilmişdir. Burada sabit dövləti faktor kimi Azərbaycan dövlətçiliyi, dinamik parametrlər qismində isə dəyişkən kənar təsirlər götürülür.

Bu kontekstdə I fəsildə tarix və siyasətin qarşılıqlı əlaqəsi, Azərbaycan ərazilərinə imperialist dairələrin demoqrafik ekspansiyası və bunun fonunda yerli azərbaycanlıların həmin ərazilərdən kütləvi deportasiyası, onların total qırğınlara məruz qalmaları və boşalan Azərbaycan (Türk) yaşayış yerlərinə kənardan ermənilərin gətirilməsi təhlil edilir. Bu prosesin təqribən 250 il ərzində sistemli aparıldığı əsaslandırılır. Bir neçə mərhələyə bölünən həmin prosesdə imperialist dairələrin öncə ermənilərin təşkilatlanmamış fəaliyyətini təşkil etmələrinin, sonra isə onları terror təşkilatlarında birləşdirərək daha mütəşəkkil halda vəhşiliklər törətmələri üçün geniş imkanlar yaratmalarının "geosiyasi, siyasi və demoqrafik antidövləti anatomiyası" araşdırılır.

Qeyd edilənlər fonunda XX əsrin əvvəllərində Qərbi Azərbaycan məsələsinin gündəmə gətirilməsinin özünəməxsus məqamlarına diqqət yetirilir. I fəslin yekunu kimi göstərilir ki, əsrlərlə davam edən qərəzli yanaşma sayəsində həm Qərbi Azərbaycanın ərazi kimi geosiyasi təqdimatı gerçəklikdən uzaq olmuş, həm də uzun müddət imperialist dairələr tərəfindən Qərbi Azərbaycan məsələsinin beynəlxalq miqyasda qəbulu əngəllənmişdir.

Sonrakı fəsillər bu təməl tezisin müxtəlif aspektlərdə təhlili və yekun izahları ilə xarakterizə olunur. II və III fəsillərdə problemin təhlili həm geosiyasi xarakteristikanın dərki, həm də proseslərin zaman xronologiyası aspektlərində mərhələlər üzrə aparılmışdır.

II fəsildə 1920-1953-cü illərdə Qərbi Azərbaycana ərazi kimi göstərilən ədalətsiz münasibət və bunun beynəlxalq aləm tərəfindən qətiyyən nəzərə alınmaması ilə yanaşı, həmin müddətdə SSRİ tərkibində Azərbaycana qarşı siyasi, ideoloji və demoqrafik aspektlərdə göstərilən çox qərəzli, amansız və təcavüzkar münasibət tədqiq edilmişdir. Bu çərçivədə 1920-1939-cu illər və 1948-1953-cü illər xüsusi mərhələlər kimi ayrılmışdır. Göstərilmişdir ki, hər iki mərhələdə SSRİ daxilində azərbaycanlılar Qərbi Azərbaycandakı (bu ərazi SSRİ tərkibində artıq "Ermənistan" adlandırılırdı və ümumiyyətlə, "Qərbi Azərbaycan" ifadəsi heç bir halda işlənmirdi) qədim yurdlarından deportasiya olunmuşlar.

Azərbaycandan 29 min kvadratkilometrdən çox ərazi iki mərhələdə qanunsuz alınaraq ermənilərə verilmişdir. 100 minlərlə azərbaycanlı Azərbaycan SSR-in müxtəlif yerlərinə deportasiya olunmuşdur. Nəticədə, Qərbi Azərbaycanda süni olaraq ermənilərin demoqrafik üstünlüyü təmin edilmişdir. Kitabda bütün bunlara öncə Millətlər Liqasının, sonra isə BMT-nin laqeyd münasibətinin geosiyasi qiymətləndirilməsi verilmişdir. Bu zaman ulu öndər Heydər Əliyevin həmin dövrdəki proseslərə verdiyi siyasi qiymət əsas götürülmüşdür.

Əsərin özəlliklərindən biri ondan ibarətdir ki, II fəsildə 1948-1953-cü illərdə Qərbi Azərbaycan və Qərbi azərbaycanlılar məsələsinə münasibətin geosiyasi konteksti xüsusi araşdırılır. Burada problem




"deportasiya" anlayışı və onun "geosiyasi dili"nin anlamı, mədəniyyət və mənəvi-psixoloji soyqırımının özəllikləri, kadr soyqırımının mahiyyətcə "yenilənməsi" prosesləri ilə qarşılıqlı əlaqədə nəzərdən keçirilmişdir.

Bununla II fəslin sonunda Moskvanın 1989-cu ildən etibarən getdikcə daha da genişlənən ayrı-seçkilik xətti kontekstində Qərbi Azərbaycan məsələsinə geosiyasi faktor və beynəlxalq münasibətlərin subyekti kimi baxmaq üçün məntiqi çıxış əldə edilmişdir. Burada konkret olaraq dağılmaqda olan SSRİ ilə yanaşı, demokratiya və liberalizmdən danışan Qərbin böyük dövlətlərinin Azərbaycana müstəqil dövlət, Qərbi Azərbaycana tarixi ərazimiz və Qərbi azərbaycanlılara təbii hüquqları kobud şəkildə pozulan qövm kimi qərəzli münasibətinin geosiyasi aspektinin təhlili üçün nəzəri-metodoloji baza yaradılmışdır. Bu, əsərin IV fəslində öz geosiyasi-nəzəri ifadəsini tapmışdır.

Bunun üçün Millətlər Liqası və BMT-nin qaçqınlar, deportasiya olunmuşlar haqqında qəbul etdikləri sənədlərə nəzər yetirilmişdir. Bu iki beynəlxalq təşkilatın qaçqınlarla bağlı qəbul etdikləri bir neçə sənəddə nə "Qərbi Azərbaycan", nə də "Qərbi azərbaycanlılar" ifadələrinə rast gəlinir. Əsərdə bu cür total laqeydliyin təsadüfi olmadığı, bunun həmin beynəlxalq təşkilatların qaçqınlar məsələsinə birtərəfli, qərəzli yanaşmalarının birbaşa nəticəsi olduğu əsaslandırılmışdır. Bədnam "907-ci düzəliş" də məhz bu cür yanaşmaların nəticəsi olmuşdur. Bununla əsərdə Qərbi Azərbaycanın geosiyasi məkan və Qərbi azərbaycanlıların tarixdə görünməmiş vəhşilik və amansızlıqla öz yurdlarından qovulmasının dünya miqyasında yenidən qiymətləndirilməsi zərurəti tam aydınlaşmışdır. Məsələnin IV fəsildə təqdim olunan kontekstdə qoyuluşu ulu öndər Heydər Əliyevin Qərbi Azərbaycan məsələsinin beynəlxalq miqyasda izahına məntiqi keçid üçün zəmin yaratmışdır. Əsərdə bu məqama xüsusi diqqət yetirilir və məhz bu, kitabın əsas ideya xəttini təşkil edir.

Heydər Əliyev tarixi faktlar, ədalətli yanaşmalar, Azərbaycanın müstəqil dövlətçiliyinin demokratiya və hüquqi çərçivədə inkişafı naminə Qərbi Azərbaycan məsələsinin beynəlxalq münasibətlər sistemində adekvat anlamı üçün sistemli fəaliyyət göstərmək zərurətini qətiyyətlə gündəmə gətirmişdir. Kitabda bu tezisin işığında Ümummilli liderin Qərbi Azərbaycanla bağlı fəaliyyəti elmi əsaslara uyğun təhlil edilmiş və bu qənaət ortaya qoyulmuşdur ki, Qərbi Azərbaycan məsələsinə Heydər Əliyev yanaşması tam obyektiv, ədalətli, hüquqi və sülhsevərdir. Həmin səbəbdən bu yanaşma bundan sonra da inkişaf etdirilməlidir. Bu kontekstdə VI fəsildə Böyük Qayıdışın tədqiq edilməsi tam məntiqi görünür. Çünki bu proses Heydər Əliyev yanaşmasının milli maraqlar müstəvisində reallaşmasının birbaşa təcəssümüdür. Fəsildə Azərbaycan dövlətçiliyinin yeni statusu 200 il davam edən və Azərbaycan cəmiyyəti tərəfindən qəbul edilməyən ədalətsizliyin nəticələri işıqlandırılmışdır. Bunlarla yanaşı, Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının məqsəd və prinsipləri tarixi və hüquqi aspektlərin sintezində təhlil edilmişdir.

VI fəslin yekun qənaətlərindən biri bütün bunların Azərbaycanı, faktiki olaraq, yeni dövlətçilik siyasəti səviyyəsinə yüksəltməsi həqiqətidir. VII fəsil Prezident İlham Əliyevin fəaliyyəti kontekstində vurğulanan yeni geosiyasi məqamların izahına həsr edilmişdir. Bu fəslin "Qərbi Azərbaycan Prezident İlham Əliyevin yeni tarixi mərhələdəki dövlətçilik siyasəti kontekstində" adlandırılması həmin yanaşma özəlliyindən qaynaqlanır.

Bu fəsildə Prezident İlham Əliyevin məqsədyönlü, müstəqil və milli maraqlara əsaslanan yanaşması sayəsində Qərbi Azərbaycan məsələsinin beynəlxalq etirafı, tarix, hüquq və ədalətin təntənəsi xüsusi araşdırılmışdır. Bunun fonunda isə Azərbaycan dövlətinin sülhsevər mahiyyəti məlum "5 əsas prinsip"in hüquqi və geosiyasi məzmunu kontekstində tədqiq edilmişdir. Fəsildə bu əsasda Qərbi Azərbaycan məsələsi ilə bağlı yeni reallığın formalaşdığı təsbit edilmişdir. Burada üç başlıca faktor işığında yekunlaşdırıcı qənaətlər əldə edilmişdir. Onlar qanunun aliliyi, dünya miqyasında insan hüquqlarının təmini və dövlətlərarası iddialardan sülh naminə imtina ilə bağlıdır.

Nəhayət, əsərdə vurğulanan bütün mühüm geosiyasi məqamlar prizmasından yekun fəslin "Qərbi Azərbaycan İcması: milli və beynəlxalq miqyasların vəhdəti" adlandırılması kitabın struktur və idraki-funksional özəlliyinə tam uyğundur. Çünki Qərbi Azərbaycanın həm ontoloji fakt kimi, həm də beynəlxalq münasibətlər sisteminin yeni elementi kimi tədqiqində Qərbi Azərbaycan İcmasının yeri və rolu xüsusi əhəmiyyət kəsb edir. Bütün bu kimi mühüm geosiyasi faktorların kontekstində əsərdə Qərbi Azərbaycan İcmasının beynəlxalq münasibətlərin subyekti olmaq istiqamətində həyata keçirdiyi sistemli və davamlı fəaliyyət, ölkə daxilində diplomatik korpusun iştirakı ilə keçirdiyi tədbirlər, xaricdə beynəlxalq təşkilatlardakı fəaliyyəti, parlament, media, elm və hüquq sahələrində atdığı sinxron addımlar mövcud imkanlar daxilində təhlil edilmişdir. Bu əsasda İcmanın fəaliyyətinin səmərəliliyi, onun perspektivləri haqqında dəqiq təsəvvürlər əldə etmək mümkün olmuşdur.

Əsərin "Nəticə" hissəsində hər bir fəsil üzrə gəlinən qənaətlər kitabın ümumi elmi məqsədi kontekstində vahid məntiqi müstəvidə ümumiləşdirilmişdir. Burada tədqiqatın ana xəttini Heydər Əliyevin Qərbi Azərbaycana verdiyi qiymət, Prezident İlham Əliyevin siyasi varislik prinsipi əsasında həmin yanaşmanı uğurla inkişaf etdirməsi təşkil etmişdir. Bu kontekstdə Qərbi Azərbaycan İcmasının fəaliyyətinə müxtəlif aspektlər üzrə yekun qiymət verilmişdir.

***Hikmət BABAOĞLU,***
***Milli Məclisin deputatı,***
***siyasi elmlər doktoru, professor***

# "İtkin düşmüşlər" problemi qloballaşır

## *Bakı konfransının bəyannaməsi BMT sənədi kimi yayılıb*

**İtkin düşmüş şəxslər məsələsi beynəlxalq hüquqda paradoksal mövqeyə malikdir. Problem silahlı münaqişələrin qaçılmaz nəticəsi kimi hər zaman mövcud olub. Beynəlxalq hüquq isə uzun müddət problemin sistemli həllinə yönəlmiş ayrıca mexanizm yaratmaqdan yayınmağa üstünlük verib. Azərbaycan sözügedən problemin həlli istiqamətində mühüm addımlar atır.**

Bu günlərdə Bakıda keçirilən "İtkin düşmüş şəxslər məsələsinin həlli üçün səylərin birləşdirilməsi və əməkdaşlığın gücləndirilməsi" mövzusunda beynəlxalq konfransda qəbul edilmiş bəyannamə BMT Baş Assambleyasının və Təhlükəsizlik Şurasının rəsmi sənədi kimi dərc olunub və yayılıb. Bəyannamənin rəsmi sənəd kimi dövriyyəyə buraxılması ilk baxışda texniki prosedur təsiri bağışlaya bilər. Lakin prosesin mahiyyətinə diqqətlə baxıldıqda addımın beynəlxalq sistemdə uzun müddət "kənar məsələ" kimi saxlanılan problemin siyasi-institusional çərçivəyə daxil edilməsi cəhdi olduğu aydın görünür. Əslində məsələ sadəcə itkin düşmüş şəxslər probleminin qabardılması ilə yekunlaşmır. Əsas məğz ondan ibarətdir ki, problem sistemli şəkildə qlobal təhlükəsizlik, postmünaqişə nizamlanması və beynəlxalq məsuliyyət mexanizmləri ilə eyni müstəvidə təqdim olunur. Cenevrə konvensiyaları mülki əhalinin və hərbi əsirlərin müdafiəsini normativ səviyyədə təmin etsə də, itkin düşmüş şəxslərin taleyinin aydınlaşdırılması məsələsi uzun müddət tövsiyə xarakterli sahədə saxlanılıb. Daha dəqiq desək, beynəlxalq sistem bu mövzunu hüquqi məcburiyyətə çevirməkdən çəkinib. Çünki belə olan halda, bir çox münaqişə zonalarında dövlətlərin və qeyri-dövlət aktorlarının keçmiş fəaliyyətinə yenidən baxılması zərurəti yarana bilərdi. Bu kontekstdə Bakı Bəyannaməsinin fərqi ondadır ki, sənəd itkin düşmüş şəxslər problemini humanitar çərçivədə dondurmaq əvəzinə, onu beynəlxalq məsuliyyət diskursuna daxil edir. Ən əsası, məsələ davamlı sülhün ön şərti kimi təqdim olunur. Burada diqqətçəkən əsas məqamlardan biri sözügedən təşəbbüsün müəllifidir. Azərbaycan problemi müzakirəyə çıxarıb universal kateqoriya kimi təqdim etməklə onu beynəlxalq sistemin struktur boşluqları ilə əlaqələndirdi.

İtkin düşmüş şəxslər məsələsinin beynəlxalq gündəlikdə real çəkisini anlamaq üçün onu müxtəlif regionlarda formalaşmış praktika ilə müqayisə etmək zəruridir. Çünki problem hər yerdə mövcud olsa da, beynəlxalq sistem ona eyni yanaşmanı sərgiləmir. Məhz bu fərqli yanaşmalar Bakı təşəbbüsünün niyə diqqət çəkdiyini və nə üçün BMT səviyyəsində sənədləşdirilməsinin sıradan hadisə olmadığını aydın göstərir. Məsələn, Balkan regionu itkin düşmüş şəxslər məsələsinin beynəlxalq hüquqa ilk dəfə nisbətən sistemli şəkildə daxil edildiyi coğrafiya kimi təqdim olunur. Xatırlatmaq yerinə düşər ki, Bosniya və Herseqovina, Xorvatiya və Kosovo münaqişələrindən sonra on minlərlə insanın taleyi naməlum qalmışdı. Beynəlxalq ictimaiyyət də nisbətən bu regionda aktiv görünürdü, tribunal mexanizmlər yaradılmış, xüsusi missiyalar göndərilmiş, hesabatlar hazırlanmışdı. Lakin əsas problem siyasi xarakter daşıyırdı. Balkan təcrübəsində itkin düşmüş şəxslər məsələsi daha çox cinayət məsuliyyəti və fərdi günah konsepti üzərindən qurulmuşdu. Bu, bir tərəfdən hüquqi presedentlər yaradırdısa, digər tərəfdən məsələni etnik və siyasi qarşıdurmaların davamına çevirirdi. Belə olan halda, dövlətlərarası etimad formalaşmır, proses uzun illər uzanır və tam bağlanmır. Latın Amerikası da itkin düşmüş şəxslər anlayışının insan hüquqları diskursuna daxil edildiyi əsas regionlardan biridir. Argentina, Çili, Peru və Qvatemala kimi ölkələrdə hərbi rejimlər dövründə on minlərlə insan yoxa çıxıb. Bu ölkələrdə demokratik keçid mərhələsində "həqiqət və barışıq komissiyaları" yaradıldı, arxivlər açıldı, müəyyən hüquqi mexanizmlər işə düşdü.

Yaxın Şərq regionuna gəldikdə isə bu coğrafiyada itkin düşmüş şəxslər problemi ən kəskin həddə müşahidə olunur. Suriya, İraq, Livan və Yəmən kimi ölkələrdə yüz minlərlə insanın taleyi hələ də naməlumdur. Beynəlxalq hesabatlar mövcuddur, lakin real mexanizmlər ya yoxdur, ya da siyasi bloklanmalar səbəbindən işləmir. Afrika qitəsində də uzunmüddətli silahlı münaqişələr, dövlət çevrilişləri və daxili qarşıdurmalar nəticəsində itkin düşmüş şəxslər problemi geniş yayılıb. Ruanda, Sudan, Efiopiya və Konqo kimi ölkələrdə bu məsələ kütləvi xarakter daşıyır. Burada beynəlxalq sistem əsasən humanitar yardım və fövqəladə reaksiya ilə kifayətlənir.

İtkin düşmüş şəxslər məsələsinin kütləvi məzarlıqlar faktoru ilə birləşdiyi məqam isə beynəlxalq sistem üçün həssas zonanı təşkil edir. Çünki kütləvi məzarlıqlar konkret cinayət əməllərinin, sistemli zorakılığın və beynəlxalq humanitar hüququn pozulmasının fiziki izləridir. Azərbaycanda da problem özünü büruzə verir. İkinci Qarabağ müharibəsi nəticəsində işğaldan azad edilmiş ərazilərdə bu günədək itkin düşmüş şəxslərin dəfn olunduğu ehtimal edilən 28 kütləvi məzarlığın tapılması bunun əyani sübutudur. Həmin məzarlıqdan bütövlükdə 218 şəxsə aid meyit qalıqları aşkarlanaraq eksqumasiya edilib. Aparılan anatomik və molekulyar-genetik ekspertizaları nəticəsində onlardan 60 nəfərinin şəxsiyyəti müəyyənləşdirilərək ailələrinə təhvil verilib. Bütün bu reallıqlar fonunda söyləmək olar ki, əgər bu xətt davam etdirilərsə, Bakı təşəbbüsü gələcəkdə itkin düşmüş şəxslər və kütləvi məzarlıqlar üzrə beynəlxalq mexanizmlərin formalaşmasında əsas istinad nöqtələrindən birinə çevrilə bilər.



***Nəzrin ELDARQIZI***
***XQ***

### *Ekspert rəyi*



**Əmir ƏLİYEV,**
**İnsan Hüquqlarının Təşviqi Mərkəzi İctimai Birliyinin sədri**

BMT sistemində hər hansı bir sənədin rəsmi status alması onu beynəlxalq hüquqi-siyasi gündəliyə daxil edir və gələcək müzakirələr üçün istinad mənbəyinə çevirir. İtkin düşmüş şəxslər problemi artıq beynəlxalq humanitar hüququn icrası, münaqişəsonrası ədalət və barış mexanizmlərinin səmərəliliyi ilə birbaşa bağlıdır. Problemin münaqişə tərəfləri, digər dövlətlərlə birgə müzakirəsi dövlətin sülh imicini göstərir və beynəlxalq hüquqa sadiqliyini təsdiqləyir. İkincisi, sənədin məhz Bakı konfransının nəticəsi kimi yayılması Azərbaycanın normativ gündəm formalaşdıran aktora çevrildiyini göstərir. Diplomatik baxımdan bu, mühüm incəlikdir: dövlət öz mövqeyini müdafiə etməklə kifayətlənmir, beynəlxalq müzakirənin çərçivəsini özü müəyyənləşdirir, aktual məsələlər irəli sürür. Bu zaman həlli vacib olan istiqamətlər müəyyən edilməklə, beynəlxalq hüquq yaradıcılığının da fəaliyyətə düşməsinə gətirib çıxarır. Üçüncüsü, BMT Baş Assambleyası və Təhlükəsizlik Şurası kanalları ilə yayım sənədə ikiqat siyasi çəki verir. Baş Assambleya universallıq, Təhlükəsizlik Şurası isə təhlükəsizlik və sabitlik prizmasını təmsil edir. Ona görə də itkin düşmüş şəxslər məsələsinin bu iki müstəvidə paralel şəkildə gündəmə gətirilməsi beynəlxalq təhlükəsizlik arxitekturasının elementi kimi təqdim edir. Nəzərə alsaq ki, BMT Nizamnaməsinin 1-ci maddəsində beynəlxalq sülh və təhlükəsizliyin təmin edilməsi ilə bərabər, insan hüquqları və əsas azadlıqların təmin edilməsi də əsas məqsədlərdəndir. İtkin düşmüş şəxslərlə əlaqədar məsələlər də bilavasitə hər iki problemin mərkəzində dayanır. Bu isə postmünaqişə dövrlərində uzunmüddətli sabitliyin insan talelərindən yan keçə bilməyəcəyini açıq mesaj kimi ortaya qoyur. Dördüncü və ən mühüm məqam odur ki, bu addım selektiv humanitar yanaşmalara qarşı institusional cavabdır. Beynəlxalq praktikada humanitar məsələlərin tez-tez siyasiləşdirildiyi bir şəraitdə, rəsmi BMT sənədi statusu mövzunu subyektiv interpretasiyalardan qoruyur.

Strateji baxımdan bu hadisə Azərbaycanın postmünaqişə dövrünün təkamül mərhələsini göstərir. Diqqət artıq hərbi-siyasi nəticələrdən humanitar ədalətin institusionallaşdırılmasına keçir ki, bu da beynəlxalq legitimliyin dərinləşməsi deməkdir. Ən əsas töhfələrdən biri ondan ibarətdir ki, itkin düşmüş şəxslər məsələsi artıq regional humanitar problem kimi deyil, beynəlxalq sülh, təhlükəsizlik və postmünaqişə ədaləti kontekstində qəbul olunur və göstərilir ki, dövlətlər, o cümlədən problem daim beynəlxalq təşkilatların diqqət mərkəzində olmalıdır. Sənəd həm də ölkəmizin BMT-nin üzvü kimi onun əsas prinsiplərinə tam sadiqliyini göstərir. Bütövlükdə, Azərbaycan Respublikası beynəlxalq-hüquqi öhdəliklərini vicdanla yerinə yetirir və hazırda da yetirməkdədir. Dövlətlər mübahisələrin dinc yolla həll edilməsi ilə bərabər, itkin düşmüş şəxslərlə əlaqədar məsələlərin də tezliklə həll edilməsinə çalışmalıdır. Bu isə həmin sahədə gələcəkdə beynəlxalq hüquqi sənədlərin qəbul edilməsi prosesini daha da sürətləndirə və möhkəmləndirə bilər.

*"Şəhərsalma və Memarlıq İli" – 2026*

# Xalqımızın şəhərsalma və memarlıq sahəsində tarixi təcrübəsi

**Azərbaycan şəhərlərinin siması dəyişir. Prezident İlham Əliyevin 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi ilə bağlı imzaladığı Sərəncam, bütövlükdə, cəmiyyət üçün yaşayış məkanlarına yanaşmanın fəlsəfəsini dəyişən strateji addım kimi qiymətləndirilir. Bu qərar ölkəmizdə şəhərlərin planlaşdırılmasında estetik, funksional və dayanıqlı inkişaf prinsiplərinin ön plana çəkildiyini göstərir.**



**Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin müavini İlqar İspatov** Prezidentin Sərəncamını mediaya şərh edərək, sənədin şəhər mühitinin keyfiyyətinin yüksəldilməsi, müasir memarlıq yanaşmalarının tətbiqi və insan mərkəzli urbanistika baxımından yeni imkanları açıqlayıb.

Sədr müavini qeyd edib ki, Prezident İlham Əliyev tərəfindən növbəti ilin "Şəhərsalma və Memarlıq İli" elan olunması çox əlamətdar hadisədir. 2026-cı ilin məhz bu deviz ilə əlamətdar olması şəhərsalma və memarlıq sahəsində qarşıdakı dövrdə baş verəcək bir sıra mühüm hadisələrlə bağlıdır:

– Artıq 13-cü Ümumdünya Şəhərsalma Forumunun Bakı şəhərində keçirilməsi barədə qərar qəbul edilmişdir. Bu, dünya miqyasında böyük əhəmiyyətə malik hadisədir və Bakı şəhəri həmin mötəbər tədbirə ev sahibliyi edəcək. İkinci vacib məsələ ondan ibarətdir ki, növbəti ildə işğaldan azad olunmuş ərazilərimizdə "Böyük Qayıdış" üzrə Birinci Dövlət Proqramının son mərhələsinə keçid olacaq.

Məlumdur ki, 2026-cı ildə Qarabağ bölgəsində bir sıra yaşayış məntəqələrinin, ictimai binaların və sosial obyektlərin tikintisinin başa çatdırılması və istifadəyə verilməsi nəzərdə tutulur. Bununla yanaşı, uzun illər məcburi köçkün həyatı yaşamış vətəndaşlarımızın doğma torpaqlarına qayıdışı davam etdiriləcək. Bu istiqamətdə şəhərsalma və memarlıq sahəsində də mühüm vəzifələr qarşıda durur.

İlqar İspatov daha sonra bildirib ki, əslində, bu sərəncamın dərin tarixi kökləri vardır:

– Azərbaycan tarixən şəhərsalma və memarlıq sahəsində dünyaya mühüm töhfələr verilib. Ölkəmizin ərazisində Ümumdünya İrs Siyahısına daxil edilmiş İçərişəhər, Qız qalası və Şirvanşahlar Saray Kompleksi kimi unikal abidələr mövcuddur. Şəki şəhəri də bu siyahıya daxil edilmək üzrədir.

2025-ci ildə görkəmli Azərbaycan memarı Əcəmi Naxçıvaninin UNESCO çərçivəsində 900 illiyi keçirilib. Bunlar onu göstərir ki, Azərbaycan qədimdən şəhərsalma və memarlıq sənətinin inkişaf etdiyi ərazilərdən biridir. Bu torpaqlarda müxtəlif dövrlərdə memarlıq məktəbləri formalaşmış və həmin ənənələr tarixin sonrakı mərhələlərində də uğurla davam etdirilmişdir.

**Sədr müavini onu da bildirib ki, ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə şəhərsalma və memarlıq sahəsində müasir dövrün tələblərinə uyğun əsaslı islahatlar aparılmış, şəhər və kəndlərimizin planlaşdırılmasında sistemli yanaşma formalaşdırılmışdır:**

– Bu işlərin davamlı və kompleks xarakter daşıması üçün mühüm institusional mexanizmlər yaradılmışdır. Hazırda möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə şəhərsalma sahəsində misilsiz nailiyyətlər əldə edilmişdir. Onun sözlərinə görə, şəhərlərimizin planlı inkişafı geniş vüsət almışdır. Bakı şəhəri və ölkənin digər iri şəhərləri üzrə Baş planlar hazırlanmış, Bakı şəhərinin Baş Planı isə 2023-cü ilin sonunda qəbul edilmişdir.

Həmin sənədlərə uyğun olaraq paytaxtda genişmiqyaslı işlər həyata keçirilir, yeni yaşayış məhəllələri salınır, sənaye obyektləri inkişaf etdirilir, yol-nəqliyyat infrastrukturu yenilənir, ekoloji vəziyyətin yaxşılaşdırılması istiqamətində zəruri tədbirlər görülür. Son illərdə inşa edilmiş Heydər Əliyev Mərkəzi, Alov qüllələri, Ağ Şəhər yaşayış kompleksi və digər irimiqyaslı layihələr müasir şəhərsalma və memarlıq nümunələri kimi xüsusi əhəmiyyət daşıyır. Növbəti illərdə də ölkəmizdə bu sahənin inkişafına ciddi təkan veriləcək.

İlqar İspatov xüsusilə landşaft memarlığı sahəsində əldə olunmuş nailiyyətlərdən də söz açaraq bildirib ki, geniş əraziləri əhatə edən Dənizkənarı Milli Parkın yenidən qurulması, şəhər parklarının salınması şəhər mühitinin ekoloji sağlamlığının yaxşılaşdırılmasına, sakinlərin asudə vaxtlarının səmərəli təşkilinə mühüm töhfə vermişdir:

– Forum çərçivəsində urbanizasiyanın qlobal çağırışları, xüsusilə mənzil problemləri ilə bağlı məsələlərin müzakirəsi gözlənilir. Bir sıra inkişaf etməkdə olan ölkələrdə bu sahədə mövcud problemlər daha kəskin xarakter daşıyır. Azərbaycan isə bu istiqamətdə həm geniş təcrübəyə, həm də mühüm nailiyyətlərə malikdir. İşğaldan azad olunmuş ərazilərdə qısa müddət ərzində yüzlərlə yaşayış məntəqəsinin Baş planı hazırlanmış, 12 şəhər üzrə planlaşdırma sənədləri əsasında bərpa və yenidənqurma işlərinə başlanılmışdır.

Belə qısa zamanda görülmüş işlərin miqyası həqiqətən misilsizdir. Forum zamanı dünyanın müxtəlif ölkələrindən gəlmiş mütəxəssislərlə Azərbaycanın işğaldan azad olunmuş ərazilərdə qısa müddətdə əldə etdiyi unikal təcrübənin paylaşılması mühüm əhəmiyyət kəsb edəcək.

***Musa BAĞIRLI***
***XQ***

*"Ülke TV"nin baş redaktoru "Xalq qəzeti"ndə*

# Azərbaycan Türk dünyası üçün münbit investisiya məkanıdır

**İşğaldan azad edilmiş Qarabağı regional və beynəlxalq investorlar yeni iqtisadi fəallığın məkanı kimi dəyərləndirirlər. Bakıda keçirilən II Azərbaycan–Türkiyə İnvestisiya Forumunda səslənən fikirlər də göstərdi ki, iş adamları, şirkətlər kapitalın təhlükəsiz, dayanıqlı və uzunmüddətli gəlir gətirən istiqamətlərə yönəldilməsində maraqlıdırlar. Bu baxımdan xarici investorların Qarabağa yatırım qoyması daha çox biznes məntiqi və strateji hesablamalar üzərindən formalaşır.**



**"Ülke TV"nin baş redaktoru Həsən Öztürk** Azərbaycanın, xüsusilə də Qarabağ bölgəsinin investorlar üçün təqdim etdiyi imkanlara diqqət çəkərək, görülən işlərin artıq üst mərhələyə çatdığını bildirdi. Onun sözlərinə görə, Qarabağ üçün nəzərdə tutulan təşviq mexanizmləri Türkiyədən olan investorların bu ərazilərə marağını əhəmiyyətli dərəcədə artıracaq:

– Mən Qarabağda olmuşam və Ağdamdan Füzuliyə, Laçına qədər ərazilərdə aparılan sürətli infrastruktur quruculuğunu yerində müşahidə etmişəm. Burada ciddi yenidənqurma və transformasiya prosesi gedir. Əgər Qarabağda istehsal müəssisələrinin qurulması mövcud ardıcıllığı qoruyarsa yaxın gələcəkdə məhsulların bazarlara çatdırılması ilə bağlı logistika tezliyi sürətlənəcək. Çünki avtomobil yolları artıq tamamlanmaq üzrədir.

**Baş redaktor forum çərçivəsində Qarabağa irihəcmli investisiyaların cəlb ediləcəyinə inamının artdığını bildirərək Zəngəzur dəhlizinin strateji rolunu da vurğuladı:**

– Çindən çıxan yüklərin müxtəlif marşrutlarla Avropaya daşındığını bilirik. Bu marşrutlar içərisində Zəngəzur üzərindən Türkiyə vasitəsilə Avropaya, hətta Londona qədər uzanan xətt ən vacib nəqliyyat oxlarından biridir. Bu oxun mərkəzində Azərbaycan dayanır. Xəzər keçidi və sonrakı mərhələdə həm Şərqə, həm də Qərbə yönələn hərəkətin mərkəz nöqtəsində yerləşən Azərbaycan strateji mövqeyinə görə Türkiyə ilə oxşar üstünlüklərə malikdir. Bu da investisiyanı cəlbetmə imkanlarını xeyli genişləndirir.

**H.Öztürk Ələt Azad İqtisadi Zonasının regional ticarət baxımından əhəmiyyətinə də toxundu:**

– Biz bu zonanı Türkiyə mediasında təqdim etmişik. Ələt zonası təkcə Şərq–Qərb deyil, həm də Şimal–Cənub ticarət marşrutlarının kəsişməsində yerləşən strateji məkandır. Buradan Rusiya, Çin, İran və bir çox istiqamətdə geniş ticarət imkanları formalaşıb. Bu ərazinin artıq əsas ticarət oxlarından biri kimi inşa edildiyini və investorlar üçün müxtəlif təşviqlərin mövcud olduğunu bilirik.

**Müsahibimiz sonda dedi ki, Forum Azərbaycan hökumətinin investorlar üçün yaratdığı imkanları daha yaxından tanımaq baxımından mühüm platforma oldu:**

– Burada yalnız Türkiyədən deyil, Qafqazdan və Türk dünyasından olan investorlar da iştirak edir. Onların gözləntiləri və tələbləri Azərbaycan tərəfi üçün daha aydın şəkildə ortaya çıxır. Türkiyə-Azərbaycan İş Adamları və Sənayeçiləri İctimai Birliyi və tərəfdaş qurum "AZPROMO" bu prosesdə çox mühüm iş görür. Məncə, bu 2 qurumun birgə fəaliyyəti Azərbaycan–Türkiyə iqtisadi əməkdaşlığının daha da dərinləşməsinə töhfə verir.

***Hazırladı:***
***Nurlan ABDALOV***
***XQ***

# Qardaş Türkiyənin Qarabağ və Şərqi Zəngəzurun bərpasına töhfəsi artır

**Hazırda ölkəmizin sosial-iqtisadi inkişaf strategiyasının əsas istiqamətlərindən biri də işğaldan azad olunmuş ərazilərdə bərpa-quruculuq işlərinin sürətləndirilməsi ilə bağlıdır. Bütün bu tədbirlər ölkə rəhbərliyinin xüsusi diqqət və qayğısı ilə həyata keçirilir. Təkcə onu qeyd etmək kifayətdir ki, Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş rayonlara hər səfəri çoxsaylı əhəmiyyətli layihələrin reallaşması və bu ərazilərdə yüksək inkişafın təməlinin qoyulması ilə əlamətdar olur.**



Artıq 5 ildir ki, tarixi Zəfərin sevincini yaşayan xalqımız 30 ilə yaxın erməni vandalizminə məruz qalmış torpaqlarımızda həyatın tədricən əvvəlki məcrasına qayıtmasına şahidlik edir. Bütün bu işlər ölkə əhalisi tərəfindən razılıqla qarşılanır, keçmiş məcburi köçkünlərin yurd intizarına son qoyulur. Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işləri Azərbaycan dövlətinin iqtisadi qüdrəti, daxili imkanları hesabına həyata keçirilsə də, bir sıra dost və qardaş ölkələr yenidənqurma tədbirlərinə öz töhfələrini verməyə çalışırlar.

Bu baxımdan xalqımız bərpa-quruculuq işlərinin ilk vaxtlarından etibarən Türkiyənin dost və qardaş köməyini hər an hiss edib. Dekabrın 23-də Bakıda keçirilmiş II Azərbaycan–Türkiyə İnvestisiya Forumunda da bu barədə ətraflı söhbət açılıb, xalqlarımız arasında əbədi dostluq və qardaşlığın tərənnümü olan "Bir millət, iki dövlət" deyiminin əməli nəticələri bir daha diqqətə çatdırılıb.

Bu ali köməyi, dost və qardaş yardımını qədirbilənliklə xatırladan Azərbaycanın Baş naziri Əli Əsədov bildirib ki, Türkiyə indiyədək ölkəmizin iqtisadiyyatına 18 milyard dollar sərmayə qoyub. Qardaş ölkənin 20-yə yaxın şirkəti işğaldan azad edilmiş ərazilərdə ümumi dəyəri, təqribən, 5 milyard dollar olan 50-yə yaxın layihə icra edir. Ölkəmizin xüsusi iqtisadi zonalarında biznesin həyata keçirilməsi üçün əlverişli şəraitin yaradıldığını vurğulayan hökumət başçısı Türkiyə şirkətlərinin bu məkanlarda uğurla fəaliyyətini yüksək qiymətləndirib. Qarabağ və Şərqi Zəngəzurda investisiya qoyuluşu üzrə əməkdaşlıq üçün yaxşı perspektivlərin mövcudluğunu vurğulayan Baş nazir Türkiyə şirkətlərini bu məsələdə daha fəal olmağa dəvət edib.

Forumda çıxış edən Türkiyənin ticarət naziri Ömər Bolat ölkələrimiz arasında uğurlu iqtisadi əməkdaşlığın mövcud vəziyyətinə toxunaraq bildirib ki, türk şirkətləri indiyədək Azərbaycanda, təxminən, 560 layihə icra edib. Həmin şirkətlərin işğaldan azad edilmiş ərazilərin yenidən qurulmasında mühüm rol oynadığını vurğulayan nazir bildirib ki, qəhrəman Azərbaycan Ordusunun uğurları və şəhidlərin fədakarlığı nəticəsində azad edilmiş Qarabağın yenidən qurulması prosesində Türkiyə şirkətləri 5 milyard dollardan artıq dəyərdə layihələrlə iştirak edib. Onun sözlərinə görə, hazırda Qarabağda sənaye və kənd təsərrüfatı sahələrində yeni investisiyalar hesabına bölgə iqtisadiyyatının canlandırılması istiqamətində Azərbaycan və Türkiyə hökumətləri arasında sıx əməkdaşlıq davam edir.

Yeri gəlmişkən, türkiyəli nazir Bakıda verdiyi müsahibəsində Qarabağ və Şərqi Zəngəzurun birgə istehsal və regional ixrac platformasına çevrilə biləcəyini vurğulayıb. Türkiyənin Azərbaycanla strateji tərəfdaşlıq münasibətləri çərçivəsində 44 günlük Vətən müharibəsindən sonra işğaldan azad edilmiş ərazilərin bərpası və iqtisadi inteqrasiyası prosesini yaxından izlədiyini və fəal şəkildə dəstəklədiyini bildirən Ömər Bolat ölkəsinin iş adamları ilə keçirdiyi bütün görüşlərdə onları Qarabağda yaradılmış sənaye zonalarına investisiya qoymağa təşviq etdiyini diqqətə çatdırıb.

Onun sözlərinə görə, Azərbaycan hökumətinin həmin bölgələr üçün formalaşdırdığı geniş və hərtərəfli investisiya təşviqləri Türkiyə investorları üçün cəlbedici mühit yaradıb. Nazir bildirib ki, Türkiyə podratçı şirkətləri tərəfindən Azərbaycanda icra olunmuş 21,1 milyard ABŞ dolları dəyərində layihələrin 4,8 milyard dolları məhz işğaldan azad edilmiş ərazilərin payına düşür. Bu göstərici türk şirkətlərinin Qarabağda fəaliyyətə olan marağının həm yüksək, həm də davamlı olduğunu aydın şəkildə ortaya qoyur.

Azərbaycanın işğaldan azad edilmiş əraziləri bərpaolunan enerji potensialı ilə zəngindir. Məhz bunu nəzərə alan prezident İlham Əliyev bu əraziləri "yaşıl enerji" zonası elan edib. Bu da qardaş ölkənin şirkətləri üçün yeni perspektivlər açır. Müsahibəsində bu vacib məqama toxunan türkiyəli nazir bu bölgələrdə nəzərdə tutulan su elektrik stansiyaları, günəş və külək enerjisi layihələrinin mühüm hissəsinin Türkiyə şirkətlərinin iştirakı ilə həyata keçiriləcəyini ümid etdiyini vurğulayıb.

İqtisadiyyat nazirinin müavini Səməd Bəşirli də Qarabağ, Şərqi Zəngəzur və Naxçıvanın "yaşıl enerji" potensialının reallaşdırılması üçün infrastrukturun yenilənməsi və yeni generasiya güclərinin qurulmasını əsas prioritetlərdən biri kimi dəyərləndirərək bu prosesdə Türkiyə biznesinin iştirakı xüsusilə diqqətəlayiq olduğunu vurğulayıb. O, Kəlbəcər və Laçın rayonlarında 4 kiçik su elektrik stansiyasının bərpası və uzunmüddətli istismarı üzrə layihənin icrasının həm enerji, həm də dayanıqlı inkişaf baxımından nümunəvi əməkdaşlıq modeli adlandırıb.

Nazir müavini azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda müxtəlif sahələr üzrə geniş əməkdaşlıq imkanlarının mövcudluğunu xatırladaraq bu ərazilərin birgə investisiya layihələrinin reallaşdırılması üçün böyük potensiala malik olduğunu deyib. Onun sözlərinə görə, bu ərazilərdə "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları əsasında müasir yaşayış məskənləri formalaşdırılır, regionlar "yaşıl enerji zona"ları elan edilib. Qeyd olunub ki, artıq fəaliyyətə başlamış Ağdam Sənaye Parkı və Araz Vadisi İqtisadi Zonası, yeni beynəlxalq hava limanları, sürətlə qurulan nəqliyyat infrastrukturu, eləcə də biznes üçün təqdim olunan güzəşt və təşviqlər bu ərazilərin investorlar üçün cəlbediciliyini artırır.

Yeri gəlmişkən, ötən ilin payızında Türkiyə kapitallı "Birlik Deri" MMC-yə İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan Ağdam Sənaye Parkının rezidenti statusu verilib. Yeni qeydiyyata alınmış türk şirkəti tərəfindən sənaye parkına 20,8 milyon manat investisiya yatırılacağı gözlənilir. Parkın ərazisində dəri və dəri məmulatların istehsalı layihəsini həyata keçirən şirkət layihə çərçivəsində 250-dən çox yeni iş yeri yaratmağı hədəfləyir.

Bununla yanaşı, Araz Vadisi İqtisadi Zonası Sənaye Parkında da Türkiyə ilə əlaqəli rezidentlər var. Belə ki, "Desen MM" MMC Türkiyənin qabaqcıl texnologiyalarından istifadə edərək burada boya fırçası və rulosu istehsalına başlayıb, bu da sözügedən sənaye parkında türk investisiyalarının və texnologiyalarının istifadə olunduğunu göstərir.

Forum çərçivəsində keçirilən panel müzakirəsində iştirak edən Türkiyənin kənd təsərrüfatı və meşəçilik nazirinin müavini Abdulkadir Polat isə deyib ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən aqrar inkişaf layihələri Azərbaycan–Türkiyə əməkdaşlığı üçün yeni imkanlar yaradır və regional qida təhlükəsizliyinə mühüm töhfə vermək potensialına malikdir: "Azərbaycanın işğaldan azad edilmiş ərazilərində, xüsusilə Qarabağ və Şərqi Zəngəzurda yaradılan aqroparklar, müasir istehsal sahələri və logistika mərkəzləri təkcə ölkənin milli inkişafına deyil, eyni zamanda, regionun ərzaq təhlükəsizliyinə xidmət edəcək. Bu ərazilərdə formalaşdırılan aqrar infrastruktur Türkiyənin texnoloji, institusional və idarəetmə təcrübəsi ilə birləşdikdə hər iki ölkə üçün "qazan-qazan" prinsipi əsasında nümunəvi əməkdaşlıq modeli yarana bilər".

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Bərdə torpağı bar-bərəkət meydanıdır

**Bərdə rayonu regionun iqtisadi, sosial və ticarət mərkəzlərindəndir. İqtisadi-coğrafi yerləşməsi, əlverişli torpaq və iqlim şəraiti rayonda ticarətin, ələlxüsus da aqrar ticarətin inkişafına şərait yaratmışdır.**

Mal-qaranın dabaq xəstəliyinə yoluxmasının qarşısının alınması məqsədilə oktyabr ayının 21-dən etibarən respublikanın digər bölgələrində olduğu kimi, Bərdədə 20 hektardan artıq ərazidə yerləşən heyvan bazarının fəaliyyətinə qadağa qoyulmuşdu. Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) təklif etdiyi daha müasir standartlara cavab verən layihə



əsasında bazarda profilaktik tədbirlər həyata keçirilmişdir.

**Bazarın rəhbəri Zülfi Tağıyev** bildirdi ki, bazar artıq həftədə 3 gün AQTA-nın tələbləri əsasında fəaliyyətini bərpa edəcək. Ərazidə daxili yollar asfaltlanıb, mal-qaranın ekzogen təsirlərdən qorunması üçün talvarlar quraşdırılıb, yeni artezian quyusu istifadəyə verilib. Heyvanların yemlənməsi və sulanması üçün lazımi şərait yaradılıb. Sahəsi 700 kvadratmetr olan yeni yem anbarı qurulub. 2 baytar nəzarəti məntəqəsi yaradılıb. Heyvanların yalnız baytar nəzarətindən keçirildikdən sonra bazar ərazisinə girişinə icazə veriləcək. Bundan başqa, giriş və çıxışlarda dez-baryerlər (dezinfeksiya baryerləri) quraşdırılıb, sanitar-gigiyenik qaydalara əməl olunması üçün bütün lazımi tədbirlər görülüb. Müasir standartlara cavab verən yeni ofis binası tikilib. Ərazidə 2 mindən artıq müxtəlif növdən olan ağac tingləri əkilib və aqrotexniki qulluq göstərilib.

Hazırda Bərdə ilə yanaşı, Ağcabədi, Ağdam, Yevlax, İmişli, Tərtər, Zərdab, Goranboy, Qax, Balakən və başqa rayonlardan olan mikrosahibkar və fermerlər də bazarda öz məhsullarını rahatlıqla realizə edə bilirlər.

Rayonda əkinəyararlı torpaq sahəsi 55 min 101 hektar təşkil edir. Cari təsərrüfat ilində 13 min 72 hektar sahədə 6 min 920 hektar buğda, 6 min 152 hektar arpa əkilib-becərilib. Taxıl biçini optimal müddətdə və itkisiz başa çatıb. Rayon üzrə 55 min 220 ton (orta məhsuldarlıq 42,2 sentner olmaqla) məhsul əldə olunub. Rayon üzrə ən çox taxıl səpini Xanərəb kəndində, 800 hektar sahədə aparılıb və hər hektardan 45 sentner məhsul yığılıb. Rayonda toxumçuluqla məşğul olan fermerlər də yüksək məhsuldarlığa nail olublar.

Fermerlər əsasən yerli toxum sortlarından olan "Qırmızı gül", "Mətin", "Tunc", "Murov", "Fatimə" kimi məhsuldar buğda, "Qarabağ-22", "Qarabağ-33", "Günəş" arpa toxumları səpiblər. 2026-cı ildə isə proqnozlaşdırılan 12 min hektar əkin sahəsinin 11 min hektarında şumlama başa çatdırılıb, 10 min 952 hektarda səpin aparılıb.

Hazırda 30 min 936 ton xam pambıq yığılaraq tədarük məntəqələrinə təhvil verilib. Orta məhsuldarlıq 36,6 sentner təşkil edir.

***Vəli VƏLİYEV***
***XQ***

*Araşdırma*

# Azalan kərə yağı – qiymət artımının ağı...

*İstehsal 10,4, idxal 12,5 faiz azalsa da, qiymətlər 2,5 dəfə artıb*



**İqtisadiyyatın ən sadə və klassik qanunlarından biri tələb və qiymət arasındakı əks mütənasiblikdir. Yəni qiymət artdıqca, tələbin azalması qaçılmazdır. Lakin Azərbaycanda kərə yağı bazarında müşahidə edilən son proseslər bu klassik düsturun daha mürəkkəb və çoxşaxəli amillərlə pozulduğunu göstərir. Süni qiymət artımları, idxal və daxili istehsalda azalma, eyni zamanda, pərakəndə satış qiymətləri ilə idxal qiymətləri arasındakı kəskin fərq ciddi suallar doğurur.**

Dövlət Gömrük Komitəsinin məlumatına əsasən, hazırda ötən ilin müvafiq dövrü ilə müqayisədə kərə yağının idxalı 12,5 faiz azalıb. Bu azalma bir çoxu üçün ölkədə daxili istehsalın artımı ilə kompensasiya olunması anlamına gəlib. Əslində isə reallıq tam fərqlidir. Çünki bu dövrdə daxili istehsalda da 10,4 faiz azalma qeydə alınıb. Beləliklə, bazarda həm idxal, həm də yerli istehsal üzrə təkliflər belə demək olar ki, daralıb. Bununla da bazarda yaranan qıtlıq təhlükəsi nəticəsində qiymətlərin artması reallaşıb.

Xatırladaq ki, cari ilin 11 ayının nəticələrinə görə, Azərbaycana idxal edilən kərə yağının 1 kiloqram üzrə orta idxal qiyməti 11,76 manata yüksəlib. Halbuki 2024-cü ilin eyni dövründə bu göstərici 9,78 manat olub. Deməli, idxal qiyməti bir il ərzində 1,98 manat və ya 20,3 faiz çoxalıb. Ekspertlər tərəfindən isə belə bir şərait normal bazar şərtlərinə uyğunsuzluq kimi dəyərləndirilib, eyni zamanda, 20 faizlik maya dəyərinin pərakəndə satış qiymətlərində oxşar dinamika ilə əks olunduğu bildirilib.

Hazırda ticarət müəssisələrində kərə yağının kiloqramı 27-30 manat arasında dəyişir. Bu isə idxal qiyməti ilə satış qiyməti arasında, təxminən, 2,5 dəfəyə yaxın fərq deməkdir. Burada belə bir sual yaranır: 11,76 manata idxal edilən məhsul hansı iqtisadi əsaslarla 30 manata qədər bahalaşır?

**İqtisadçı-ekspert Qasım Aslanovun** fikrincə, kərə yağı bazarında formalaşan qiymət fərqi bir neçə əsas amillə izah olunur. Bu, ilk növbədə, aralıq vasitəçilərin çoxluğu ilə bağlıdır. Başqa sözlə, idxalçıdan istehlakçıya qədər uzanan zəncirdə topdansatışçılar, distribütorlar və pərakəndə şəbəkələr tərəfindən qiymətə ardıcıl əlavələr edilir. Rəqabət mühitinin zəifliyi də prosesə mənfi təsir göstərir. Belə ki, bazarda bir neçə iri idxalçı və şəbəkənin üstün mövqeyi qiymətlərin razılaşdırılmış şəkildə formalaşmasına şərait yaradır.




Burada nəzarət mexanizmlərinin yetərsizliyi də diqqət çəkir. Yəni qiymət formalaşmasının şəffaf olmaması və real maya dəyərinin ictimaiyyətə açıqlanmaması süni bahalaşmanı stimullaşdırır. Nəhayət, süni bahalaşmanı şərtləndirən məsələlərdən biri də psixoloji amildir. Belə ki, ərzaq məhsulları, xüsusən də kərə yağı kimi gündəlik istehlak mallarında qiymət artımı bəzi hallarda fürsətçiliyə yol açır.

Qiymət artımına gətirib çıxaran səbəblərdən biri də istehsalın azalmasıdır. İlk baxışda adi, qaydalara uyğun görünən yüksək qiymət istehsalçılar üçün stimullaşdırıcı rol oynamalıdır. Lakin kərə yağı sektorunda əks proses baş verir. Tələbin azalması ilə satış həcmləri aşağı düşür, bu isə istehsalçıların gəlirlərini azaldır. Nəticədə bəzi istehsalçılar tərəfindən istehsal məhdudlaşdırılır və ya bazardan çəkilmə başlanır. Beləliklə, bahalaşma istehlakçı ilə yanaşı, istehsalçıya da real fayda gətirmir. Ən böyük qazancı isə aralıq mərhələdə süni qiymət fərqləri hesabına formalaşan subyektlər əldə edir.

Kərə yağı əhalinin gündəlik istehlak səbətində mühüm yer tutan məhsullardan biridir. Onun qiymətinin kəskin artması aşağı və orta gəlirli ailələrin büdcəsinə mənfi təsir göstərir. Bu isə ümumi inflyasiya gözləntilərini artırır, ərzaq təhlükəsizliyi ilə bağlı narahatlıqları dərinləşdirir və müəyyən sosial narazılığa gətirib çıxarır.

Mövcud vəziyyət göstərir ki, kərə yağı bazarında qiymət formalaşması mexanizmləri yenidən nəzərdən keçirilməlidir. Şəffaflıq artırılmalı, rəqabət mühiti gücləndirilməli, əsas ərzaq məhsulları üzrə kredit fərqlərinə nəzarət mexanizmləri təkmilləşdirilməlidir. Əks halda, idxal və satış qiymətləri arasındakı uçurum daha da dərinləşə, eləcə də bazarda sağlam iqtisadi münasibətlərin bərpası çətinləşə bilər.

Beləliklə, sadə iqtisadi düstur dəyişmir, başqa sözlə, süni bahalaşma uzunmüddətli perspektivdə nə bazara, nə istehsalçıya, nə də istehlakçıya fayda gətirir. Bu reallığı vaxtında qəbul etmək və uyğun addımlar atmaq isə həm iqtisadi, həm də sosial baxımdan həyati əhəmiyyət daşıyır.

**İqtisadçı-ekspert Arif İmranovun** fikrincə, ticarət müəssisələrində kərə yağının sürətlə bahalaşması prosesini daha obyektiv qiymətləndirmək üçün Azərbaycanı region ölkələri ilə müqayisə etmək zəruridir. Çünki həm xammal bazası, həm istehlak vərdişləri, həm də idxaldan asılılıq baxımından oxşar xüsusiyyətlər mövcuddur. Məsələn, Türkiyədə daxili istehsalın qorunması və qiymət sabitliyi daim diqqətdə saxlanılır. Qardaş ölkədə kərə yağı istehsalı əsasən daxili südçülük sektoruna əsaslanır. Türkiyədə də yem xərclərinin artması fonunda kərə yağının maya dəyəri getdikcə yüksəlir. Lakin burada əsas fərq ondan ibarətdir ki, dövlət süd istehsalçılarını subsidiya və alış zəmanətləri ilə qoruyur, iri pərakəndə şəbəkələrdə ən yüksək həddə ticarət kredit forması tətbiq olunur. Bütün bunlarla bərabər, kənd təsərrüfatı kooperativləri vasitəsilə istehsalçı – istehlakçı zənciri qısaldılır. Nəticədə idxal və pərakəndə satış qiymətləri arasındakı fərq, adətən, 40–60 faizdən artıq olmur.

Gürcüstan da kərə yağı istehsalında idxaldan ciddi asılıdır. Lakin burada bazar daha açıq və rəqabətlidir. Kiçik və orta idxalçıların bazara rahat çıxışı qiymətlərin kəskin bahalaşmasının qarşısını alır. Statistik müşahidələr göstərir ki, qonşu ölkədə idxal və satış qiymətləri arasındakı fərq əsasən logistika, eləcə də vergi xərcləri ilə izah olunur. Digər tərəfdən, iri marketlərdə inhisarçılığa qarşı ciddi nəzarət tədbirləri həyata keçirilir. Bu səbəbdən idxal qiymətlərində artım olsa belə, bu çoxalma istehlakçıya mərhələli və nisbətən yumşaq şəkildə ötürülür. Qazaxıstanda isə bu sahədə strateji ərzaq yanaşmasına üstünlük verilir. Belə ki, kərə yağı strateji ərzaq məhsulları siyahısına daxildir. Dövlət bu məhsul üzrə qiymətlərin süni şişirdilməsi halında cərimə mexanizmləri tətbiq edir, idxal və daxili istehsal balansını qorumaq üçün mövsümi rüsum siyasəti diqqətdə saxlanılır. Beləliklə, Qazaxıstanda belə bir yanaşma qiymət dalğalanmalarını müəyyən qədər yumşaldır və istehlakçı gözləntilərini sabitləşdirir.

Region ölkələri ilə müqayisə göstərir ki, respublikamızda problemin kökü təkcə idxal qiymətlərinin artımında deyil. Kərə yağı bazarında qiymət fərqinin bu qədər dərinləşməsinin əsas səbəbləri istehsal zəncirinin qırılması, yəni südçülükdən hazır məhsula qədər vahid strategiyanın olmaması, kooperativ modelinin zəif inkişafı – kiçik istehsalçıların bazara birbaşa çıxa bilməməsi, şəffaf olmayan kredit siyasəti ilə bağlıdır. Bütün bunlarla yanaşı, psixoloji qiymət formalaşması – “bahalaşma dalğası”ndan istifadə edən fürsətçi yanaşmalar da mövcud vəziyyəti getdikcə ağırlaşdırır. Nəticədə qiymət artımı real iqtisadi səbəbləri üstələyir və süni xarakter alır.

***Vaqif BAYRAMOV***
***XQ***

### *Ekspert rəyi*



**Samir HEYDƏROV,**
**iqtisadçı-ekspert**

Kərə yağı kimi məhsullar rəsmi istehlak səbətində əsas paya malikdir. Bu məhsul üzrə kəskin bahalaşma ümumi ərzaq inflyasiyasını sürətləndirir, əhalinin real gəlirlərini azaldır, sosial bərabərsizliyi dərinləşdirir. Xüsusilə regionlarda yaşayan ailələr üçün kərə yağı alternativsiz məhsuldur və bu, qiymət artımının sosial təsirini daha da gücləndirir. Mövcud vəziyyətdən çıxış üçün bir neçə istiqamətdə paralel addımlar zəruridir. Bunun üçün, ilk növbədə, idxal – pərakəndə kredit monitorinqi keçirilməli, əsas ərzaq məhsulları üzrə qiymət zənciri mərhələli şəkildə izlənilməli, kooperativlərin stimullaşdırılması diqqətdə saxlanılmalıdır.

Yuxarıda sadalananlarla bərabər, süd istehsalçıları üçün birgə emal və satış imkanları yaradılmalı, rəqabət mühiti gücləndirilməli, yeni idxalçıların bazara çıxışı asanlaşdırılmalı, üstün mövqelər məhdudlaşdırılmalıdır. Qiymətlərin real maya strukturu barədə ictimaiyyətə açıq məlumatlar da təqdim olunmalıdır.

Beləliklə, region ölkələrinin təcrübəsi göstərir ki, kərə yağı bazarında qiymət sabitliyi mümkündür. Bunun üçün əsas şərt süni bahalaşmaya yol verməyən institusional mexanizmlərin qurulmasıdır. Azərbaycanda isə hazırkı vəziyyət sadə iqtisadi düsturun pozulduğunu göstərir: qiymət artır, tələb azalır, istehsal geriləyir, nəticədə bazar özü-özünü zəiflədir. Əgər bu tendensiya vaxtında, necə deyərlər, korrektə olunmasa, kərə yağı bazarında bugünkü problem sabah daha geniş ərzaq seqmentlərinə də sirayət edə bilər. Bu isə artıq təkcə iqtisadi deyil, sosial məsələdir.

*Sosial gündəm*

# Gərəkli peşə “qızıl əl” deməkdir

*Bu yöndə hazırlıq kurslarının önəmi yüksəlir*



**Peşə hazırlığı kursları sosial siyasətin daha bir gərəkli yönü, insanların həyat şərtlərini dəyişən, onları “işsizlik” deyilən arzuolunmaz durumdan çıxaran önəmli sosial sahədir. Xüsusilə gənclər, qadınlar və həssas sosial qruplar üçün həyatın yeni mərhələsinə keçid peşəkar formalaşma və əmək bazarında özünü təsdiqləmə imkanı yaradır.**

Peşə hazırlığı - işsiz şəxslərin və ya yeni peşə əldə etmək istəyənlərin əmək bazarına uyğun bilik və bacarıqlara yiyələnməsi üçün təşkil edilən təlim prosesidir. Bu proqramlar əsasən dövlət, özəl müəssisələr və digər təşkilatlar tərəfindən həyata keçirilir. İşsizlər və karyerasını dəyişmək istəyənlər üçün həm Dövlət Məşğulluq Agentliyinin Peşə Hazırlığı mərkəzlərində, həm də özəl tədris müəssisələrində kurslar fəaliyyət göstərir. Agentlik tərəfindən peşə hazırlığı kurslarının siyahısı ölkə iqtisadiyyatının inkişaf prioritetləri və əmək bazarının aktual tələbləri nəzərə alınmaqla hazırlanır. Kurslar müasir bilik və bacarıqlara yiyələnmək istəyən vətəndaşlara geniş peşə spektri üzrə seçim imkanı yaradır. Hazırda 175 peşə və ixtisas üzrə təlimlər həyata keçirilir.



**Dövlət Məşğulluq Agentliyinin Peşə Hazırlığı Departamentinin müdiri Namiq Məmmədov** qeyd etdi ki, peşə kursları bir neçə istiqamətdə təşkil olunur: kurs iştirakçılarına yeni peşə və bacarıqların aşılanması, əmək bazarında tələbat olan peşələr üzrə nəzəri və praktiki biliklərin verilməsi; rəqabətqabiliyyətliliyin artırılması, o cümlədən, şəxsin ixtisası üzrə bacarıqlarının təkmilləşdirilməsi və ya yeni ixtisas əldə etməklə işəgötürənlərin tələblərinə cavab verilməsinə şərait yaradılması; gənclər və sosial cəhətdən həssas qruplardan olan şəxslərin əmək bazarına daxil edilməsi; regionlarda peşəkar kadr potensialının formalaşdırılmasına töhfə verməklə iqtisadi aktivliyin artırılması.

Peşə hazırlığı kurslarını həm də insan kapitalına yönəlmiş investisiya kimi dəyərləndirmək olar. Qazanılan bilik və bacarıqlar iştirakçılara uzunmüddətli dövrdə əmək bazarında daha stabil mövqe tutmağa, hətta özəl sektor və sahibkarlıq sahəsində də fəaliyyətə başlamağa imkan verir. Bunu nəzərə alaraq, Dövlət Məşğulluq Agentliyi tərəfindən həyata keçirilən peşə kurslarının siyahısına yeni ixtisaslar daxil edilir, mövcud tədris proqramları yenilənir. Sosial tərəfdaşlarla əməkdaşlıq da bu prosesdə mühüm rol oynayır. Özəl sektor, işəgötürənlər, universitetlər və təlim müəssisələri ilə əməkdaşlıq çərçivəsində yeni peşələr üzrə praktiki bacarıqların inkişaf etdirilməsi üçün birgə proqramlar hazırlanır. Peşə hazırlığının təşkili zamanı 3 ildən artıq işləməyənlərə, peşəsi olmayanlara, sosial cəhətdən həssas qruplardan olan şəxslərə, şəhid və müharibə veteranlarının ailə üzvlərinə üstünlük verilir.

2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyasında vurğulanır ki, qloballaşma, yeni iş yerlərinin artması, müasir istehsal və idarəetmə texnologiyalarının tətbiqi, iş yerlərinin müasirləşdirilməsi yüksək səviyyəli kadrlara ehtiyacı artırır və təhsil, təlim və bacarıqların inkişafı sahəsində təkmilləşdirmələri zəruri edir.

Vətəndaşlar üçün müasir tələblərə uyğun peşə hazırlığı infrastrukturunun formalaşdırılması, bu sahədə xidmət keyfiyyətinin və bölgədə yaşayan müvafiq şəxslərə əlçatanlılığın artırılması məqsədilə peşə hazırlığı mərkəzləri şəbəkəsinin respublikamızın regionları üzrə genişləndirilməsi davam etdirilir. 2023-cü il avqustun 7-də Bərdədə Prezident İlham Əliyevin iştirakı ilə Qarabağ Regional Peşə Hazırlığı Mərkəzinin istifadəyə verilməsi də bu istiqamətdə atılmış növbəti addım oldu. Mərkəzdə işsiz və işaxtaran şəxslərin müasir əmək bazarının tələblərinə uyğun peşələr üzrə hazırlığının həyata keçirilməsi üçün lazımi maddi-texniki potensial yaradılıb. Burada 7 emalatxana, 8 sinif və instruksiya otağı, Peşəyönümlü və Karyera Planlaması Mərkəzi, inzibati və texniki otaqlar mövcuddur. 48 peşə istiqaməti, o cümlədən dərzi, dizayner, aşpaz, ofisiant, bərbər, vizajist, çilingər, dülgər, tornaçı, xarrat, mebel ustası, rəngsaz, qaynaqçı, santexnik və digər peşələr üzrə tədrisin aparılması üçün infrastruktur var. Mərkəzdə bir dəfəyə 300, ildə isə 1200 nəfərin hazırlıq keçməsi nəzərdə tutulub.

Onu da qeyd edək ki, hazırda Dövlət Məşğulluq Agentliyinin tabeliyində Bakı, Göyçay, Gəncə və Qarabağ Peşə Hazırlığı Mərkəzləri fəaliyyət göstərir. Müasir maddi-texniki potensiala malik həmin mərkəzlər peşə hazırlığı işinin təşkilində əhəmiyyətli rol oynayır. DOST Konsepsiyasına uyğun olaraq Qubada da Peşə Hazırlığı mərkəzi açılacaq. Qubada Regional Peşə Hazırlığı Mərkəzinin inşası işləri davam edir. Masallı, Sabirabad və Şəkidə də regional peşə hazırlığı mərkəzlərinin tikilməsi üçün layihələndirmə işləri aparılır.

“Böyük Qayıdışa dair I Dövlət Proqramı” çərçivəsində 2026-cı ildə Xankəndi, Laçın və Cəbrayıl Dövlət Peşə Təhsil mərkəzlərinin tikintisi nəzərdə tutulub. Şuşa Dövlət Peşə Təhsil Mərkəzi əsaslı təmir olunub. Kəlbəcər Dövlət Peşə Təhsil mərkəzinin isə tikintisi davam edir. Zəngilan, Qubadlı, Ağdam Dövlət Peşə Təhsil mərkəzlərinin layihələndirmə işləri aparılır.

Gələn il işsiz və işaxtaran şəxslərin peşə hazırlığı və əlavə təhsil imkanlarının genişləndirilməsi məqsədilə 17500-ə yaxın müdavimin bu prosesə cəlb olunması istiqamətində müvafiq işlərin həyata keçirilməsi nəzərdə tutulur. Əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev Milli Məclisin plenar iclasında “Dövlət sosial müdafiə fondunun 2026-cı il büdcəsi haqqında” və “İşsizlikdən sığorta fondunun 2026-cı il büdcəsi haqqında” qanun layihələrinin müzakirəsi zamanı bildirib ki, təlim prosesinin Dövlət Məşğulluq Agentliyinin tabeliyində fəaliyyət göstərən peşə hazırlığı mərkəzləri, eləcə də özəl tədris müəssisələri tərəfindən reallaşdırılması planlaşdırılır. Eyni zamanda, gələn ildə 100 yeni peşə və kvalifikasiya standartlarının hazırlanması və 135 peşə və kvalifikasiya standartlarının yenilənməsi həyata keçiriləcək. İşsiz və işaxtaran şəxslərin əmək bazarına daxil olmasını dəstəkləmək üçün işəgötürənlərlə əməkhaqqının birgə maliyyələşdirilməsi mexanizmi genişləndiriləcək. 2026-cı ildə bu istiqamətdə əmək bazarına mindən artıq iştirakçının cəlb olunması, işədüzəlmə prosesinin təşkili və əhalinin əmək bazarına inteqrasiyasının təmin edilməsi tədbirləri çərçivəsində ölkədə ümumilikdə 180 əmək yarmarkasının keçirilməsi nəzərdə tutulur.

***Mustafa KAMAL***
***XQ***

*Tarixdən gələn səslər*

# İrəvan və Naxçıvanın işğalına Avropa şahidliyi

*176 il əvvəlin "Danimarka Kral Sarayı və Dövlət Təqvimi" nədən xəbər verir?*



**Tarixin izləri, adətən, böyük müharibələrin gurultusunda, imperator fərmanlarının möhüründə, sərkərdələrin qanla yazılan zəfərlərində axtarılır. Biz də öyrəşmişik ki, taleyimizi müqavilələrin çoxsəhifəli maddələrində, diplomatik danışıqların pərdəarxasında, arxivlərin qalın dəftərlərində axtaraq. Bəzən tarix ən gözlənilməz yerdə – bir dövlətin sadə təqvimində, səssiz statistika sətrində heç kimin diqqət etmədiyi rəsmi qeyd şəklində qarşımıza çıxır.**

Bu baxımdan, 1849-cu ildə Kopenhagendə nəfis tərtibatla çap edilən, Danimarkanın rəsmi illiyi olan "Danimarka Kral Sarayı və Dövlət Təqvimi" vərəqlənərkən, sanki, Cənubi Qafqazdan gələn uzaq bir səs eşidilir: "İrəvan və Naxçıvan 1828 və Axaltsix 1829. Bir cümlə, iki tarix, üç toponim… Bu qısa sətir, əslində, Naxçıvanın beynəlxalq siyasi xəritədə rəsmiləşdiyi tarixi anı Avropanın bir dövlətinin dili ilə təsdiqləyir.

"Danimarka Kral Sarayı və Dövlət Təqvimi" 1734-2014-cü illər arasında ildə bir dəfə nəşr olunub, yəni 280 il davam edən ardıcıl illik nəşr ənənəsidir. İlk dövrlərdə daha çox saray və mərkəzi idarəetmə haqqında məlumatlar (dövlət orqanları, kral ordenləri, medallar, fəxri nişan sahiblərinin siyahıları və s.) versə də, zamanla bütün dövlət aparatını və bir sıra yarırəsmi qurumları, eləcə də Danimarkanın diplomatik münasibətləri (ölkənin diplomatik nümayəndəlikləri, xarici ölkələrin Danimarkadakı səfirlik və konsulluqları, beynəlxalq və transmilli təşkilatlarla bağlı əsas məlumatlar), habelə, xarici dövlətlər barədə əsas siyasi-statistik məlumatları özündə cəmləşdirən rəsmi istinad kitabına çevrilib.

Onun 1849-cu il buraxılışında Rusiya imperiyasının sahəsi və ərazisinin formalaşma mərhələləri sadalanarkən strateji Qafqaz nöqtələri xüsusi tarixlə vurğulanır: "Erivan og Nachitschewan 1828", "Achalzit 1829".

Bu, sadəcə, coğrafi adların sadalanması deyil. Bu, Danimarka dövlət təfəkküründə Rusiyanın Cənubi Qafqazda sərhədlərini nə vaxt və harada sabitləşdirdiyinin rəsmi xronoloji işarəsidir.

Məlumdur ki, 1828-ci il tarixli Türkmənçay müqaviləsi (3-cü və 4-cü maddələr) ilə İrəvan və Naxçıvan rəsmi şəkildə Rusiyaya verildi və sərhəd Araz çayı boyunca çəkildi.

1829-cu ildə imzalanan Ədirnə müqaviləsi isə Osmanlının Cənubi Qafqazdan geri çəkilməsini rəsmiləşdirdi. Osmanlı imperiyası Rusiyanın Gürcüstanı ilhaq etməsini (İmeretiya, Minqreliya və Quriya ilə birlikdə), Türkmənçay sülhü ilə Naxçıvan və İrəvanı özünə birləşdirməsini və Rusiyanın İranla əldə etdiyi yeni sərhədləri, faktiki olaraq, rəsmən tanıdı. Məhz bu səbəbdəndir ki, Danimarkanın rəsmi illiyində bu iki hadisə yan-yana və dəqiq tarixləri ilə birlikdə verilir: "İrəvan və Nachitschewan 1828 və Achalzit 1829". Bu, Rusiyanın Qafqaz sərhəd daşlarının qoyulduğu son iki həlledici mərhələ kimi təqdim olunur.

**Danimarka mətni bizə nə deyir? Bu qısa sətir üç mühüm ismarış verir:**

**1.** İrəvan və Naxçıvan "hadisə" kimi qeyd olunur. Danimarka üçün geosiyasi əhəmiyyət daşıyan bu bölgələr, sadəcə, adi şəhərlər deyil, Rusiya imperiyasının ərazi qazancı kimi tarixə düşən siyasi faktdır. Bu, onun regionda strateji əhəmiyyətinin dolayısı ilə etirafıdır;

**2.** Neytral şahidlik obyektiv faktları ortaya qoyur. Danimarka nə Rusiyanın müttəfiqi, nə Osmanlının düşməni, nə də Qacar–Rusiya qarşıdurmasının tərəfi idi. Buna görə də həmin qeyd təbliğat iddia deyil, neytral Avropa müşahidəsidir;

**3.** Bu sətir göstərir ki, XIX əsrin ortalarında Naxçıvan artıq Avropanın rəsmi dövlət statistikasında "Rusiya sərhədinin bir hissəsi" kimi oturuşmuşdu. Deməli, Avropa siyasi şüurunda Naxçıvan xüsusi əhəmiyyət kəsb edirdi.




**Toponimin dili:** "Nachitschewan" nə deməkdir?

Danimarka nəşrində işlənən "Nachitschewan" forması Naxçıvan adının XIX əsr Avropa transkripsiyasının klassik nümunəsidir. Eyni dövrdə almanca və fransızca mənbələrdə "Nachitschewan", "Nachichevan", sonralar isə "Nakhchivan" forması geniş yayılır. Bu, Naxçıvan toponiminin Avropa elmi və siyasi dilinə daxil olmasının canlı sübutudur.

**Bu bir cümlənin elmi dəyəri çoxqatlıdır:**

**1.** Beynəlxalq tanınma xətti İrəvan və Naxçıvanın 1828-ci ildə Rusiyaya keçməsi təkcə region dövlətlərinin deyil, Avropa dövlətlərinin rəsmi sənədlərində də fakt kimi çıxış edir.

**2.** Hüquqi statusun Avropa təsdiqi. Türkmənçay və Ədirnə müqavilələri yalnız Şərq diplomatiyasının sənədləri deyil, Avropada da "qəbul edilmiş reallıq" kimi statistika kitablarına düşür.

**3.** Bu, həm də Azərbaycan tarixşünaslığı üçün yeni mənbə tipi hesab edilə bilər. İrəvan və Naxçıvanın taleyi adətən Rusiya, İran, Osmanlı mənbələri ilə izah olunur. Halbuki Danimarka saray təqvimi kimi üçüncü tərəf Avropa dövlətinin rəsmi nəşri bu hadisəni kənardan, soyuq statistik dillə təsdiqləyir. Bu isə tarixə əlavə obyektivlik qatır.

Beləliklə, bir dövlət təqviminin sətri bizi üç yüz ilə yaxın zamanın dərinliklərinə aparır və göstərir ki, İrəvanın və Naxçıvanın hüquqi-siyasi taleyi təkcə Rusiya–İran–Osmanlı üçbucağında həll olunan lokal məsələ olmayıb. Bu taleyin Avropa paytaxtında, Danimarka Kral Sarayının rəsmi statistik yaddaşında əks olunması onu artıq beynəlxalq reallıq səviyyəsinə qaldırıb. Bir cümlə bizə sübut edir ki, İrəvan və Naxçıvan təkcə regional tarix obyekti deyil, həm də Avropa siyasi şüurunun xəritəsinə daxil olmuş qlobal faktordur.

Bircə sətirlik cümlə Azərbaycan tarixşünaslığı üçün yeni müstəvi açır: tarixi faktlar yalnız Şərq mənbələrinin işığında və ya Avropa dövlət arxivlərində deyil, sadə birillik təqvim kitabçalarında da axtarılmalıdır.

***Yunis XƏLİLOV,***
***Naxçıvan Dövlət Universitetinin ümumi hüquq kafedrasının müəllimi***

# AXC hökumətinin Bakıda ilk qərargahı

**Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində "Azərbaycan müstəqilliyinin başlandığı məkan – Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi" mövzusunda respublika elmi konfransı öz işinə başlayıb.**



Konfransı giriş nitqi ilə **muzeyin direktoru akademik Rafael Hüseynov** açaraq Azərbaycanın XX yüzildə iki dəfə istiqlala nail olduğunu, suveren dövlətini yaratmaq imkanını qazandığını bildirib. Qeyd edib ki, 1918-ci ilin 28 mayında Azərbaycan müstəqillik bayrağını ucaltdı. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin ömrü cəmi 23 ay oldu. 1991-ci ildə ölkəmiz 70 il həsrətini çəkdiyi istiqlalına yenidən qovuşdu və 34 il əvvəlin oktyabrından başlayan müstəqillik yolumuz bu günədək davam edir.

2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli"nə həsr olunduğunu söyləyən akademik Rafael Hüseynov Azərbaycanın üçrəngli bayrağının başımız üzərində ucalmasından, istiqlal yolunda xalqımızın apardığı mübarizələrdən bəhs edib. O, 1957-ci ildə SSRİ-nin ən güclü vaxtında Cahid Hilaloğlu və Çingiz Abdullayev adlı iki vətənpərvər soydaşımızın üçrəngli bayrağımızı Qız qalasının üzərində dalğalandırdığını söyləyərək, bu səbəbdən onların azadlıqlarını itirmələrindən və başlarına gələn bəlalardan danışıb. O, bildirib ki, müstəqilliyə gedən yol daim mübarizələrlə davam edib. Bayrağımız daha sonra 1989-cu ilin noyabrında Gəncədə qaldırılıb.

"Azərbaycanın böyük şansıdır ki, xalqımızın hadisələrə və cərəyan edən siyasi proseslərə müdrikcəsinə yanaşan ümummilli lider Heydər Əliyev kimi qüdrətli tarixi şəxsiyyəti var. Tarix XX əsrdə Azərbaycan xalqına Heydər Əliyevin timsalında dahi bir rəhbər və müdrik dövlət xadimini bəxş etdi. Ulu öndər siyasi uzaqgörənliyi ilə Azərbaycan xalqının dövlətçilik irsinin qorunub saxlanması, müstəqil dövlət ideyasının gerçəkləşməsi prosesində ölkəmizi çətin, mürəkkəb və çıxılmaz mərhələlərdən çıxara bildi, Azərbaycanı inamla irəliyə apardı, müstəqilliyi qoruyaraq inkişaf etdirdi", – deyə akademik Rafael Hüseynov əlavə edib.

Müstəqil dövlət olmağın ən ümdə şərtlərindən birinin müstəqil siyasət apara bilmək olduğunu vurğulayan akademik Rafael Hüseynov bu gün Ulu öndərin siyasi kursunun Prezident İlham Əliyev tərəfindən uğurla və qətiyyətlə davam etdirildiyini söyləyib. Bildirib ki, uzun illər işğal altında qalan torpaqlarımız Ali Baş Komandanın rəhbərliyi ilə azad edilib, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam bərpa olunub.

Natiq 2020-ci ilin 8 noyabrının – Zəfər Gününün Azərbaycan tarixinə ən parlaq və möhtəşəm qələbələrdən biri kimi yazıldığını deyərək qeyd edib ki, tarixi Qələbəmiz xalqımıza vüqar və qürur hissini qaytarıb, millətimizin adını bütün dünyada yüksəklərə ucaldıb. Ulu öndər Heydər Əliyevin ideyaları əsasında və Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində Azərbaycanın qlobal arenada mövqeyi daha da möhkəmlənib, eyni zamanda, ölkə başçımız beynəlxalq miqyasda dünya liderlərindən biri kimi qəbul olunur.

Akademik Rafael Hüseynov ümummilli lider Heydər Əliyevin Ədəbiyyat Muzeyinə hər zaman böyük rəğbət bəslədiyini və xüsusi diqqətlə yanaşdığını bildirib. O, ölkə Prezidenti İlham Əliyevin göstərişi ilə muzeyin əsaslı təmir edilərək yenidən qurulduğunu vurğulayıb.

Müstəqilliyimizə həsr olunan mərasimin Ədəbiyyat Muzeyində keçirilməsinin rəmzi məna daşıdığını söyləyən alim qeyd edib ki, 1918-ci ilin sentyabr ayında Bakı azad edildikdən və Milli hökumət Gəncədən Bakıya köçdükdən sonra AXC Nazirlər Kabineti "Metropol" adlanan indiki Milli Azərbaycan Ədəbiyyatı Muzeyində yerləşib. Hökumət üzvləri burada həm yaşayıb, həm də fəaliyyət göstəriblər. Ölkə həyatını nizamlayan ən vacib qərarlar məhz bu tarixi binada qəbul olunub.

Direktor muzeydə klassiklərimizin miniatürlü əlyazma divanlarının, Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin sədri Əlimərdan bəy Topçubaşovun məzar daşı kimi çoxsaylı qiymətli eksponatların qorunduğunu bildirib.

Çıxışının sonunda akademik Rafael Hüseynov Prezident İlham Əliyevi ad günü münasibətilə təbrik edib, Azərbaycan dövlətinin daha da möhkəmlənməsi və inkişaf etməsi, xalqımızın rifahının yüksəlməsi naminə dəyərli fəaliyyətində ona yeni böyük uğurlar arzulayıb. O, muzeyin kollektivi və konfrans iştirakçıları adından Prezident İlham Əliyevə ünvanlanmış təbrik məktubunun mətnini səsləndirib.

Respublika konfransının fəxri qonağı qismində dəvət olunmuş hüquq elmləri doktoru Simran Həsənov çıxış edərək tarixi dövrü təhlil edib.

Daha sonra muzeyin Məktəblərlə və ictimaiyyətlə iş şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Nəzmiyyə Yigitoğlu İstiqlaliyyət dövründə "Fövqəladə Təhqiqat Komissiyası və onun fəaliyyətində Məhəmməd xan Təkinskinin rolu" mövzusunda məruzə ilə çıxış edib.

Respublika elmi konfransı bölmə iclasları ilə işini davam etdirib.

***Qabil YUSİFOĞLU***
***XQ***

*Təqvim yada salır*

# Səma qəhrəmanı

*Təyyarə bələdçisi Hökumə Əliyevanın əbədiyyətə səfəri*



**Ötən il dekabrın 25-də AZAL-ın Bakı–Qroznı reysini yerinə yetirən "Embraer 190" tipli təyyarənin Qazaxıstanın Aktau şəhərində qəzaya uğraması xəbəri qısa zamanda bütün dünyaya yayıldı. Təyyarənin göyərtəsində olan 37 Azərbaycan vətəndaşından 23-ü həlak oldu, 14 nəfər isə sağ qaldı.**

Prezident İlham Əliyevin sərəncamı ilə qəza zamanı fədakarlıq göstərmiş ekipaj üzvlərindən iki pilot və bir təyyarə bələdçisi Azərbaycanın Milli Qəhrəmanı adına (ölümündən sonra) layiq görüldü, iki təyyarə bələdçisi isə "Rəşadət" ordeni ilə təltif olundu.

Təyyarə bələdçisi Hökumə Əliyeva son dəqiqələrə qədər sərnişinləri sakitləşdirməyə çalışsa da, onun "Hamı kəmərlərini bağlasın, hörmətli sərnişinlər, təlimata uyğun hərəkət edin. Hər şey yaxşı olacaq!" sözləri insanların yaddaşına əbədi həkk olundu.

Faciənin birinci ildönümündə müsahibimiz Milli Qəhrəmanın atası Cəlil Alıyevdir. Onunla söhbəti oxucularımıza təqdim edirik.

***– Cəlil müəllim, Hökuməsiz bir il ötdü. Bir ata kimi yaddaşınızda ötən günləri necə xatırlayırsınız?***

– Təbii ki, bu, çox ağır faciədir. Bu böyük itkini bütün xalqımız, dövlətimiz mənimlə birgə yaşadı. Hər kəsə təşəkkür edirəm. Xalqımızın başı sağ olsun. Mən qızımla fəxr edirəm. Onu çox sevirəm. Övlad itkisini heç bir valideynə arzulamıram. Bu barədə danışmaq da çox çətindir.

Hökumənin göstərdiyi cəsarət, səbir və möhkəm iradə təyyarədə olan insanlara yaşamaq gücü verdi. Saatlarla havada qalan təyyarədə onun ümid dolu sözləri böyükdən-kiçiyə hər kəsin yaddaşında dərin iz qoydu. Bir ata kimi qürurluyam ki, Hökumə milli aviasiya tariximizin ilk, Azərbaycanın isə üçüncü qadın Milli Qəhrəmanıdır.

Hökumə xidməti vəzifəsini xalqına sevgi ilə yerinə yetirdi. Təyyarə yerə yön aldıqca o, özünü yox, sərnişinləri düşündü, onların qayğısına qaldı. Hökumə Azərbaycan boyda məmləkətin qəhrəmanına çevrildi. O, bir evdən yox, eldən getdi.

Onun haqqında "Hökumə – kədərim mənim" adlı sənədli film çəkilib. Polşada Tələbə Xanımlar Birliyinin təşəbbüsü və Polşa Azərbaycanlıları Şurasının dəstəyi ilə adına təqaüd proqramı təsis edilib. Qazaxıstanda istehsal olunan hərbi təyinatlı zirehli ambulans maşınına da Hökumənin adı verilib.

Hökumə Kəlbəcərdə dünyaya göz açmışdı. 1993-cü ildə rayonumuzun ermənilər tərəfindən işğal olunması səbəbindən Bərdə rayonunun Qaradəmirçi kəndində müvəqqəti məskunlaşdıq. Üç il sonra, 1996-cı ildə Rusiyaya köçdük və bir müddət Volqoqrad vilayətində yaşadıq. Hökumə burada 6-cı sinfə qədər təhsil aldı. Daha sonra Gəncəyə köçdük və o, təhsilini burada davam etdirdi. Gəncə şəhərində V.Veysəlov adına 30 nömrəli tam orta məktəbi bitirdikdən sonra ali məktəbə qəbul imtahanında 612 bal toplayaraq Bakı Dövlət Universitetinin hüquq fakültəsinə daxil oldu.

***– Hökumə son uçuşunun olduğunu bilirdi. Bu ilin yanvarından eyni aviakompaniyada hüquqşünas kimi işləməyə başlamalı idi…***

– Elədir. Uşaqlıq yaşlarından hüquqşünas olacağını deyirdi. Rusiyada yaşadığımız dövrdə şahidi olduğu ədalətsizliklər bu qərarı verməsinə təsir etmişdi. Bakı Dövlət Universitetinin beynəlxalq hüquq fakültəsinə də məhz ona görə daxil olmuşdu ki, ölkəsini, Vətənini dünya qarşısında müdafiə etsin.

Universiteti bitirdikdən sonra Dövlət Sosial Müdafiə Fondunun Goranboy rayon şöbəsində hüquqşünas vəzifəsində çalışdı. Lakin arzusu o qədər güclü idi ki, orada işləyə-işləyə Azərbaycan Hava Yollarına imtahan verdi və uğur qazandı. 2016-cı ildən əvvəlcə tərcüməçi, daha sonra isə təyyarə bələdçisi kimi fəaliyyətə başladı.

Bu ilin yanvar ayından AZAL-da hüquqşünas kimi işə başlamalı idi, artıq işə qəbul olunmuşdu. Bakı–Qroznı reysi onun son uçuşu oldu…

***– Kəlbəcərdə ev almaq Hökumənin ən böyük arzusu olub. Amma qismət olmadı…***

– Bəli, bunu çox arzulayırdı. Həmişə deyirdi ki, sizə həm Kəlbəcərdə, həm də Bakıda ev alacağam. Bakıda ev alsa da, orada gözüdolusu yaşaya bilmədi. Kəlbəcərdə isə evi bizə dövlət başçımız verdi.

Hökumə Kəlbəcəri, demək olar ki, görməmişdi. Uşaq yaşlarında oradan köçmüşdük. Amma doğma torpaqla bağlı çox xəyallar qururdu.

Bu il avqustun 21-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər şəhərində birinci yaşayış kompleksində yaradılan şəraitlə tanış oldular, sakinlərlə görüşdülər və evlərin açarlarını təqdim etdilər. Ailəmiz də evlə təmin olundu. Mənə də çıxış üçün söz



verildi. Cənab Prezidentə və Mehriban xanıma təşəkkür edərək bildirdim ki, bu torpaqları bizə yenidən bəxş etdiniz. Bu hadisələrin qəhrəmanı Sizsiniz. Həmişə Sizin yanınızda durmalıyıq, bir olmalıyıq, yumruq kimi birləşməliyik və "Böyük Qayıdış"ı uğurla başa çatdırmalıyıq.

Fəxrlə qeyd etdim ki, qızım Hökumənin sözü olmasın, hər şey yaxşı olacaq. Kəlbəcərin ziyalılar, aşıqlar, şairlər diyarı olduğunu vurğuladım və kəlbəcərli şairimiz Sücaətin 32 il əvvəl yazdığı şeiri səsləndirdim:

**Sücaət, neyləyək, bəxt belə bəxtdir,**
**Darıxma, hər şeyi həll edən vaxtdır.**
**Bir gün gülə-gülə qayıdacaqdır,**
**Ağlaya-ağlaya köçən Kəlbəcər.**

***– Cəlil müəllim, Hökumənin ev-muzeyinin yaradılması, yəqin ki, ata kimi sizə təsəllidir…***

– Avqustun 8-də Hökumənin doğum günündə ev-muzeyinin açılışı oldu. Həmin gün mənim də ad günümdür. 60 yaşımı qızım olmadan tamamladım. Sonuncu dəfə iki il əvvəl Bakıda birlikdə ad günümüzü qeyd etmişdik...

Muzeydə Hökumənin uşaqlıqdan indiyədək bütün əşyaları və şəkilləri yer alıb. Muzeyin hər gün ziyarətçiləri olur. Məktəblərdən, ətraf rayonlardan, şəhid anaları, rəfiqələri dəfələrlə buraya gəliblər.

Heç bir təsəlli övladımızı geri qaytarmasa da, Hökumənin adının dünyada çəkilməsi, tanınması bizim üçün böyük qürurdur. Yayda mən, qardaşı Coşqun, həyat yoldaşı Etibar və pilot Aleksandrın anası Yelena Kolyaninova ilə birlikdə Aktau şəhərinə getdik. Bir anlıq elə təsəvvür etdim ki, Hökumə ilə görüşə gedirik, bizi orada qarşılayacaq. Hadisə yerinə çatanda ətrafa baxdım, gözlərim nəsə axtarırdı. Yalnız faciənin izlərini daşıyan səssiz boşluq gördüm.

Orada məzar daşına bənzər bir abidə vardı və mənə elə gəldi ki, o daşın bir küncündən Hökumə bizi izləyir. Sonradan bildik ki, Qazaxıstan dövləti həmin yerdə faciəni əbədiləşdirən böyük bir abidə ucaldacaq.

Hökumə həmişə deyirdi ki, vaxt gələcək, mənimlə fəxr edəcəksiniz. İnanıram ki, onun adı gələcək nəsillər üçün örnək olacaq. Bununla təsəlli tapıram. Bir də əminəm ki, cinayətkarlar cəzasız qalmayacaq. O günü səbirsizliklə gözləyirəm.

**Ruhun şad olsun, xalqın səmada tarix yazan qəhrəman qızı!**

***Müşfiq MİRZƏ***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 271 (30965) 25 dekabr 2025-ci il, cümə axşamı

## İDMAN

### Basketbol kubokuna start verildi

**Bakı İdman Sarayında Basketbol üzrə Azərbaycan Kubokunda yeni mövsümün püşkü atılıb.**



Ölkə kubokunda mübarizə aparacaq komandalar haqqında videoçarxın nümayişindən sonra püşkatma mərasimi keçirilib. Püşkün nəticəsinə əsasən, “Abşeron”, “Sabah”, “Ordu” və “Gəncə” komandaları mübarizəyə 1/4 finaldan başlayacaqlar.

1/8 finalda isə “Şəki” – “Sərhədçi”, “Neftçi” – “Lənkəran”, NTD – “Sumqayıt”, “Naxçıvan” - “Quba” komandaları, qarşılaşacaqlar.

Azərbaycan Basketbol Federasiyasından verilən məlumata görə, 1/8 final mərhələsinin oyunlarının 2026-cı il yanvarın 13–14-də keçirilməsi nəzərdə tutulub. 1/4 final matçları isə fevralın 18-22-də təşkil olunacaq.

### Qadın futbolçularımız məktəblilərlə görüşüblər

**Qadın futbolçulardan ibarət Azərbaycan millisinin üzvləri 189–190 saylı məktəbin şagirdləri ilə görüşüblər.**



AFFA-nın rəsmi saytına istinadən xəbər verilir ki, görüşə AFFA U-12 Liqasının və “Məktəbli qızlar” turnirinin iştirakçıları olan şagirdlər qatılıblar.

Tədbir zamanı xatirə fotoları çəkilib, məktəbə xatirə hədiyyələr təqdim olunub.

Görüşdə AFFA-nın Qadın Futbolu Departamentinin rəhbəri Zümrüd Ağayeva və qadınlardan ibarət milli komandanın baş məşqçisi Siyasət Əsgərov, eləcə də millinin futbolçuları Milana Rəhimova, Sara Səlimova və Mədinə Çuruqova iştirak ediblər.

Tədbir çərçivəsində şagirdlərlə söhbətlər olub, qadın futbolunun inkişafı və gələcək perspektivləri barədə fikir mübadiləsi aparılıb.

### UEFA “Atletik”i cərimələyib

**İspaniyanın “Atletik” klubu “Qarabağ”a qarşı keçirdiyi UEFA Çempionlar Liqasının əsas mərhələsinin oyununda azarkeşlərin yol verdikləri pozuntulara görə cərimələnib. Avropa futbol qurumu Bilbao komandasına 10 min avro cərimə tətbiq edib.**




Buna sözügedən qarşılaşmada azarkeşlərin UEFA İntizam Qaydalarının 16 (2) maddəsinə əməl etməməsi səbəb olub.

İspaniya təmsilçisi “İdman tədbirinə uyğun olmayan mesajın ötürülməsi” (xüsusilə siyasi, ideoloji, dini və ya təhqiredici məzmunlu jest, söz, obyekt və ya hansısa başqa vasitələrlə ötürülməsi) səbəbindən cəzalandırılıb.

Xatırladaq ki, sözügedən matç zamanı “Atletik” komandasının fanatları vaxtilə erməni separatçılarının Qarabağda yaratdıqları qondarma rejimin bayrağını qaldırmışdı. “Qarabağ” rəsmiləri isə həm oyundan əvvəl, həm də oyun zamanı şəhərdə baş verən təxribatlarla bağlı meydan sahiblərinə məlumat vermişdi.

Qeyd edək ki, “Atletik” – “Qarabağ” oyunu İspaniya klubunun 3:1 hesablı qələbəsi ilə başa çatıb.

*Qabil YUSİFOĞLU*
*XQ*

*Biz deməsək...*

# Heykəllərin dili olsa...

## *Baxımsızlıq, laqeydlik, yoxsa hörmətsizlik?*




**Bu gün şəhərimizin mərkəzində dahi şəxsiyyətlərimizin xatirəsini əbədiləşdirmək niyyəti ilə ucaldılmış, lakin zamanın tozu və laqeydliyin kölgəsi altında qalmış heykəllərə, baxımsız vəziyyətə düşmüş büstlərə nəzər saldıqca heyranlıq hissini dərin bir narahatlıq əvəz edir. Düşünürsən, sual edirsən ki, milli yaddaşımızın heykəlləşmiş nişanələrinə belə yanaşırıqmı?**




Redaksiyamıza daxil olan məktubda da məhz bu narahatlıq ifadə olunurdu. Oxucumuz yazırdı ki, illər əvvəl böyük ehtiramla qoyulan abidələr, memorial komplekslər bəzən baxımsız, səliqəsiz, insanı utandıracaq dərəcədə acınacaqlı duruma düşür. Bir zamanlar dəqiqliklə işlənmiş üz cizgiləri indi demək olar ki, tanınmır, baxışlar korşalıb, mimikalar itib. Bürünc və ya daş səthlər qaralıb. Qışın sərt şaxtasından və yağışlı günlərindən sonra heykəllərin üzərində su izləri, dərin çökəkliklər əmələ gəlib. Sanki heykəllərin üzünə zamanın hisi-pası həkk edilib, onlar isə bu yükü əzabla daşıyırlar. Ətrafa toz və tullantılar yığılıb. Postamentlə birləşən hissələrdə qopmalar, kənarlarda sınıqlar var. Yazılar silinib, hərflər ya yarımçıqdır, ya da ümumiyyətlə seçilmir. Quşlar, uçan həşəratlar da heykəlləri bulaşdırır. Həmin məktubun izi ilə paytaxtın küçə və meydanlarına üz tutduq.




Düşündük ki, tariximizi özündə yaşadan abidələr millətin taleyində iz qoymuş şəxsiyyətlərin xatirəsinə ucaldılıb. Onların adlarını yüksək tribunlardan səsləndirir, yubileylərini qeyd edirik, amma gündəlik həyatımızda şəhərin mərkəzində yerləşən xatirələrinə sahib çıxmırıq. Abidələrin mühafizəsi və bərpası konkret qurumların vəzifəsidir. Lakin görünən odur ki, bu vəzifə ya kağız üzərində qalır, ya da ikinci dərəcəli məsələ kimi qəbul edilir. Nəticədə, şəhərin mərkəzində ucaldılan abidələr yaddaşı yaşatmaq əvəzinə, biganəliyin nümunəsinə çevrilir.

Mədəni irsimizə bu laqeyd münasibətə son qoymağın vaxtıdır. İctimai




düşüncə, yanaşma, həm də dəyərlərin təbliği sahəsində də dəyişikliklər edilməlidir. Bu vəzifəni yerinə yetirmək məsuliyyətində olanlar turistlərin və xarici qonaqların şəhərimiz haqqında təəssüratlarını da nəzərə almalıdırlar.

İstiqlaliyyət küçəsində, tarixi “İsmailiyyə” binasının hazırda isə AMEA Rəyasət heyəti yerləşən ünvanla yanaşı qoyulmuş akademik Yusif Məmmədəliyevin heykəli 1998-ci ildə ulu öndər Heydər Əliyevin Sərəncamı ilə ucaldılıb. Abidənin müəllifləri Xalq rəssamı, heykəltaraş Akif Əsgərov, Əməkdar memar Elxan Əsədov, Əməkdar incəsənət xadimi, rəssam Çingiz Fərzəliyevdir. 2011-ci ildə akademik Yusif Məmmədəliyevin heykəli təmir və yenidənqurma işləri ilə əlaqədar olaraq yerindən götürülüb. Aradan xeyli zaman keçib, bu gün də abidə baxımsız vəziyyətdədir.

Abidələri bir dəfə təmir etməklə iş bitmir. Onlar şəhər həyatının bir parçasıdır, zamanın, havanın, gündəlik hərəkətlərin təsirinə məruz qalırlar. Buna görə də şəhərimizi bəzəyən, tariximizdən söz açan daş abidələri qoruyub gələcək nəsillərə ötürmək hər kəsin vətəndaşlıq borcudur.

Bu ehtiram diqqət və əməllə reallaşmalıdır. Əks halda, gələcəyin boş divarlarında nə bir barelyef qalacaq, nə də kimliyimizi yaşadan izlər. Çünki unudulan dəyərlər unudulan tarix deməkdir.




Yazımızın əvvəlində söz açdığımız küçədən bir az irəlidə musiqi sənətimizin və milli operamızın banisi, ölməz əsərləri ilə mədəni tariximizdə silinməz iz qoyan dahi bəstəkar Üzeyir Hacıbəyli və taleyini əbədi olaraq teatra bağlayan aktrisa, səhnə fədaisi Mərziyyə Davudovanın xatirə lövhələrindəki yazıların rus dilində olması və Azərbaycan dilinin orfoqrafik normalarına uyğun gəlməyən hərflərlə hazırlanması da milli kimlik, dövlət dili və mədəni dəyərlər məsələsində ciddi narahatlıq doğurur. Dövlət dili və mədəni dəyərlərimizin qorunması baxımından, bu cür detalların diqqətə alınması vacibdir.

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, şair, dramaturq və filosof Hüseyn Cavidin, ictimai xadim Heydər Hüseynovun, dövlət xadimi Şəmsi Rəhimovun, general Akim Abbasovun xatirələrini əks etdirən lövhələrdə də oxşar vəziyyət müşahidə olunur. Fərq ondadır ki, bu lövhələrdə yazılar doğma dilimizdədir, lakin onlara münasibət heç də xalqımıza xas olan davranışları əks etdirmir. Bu səbəbdən aidiyyəti qurumlar ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirməli, hər bir abidə və lövhənin daşıdığı mənəvi yük qorunmalı və düzgün təqdim edilməlidir. Çünki dəyərlərə sahib çıxmaq onları yaşatmaqdır.

*Fidan ƏLİYEVA*
*XQ*

# Ankarada Üzeyir Hacıbəyli küçəsi

**Azərbaycan peşəkar musiqisinin banisi, Türk dünyasının korifey bəstəkarı, Şərqdə ilk operanın müəllifi Üzeyir Hacıbəyli qardaş Türkiyədə də ölkəmizdəki kimi sevilir, öyünclə anılır.**

Bu ehtiramın nəticəsidir ki, bəstəkarın 140 illik yubileyi şərəfinə Türkiyədə Azərbaycan Mədəniyyət Mərkəzinin Ankara Musiqi və Gözəl Sənətlər Universitetinin birgə təşəbbüsü ilə bu ali məktəbin daxili küçəsinə dahi bəstəkar Üzeyir Hacıbəylinin adı verilib. Dünən Ankara Musiqi və Gözəl Sənətlər Universitetinin ərazisində Üzeyir Hacıbəyli küçəsinin açılış mərasimi keçirilib. Mərasimdə bəstəkarın yaradıcılığına həsr olunmuş konsert proqramı təqdim edilib.

Bu addım həm Üzeyir Hacıbəyli irsinə göstərilən yüksək ehtiramın, həm də Azərbaycan–Türkiyə mədəni əlaqələrinin dərinliyinin bariz ifadəsi kimi dəyərləndirilir.

Xatırladaq ki, Üzeyir Hacıbəylinin çox-




şaxəli irsinin beynəlxalq müstəvidə daha geniş tanıdılması və təbliği məqsədilə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi xarici ölkələrdə fəaliyyət göstərən Azərbaycan Mədəniyyət mərkəzləri ilə birgə ardıcıl və sistemli layihələr həyata keçirir.

*XQ*

## HAVA

### Aranda yağış, dağlarda qar...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, səhər bəzi yerlərdə çiskinli, axşam isə arabir yağıntılı olacağı gözlənilir. Şimal-qərb küləyi gündüz arabir güclənəcək.**

Havanın temperaturu gecə 3-6, gündüz 6-9 dərəcə isti olacaq. Atmosfer təzyiqi 765 millimetr civə sütunundan 770 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət 70-80 faiz təşkil edəcək.



Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin səhər şərq rayonlarından başlayaraq bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq və dağətəyi rayonlarda qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensivləşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman müşahidə ediləcək, Qərb küləyi güclənəcək.

Havanın temperaturu gecə 0-5, gündüz 7-11 dərəcə isti, dağlarda gecə 2-7 dərəcə şaxta, gündüz 0-5 dərəcə isti olacaq.

*Q.ƏLİYEV*
*XQ*


# Ləğvetmə prosesində olan “Gözəllik” ASC səhmdarlarının nəzərinə!

30 yanvar 2026-cı il saat 14:00-da “Gözəllik” ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

**Ümumi yığıncağın gündəliyi:**

1. Cəmiyyətin ləğvetmə balansının təsdiq edilməsi
2. Cəmiyyətin qalıq əmlakının (pul vəsaitinin) səhmdarlar arasında bölünməsi planını əks etdirən hesabatın təsdiq olunması
3. Cəmiyyətə məxsus səhmlərin ləğv edilməsi və dövriyyədən çıxarılması
4. Digər məsələ.

Səhmdarlar gündəlikdəki məsələlərə aid sənədlərlə tanış olmaq üçün hər həftənin iş günləri saat 10.00-dan 13.00-dək cəmiyyətin ləğvetmə komissiyasına müraciət edə bilərlər.

**Əlaqə nömrəsi:** +99470-306-66-98.
**Ünvan:** Bakı şəhəri, Yasamal rayonu, M.Əliyev küçəsi 130.

*✓ 2013-cü il iyunun 27-də Bakı şəhəri Nizami rayon 214 nömrəli tam orta məktəbi tərəfindən Xəlilov Təhməz Elçin oğlunun adına verilmiş tam orta təhsil haqqında A-203501 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.*

*✓ 2009-cu il aprelin 7-də Beyləqan Rayon Hərbi Komissarlığı tərəfindən Məmmədov Mahir Mahal oğlunun adına verilmiş müharibə veteranının 078628 nömrəli vəsiqəsi itdiyi üçün etibarsız sayılır.*

**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycan Tibb Universitetinin onkologiya kafedrasının və Onkoloji klinikasının rəhbərliyi və kollektivi kafedranın assistenti Aytac İskəndərovaya atası

**TAHİR MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994 (51) 280-16-44

“Xalq” qəzeti redaksiyası” MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3596
SİFARİŞ 2333
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mehparə ƏLİYEVA
Çapa imzalanmışdır 00:00